İLHAM
ƏLİYEV

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

İLHAM
ƏLİYEV

# DOXSAN YEDDİNCİ KİTAB

## OKTYABR 2019 - NOYABR 2019

AZƏRNƏŞR
BAKI - 2019

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR

AZƏRNƏŞR
BAKI – 2019

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2019, 392 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxucular təqdim olunan «İnkişaf – məqsədimizdir» çoxcildliyinin bu cildində Respublika Prezidentinin yanında keçirilən iqtisadi müşavirədə geniş nitqi, öz ərizəsi ilə işdən azad olmaq istəyən bir neçə yüksək vəzifəli şəxslərlə və yeni vəzifələrə təyin olunan nazir və rayon icra hakimiyyətinin başçıları ilə görüşləri zamanı çıxışları yer almışdır.

Dövlət başçısı oktyabrın 23-də Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevi qəbul etmiş, xalq və dövlət qarşısında göstərdiyi xidmətlərə görə ona dövlətimizin ən ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif etmişdir. Bu cilddə görüş zamanı ölkə başçısının və akademikin çıxışları öz əksini tapmışdır.

Bundan başqa Prezidentin Bakıda keçirilən «Qoşulmama Hərəkatı»na üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşü və Dünya dini liderlərinin II Sammiti zamanı geniş nitqləri, bu münasibətlə ölkəmizə gələn dövlət və hökümət rəhbərləri ilə görüş və danışıqları da bu kitabda toplanmışdır. Ölkə başçısı hər iki beynəlxalq tədbirdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə ətfarlı məlumat evrmiş, uzun illərdir, Azərbaycanın terrorizmdən əziyyət çəkdiyini, işğalçı Ermənistanın Azərbaycana məxsus qədim dini və digər maddi mdəniyyət abidələrini yerlə yeksan etdiyini diqqətə çatdırmışdır.

Bu cilddə oxucular dövlət başçısının Qəbələ və Ağdaş rayonlarına səfəri zamanı bölgələrin sosial, iqtisadu, kənd təsərrüfatı və mədəni cəhətdən inkişafına yönəlik nitqləri, səfər etdiyi rayonlarda yolların, teatr və muzeylərin, parkların, sənaye müəssisələrinin açılışı və  ictimaiyyətin nümayəndələri ilə görüşləri və danışıqları ilə də tanış ola bilərlər.

**ISBN 978-9952-8100-7-3**

**Я** $\frac{\textbf{0801000000}}{\textbf{M – 651(07)– 2019}}$ **ББК - 32**

© Azərnəşr, 2019

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA KESİRİLMİŞ İQTİSADİ MÜŞAVİRƏDƏ İŞTİRAK

*15 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti yanında oktyabrın 15-də iqtisadi müşavirə keçirilmişdir.*
*Dövlət başçısı müşavirədə nitq söylədi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Doqquz ayın sosial-iqtisadi göstəriciləri müsbətdir. İqtisadi artım təmin olunub. Sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda iqtisadi artım 3 faizdən çoxdur. Bu onu göstərir ki, şaxələndirmə ilə bağlı tədbirlər öz nəticəsini verir. Əlbəttə, biz istərdik ki, artım daha da yüksək olsun. Hesab edirəm ki, buna nail olmaq üçün kifayət qədər imkan, potensial vardır. Sadəcə olaraq, biz bu potensialdan maksimum səmərə ilə istifadə etməliyik.

Yenə də qeyri-neft sənayesi sahəsində yüksək göstəricilər mövcuddur. Beləliklə, qeyri-neft sənayemiz 15 faizdən çox artıb. Bu onu göstərir ki, son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-

neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər.

Son illərdə kənd təsərrüfatına böyük investisiyalar qoyulubdur. Kənd təsərrüfatının inkişafı prioritet sahə kimi müəyyən edilibdir. Mən əvvəlki illərdə bir qədər təəccüblənirdim ki, nə üçün bu qədər investisiyaların müqabilində, bu qədər dəstəyin, subsidiyaların, güzəştli şərtlərlə verilmiş kreditlərin olduğu bir zamanda kənd təsərrüfatında artım 2-3 faizdir. Ancaq hazırda bu sahədə də ciddi irəliləyiş müşahidə olunur, kənd təsərrüfatı 9 ayda 7 faizdən çox artıbdır.

Digər iqtisadi göstəricilərimiz də çox müsbətdir. Bizim xarici dövlət borcumuz aşağı səviyyədədir – ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünya miqyasında 9-cu yerdəyik. Onu da bildirməliyəm ki, bizdən daha yaxşı nəticəsi olan ölkələrin bəziləri o ölkələrdir ki, onlara, ümumiyyətlə, xaricdən heç bir kredit verilmir. Ona görə də onların yüksək pillədə olması, əlbəttə ki, obyektiv mənzərəni əks etdirmir. Beləliklə, biz dünya miqyasında xarici borcun aşağı səviyyəsinə görə qabaqcıl yerdəyik. Bunu bir daha demək istəyirəm, mən hökumət qarşısında vəzifə qoymuşam ki, biz xarici dövlət borcumuzu ildən-ilə azaldaq və bu, gələn ilin büdcəsində də nəzərdə tutulur.

İnflyasiya çox aşağı səviyyədədir, 2 faizdən bir qədər çoxdur. Nəzərə almalıyıq ki, bu il çox ciddi və böyük sosial paket reallaşdı – 4 milyon 200 mindən çox insanın maddi vəziyyəti yaxşılaşdı, pensiyalar, əmək haqları, müavinətlər artırıldı. Yəni bu məqsədlər üçün milyardlarla manat vəsait xərcləndi və bu vəsait sosial

yönümlü istiqamətə nəzərdə tutulurdu. Buna baxmayaraq, inflyasiya çox aşağı səviyyədədir. Bu çox yaxşı göstəricidir. Əhalinin gəlirləri yenə də inflyasiyanı əhəmiyyətli dərəcədə üstələyir.

Minimum pensiyanın alıcılıq qabiliyyətinin səviyyəsinə görə Azərbaycan bu gün MDB məkanında birinci yerdədir. Orta aylıq pensiyanın həcminə görə isə üçüncü yerdədir. Əlbəttə, bu bizi qane edə bilməz. Ancaq mən müqayisə üçün bunu bildirməliyəm. Hər şey müqayisədə ölçülür. Gələcəkdə də minimum əməkhaqqının, minimum pensiyanın artırılması üçün bizdə iradə var və imkanlar buna uyğun olmalıdır. Buna nail olmaq üçün maliyyə və iqtisadi sahədə tam şəffaflıq təmin edilməlidir. Hazırda kifayət qədər ehtiyatımız var və hökumət qarşısında vəzifə qoyulub ki, biz bütün bu ehtiyatları aşkarlayaq, həm büdcə gəlirlərimizi artıraq, həm də büdcə xərclərimiz məqsədyönlü və şəffaf olmalıdır.

Bir neçə gün bundan əvvəl mənim sərəncamımla Əli Əsədov Baş Nazir vəzifəsinə təyin edilib. Əli Əsədov uzun illər mənim köməkçim kimi fəaliyyət göstərib. Əminəm ki, Baş Nazir kimi, o mənim tərəfimdən qarşıya qoyulan vəzifələri icra edəcək. Əsas vəzifə iqtisadi artımı daha da yüksək rəqəmlərə qaldırmaq və islahatları davam etdirməkdir.

Keçən il Prezident seçkilərindən sonra mənim andiçmə mərasimindəki çıxışımda, demək olar ki, bütün əsas istiqamətlər üzrə hədəflər müəyyənləşdirilibdir. O çıxış proqram xarakterli çıxış idi. O çıxışdan sonra biz əməli addımlara başladıq, islahatları dərinləşdirdik. Vergi

və gömrük sahələrində aparılan islahatlar, şəffaflıqla bağlı addımlar öz səmərəsini verməkdədir. Gömrük və vergi orqanları 9 ayda büdcəyə plandan əlavə, 700 milyon manatdan çox vəsait daxil edib. Bu bir daha göstərir ki, bizim nə qədər böyük ehtiyatlarımız vardır. Bu gün də hələ bir çox şirkətlər vergiləri tam ödəmir. Onların «qara» mühasibatlığı vardır. Bəzi şirkətlərdə işləyənlər orada qeydiyyata alınmır. Düzdür, son müddət ərzində on minlərlə iş yeri rəsmiləşdirilib və beləliklə, «qara» bölgədən «ağ» bölgəyə transfer olunubdur. Amma bu, kütləvi xarakter daşımalıdır. Bir çox özəl şirkətlər vergiləri hələ də tam həcmdə ödəmir və ikili mühasibat saxlayır.

Vergi orqanları, digər hüquq-mühafizə orqanları bu tipli sahibkarlara qarşı çox ciddi tədbirlər görməlidir. Həmin sahibkarlar da bilməlidir ki, vergiləri ödəmək onların borcudur. Onlardan heç bir başqa ödəniş tələb oluna bilməz. Mən bütün qurumlar qarşısında bu vəzifəni qoydum, maksimum şəffaflıq, dürüstlük olmalıdır, rüşvətxorluğa, korrupsiyaya son qoyulmalıdır. Ancaq sahibkarlar dövlət vergisini tam şəkildə ödəməlidirlər. Biz bu vergilər hesabına sosial layihələri icra edirik, köçkünləri yerləşdiririk, ordumuzu gücləndiririk. Ona görə də vergini ödəməyən cinayət məsuliyyətinə cəlb edilməlidir.

Bir çox hallarda eşidirik ki, bizdə standartlar, meyarlar Avropa standartlarına uyğun olmalıdır. Avropa ölkələrində vergisini ödəməyənə hansı cəza verilirsə, biz də onlardan nümunə götürməliyik. Vergidən

yayınmaq çox ciddi nəticələrə gətirib çıxarmalıdır. Mən bütün aidiyyəti qurumlara bir daha bu tapşırığı verirəm.

Bizim sosial siyasətimiz birmənalıdır. Dəfələrlə demişəm ki, siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Hesab edirəm ki, Azərbaycan sosial müdafiə sahəsində dünya miqyasında nümunəvi ölkədir. Həm minimum əməkhaqqı, pensiyalar artırılır, həm də özünüməşğulluq proqramı geniş vüsət alır. Bu il 10 mindən çox insan bu proqramla əhatə olunacaq. Ünvanlı sosial yardım alanların sayı artır. Mən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin qarşısında vəzifə qoydum ki, biz bu kateqoriyadan olan insanlara daha geniş həcmdə yardım göstərək. İndi hər bir ailə orta hesabla 200 manatdan çox yardım alır. O ailələrin sayı artmalıdır, qarşıya belə vəzifə qoyulubdur.

Əlbəttə, əsas vəzifəmiz iqtisadi inkişafı şərtləndirən islahatları dərinləşdirməkdir. Bütövlükdə Azərbaycanda iqtisadi sahədə islahatlar uğurla gedir. Beynəlxalq aparıcı maliyyə qurumları bu sahədəki fəaliyyətimizi yüksək qiymətləndirir. Mənim Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı, Beynəlxalq Valyuta Fondu və digər aparıcı beynəlxalq maliyyə qurumlarının rəhbərləri ilə çoxsaylı görüşlərim deməyə əsas verir ki, Azərbaycanda aparılan islahatlar yüksək qiymətləndirilir.

«Doing Business» hesabatında biz biznes mühitinə görə dünya miqyasında 25-ci yerdəyik. Son hesabatda Azərbaycan yenə də 20 ən islahatçı ölkə sırasında yer alıb. Bu yaxınlarda Davos Dünya İqtisadi Forumu yeni

hesabat dərc edib. Bu hesabat bir daha göstərir ki, Azərbaycanda aparılan islahatlar ardıcıl xarakter daşıyır. Hesabatdan bəzi məqamları Azərbaycan ictimaiyyətinin diqqətinə çatdırmaq istərdim. Burada rəqabətqabliyyətliliklə bağlı bir çox meyarlar mövcuddur – ictimai-siyasi vəziyyət, cinayətkarlığa qarşı mübarizə, iqtisadi və sosial islahatlar, infrastruktur və sair.

Mütəşəkkil cinayətkarlığa qarşı mübarizədə Azərbaycan dünyada 18-ci yerdədir. Deyə bilərəm ki, bu hesabat dünyanın 141 ölkəsi arasında keçirilmiş tədqiqatın nəticələri əsasında hazırlanıb və dərc edilibdir. Polis orqanlarına əhali tərəfindən inamın səviyyəsinə görə Azərbaycan 30-cu yerdədir. Mülkiyyət hüquqlarının qorunması sahəsində bizim yerimiz 37-cidir. Hökumətin, yəni dövlətin və rəhbərliyin uzunmüddətli strategiyasına görə Azərbaycan, fikir verin, dünya miqyasında 10-cu yerdədir. Bu onu göstərir ki, düşünülmüş uzunmüddətli siyasət Azərbaycanda ən yüksək səviyyədə həyata keçirilir. Rəhbərliyin dəyişikliklərə, yəni islahatlara meyillilik səviyyəsinə görə biz dünyada 5-ci yerdəyik. Nəqliyyat infrastrukturuna görə 31-ci, yol infrastrukturuna görə isə 27-ci yerdəyik. Biz keçən hesabatda 34-cü pillədə idik, indiki hesabatda isə 27-ci və MDB məkanında birinci yerdəyik. Dəmir yollarının səviyyəsinə görə 34-cü, nəqliyyat xidmətlərinin səmərəliliyinə görə isə 12-ci, elektrik enerjisinin əlçatanlıq əmsalına görə isə dünyada 2-ci yerdəyik.

Son illər bu qədər elektrik stansiyalarının, yarımstansiyaların, ötürücü xətlərin tikilməsi bizi dünya miqyasında ikinci yerə gətirib çıxardı. Fəal əhalinin rə-

qəmsal qabiliyyətinə görə 19-cu yerdəyik. Bu, xalqımızın istedadını və mütərəqqi meyillərə yaxın olduğunu göstərir. Biznesi başlamaq baxımından biz 8-ci yerdəyik və bu rəqəmlər, əlbəttə, həqiqəti əks etdirir. Çünki Davos Dünya İqtisadi Forumu dünyanın aparıcı beynəlxalq maliyyə qurumlarından biridir və çox mötəbər forumdur. Bildiyiniz kimi, Azərbaycan Prezidenti müntəzəm olaraq Forumun iclaslarında iştirak edir.

Bütün bunlar gördüyümüz işlərə verilən yüksək qiymətdir. Lakin ən böyüyü Azərbaycan xalqı tərəfindən verilən qiymətdir. Bu yaxınlarda aparılmış sorğuya əsasən, demək olar ki, əhalinin mütləq əksəriyyəti Azərbaycan rəhbərliyini, bizim apardığımız siyasəti birmənalı şəkildə dəstəkləyir. Əlbəttə, bu dəstək bizə güc verir, iradəmizi artırır və biz islahatlara daha da böyük həvəslə, daha da böyük imkanlarla meyil göstərir, bu islahatları aparırıq. Buna baxmayaraq, bir daha demək istəyirəm ki, istifadə olunmayan kifayət qədər ehtiyatmız var və biz bu ehtiyatları aşkar etməliyik. Elə etməliyik ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin. Əlbəttə ki, bu məqsədə nail olmaq üçün korrupsiyaya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalıdır. Hesab edirəm ki, hazırda bu mübarizə bizi tam qane edə bilməz. Çünki biz bilirik ki, korrupsiya halları geniş vüsət alıb, təkcə Azərbaycanda yox, bütün MDB məkanında. Yəni bu bizim keçmişdən qalan acı mirasımızdır. Ancaq biz xoşagəlməz hallara qarşı mübarizə aparmalıyıq və təkcə hüquq-mühafizə orqanları yox, bütün aidiyyəti qurumlar, o cümlədən vətəndaşlar da. Mən dəfələrlə demişəm ki,

ictimai nəzarət daha da güclü olmalıdır. Hər bir yerdə, hər bir bölgədə, Bakının hər bir yerində əgər hansısa qanunsuzluq baş verirsə, aidiyyəti orqanlar bunu aşkarlamalı və bu qanunsuzluğa yol açan vətəndaşları, insanları məsuliyyətə cəlb etməlidir. Vətəndaşlar da öz növbəsində, məlumat verməli, ictimai nəzarət baxımından daha da fəal olmalıdırlar ki, biz islahatlar aparaq və ölkəmizin qüdrətini daha da artıraq.

Hazırda gələn ilin büdcəsi hazırlanır və bilirsiniz ki, büdcə hər bir ölkənin əsas sənədlərindən biridir. Mən Əli Əsədovu Baş Nazir təyin edərkən onun qarşısında bir çox vəzifələr qoydum. Vəzifə qoydum ki, islahatlar aparılsın, o cümlədən də kadr islahatları. Müasir dünyagörüşlü, müasir iqtisadiyyatı bilən, savadlı gənc kadrlar işə cəlb edilməlidir. Biz XXI əsrdə yaşayırıq, köhnə təfəkkürlə, köhnə biliklərlə gələcəyə necə gedə bilərik?! Nə qədər biz təbii resurslara arxalanaraq, necə deyərlər, belə ətalət yolu ilə gedə bilərik?! Düzdür, islahatlar aparılır, dediyim rəqəmlər bunun əyani sübutudur. Hər bir ölkə bu nəticələrlə öyünə bilər. Ancaq biz bilirik ki, ehtiyatlarımız çoxdur. Onu da bilirik ki, əgər hər hansı dövlət və ya özəl quruma təmiz, bilikli və vətənə bağlı kadr gətirilirsə, biz orada dərhal dəyişiklikləri görürük. Hesab olunurdu ki, bizdə elə sahələr var ki, orada islahatlar aparıla bilməz. Onlardan biri də vergi sistemidir. Hesab olunurdu ki, necə deyərlər, o biabırçı vəziyyət əbədi qalmalıdır və burada heç bir irəliləyişə nail ola bilmərik. Amma hər kəs gördü ki, biz vəziyyəti islahatlar yolu ilə düzəldə bildik.

Büdcəyə 100 milyonlarla manat vəsait daxil olub, digər sahələrdə də həmçinin.

Sosial müdafiə sahəsində nə qədər pozuntular olub. Yeni nazir Sahil Babayev bunları üzə çıxartdı və çox ciddi islahatlar aparır. Onu da bildirməliyəm ki, bu gün iqtidarda olan bəziləri də islahatlara qarşı çıxış edirlər. Bu islahatlar onların şəxsi maraqlarına toxunur. Onlar hər vəchlə bizim işimizə əngəl törətmək istəyirlər. İslahatlara meyilli olan, yeni təfəkkürə malik kadrları qaralayırlar, o cümlədən mətbuatda. Mətbuat bir növ, daxili mübarizə növünə çevrilib. Bu dözülməzdir. Mən indi dərinə getmək istəmirəm. Amma bildirməliyəm: bu dözülməzdir, bir hökumətin bəzi üzvləri digər üzvləri tərəfindən şantaj edilir. Onlar ləkələnir. Prezidentin tapşırığı ilə onların apardığı islahatların üzərinə kölgə salınır. Dözülməz vəziyyətdir. Əgər kimsə hesab edir ki, biz bununla barışmalıyıq, səhv edir. Çünki islahatlara alternativ yoxdur. Kim bu yolun yolçusudursa, əlbəttə, işləyəcək. Amma kim buna qarşı çıxır və altdan-altdan bizim işimizə mane olmaq istəyir, əlbəttə ki, biz belə adamlarla bir yolun yolçusu ola bilmərik. Ona görə bir də demək istəyirəm ki, əhali də bilsin və hər kəs mənim sözümü eşitsin. Çox güclü siyasi iradə ortaya qoyulub. Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz.

Gələn ilin büdcəsi ilə əlaqədar tapşırıqlar verilib. Hökumət üzvləri artıq neçə vaxtdır ki, işləyirlər. Deməliyəm ki, gələn ilin büdcəsi həm sosial yönümlü,

həm də investisiya yönümlü olmalıdır. Biz gələn il də ciddi sosial proqramlar icra edəcəyik, əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün önəmli addımlar atılacaq, infrastruktur layihələrinin icrası ilə əlaqədar kifayət qədər vəsaitimiz olmalıdır. Gələn ilin xərclərinə biz çox böyük diqqətlə baxmalıyıq və burada şəffaflığı tam təmin etmək üçün hökumət gərək təkliflər versin. Tezliklə, ilin sonuna qədər bu təkliflərə baxılacaq. Beləliklə, əminəm ki, biz eyni həcmdə olan işi az vəsaitlə icra edə bilərik. Buna nail olmaq üçün ilk növbədə, şəffaflıq, dövlət nəzarəti və ictimai nəzarət olmalıdır. Bütün dövlət qurumlarına deyirəm, yoxsa onlar pis öyrəşiblər. Hər ilin sonunda büdcə müzakirə olunarkən, sifarişlər göndərirlər. Özü də orada şişirdilmiş, havadan götürülmüş rəqəmlər öz əksini tapır. Onlardan soruşanda ki, misal üçün, bənd tikmək, yol çəkmək, kabel çəkmək üçün bu qədər rəqəmi haradan götürürsən? Havadan. Sonra araşdırma aparılır, görünür ki, şişirdiblər. Nəyə görə şişirdiblər? Aydın məsələdir nəyə görə! Buna son qoyulmalıdır. Ona görə Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi – bunu təkcə onların boynuna atmaq olmaz – hökumət də nəzarətçi kimi, şişirdilmiş bütün o rəqəmləri təhlil etməli və real rəqəmləri müəyyənləşdirməlidir. O rəqəmləri verənlər gərək məsuliyyət daşısınlar. Əgər bu dəfə də bizim dövlət qurumlarımız, şirkətlərimiz yenə də şişirdilmiş rəqəmlər versələr, artıq özlərini ifşa etmiş olacaqlar. Hökumət, əlbəttə ki, onların bütün təkliflərinə baxacaq. Amma onlar əgər şişirdilmiş rəqəmlər versələr, öz cəzalarını alacaqlar. Ona görə zəhmət çəkib normal işləsinlər və

pis vərdişlərdən əl çəksinlər. Beləliklə, biz büdcəyə böyük qənaət edərik, maaşların, pensiyaların artırılmasına imkan yaradarıq və şəffaflığı təmin edə bilərik. Qarşıdakı həftələr ərzində gələn ilin büdcəsinin parametrləri ilə əlaqədar çox fəal iş aparılmalıdır. Bugünkü müşavirə, o cümlədən bu məsələyə həsr olunub. İstərdim ki, indi burada gələn ilin büdcəsi ilə əlaqədar fikirlər və təkliflər səsləndirilsin.

* * *

*Müzakirələrdə Birinci vitse-prezident Mehriban Əliyeva, Baş Nazir Əli Əsədov, Azərbaycan Prezidentinin İqtisadi Siyasət və Sənaye Məsələləri üzrə köməkçisi Natiq Əmirov, Maliyyə naziri Samir Şərifov, İqtisadiyyat naziri Şahin Mustafayev, Vergilər naziri Mikayıl Cabbarov, Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev, Mərkəzi Bankın İdarə Heyətinin sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun icraçı direktoru Şahmar Mövsümov çıxış etdilər.*

**Samir Şərifov** (*Maliyyə naziri*): Möhtərəm cənab Prezident, hörmətli müşavirə iştirakçıları! 2020-ci il üçün dövlət büdcəsinin layihəsi Azərbaycan Respublikasının «Büdcə sistemi haqqında» Qanununa uyğun olaraq hazırlanıb və büdcə hesablamaları aparılarkən 2019-cu ildə artıq tətbiq olunan büdcə qaydasına istinad olunubdur. Büdcə layihəsinin hazırlanması zamanı

Maliyyə Sabitliyi Şurasında bir neçə dəfə bu məsələyə baxılıb və Şuranın yekdil fikrinə görə büdcədə bir sıra əsas parametrlər üzrə razılıq əldə edilibdir. O cümlədən büdcəmiz üçün, büdcə daxilolmaları üçün mühüm əhəmiyyətə malik olan neftin qiyməti ilə bağlı xeyli müzakirələr aparılıb və neftin 55 dollar-barrel qiyməti üzərində dayanılıbdır. Bunun əsasında isə büdcə qaydasına uyğun olaraq, xalis maliyyə aktivlərinin dəyəri və eyni zamanda, icmal büdcənin yuxarı həddi müəyyən edilibdir. Maliyyə Sabitliyi Şurasında baxılan məsələlərdən biri də o idi ki, orta və uzunmüddətli dövr üçün büdcə qaydasında mövcud olan bəzi məqamlar bizim xərclərimizin ahəngdar həyata keçirilməsi üçün müəyyən çağırışlar yaradır. Şübhəsiz ki, biz bunları nəzərdən keçirməliyik. O cümlədən vacib məsələlərdən biri də inflyasiya səviyyəsinin tam nəzərə alınması və onun dövlət büdcə hesablamalarında əks etdirilməsidir.

Möhtərəm cənab Prezident, bildiyiniz kimi, büdcə qaydasına uyğun olaraq, növbəti ilin icmal büdcə xərcləri əvvəlki ilin xalis maliyyə aktivləri əsasında formalaşır. Eyni zamanda, burada digər vacib göstəricilərdən biri də ondan ibarətdir ki, növbəti ilin icmal büdcəsinin yuxarı xərcləri əvvəlki ilin icmal büdcəsinin yuxarı xərclərinin 103 faizindən yuxarı olmamalıdır. Hazırda təklif olunur ki, həmin göstəriciyə biz inflyasiya prizması baxımından yanaşaq və beləliklə, inflyasiya meyilləri nəzərə alınmalıdır, yəni real artımdan söhbət gedə bilər.

**İlham Əliyev:** Bəli, düzdür.

**Samir Şərifov:** Bununla əlaqədar İqtisadiyyat nazirliyi tərəfindən növbəti il və sonrakı 3 il üçün hazırlanmış sosial-iqtisadi proqnoz, makroiqtisadi proqnoz nəzərə alınıb, həmin proqnoza görə növbəti ildə 4,6 faiz inflyasiya səviyyəsi nəzərdə tutulubdur. Bu proqnoz nəzərə alınmaqla, biz icmal büdcənin yuxarı həddinə yenidən baxdıq və artıq müəyyən hədəf nəzərdə tutulur.

**İlham Əliyev:** Əvvəlki illərdə verilmiş proqnozlar sonradan özünü nə dərəcədə doğruldub? Yəni bunun təhlilini aparan bir qurum varmı? Sizin verdiyiniz proqnozlar özünü doğruldur, yoxsa yox?

**Şahin Mustafayev** (*İqtisadiyyat naziri*): Bəli, cənab Prezident, əsasən doğruldur.

**İlham Əliyev:** Əsasən neçə faiz özünü doğruldur? Siz gərək bunu dəqiq biləsiniz və kimsə bunun uçotunu aparmalıdır. Çünki hər il sizin verdiyiniz proqnozlar əsasında biz öz planlarımızı qururuq. Amma sonra həmin ilin yekunları müzakirə olunarkən verdiyiniz proqnoz kənarda qalır. Ona görə bilməliyik proqnoz nə qədər dəqiqliklə verilir ki, biz də ona uyğun olaraq öz planlarımızı quraq.

**Şahin Mustafayev:** Beynəlxalq praktikaya uyğun olaraq fərqlənir, yəni proqnozların tam dəqiqliyi təbii ki, təmin olunmur, müxtəlif təsirlər sonradan nəzərə alınır və hər 3 aydan bir proqnozlar dəqiqləşdirilməlidir. Məsələn, bu dəfə deyə bilərəm ki, Maliyyə Nazirliyi yeni büdcə tərtib edərkən biz proqnoza yenidən düzəliş etdik və bu gün artıq gələn il üçün proqnoz 3 faizdir.

**İlham Əliyev:** Artım?

**Şahin Mustafayev:** Bəli, 3 faiz görürük. Qeyri-neft sektoru üzrə 3,8 faiz proqnozlaşdırmışıq və bu, artıq Maliyyə Nazirliyinin investisiya ilə əlaqədar etdiyi düzəlişlərlə birbaşa bağlıdır. Yəni proqnoza müxtəlif amillər təsir edir.

**İlham Əliyev:** Əlbəttə, investisiya proqramı da burada önəmli rol oynayır.

**Şahin Mustafayev:** Bəli, bu birbaşa təsir edən amillərdən biridir və digər amillər də vardır. Biz 3 aydan bir düzəliş veririk.

**İlham Əliyev:** Amma biz çalışmalıyıq ki, iqtisadi artımımız dövlət xətti ilə aparılan xərclərə bağlı olmasın. Çünki bizim əsas iqtisadi artımımızın mənbəyi dövlət investisiya xərcləridir və açığını desək, qeyri-neft sektoruna xarici sərmayə az qoyulur. İndi rəqəmlər də bunu göstərir ki, bu il də qoyulan investisiyaların yarısı xarici investisiyalardır. Amma onların qoyulduğu sahə qeyri-neft sektoru deyil, neft-qaz əməliyyatlarıdır. Ona görə bizim əsas vəzifəmiz iqtisadi artımımızı birbaşa qeyri-neft sektorunun inkişafı ilə bağlamaqdır. Biz 1,4 milyard manat güzəştli şərtlərlə kreditlər vermişik. Kimsə hesablayıb ki, bu kreditlər ümumi daxili məhsula, qeyri-neft sektoruna aid olan hissəyə nə qədər təsir göstərir?

**Şahin Mustafayev:** Təbii ki, cənab Prezident, bütün hesablamalar aparılır.

**İlham Əliyev:** Onda nə üçün bizdə qeyri-neft sektorunda ümumi artım o qədər də böyük deyil? Güzəştlər veririk, subsidiyalar veririk, texnika alırıq, infrastruktur layihələri həyata keçiririk, dövlət investisiya xərcləri kifayət qədər yüksək səviyyədədir. Bütün bu

amillər özlüyündə iqtisadi artımı daha da böyük rəqəmlərə gətirib çıxarmalıdır. Amma biz bunu görmürük.

**Ş a h i n  M u s t a f a y e v:** Cənab Prezident, doğru olaraq qeyd edirsiniz ki, son 3 il ərzində qeyri-neft sektorunda artım ürəkaçan deyil. Bunun əsas səbəbləri kimi, mən maliyyələşmə ilə bağlı problemləri qeyd edərdim. Çünki Sahibkarlığın İnkişafı Fondu vasitəsilə bu ilin 9 ayında 130 milyon manat verilib, ilin sonuna qədər 170 milyon manat nəzərdə tutulub və icra olunacaqdır. Amma 130, ya 170 milyon manat sahibkarlığın maliyyələşdirilməsi üçün kifayət qədər vəsait deyil, çünki bank sektoru tərəfindən kifayət qədər maliyyələşmə həyata keçirilmir.

**İ l h a m  Ə l i y e v:** Düz deyirsiniz, bank sektoru bizdə iqtisadiyyatın artımına, iqtisadiyyatın real sektorunun artımına o qədər də kömək göstərmir və son illərdə yenə də istehlak kreditlərinin həcmi artır. Mən əvvəlki illərdə demişdim ki, bizim portfelimizdə istehlak kreditləri üstünlük təşkil edir və bank sektoru böhranının səbəblərindən biri də məhz o idi. İndi də mənə məlumat verilir ki, yenə də bu meyillər artır, iqtisadiyyatın real sektoruna yox, yenə də istehlaka, yəni istehlak mallarının alınmasına kreditlər verilir. Əgər bu davam edərsə, yenə də bir neçə ildən sonra xoşagəlməz problemlərlə üzləşə bilərik. Ona görə bütün bu məsələləri ümumiləşdirib, təhlil edib bir qərara gəlməlisiniz ki, bütün alətlər – bank sektoru, Sahibkarlığın İnkişafı Fondu, dövlət investisiya xərcləri bir məqsədi güdsün – məşğulluğun artırılması və qeyri-neft sektorunun artımı.

**Şahin Mustafayev:** Cənab Prezident, bu inflyasiyanın bizim büdcə qaydasında nəzərə alınması üçün Azərbaycan Respublikasının «Büdcə sistemi haqqında» Qanununda müvafiq dəyişiklik edilməsi nəzərdə tutulub. Yəni dəyişiklik ondan ibarətdir ki, inflyasiya nəzərə alınmalıdır.

**İlham Əliyev:** Bunu gərək əvvəlcədən edərdiniz.

**Şahin Mustafayev:** Birinci ildir, cənab Prezident. Ola bilsin, lazım idi ki, biz bunların hamısını sınayaq. Biz prinsipcə onun üzərində çalışırıq.

**İlham Əliyev:** Belə olan halda, artım daha da böyük olacaq. Neçə faiz?

**Şahin Mustafayev:** Belə olan halda, cənab Prezident, bizdə 28,1 milyard manat məbləğində icmal büdcənin yuxarı xərcləri formalaşıbdır. Dövlət büdcəsinin xərcləri müvafiq olaraq 25,6 milyard manatdır.

**İlham Əliyev:** Yəni bu ilin büdcəsindən neçə faiz artıb?

**Samir Şərifov:** İndi biz artırandan sonra icmal büdcənin xərcləri 29,5 milyarda çatır. 1,3 milyard əlavə xərclər yaranır. Nəzərdə tutulur ki, həmin xərclər əsasən dövlət əsaslı vəsait qoyuluşuna yönəldilsin.

*Maliyyə naziri Samir Şərifov bildirdi ki, cari ildə dövlət başçısının təşəbbüsü və tapşırıqlarına əsasən, bir çox sahələri əhatə edən sosial islahatlar həyata keçirilib və bu tədbirlər dövlət büdcəsi hesabına maliyyələşdirilibdir. Nəticədə büdcədə müəyyən struktur dəyişiklikləri baş verib və büdcənin cari xərcləri, yəni sosial yönümlü xərcləri 3,7 milyard manat artıb, investisiya dövlət əsaslı*

*vəsait qoyuluşu xərcləri isə azalıbdır. İnvestisiya xərclərinin ümumi daxili məhsulun iqtisadi artımına müsbət təsiri, eyni zamanda, ölkədə iqtisadi fəallığın təmin edilməsində əhəmiyyəti nəzərə alınaraq, onu əvvəlki səviyyələrə çatdırmaq üçün tədbirlər görülür.*

*Maliyyə naziri onu da vurğuladı ki, görülən tədbirlər nəticəsində əlavə 1,3 milyard manat vəsait yaradılıb, bu isə 7,7 faiz artım deməkdir. Neft gəlirlərinin hesabına maliyyələşən xərclərin ildən-ilə azaldılmasını təklif edən Samir Şərifov əlavə gəlirlər və əvvəlki illərdə toplanmamış vəsaitlər hesabına artan dövlət büdcəsinin maliyyələşdirilməsinin təmin olunacağını vurğuladı. Prezidentin sosial sahə ilə bağlı tapşırıqlarının dövlət büdcəsi layihəsində öz əksini tapdığını deyən Maliyyə naziri ölkədə iqtisadi sabitliyin təmin edilməsi üçün Mərkəzi Bankla çox sıx tədbirlərin əlaqələndirilməsinin əhəmiyyətini vurğuladı.*

*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Dövlət Sosial Müdafiə Fondunun büdcə gəlirlərinin optimallaşdırılması istiqamətində görülən işlərdən danışdı. Nazir fondun büdcəsinin 4 milyard 825 milyon manat məbləğində proqnozlaşdırıldığını, bunun cari ilə nisbətən 16,9 faiz çox olduğunu dedi, 697 milyon manat əlavə vəsaitin məhz əhalinin ödənişlərinə yönəldiləcəyini vurğuladı. Ümumi sosial sığorta yığımlarında 22,5 faiz artımın olduğunu bildirən nazir fondun gəlirlərində qeyri-büdcə təşkilatlarının payının artdığını və transfertin məbləğinin cari illə müqayisədə 81 milyon manat artacağını qeyd etdi.*

**S a h i l   B a b a y e v** (*Əmək və Əhalinin Sosial Müdafiəsi naziri*): Transfertin məbləği 2017-ci ildə Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin 39 faizini təşkil edirdisə, artıq 2018-ci ildə bu, 35,6 faizə düşüb, 2019-cu ildə 32,8 faizə, 2020-ci ildə isə 29,6 faizə düşəcək ki, bu da 2 il ərzində 8 faiz azalma deməkdir. Bu, Dövlət Sosial Müdafiə Fondunun dayanıqlılığı, onun maliyyə müstəqilliyinin təmin edilməsi baxımından çox önəmli amildir. Əhaliyə ödənişlər 4 milyard 684 milyon manat, yəni ümumi gəlirlərin 97,1 faizi məbləğində olacaqdır və bunlardan da əmək pensiyalarının ödənişi 4 milyard 570 milyon manat təşkil edəcəkdir. Ümumi artımın 16,6 faiz, yəni 651 milyon 700 min manat məbləğində olacağı gözlənilir. Bu 651 milyon 700 min manatın 475 milyon manatı Sizin təşəbbüsünüzlə həyata keçirilən əməkhaqqı artımları nəticəsində ölkədə orta əməkhaqqının artmasının nəticəsi olacaqdır. Beləliklə, indeksasiya nəticəsində gələn ildən etibarən ölkədə əmək pensiyaları bir daha artırılacaqdır və bu artımın nəticəsi olaraq, əlavə 475 milyon manat vəsaitin vətəndaşlarımıza ödənilməsi planlaşdırılır. Eyni zamanda, 114 milyon manat məcburi sosial sığorta haqları hesabına verilən müavinətlər qismində vətəndaşlarımıza ödəniləcəkdir.

*Nazir bildirdi ki, dövlət büdcəsinin öhdəlikləri bu il də balanslaşdırılmış büdcə modeli üzərində qurulduğundan transfertin həcmi ciddi şəkildə azalıb. Ötən il əhaliyə ödənişlər 1,1 milyard manat artdığı təqdirdə, transfertə cəmi 89 milyon manat ayrılıb. Bu da onu göstərir ki, 1 milyard manatdan artıq vəsait məhz Dövlət Sosial Müdafiə Fondunun gəlirlərinin artması hesabına*

*qarşılanıb və büdcə üçün əlavə bir yük yaratmayıbdır. Nazir qeyd etdi ki, hazırlanmış proqnozlar əsasında gələn il ölkədə əmək pensiyalarının orta aylıq məbləğinin 16 faiz artımı və orta aylıq pensiya məbləğinin 293 manata çatdırılması planlaşdırılır. Aparılmış optimallaşdırılma, eyni zamanda, əsassız əldə edilən pensiyaların ləğvi nəticəsində artıq cari ilin 9 ayı ərzində 99 milyon manata qənaət edilib ki, növbəti dövrlər ərzində də bu məbləğ daha da artacaq və əmək pensiyalarının davamlı şəkildə artımı təmin ediləcəkdir.*

*Sahil Babayev minimum əmək pensiyasının 200 manata çatdırıldığını, bununla da ölkəmizin MDB məkanında alıcılıq qabiliyyəti indeksi üzrə birinci yerdə olduğunu bildirdi. Qeyd etdi ki, orta aylıq pensiya alıcılıq qabiliyyətində də ölkəmiz MDB məkanında ilk ikilikdə qərarlaşa bilər.*

*Dövlət Sosial Müdafiə Fondunun xərclərinin strukturunun optimallaşdırılması üzrə görülən işlərdən danışan nazir bildirdi ki, İşsizlikdən Sığorta Fondunun gəlirləri çərçivəsində növbəti ildə 128,2 milyon manatlıq büdcə formalaşdırılıb. Burada artım 30 faizdən çoxdur. Bu məbləğin 111 milyon 900 min manatı məhz işsizlikdən sığorta haqlarının yığımlarına yönəldiləcək. Qeyri-büdcə təşkilatlarının sayı artıq 68 faizə çatıb ki, büdcə təşkilatlarından toplanan payın ümumi gəlirlərdəki payı daha da aşağı düşübdür. Eyni zamanda, cari ildən gözlənilən 16 milyon manatlıq qalıq vəsait növbəti ildə xüsusilə özünüməşğulluq proqramının maliyyələşdirilməsinə yönəldiləcəkdir.*

– Xərclərimiz 128 milyon 200 min manat məbləğində nəzərdə tutulur və bunun ana xəttini Sizin tapşırığınıza müvafiq olaraq, İşsizlikdən Sığorta Fondu hesabına maliyyələşdirilən özünüməşğulluq layihəsi təşkil edir, 63 milyon manat vəsait məhz özünüməşğulluq layihəsinə yönəldiləcəkdir. Gələn il ərzində sırf İşsizlikdən Sığorta Fondu hesabına 11 min ailənin özünüməşğulluq layihələrində iştirakının maliyyələşdirilməsi planlaşdırılır.

**İ l h a m  Ə l i y e v:** Dünya Bankı da bu layihəyə qoşulur. Onların da vəsaitini nəzərə alsaq, bu rəqəm daha da artacaqdır.

**S a h i l  B a b a y e v:** Bəli, cənab Prezident, Sizin tapşırığınızla Dünya Bankı ilə danışıqlar yekun mərhələdədir. Bu ilin sonunadək hökumətə kredit sazişi layihəsi təqdim olunacaq. Növbəti ildə Dünya Bank Şurasında onun təsdiqi nəzərdə tutulur. Dünya Bankının prosedurlarını nəzərə alsaq, real aktivlərin alınması mərhələsinə biz ilin sonunda çatacağıq. Ona görə də növbəti il Dünya Bankının payını 1000–2000 ailə olaraq qiymətləndiririk. Amma ondan sonrakı illər ərzində sabit olaraq, 5000 ailə Dünya Bankı tərəfindən maliyyələşdiriləcək. Eyni zamanda, bu xərclərin strukturunda məşğulluq layihələri üzrə müxtəlif aktiv məşğulluq tədbirlərinin təşkili nəzərdə tutulubdur. Cari ildə planımız 100 min nəfərin işə düzəldilməsi idisə, gələn il üçün bu rəqəm 130 minə çatdırılacaqdır. Haqqı ödənilən ictimai işlər proqramının davam etdirilməsi nəzərdə tutulubdur. Eyni zamanda, iri dövlət şirkətlərində yaradılan müvəqqəti ictimai işlər proqramı

da davam etdiriləcək. Dünya Bankı ilə yanaşı, BMT İnkişaf Proqramı ilə də özünüməşğulluq proqramı çərçivəsində işlərin davam etdirilməsi nəzərdə tutulur və əlavə 500 nəfər BMT İnkişaf Proqramının xətti ilə maliyyələşdiriləcəkdir.

**İlham Əliyev:** BMT İnkişaf Proqramının maliyyə təminatını biz öz üzərimizə götürmüşük, elədirmi?

**Sahil Babayev:** Bəli, cənab Prezident.

**İlham Əliyev:** Sadəcə, onlar məsləhətçi qismində çıxış edirlər.

**Sahil Babayev:** Bəli, layihənin icrasına nəzarəti təmin edirlər. Bizim üçün də çox gözəl təcrübədir ki, ən müsbət beynəlxalq təcrübəni gətirərək, bu layihəni müxtəlif rayonlarda icra edirlər. Biz də onların müsbət təcrübəsini digər rayonlarda özümüz tətbiq edirik.

Peşə hazırlığı üzrə gələn ilin proqnozu 5000 nəfəri əhatə edəcək. Bizim mövcud peşə mərkəzlərimizdən əlavə, 2 peşə mərkəzinin tikintisi də buraya daxildir. Orta məktəblərin son sinif şagirdləri üçün peşəyönümü məsləhətləri proqramlarının genişləndirilməsi və 150 min şagirdi əhatə etməsi nəzərdə tututubdur.

Ümumilikdə İşsizlikdən Sığorta Fondunun və Dövlət Sosial Müdafiə Fondunun xərcləri çərçivəsində DOST mərkəzləri şəbəkəsinin maliyyələşdirilməsi də nəzərdə tutulubdur. Cari ildə əlavə 2 mərkəzin açılması və növbəti ildə əlavə 7 mərkəzin fəaliyyətə başlaması, həmçinin onların saxlanma xərcləri də məhz Dövlət Sosial Müdafiə Fondunun və İşsizlikdən Sığorta Fondunun

vəsaitləri hesabına qarşılanacaqdır. Bu da imkan verəcək ki, dövlət büdcəsinə əlavə yük yaratmadan, ümumilikdə idarəetmə xərclərinin optimallaşdırılmasına nail olaq.

## KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ MUN Hİ-SANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 16-da Koreya Respublikası Milli Assambleyasının Sədri Mun Hi-sanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İ l h a m Ə l i y e v:** Mən sizi Azərbaycanda səmimiyyətlə salamlayıram, ölkəmizə xoş gəlmisiniz! Əminəm ki, sizin səfəriniz iki ölkə arasındakı əlaqələrə yeni təkan verəcək. Bizim əlaqələrimiz uğurla inkişaf edir və şadam ki, Koreya–Azərbaycan əlaqələri yeni pilləyə qalxıbdır. Siyasi əlaqələrimiz yüksək səviyyədədir və sizin səfəriniz bunu bir daha təsdiqləyir. Dövlət başçıları səviyyəsində qarşılıqlı rəsmi səfərlər həyata keçirilibdir. Əlbəttə ki, iqtisadi sahədə əməkdaşlıq daha da geniş vüsət alır. Azərbaycanda 70-ə yaxın Koreya şirkəti rəsmi qeydiyyatdan keçib. Bir neçə Koreya şirkəti Azərbaycanda müxtəlif infrastruktur və inşaat layi-

hələrində iştirak edir. Bakı şəhərində yeni tikilmiş, arxitektura baxımından cəlbedici olan bəzi binaların memarlıq dizaynı Koreya şirkətləri tərəfindən təmin edilibdir. Ümumiyyətlə, biz istəyirik ki, qarşılıqlı investisiya qoyuluşu daha geniş vüsət alsın. Azərbaycan sizin ölkəyə yarım milyard dollara yaxın sərmayə qoyub. Bizim Dövlət Neft Fondumuz Koreyada daşınmaz əmlaka sərmayə qoyub və əminəm ki, gələcək illərdə qarşılıqlı sərmayə qoyuluşu daha geniş vüsət alacaqdır.

Şadam ki, Koreyadan Azərbaycana gələn turistlərin də sayı artır. Bildiyiniz kimi, Koreya vətəndaşları üçün sadələşdirilmiş viza rejimi tətbiq olunur və onlar elektron vizanı bir neçə gün ərzində alıb Azərbaycana gələ bilərlər. Bilirəm, koreyalılar xarici ölkələrə səfər etməyə çox həvəslidirlər və ümid edirəm ki, Azərbaycan onlar üçün çox maraqlı bir yer ola bilər.

Əlbəttə, parlamentlərarası əlaqələrə xüsusi diqqət yetirilir. Şadam ki, bu gün sizin rəhbərliyinizlə yüksək səviyyəli nümayəndə heyəti bizim qonağımızdır. Səfər zamanı həm parlamentlərarası əlaqələr müzakirə ediləcək, həm də gündəlikdə duran ikitərəfli məsələlər ətrafında fikir mübadiləsi aparılacaqdır.

Əminəm ki, səfəriniz uğurlu olacaq, bir daha xoş gəlmisiniz!

**M u n H i - s a n** (*Koreya Respublikası Milli Assambleyasının Sədri*): Təşəkkür edirəm, cənab Prezident, Sizinlə görüşdüyümə görə çox şadam. Mən xəbərdaram ki, Siz nə qədər məşğulsunuz və belə bir vaxtda bizə görüş üçün vaxt ayırmısınız. Bildiyimə görə, Siz oktyabr ayında Rusiyada olmusunuz, Gürcüstanın Baş Naziri

Azərbaycana səfərə gəlib və dünən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü Azərbaycanda keçirilibdir. Mənə çox maraqlıdır, Sizin bu tükənməz enerjiniz haradan gəlir? Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında Macarıstan və başqa bir ölkə sadəcə, müşahidəçidir, üzv deyil. Mən düşünürəm ki, bizim də təşkilata müşahidəçi kimi üzv ola bilmək imkanımız vardır. Ola bilərikmi?

**İ l h a m Ə l i y e v:** Çox yaxşı olar. Mən elə bu məsələni sizinlə müzakirə etmək istərdim.

**M u n H i - s a n:** Çox istərdim həyata keçsin.

**İ l h a m Ə l i y e v:** Əgər belədirsə, onda gərək səfər zamanı bu məsələ müzakirə olunsun. Gələn il Türkiyədə keçiriləcək növbəti Zirvə görüşündə Koreya müşahidəçi qismində iştirak edərsə, biz çox məmnun olarıq. Macarıstan müşahidəçi kimi, bizim tədbirlərdə artıq ikinci dəfədir ki, iştirak edir. Bu təşkilat yeni üzvləri, müşahidəçi qismində iştirak edən yeni ölkələri qəbul etməyə çox böyük maraq göstərir. Dünənki Zirvə görüşündə həm qarşılıqlı siyasi dəstək göstərildi, həm də iqtisadi sahədə bir çox önəmli layihələr müzakirə olundu. Ona görə xahiş edirəm, siz bu məsələni ciddi müzakirə edəsiniz və ümidvaram ki, nəticələr yaxşı olacaqdır.

**M u n H i - s a n:** Mən əminəm ki, uğurlu nəticə əldə olunacaq. Çünki Ural–Altay mədəniyyətinə daxil olan xalqlar həmişə ailəyə çox böyük önəm verib, böyükləri hər zaman özlərindən yüksəkdə tutublar. Buna görə də inanıram ki, biz eyni mədəniyyətə daxilik və bu əməkdaşlığımız uğurla nəticələnəcəkdir.

*Görüşdə, həmçinin nəqliyyat, turizm, informasiya-kommunikasiya texnologiyaları və digər sahələrdə əməkdaşlığın inkişafına dair fikir mübadiləsi aparıldı.*

**İSPANİYA KRALI**
**ƏLAHƏZRƏT VI FELİPEYƏ**

Əlahəzrət!

İspaniya Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost İspaniya xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *16 oktyabr 2019-cu il*

**ŞAHMATÇI AYDIN SÜLEYMANLIYA**

Əziz Aydın!

Hindistanda oğlanlar və qızlar arasında keçirilmiş şahmat üzrə dünya çempionatında 14 yaşlılar arasında qələbə qazanmağın münasibətilə səni ürəkdən təbrik edirəm.

Sən ilk turlardan yarışa liderlik edərək, turniri qələbə ilə başa çatdırdın və həmyaşıdların arasında şahmat üzrə dünya çempionu adını qazanaraq, şahmat tariximizdə daha bir parlaq səhifə açdın.

Sənə ən xoş arzularımı yetirir, yeni-yeni qələbələr diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2019-cu il*

**YAPONİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ŞİNZO ABEYƏ**

Hörmətli cənab Baş Nazir!

Ölkənizdə baş vermiş «Hagibis» tufanı nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Baş vermiş bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Yaponiya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *16 oktyabr 2019-cu il*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*17 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kasprşiki qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri müzakirə edildi.*

## AZƏRBAYCAN AVTOMOBİL YOLLARI DÖVLƏT AGENTLİYİ İDARƏ HEYƏTİNİN SƏDRİ SALEH MƏMMƏDOV İLƏ GÖRÜŞ

*17 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədovu qəbul etmişdir.*

**İlham Əliyev:** Yol tikintisi Azərbaycanda geniş vüsət alıb. Hər il bizdə 1000 kilometr yeni yol çəkilir. Bu il də istisna deyil. Şadam ki, Davos Dünya İqtisadi Forumun son hesabatında bu sahədə də irəliləyiş vardır. Keçən dəfə yolların keyfiyyətinə görə biz 34-cü yerdə olmuşuqsa, bu il 27-ci yerdə və MDB məkanında 1-ci yerdəyik. Bu göstərir ki, yol infrastrukturuna qoyulmuş sərmayə öz səmərəsini verir. Yol tikintisi geniş vüsət alıb və yollar yüksək keyfiyyətlə tikilir. Belə də davam edin. Azərbaycanın bütün yolları bundan sonra da ən yüksək standartlara cavab verməlidir.

Bu ilin investisiya proqramında yolların – həm magistral, həm şəhərlərarası və kəndlərarası, həm də kənd yollarının çəkilişi üçün kifayət qədər vəsait ayrılıb. Magistral yollara gəldikdə, biz əsas qonşularımızla – 3 qonşu ölkə ilə yollarımızın çəkilişini, demək olar ki, başa çatdırmışıq. İndi Rusiya sərhədinə qədər yeni yol çəkilir.

Bu barədə məlumat verərsiniz. Eyni zamanda, Gürcüstan istiqamətinə – Gəncədən sərhədə qədər ikizolaqlı yolu biz dörd zolağa genişləndiririk. Bu layihə haqqında da məlumat verərsiniz. İran sərhədinə qədər yolun bir hissəsinin çəkilişi hələ qalıb, əsas yol çəkilib, məsafə də qısalıbdır. Bu da çox önəmli layihədir.

Bu il eyni zamanda, şəhərlərarası yolların çəkilişinə və kənd yollarının tikintisinə vəsait nəzərdə tutulub. O cümlədən son dəfə mən sizə tapşırıq verdim ki, Bakı qəsəbələrinin yollarına da diqqət yetirilsin. Bakının həm qəsəbələrarası, həm də qəsəbədaxili yolları təmir olunmalıdır, yeni yollar çəkilməlidir. Bəzi yerlərdə hələ torpaq yollar mövcuddur. Torpaq yollar olmamalıdır. Qəsəbədaxili yollara asfalt vurulmalıdır.

İndi isə məruzə edin, bu günə qədər nə işlər görülüb və ilin sonuna qədər hansı addımlar atılacaqdır?

**Saleh Məmmədov** (*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri*): Möhtərəm cənab Prezident, Sizin 2019-cu il yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında qeyd etdiyiniz kimi, bu ilin investisiya proqramında yol tikintisi üçün kifayət qədər vəsait nəzərdə tutulubdur. Bu vəsait hesabına 2019-cu ildə Azərbaycanda 1000 kilometrə qədər yeni avtomobil yollarının salınması, təmir olunması, körpülərin tikilməsi nəzərdə tutulurdu. Bu gün mən Sizə məruzə edirəm ki, cari ilin 9 ayı ərzində ölkədə artıq 903,5 kilometr uzunluğunda avtomobil yolları çəkilib və istismara tam hazırdır.

**İ l h a m Ə l i y e v:** Yəni ilin sonuna qədər 1000 kilometrə çatdırılacaqdır.

**S a l e h M ə m m ə d o v:** İlin sonuna qədər 1122 kilometr olacaq. Çünki Siz bölgələrə səfərləriniz zamanı orada əhalinin xahişini nəzərə alaraq, əlavə yolların tikintisinə sərəncamlar vermisiniz. Biz artıq bu ilin sonunadək həmin yolların da tikintisini başa çatdıracağıq. Bu yollardan biri Qaxda səfərdə olduğunuz zaman verdiyiniz tapşırığa əsasən, M-5 magistral yolundan İlisu kəndinə qədər uzunluğu 33,5 kilometr olan avtomobil yolunun tikintisi artıq başa çatıb, yüksək keyfiyyətlə təhvil veriləcəkdir.

**İ l h a m Ə l i y e v:** Xınalığa yeni yolun çəkilişi nə yerdədir?

**S a l e h M ə m m ə d o v:** Xınalığa çəkilən 31 kilometrlik yeni yolun artıq 10 kilometrlik hissəsinin torpaq yatağı tam hazırdır. Bundan əlavə, Xınalığa gedən yolun başlanğıcı olan, Quba–Qusar yolundan ayrılan asfalt-beton örtüklü 24 kilometrlik Alpan–Susay yolu istismara tam hazırdır. O yol üzərində 2 körpü tikilib və tam hazır vəziyyətdədir.

**İ l h a m Ə l i y e v:** Bir də Qonaqkəndə yolun çəkilişi nəzərdə tutulmuşdu. O kənddən də müraciətlər daxil olmuşdu. Mən Sizə uzunluğu 50 kilometrdən çox olan Qonaqkənd yolunun tikintisini də tapşırmışdım.

**S a l e h M ə m m ə d o v:** Bəli, uzunluğu 50,3 kilometrdir.

**İ l h a m Ə l i y e v:** O nə vaxt təhvil veriləcək?

**S a l e h M ə m m ə d o v:** Möhtərəm cənab Prezident, yolun ikiqat asfalt-beton örtüklü 40 kilometrlik hissəsi

tam hazırdır. O yolun üzərində artıq 7 körpü tikilib. Sonuncu körpü Vəlvələçayın üzərində salınıb. İllər boyu orada körpü olmamışdır. Çay daşanda insanlar günlərlə, həftələrlə gözləməli olurdular. Bu gün 120 metr uzunluğunda, 11 metr enində 6 aşırımlı körpü tikilib, istismara tam hazır vəziyyətdədir. Sizin tapşırığınıza əsasən, növbəti ilin investisiya proqramında vəsait nəzərdə tutulub. Bu vəsait hesabına yola aşınma qatı da vurulacaq və həmin 50,3 kilometrlik yol istismara tam hazır olacaqdır.

**İlham Əliyev:** Magistral yollarla bağlı vəziyyət necədir? Xüsusilə Rusiya sərhədinə gedən yeni yolun çəkilişi nə yerdədir?

**Saleh Məmmədov:** Möhtərəm cənab Prezident, Sizin tövsiyə və tapşırığınıza əsasən, hələ 2018-ci ildə Bakıdan Rusiya sərhədinə qədər yeni yolun çəkilişi qərara alınıb. Biz ilkin layihələndirməyə uyğun olaraq, Bakı–Rusiya sərhədi avtomobil yolunun 45-ci kilometrliyindən, yəni Zeynalabdin Tağıyev qəsəbəsinin yaxınlığından Rusiya sərhədinə qədər yeni yolun çəkilişinə başladıq. Bu gün yeni yolun 45-ci kilometrdən Giləziyədək – 75-ci kilometrə qədər olan hissəsinin asfalt-beton örtüyü ikiqat olmaqla, tikinti işləri yerinə yetirilib. Həmin yolun üzərində bir yol qovşağı tikilib. Ümumi götürəndə isə, Rusiya sərhədindən Bakıya tərəfə olan istiqamətdə 38 kilometr yol asfaltlanıb, yol yatağı 92 kilometr hissədə tam tikilibdir. Nəzərə alınıbdır ki, 2020-ci ilin sonuna qədər biz bu yolu istismara təhvil verək. Sizin tapşırığınıza əsasən o yolda eyni səviyyədə kəsişən heç bir yol qovşağı olmayacaq. Yəni 5 yerdə müxtəlifsə-

viyyəli yol qovşağı olacaq ki, yeni yolu rayon mərkəzləri ilə birləşdirsin.

**İlham Əliyev:** Aydındır. Bəs, Gəncə–Gürcüstan sərhədi yolunun dörd zolağa genişləndirilməsi nə yerdədir?

**Saleh Məmmədov:** Gəncə–Gürcüstan yolunun Qırmızı Körpüyə qədər olan 131 kilometrlik hissəsində işlər davam etdirilir. Bu ilin sonunadək yolun 34 kilometrlik hissəsinə aşınma qatı da daxil olmaqla, asfalt-beton örtüyü vurulacaq. Torpaq yatağı üzrə işlərin 72 faizi artıq yerinə yetirilib. Yolun tikintisi altına düşən pay torpaqları bu məqsəd üçün ayrılmış vəsaitdən kompensasiya ödənilməklə alınıbdır. Heç bir maneəmiz yoxdur. Bu yolun başa çatdırılması 2022-ci ildə nəzərdə tutulub. Amma biz Sizə söz veririk ki, həmin yolu 2021-ci ilin sonunadək yüksək keyfiyyətlə təhvil verəcəyik.

**İlham Əliyev:** Bir də ki, magistral yolların arasında İran sərhədinədək uzanan yol da bizim diqqətimizdədir. Hazırda İran sərhədinə yol Astara şəhərinin içərisindən keçir ki, bu da narahatlıq yaradır. Ona görə mən göstəriş vermişəm ki, Astara rayonunun ərazisindən İran sərhədinə qədər yeni marşrut üzrə yol çəkilsin. Bu istiqamətdə hansı işlər görülür?

**Saleh Məmmədov:** Cənab Prezident, 2018-ci ildə Astaraya səfəriniz zamanı əhalinin bu məsələ ilə bağlı müraciətindən sonra Siz ilkin olaraq 2 milyon manat vəsait ayırdınız. Hazırda İran sərhədinə qədər yol çəkilibdir. Astara çayı üzərindəki körpünün tikintisi məsələsi həll olunur. Bu ilin noyabrında İranın yol işçiləri ilə görüş keçiriləcək. Həmin görüşdə Memoranduma qol

çəkiləcək. Körpü hazır olan kimi biz yolu artıq istifadəyə verəcəyik. Beləliklə, o yol Astara şəhərinin daxilindən çıxarılacaqdır.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı. Həmçinin qəsəbədaxili yollara da mütləq fikir vermək lazımdır. Bu yaxınlarda Kürdəxanı qəsəbəsinin yolları, demək olar ki, tam həcmdə təmir olundu. Bu gözəl nümunə bütün qəsəbələrdə öz əksini tapmalıdır.

**S a l e h  M ə m m ə d o v:** Möhtərəm cənab Prezident, Sizin birbaşa göstərişiniz və qayğınız nəticəsində bu il Bakının qəsəbələrində 242 kilometr daxili yollar asfaltlanaraq, tam istifadəyə verilib. İndi həmin qəsəbələrin əhalisi çox rahat yollardan istifadə edir. Bundan əlavə, ilin sonunadək qəsəbələrdə daha 57 kilometr yolun çəkilişi başa çatdırılacaq. Yəni biz Sizin tövsiyənizlə qəsəbədaxili müasir yolların uzunluğunu bu il təqribən 300 kilometrə çatdıracağıq. Buna da Sizin tərəfinizdən vəsait ayrılıbdır. Biz çalışırıq ki, ayrılmış vəsait hesabına həmin yolların çəkilişini yüksək səviyyədə başa çatdıraq.

**İ l h a m  Ə l i y e v:** İndi gələn ilin investisiya proqramının müzakirəsi gedir. Əlbəttə, yol çəkilişi dövlət investisiya proqramında əhəmiyyətli yer tutacaqdır.

## QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ RÖVŞƏN RZAYEV İLƏ GÖRÜŞ

*18 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayevi qəbul etmişdir.*

**İlham Əliyev**: Məcburi köçkünlərin problemlərinin həlli istiqamətində bu il də çox böyük işlər nəzərdə tutulur. Bu işlərin bir hissəsi artıq görülüb. Bu yaxınlarda «Qobu Park-2» yaşayış kompleksinin açılışını qeyd etdik. Bu kompleksdə 1300 qaçqın ailəsi yerləşəcək. Kompleksin açılışında gördüm ki, ən yüksək standartlar tətbiq olunub. Çox gözəl, rahat evlər, gözəl ictimai zonalar, məktəb, uşaq bağçası, supermarket, tibb məntəqəsi, yəni yaşayış üçün bütün şərait yaradılıbdır. Sevindirici hal ondan ibarətdir ki, «Qobu-1» və «Qobu-2» komplekslərinin tikintisi sırf özəl sektor tərəfindən təmin edilib. Hazırda tikilməkdə olan «Qobu-3» də özəl sektorun vəsaiti hesabına inşa edilir. Beləliklə, təqribən 4000-ə yaxın köçkün ailəsi Qobu qəsəbəsində ən müasir standartlara cavab verən mənzillərlə təmin ediləcəkdir.

Mən açılış zamanı sahibkarlara da çağırış etdim, onlara bu işlərə qoşulmağı tövsiyə etdim. Mənim çağırışıma sahibkarlar cavab verdilər. Hesab edirəm ki, köçkünlərin problemlərinin həlli ümumxalq məsələsi olmalıdır.

Düzdür, əsas yükü dövlət öz üzərinə götürübdür. Bu günə qədər 100-dən çox şəhərciyin tikintisi dövlət hesabına təmin edilibdir. Ümumiyyətlə, köçkünlərin problemlərinin həlli, müavinətlərin verilməsi, evlərin tikilməsi üçün 7 milyard manatdan çox vəsait xərclənib. Bu il məcburi köçkünlərin müavinətləri 50 faiz artırıldı. Bu bir daha göstərir ki, dövlət bu kateqoriyadan olan insanlara daim öz yardımını edir.

İlin sonuna qədər yeni şəhərciklərin açılışı nəzərdə tutulub. İlin əvvəlində nəzərdə tutduğumuz bütün işlər ilin sonuna qədər öz həllini tapmalıdır. Siz artıq indidən gələn ilin proqramı üzərində işləməlisiniz. Gələn il harada, nə qədər köçkün ailəsini biz yeni evlərlə, mənzillərlə təmin edə bilərik. İndi isə görülmüş işlər haqqında məruzə edin və gələn il hansı işlərin görülməsi nəzərdə tutulubdur?

**R ö v ş ə n R z a y e v** (*Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri*): Möhtərəm cənab Prezident, ilk növbədə, «Qobu Park-2»nin açılışında iştirak etdiyinizə görə təşəkkür edirəm. Bu park oktyabrın 8-də açıldı. Artıq məruzə edə bilərəm ki, Nəsimi rayonunda yerləşən yataqxanaların birində yaşayan 120 ailə yeni mənzillərdə məskunlaşıb. Proses hələ davam etdirilir. Dünən ikinci püşkatma oldu. Nərimanov rayonunda və Sizə əvvəlcədən təqdim olunmuş ərazilərdəki yataqxanalarda məcburi köçkünlər siyahıya uyğun köçürüləcəklər. Bunun üçün Sizin tərəfinizdən bütün şərait yaradılıbdır. Komitənin bütün əməkdaşları bu istiqamətdə məşğuldurlar və işi davam etdirirlər.

Təbii ki, bu ilin sonuna qədər Sizin tapşırıqlarınıza əsasən, bir neçə rayonda qəsəbələrin tikintisi başa çatdırılacaq. İcazə verin, bir-bir sadalayım – Şirvan rayonunda 685 mənzilli qəsəbəmiz artıq hazırdır, tamamlama işləri yekunlaşır. Beləliklə, Şirvan şəhərində məskunlaşan bütün məcburi köçkünlər mənzillərlə təmin olunacaqlar. Hətta ətraf rayonlardan bir neçə ailəni də həmin qəsəbəyə yerləşdirə biləcəyik. Göyçay rayonunda 80 mənzildən ibarət binada artıq tamamlama işləri bitir. Orada da qəzalı vəziyyətdə olan binada yaşayan 80 məcburi köçkün ailəsinin hamısı yeni mənzillərə köçürüləcək. Sizin tapşırığınıza əsasən, Kürdəmirdə salınmış 565 mənzildən ibarət böyük bir qəsəbəmizdə də tamamlama işləri aparılır. Yəqin ki, oktyabr ayının axırları, yaxud noyabrın ortalarında onu da təhvil verə biləcəyik. Beləliklə, Kürdəmir rayonunda məskunlaşan məcburi köçkünlərin hamısı bu qəsəbədə mənzillə təmin olunacaqlar. Oraya hətta ətraf rayonlardan bir neçə ailəni də gətirə biləcəyik.Göygöl rayonunda ümumilikdə 130 mənzildən ibarət 3 binanın inşası davam edir. Ağcabədi rayonunda əsasən laçınlıların məskunlaşdığı Taxtakörpü qəsəbəsində 645 fərdi ev tikilir. Biz 645 ailəni ilin sonuna qədər o evlərə köçürəcəyik. Ucar rayonunda 250 ailəlik bir qəsəbəmiz də ilin sonuna qədər tamamlanacaq. Beləliklə, Sizin tapşırıqlarınız əsasında Komitə tərəfindən inşa edilmiş mənzillərin sayı 3700-ə çatacaqdır.

Özəl sektorun töhfələri çox önəmlidir. Siz qeyd etdiyiniz kimi, özəl sektor tərəfindən tikilmiş 1300 ailəlik «Qobu Park-2» artıq açılıbdır. Özəl sektorun vəsaiti

hesabına tikilmiş 540 mənzillik daha bir qəsəbəmiz vardır. İlin sonunadək biz o mənzilləri də məcburi köçkünlərə təqdim edəcəyik. Beləliklə, Siz dediyiniz rəqəmlər ilin sonuna qədər tamamilə həllini tapacaqdır.

Möhtərəm cənab Prezident, icazə verin, Sizin tapşırığınızla gələn il hansı rayonlarda hansı qəsəbələri tikəcəyimizlə bağlı Komitə tərəfindən hazırlanmış sənədləri Sizə təqdim edim.

**İ l h a m Ə l i y e v:** Ondan əvvəl mən soruşmaq istəyirəm. Sumqayıt şəhərində də mənim tapşırığımla yeni evlərin tikilməsi nəzərdə tutulur. Mənim göstərişimlə artıq Sumqayıtda şəhərcik salınıbdır. Bu istiqamətdə hansı işlər görülür?

**R ö v ş ə n R z a y e v:** Möhtərəm cənab Prezident, ötən il Sumqayıt şəhərində Sizin iştirakınızla 2 qəsəbənin açılışını etmişik. Sumqayıtdakı 1001 ailəlik qəsəbədə məskunlaşma tamamilə başa çatıb. Sumqayıtın 12-ci mikrorayonunun ərazisində 1005 ailəlik şəhərcik Sizin iştirakınızla istifadəyə verilib və orada da köçkünlər yaşayırlar. Sizin tapşırıqlarınıza uyğun olaraq, Abşeron rayonunun «Stansiya Sumqayıt» adlandırılan ərazisində 1250 ailəlik qəsəbənin tikintisinə başlanılıb, işlər davam etdirilir. Bu qəsəbə Sizin investisiya xərclərindən ayırdığınız vəsait hesabına inşa edilir. Düşünürəm ki, biz o qəsəbəni də 10 ay ərzində təhvil verə biləcəyik.

Sumqayıt şəhərində Dövlət Komitəsinə 20 hektara yaxın yeni ərazi ayrılıbdır. O istiqamətdə də fəaliyyət göstərilir. Gələn illərdə orada tikintiyə başlamaq nəzərdə tutulubdur.

**İ l h a m  Ə l i y e v:** İndi Bakı şəhərində yataqxanalar boşaldılır. Bu yataqxanaların bir çoxu qəzalı vəziyyətdədir. Onların taleyi necə olacaq, söküləcəkmi, təmir olunacaqmı? Siz bu məsələ ilə məşğul olmusunuz, yoxsa yox?

**R ö v ş ə n  R z a y e v:** Bəli. Biz çalışırıq ki, bütün yataqxanalardan məcburi köçkünləri tamamilə köçürək. Biz yataqxanaları rayon icra hakimiyyətlərinə və Əmlak Komitəsinə təhvil veririk.

**İ l h a m  Ə l i y e v:** Onların vəziyyətinə də baxmaq lazımdır. Qəzalı vəziyyətdə olan yataqxanalar sökülməlidir və onların yerində yeni binalar tikilə bilər.

**R ö v ş ə n  R z a y e v:** Möhtərəm cənab Prezident, deyə bilərəm ki, bütün yataqxanalar həqiqətən də qəzalı vəziyyətdədir, bu onları bərpa etməyə imkan verməyəcək. Yəqin ki, sökülüb yerində yeni binalar tikiləcəkdir.

**İ l h a m  Ə l i y e v**: Gələn ilin proqramı haqqında məruzə edin.

**R ö v ş ə n  R z a y e v:** Gələn ilin proqramını biz üç variantda işləmişik. İcazənizlə, mən Sizə bu variantları bir-bir məruzə edim. Deməli, biz gələn il Abşeron rayonunda əlavə olaraq 1890 ailəlik, Goranboy rayonunda 552 ailəlik, Gəncə şəhərində isə 1512 ailəlik qəsəbə sala bilərik. Bunların hamısının vəsaiti Sizin tərəfinizdən ayrılıbdır. Qaradağ rayonunun «Ümid» qəsəbəsində də 500 ailəlik şəhərcik sala bilərik. Şəmkir rayonunun ərazisində 375 məcburi köçkün ailəsi üçün yeni qəsəbə tikə bilərik. Bu bizim təqdim edə biləcəyimiz ikinci variantdır. Üçüncü variantımız – məcburi köçkünlər üçün

Binəqədi rayonunda ayrılmış torpaqlarda 800 ailəlik, Gəncə şəhərində 1512 ailəlik və Samux rayonunun ərazisində 200 ailəlik qəsəbələr sala bilərik.

**İlham Əliyev**: Əgər biz bunu həll etsək, nə qədər köçkün ailəsi yerləşdiriləcək?

**Rövşən Rzayev:** Bununla bağlı da biz üç variantda sənəd hazırlamışıq, icazənizlə, Sizə təqdim edim. Birinci variantda toplam 6989 ailənin, ikinci variantda 6934 ailənin, üçüncü variantda isə 7059 ailənin yerləşdirilməsi nəzərdə tutulubdur.

**İlham Əliyev:** Məncə biz üçüncü variant üzərində dayanmalıyıq. Gələn il biz köçkünləri mümkün qədər çox yerləşdirməliyik. Siz bu proqrama yenidən baxın, xüsusilə Bakı və Sumqayıt şəhərlərini nəzərə alın. Çünki ən çox köçkünlərin məskunlaşdığı şəhərlər Bakı və Sumqayıtdır. İndi biz bölgələrdə vəziyyəti xeyli yaxşılaşdıra bilmişik. 2007-ci ildə bütün çadır şəhərcikləri ləğv edilib və Azərbaycanın rayonlarında 100-dən çox şəhərcik salınıbdır. Ona görə bu proqramı mən bütövlükdə təsdiqləyirəm. Ancaq buna əlavələr edilməli, daha böyük həcmdə evlər tikilməlidir. O ki qaldı lazım olan vəsaitə, biz vəsait taparıq. Çünki bu bizim üçün ən prioritet məsələdir.

## LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ GÖRÜŞ

*18 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 18-də Latviya Respublikasının sabiq Prezidenti Raymonds Veyonislə görüşmüşdür.*

*Dövlət başçısı qonağı salamladı.*

**İlham Əliyev:** Sizi görməyimə şadam. Xoş gəlmisiniz!

**Raymonds Veyonis:** Yenidən Bakıda olmaq xoşdur.

**İlham Əliyev:** Mən öyrəndim ki, Siz ölkəmizdə səfərdəsiniz. Sizi görməyimə çox şadam.

**Raymonds Veyonis:** Dünən gəlmişəm və iki mühazirə oxumuşam.

**İlham Əliyev:** Bəli, bilirəm, ADA-da.

**Raymonds Veyonis:** Təkcə ADA-da deyil, həm də Qərbi Kaspi Universitetində.

**İlham Əliyev:** Çox yaxşı.

**Raymonds Veyonis:** Mən Azərbaycan və Latviya arasında tarixi, mədəni əməkdaşlıqla bağlı fikirlərimi bildirdim.

**İlham Əliyev:** Mən bizim birgə işimizi xatırlayıram. Sizin Azərbaycana rəsmi səfərinizi, mənim

Latviyaya rəsmi səfərimi xatırlayıram. Düşünürəm ki, birgə fəaliyyətimiz ərzində biz münasibətlərimizi irəli aparmağa nail olmuşuq.

**Raymonds Veyonis:** Çox iş görmüşük.

**İlham Əliyev:** Biz siyasi, eləcə də iqtisadi əlaqələr baxımından çox iş görmüşük. Mən həmçinin şadam ki, biz razılaşdırdığımız bütün işləri həyata keçirmişik. Xatırlayıram ki, ölkənizə son səfərim zamanı Azərbaycan Ticarət Evinin açılması ilə bağlı Sizinlə razılığa gəldik. Bir müddət sonra o açıldı. Bu sizin regionda ilk Azərbaycan Ticarət Evidir. Hazırda bizim Polşada, Çində, Rusiyada, Ukraynada, Birləşmiş Ərəb Əmirliklərində, bəzi başqa ölkələrdə Ticarət evlərimiz vardır. Mən şadam ki, sizin regionunuzda bu Latviyadadır, çünki bizim həqiqətən də sıx əlaqələrimiz vardır. Bildiyiniz kimi, Latviyanın sabiq Prezidenti xanım Vike Freyberqa da Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri kimi, çox fəaldır. Beləliklə, əlaqələrimizin yaxşı tarixçəsi vardır. Əminəm ki, qarşıdakı illərdə ölkələrimiz sıx əməkdaşlığı davam etdirəcəkdir.

**Raymonds Veyonis:** Əlaqələr həqiqətən də çox yaxşıdır. Biz müxtəlif səviyyələrdə hər zaman inkişaf etdirilməsi mümkün olan əla tərəfdaşlığa ümid bəsləyirik və düşünürəm ki, hər iki tərəf bu tərəfdaşlıqdan zövq alacaq. Bizim ölkəmiz üçün Azərbaycan bu regionda çox yaxın strateji tərəfdaş olub, tərəfdaşdır və tərəfdaş olacaqdır.

## VƏZİFƏSİNDƏN AZAD OLUNMASI ÜÇÜN VERDİYİ ƏRİZƏ İLƏ BAĞLI BAŞ NAZİRİN MÜAVİNİ ƏLİ HƏSƏNOV İLƏ GÖRÜŞ

*21 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini Əli Həsənovu vəzifədən azad edilməsilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul etmişdir.*

**İlham Əliyev:** Hörmətli Əli müəllim, bu gün siz mənim ünvanıma ərizə yazmısınız. Ərizədə tutduğunuz vəzifədən azad olunmağınızı xahiş edirsiniz. İstərdim ki, sizə ölkəmizin inkişafına verdiyiniz töhfələrə görə təşəkkürümü bildirim. Siz uzun illərdir ki, Azərbaycanın hərtərəfli inkişafında fəal rol oynayırsınız. Ulu öndər Heydər Əliyev tərəfindən irəli çəkilmisiniz, hələ sovet dövründə onun qərarı ilə yüksək vəzifələrə təyin olunmusunuz, müstəqillik dövründə 21 ildir ki, Baş Nazirin müavini vəzifəsində çalışırsınız, son 16 il ərzində isə mənim rəhbərliyimlə. Əlbəttə, sizə olan yüksək etimad onu göstərir ki, tutduğunuz vəzifələrdə işin öhdəsindən şərəflə gəlmisiniz. Ancaq əlbəttə, həyat yerində durmur, yeni Baş Nazir təyin edilib, Nazirlər Kabineti qarşısında yeni vəzifələr qoyulubdur. Bir də ki, siz təqaüd yaşına çatmısınız, 71 yaşınız var və əlbəttə, gənc kadrlara yer vermək üçün hesab edirəm ki, siz yaxşı nümunə göstərir-

siniz. Ümid edirəm ki, iqtidar komandasında təmsil olunan digər yoldaşlara da bu, yaxşı bir örnək olacaqdır. Eyni zamanda, siz ictimai-siyasi həyatda da fəal rol oynayırsınız və mənim tövsiyəmlə Yeni Azərbaycan Partiyası sizi sədrin müavini vəzifəsinə layiq görübdür. Bu həm mənim tərəfimdən, həm partiya üzvləri tərəfindən sizin fəaliyyətinizə verilən yüksək qiymət və böyük etimaddır. Əminəm ki, siz komandanın etibarlı üzvü kimi, bundan sonra da fəaliyyət göstərəcəksiniz. Hesab edirəm ki, partiya işində fəallığa daha böyük ehtiyac vardır. Mənim göstərişimlə Yeni Azərbaycan Partiyasının fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində əlavə addımlar atılmalıdır. Son vaxtlar siz bu sahəyə daha fəal qoşulmusunuz və bölgələrə səfərlər edirsiniz. Mənə göndərdiyiniz arayışlarda bölgələrdə mövcud vəziyyətlə bağlı məlumatlar və görüləcək işlər haqqında təkliflər verirsiniz.

Mən bir daha sizə uzun illər Azərbaycan naminə gördüyünüz işlərə görə təşəkkürümü bildirirəm və əminəm ki, siz gələcəkdə də ölkəmizin ictimai-siyasi həyatında öz sözünüzü deyəcəksiniz.

**Əli Həsənov:** Çox sağ olun, möhtərəm cənab Prezident. Məni qəbul etdiyiniz üçün Sizə dərin təşəkkürümü bildirirəm. Həqiqətən, mən 51 illik fəaliyyətim dövründə 20 il ulu öndər Heydər Əliyevin, son 16 ildə isə Sizin rəhbərliyiniz altında çalışmışam. İndi ünvanıma dediyiniz sözlər mənim üçün ən böyük qiymətdir. İnsan üçün bundan böyük nə ola bilər?! Ümumiyyətlə, 20 il ulu öndərin, 16 il ölkə Prezidenti möhtərəm cənab İlham Əliyevin – hansı ki, bu gün dünya

prezidentləri sırasında öz layiqli yerini tutub və onun heç əvəzi də yoxdur – rəhbərliyi altında çalışasan və belə bir Prezidentdən bu cür qiymət almaq – insana bundan artıq nə lazımdır?! Ulu öndərimizin və Sizin rəhbərliyiniz altında işləmək mənim ən böyük qazancım olub. Ömrümün axırınacan Əliyevçiyəm və Əliyevçi də olaraq qalacağam. Ölkə Prezidentinin bir vəzifəli şəxs haqqında belə sözlər söyləməsindən, onun gördüyü işlərə belə qiymət verməsindən yaxşı nə ola bilər?!

**İ l h a m  Ə l i y e v**: Siz buna layiqsiniz, Əli müəllim, mən bunları tam səmimi deyirəm. Əlbəttə ki, gündəlik formatda Prezidentdən daha çox tənqidi fikirlər səslənir, bu da təbiidir. Amma mən hər bir adamın, hər bir vəzifəli şəxsin fəaliyyətini obyektiv qiymətləndirirəm və sizin ünvanınıza dediyim sözlər tam həqiqətə uyğundur.

**Ə l i  H ə s ə n o v:** O da Sizin böyüklüyünüzdür, bir daha nümayiş etdirirsiniz ki, Siz həqiqətən, hər bir Azərbaycan vətəndaşının qarantısınız. Mən də Azərbaycan vətəndaşıyam və Siz bunu bir daha nümayiş etdirirsiniz. Siz bütün sahələrdə islahatlar aparmısınız. Bəli, gənclərə yol verilməlidir. Bəli, ulu öndər Heydər Əliyev də bu addımları atırdı, bu gün də onun siyasəti bütün istiqamətlərdə davam edir. Nə əldə etmişiksə, təbii ki, onun hamısının kökündə, əsasında ulu öndər Heydər Əliyevin siyasəti durur. Allaha çox şükürlər olsun ki, Siz də bunu çox böyük ləyaqətlə, çox böyük bacarıqla həyata keçirirsiniz. Bu gün Siz Azərbaycanı dünyaya tanıtdırırsınız. Götürək Mehriban xanımın işlərini. Mehriban xanım ən yüksək humanistlik keyfiyyətinə, ən yüksək

siyasi keyfiyyətə malik bir xanımdır. Mehriban xanım Azərbaycan xanımını dünya xanımları sırasında ən yüksək zirvəyə qaldırdı. Sizin sayənizdə bu gün bütün dünya Azərbaycandan danışır. Bunu necə görməmək olar?! O müxalifətdəkilər aldıqları vəsaiti doğrultmaq, onları silmək üçün canfəşanlıq edir, ağızlarına gələni danışırlar. Bütün Azərbaycan ictimaiyyəti, hər kəs belə qeyri-obyektiv məsələlərə qarşı öz mövqeyini bildirməlidir.

Məni bu gün qəbul etdiyinizə, ünvanıma xoş sözlər dediyinizə görə Sizə bir daha təşəkkür edirəm. Necə ki, ulu öndərin gördüyü işlərin əyani nəticələri indi daha aydın görünür, Sizin də gördüyünüz işlərin nəticələri hər il, 10 il, 50 il bundan sonra daha aydın görünəcəkdir. Ona görə bir daha Sizə təşəkkür edirəm. Sağ olun.

## VƏZİFƏSİNDƏN AZAD OLUNMASI ÜÇÜN VERDİYİ ƏRİZƏ İLƏ BAĞLI BAŞ NAZİRİN MÜAVİNİ HACIBALA ABUTALIBOV İLƏ GÖRÜŞ

*21 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də Azərbaycan Respublikası Baş Nazirinin müavini Hacıbala Abutalıbovu vəzifəsindən azad edilməsilə bağlı verdiyi ərizəsi ilə əlaqədar qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hacıbala müəllim, siz bu gün mənə Baş Nazirin müavini vəzifəsindən azad olunmağınızla bağlı ərizə göndərmisiniz. Mən istərdim ki, sizə gördüyünüz işlərə görə öz təşəkkürümü bildirim. Uzun illərdir ki, siz müxtəlif vəzifələrdə çalışmısınız, həm Baş Nazirin müavini vəzifəsində, 17 il Bakı Şəhər İcra Hakimiyyətinin başçısı kimi və son il yarımda yenə də Baş Nazirin müavini işləyirsiniz. Bilirəm ki, siz həmişə ulu öndər Heydər Əliyevə sadiq olmusunuz. Heydər Əliyev üçün ən ağır dövrlərdə siz öz sözünüzü demisiniz. Bəzi gənclər bunu bilmir və bəzi adamlar bunu yaddan çıxarır. Amma mən heç vaxt bunu unutmuram ki, o vaxt süni şəkildə ortalığa atılmış yaş senzi məsələsinə qarşı siz qəti etiraz bildirmisiniz. O vaxt ulu öndər Heydər Əliyevin xalq qarşısında nüfuzu çox yüksək idi və xalq ondan başqa, heç kimi rəhbər vəzifəsində görmürdü. Onun

gələcək fəaliyyətini əngəlləmək üçün o vaxt partokrat hakimiyyət yaş senzi kimi çox cəfəng bir qaydanı tətbiq etmişdi. Səhv etmirəmsə, 65 yaşdan yuxarı olan şəxs Prezident ola bilməzdi. Ulu öndərin də o vaxt 69 yaşı vardı və yadımdadır ki, siz parlamentin qarşısında kütləvi etiraz aksiyaları təşkil etmişdiniz, öz sözünüzü demişdiniz, heç kimdən qorxmamışdınız. Çünki o vaxt repressiya təhlükəsi çox böyük idi və Heydər Əliyevin hakimiyyətə gəlməsini əngəlləmək istəyənlər müxtəlif çirkin əməllərə əl atmışdılar. Heydər Əliyevin yaxın silahdaşı Əjdər Xanbabayevi vəhşicəsinə qətlə yetirdilər, özü də nə vaxt? Həmin gün ki, Heydər Əliyev Moskvadan Bakıya gəlməli idi. Mən ondan bir gün qabaq Bakıya gəlmişdim ki, onu qarşılayım. Onun gəlişini əngəlləmək, ona hədə-qorxu gəlmək üçün günahsız bir insanı, ziyalını – Əjdər Xanbabayevi həmin o dəstə qətlə yetirdi. Düzdür, sonra onu öldürənlər öz layiqli cəzalarını aldılar və Heydər Əliyevin Azərbaycana qayıtmasını heç kim əngəlləyə bilmədi. Bütün təhlükələrə baxmayaraq, o, Bakıya gəldi, öz sözünü dedi. İndiki bəzi özünü dırnaqarası lider adlandıran qorxaqlar-dan fərqli olaraq, o hər bir təhlükəyə, hər bir məh-rumiyyətə getməyə hazır idi. Onun böyüklüyü bundadır və siz, Hacıbala müəllim, o vaxt öz sədaqətinizi göstərdiniz, həm ulu öndərə, həm də vətənə, dövlətə, xalqımıza. Çünki Heydər Əliyevin hakimiyyətə gəlməsi bizi çox böyük fəlakətdən qorudu. Təsadüfi deyil ki, ulu öndər sizə böyük vəzifələr təklif etmişdir, Baş Nazirin müavini, ondan sonra Bakı Şəhər İcra Haki-miyyətinin başçısı, ondan əvvəl isə siz Suraxanı

rayonunda icra başçısı işləmisiniz. Yadımdadır, sizin o vaxt fəaliyyətiniz də bəziləri üçün bir növ təəccüblü idi, çünki bildiyimə görə, qapılarınız açıq idi, kim istəyirdi gəlirdi. Vətəndaşların problemləri ilə maraqlanırdınız və bu bir novatorluq idi. İndi bəziləri bunu yaddan çıxarır, amma mən yaddan çıxarmıram və bu gün sizi dəvət etmişəm ki, bunu sizə deyim və Azərbaycan vətəndaşları da bunu bilsinlər.

Ancaq həyat yerində durmur, qarşıya yeni vəzifələr qoyulur, qarşımızda yeni çağırışlar durur. Yaşınız da artıq 75-i keçibdir və əlbəttə ki, daha gənc nəslə yol vermək lazımdır. Ona görə sizin ərizə ilə mənə müraciətinizi yüksək qiymətləndirirəm. Hesab edirəm ki, pensiya yaşına çatmış, hər halda, 70 yaşını keçən iqtidarda təmsil olunanlar da yəqin ki, sizin nümunənizi təkrar edəcəklər. Hər halda, mən buna ümid edirəm. Siz Yeni Azərbaycan Partiyasında da fəal iş görürsünüz. Hesab edirəm ki, bundan sonra da partiya tərkibində siz öz fəaliyyətinizi davam etdirməlisiniz. Sizə gələcək fəaliyyətinizdə uğurlar arzulayıram və gördüyünüz işlərə görə təşəkkürümü bildirirəm.

**Hacıbala Abutalıbov:** Çox sağ olun. Minnətdarlığımı bildirirəm. Birinci növbədə, ulu öndərə olan sevgim, məhəbbətim Leninqradda təhsil aldığım günlərdən başlayıb. Düzdür, onda mən onunla birbaşa görüşməmişdim. Amma Siyasi Büro üzvlərinin içərisində ikinci yerdə Heydər Əliyevin şəklini görəndə bütün azərbaycanlılar fəxr edirdilər. Bizə hamı hər yerdə «Heydər Əliyevçilər» deyirdilər. Biz bununla fəxr edirdik. Heydər Əliyevi hakimiyyətə xalq gətirdi. Azər-

baycan xalqı düşdüyü bəladan çıxmaq üçün yalnız və yalnız ulu öndəri rəhbərlikdə görə bilərdi və görürdü də. Ulu öndər çox ağır vəziyyətdə olan Azərbaycanı xilas etmək üçün özünü qurban verdi. Gecəsini gündüzünə, gündüzünü gecəsinə qatdı, Naxçıvanda gecələr lampa işığında işləyirdi, soyuqda Azərbaycanı belə bir ağır vəziyyətdən çıxarmaq yollarını araşdırırdı. Hakimiyyətə gələndən sonra Heydər Əliyev məni dəvət etdi və Suraxanıda vəziyyətin çox ağır olduğunu deyərək, məni bu rayonun icra hakimiyyətinin başçısı vəzifəsinə təyin etdi. İnsanın həyatında elə bir hal olur ki, o, insanın ən xoşbəxt anı sayılır. Mənim də ən xoşbəxt günüm Heydər Əliyevlə əl-ələ salamlaşmağım olub. Suraxanıda işlədiyim vaxt Heydər Əliyev və Siz Amerikadan qayıtmışdınız.

**İ l h a m Ə l i y e v:** Müalicədən qayıtmışdı, 1999-cu il, yadımdadır o günlər, xatırlayıram.

**H a c ı b a l a A b u t a l ı b o v:** Bəli, qurbanlar kəsilirdi. Üç gündən sonra Yeni Suraxanıya gəldi, Heydər Məscidini açdı, bir aydan sonra məni kabinetə dəvət etdi və dedi ki, indi səni Baş Nazirin müavini təyin edirəm. Bir ildən sonra məni Bakı Şəhər İcra Hakimiyyətinin başçısı təyin etdi. Bakı Şəhər İcra Hakimiyyətində 17 il yarım işlədim. Heydər Əliyevin böyük arzusu var idi: Bakı təmizlənməli, Bakı abadlaşmalı, Bakı yaşıllaşmalı, Bakı gül-çiçəyə çevrilməlidir. Gecə 3-də, 5-də zəng edirdi, yatmağı yox idi, gecəsi-gündüzü yox idi. Sonra Sizin hakimiyyətiniz dövründə işlədim. Sizin göstərişlərinizlə Bakının belə gözəl vəziyyətə çatdırılması üçün arzularınızın yerinə yetirilməsində əlimdən gələni etdim. Bakı gözəlləşdi və

Siz də həmişə deyirsiniz ki, Bakı dünyanın ən gözəl şəhəridir. Əgər Heydər Əliyev Azərbaycan dövlətini yaratdısa, dövlətçiliyin banisidirsə, Siz inkişaf etmiş Azərbaycanın banisisiniz. Azərbaycanda sabitliyin qiyməti yoxdur. Çox sağ olun ki, Azərbaycan belə bir inkişafdadır. Minnətdarlığımı bildirirəm.

**MACARISTAN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YANOŞ ADERƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Azərbaycan–Macarıstan əlaqələri gündən-günə genişlənməkdədir. İnanıram ki, ölkələrimiz arasındakı tərəfdaşlıq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da ardıcıl şəkildə inkişaf edəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Macarıstan xalqına daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 oktyabr 2019-cu il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Krasnoyarsk diyarında insan tələfatı ilə nəticələnmiş faciə barədə xəbər məni dərindən kədərləndirdi. Azərbaycan xalqı adından və şəxsən öz adımdan Sizə, həlak olanların doğmalarına və yaxınlarına səmimi-qəlbdən başsağlığı verir, zərərçəkənlərin tezliklə sağalmasını arzu edirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, 22 *oktyabr 2019-cu il*

## BAŞ NAZİRİN MÜAVİNİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ ŞAHİN MUSTAFAYEV İLƏ GÖRÜŞ

*22 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 22-də Şahin Mustafayevi yeni vəzifəyə – Baş Nazirin müavini vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v**: Siz uzun illərdir İqtisadiyyat naziri vəzifəsində işləyirsiniz. Bütövlükdə sizin işinizdən mən razıyam. Ona görə qərara gəldim ki, sizi Baş Nazirin müavini vəzifəsinə təyin edim. Bu çox böyük vəzifədir, böyük etimaddır. Ümid edirəm ki, siz bu etimadı doğruldacaqsınız və yeni vəzifədə ölkəmizin iqtisadi inkişafının dayanıqlı olmasına öz töhfənizi verəcəksiniz.

Azərbaycan iqtisadiyyatı son 15 il ərzində 3 dəfədən çox artıb. Ancaq biz onu da bilməliyik ki, bu artım daha çox neft hasilatının artırılması hesabına mümkün olubdur. Əlbəttə, biz neft gəlirlərinin qeyri-neft sektoruna yönəldilməsi istiqamətində çox böyük uğurlar əldə etmişik və Azərbaycan iqtisadiyyatımızın şaxələndirilməsi işində dünya miqyasında təbii resurslarla zəngin olan ölkələr sırasında qabaqcıl yerlərdədir. Təsadüfi deyil ki, biznes mühitinin

yaxşılaşdırılmasını Dünya Bankı kimi ən aparıcı beynəlxalq maliyyə qurumu qiymətləndirir və biznes mühitinin səviyyəsinə görə biz dünyada 25-ci yerdəyik, 20 ən islahatçı ölkə sırasındayıq. Eyni zamanda, Davos Dünya İqtisadi Forumu illik hesabatında Azərbaycanı bir çox meyarlar üzrə qabaqcıl yerlərə layiq görübdür. Bütün bunlar aparılan islahatların nəticəsidir.

Ancaq hesab edirəm ki, biz əldə edilmiş uğurlarla kifayətlənməməliyik. İqtisadi sahədə hələ də bir çox problemlər mövcuddur, o cümlədən biznes mühitinin yaxşılaşdırılması istiqamətində əlavə addımlar atılmalıdır. Xüsusilə ölkə iqtisadiyyatının qeyri-neft sektoruna xarici sərmayənin cəlb edilməsi sahəsində hələ ki, bir çox işlər görülməlidir. Düzdür, ölkə iqtisadiyyatına 270 milyard dollardan çox sərmayə qoyulubdur ki, bunun yarısı da xarici sərmayədir. Ancaq bu sərmayənin də böyük əksəriyyəti neft-qaz sektoruna qoyulmuş sərmayədir. Bizim vəzifəmiz xarici investorları inandırmaqdır ki, ölkəmizin qeyri-neft sektoruna daha böyük həcmdə sərmayə qoysunlar. Eyni zamanda, yerli şirkətlər üçün elə gözəl biznes iqlimi yaradılmalıdır ki, Azərbaycan şirkətləri ölkə iqtisadiyyatına böyük həvəslə sərmayə qoysun.

Biz onu da bilirik ki, hazırda iqtisadi inkişafımızın artımının əsas səbəblərindən biri dövlət investisiyalarıdır. Biz bunu edirik, etməliyik, infrastruktur layihələrinə, xidmət sektoruna, digər sahələrə. Ancaq ölkəmizin uğurlu dayanıqlı iqtisadi inkişafı bundan sonra özəl sektor hesabına təmin edilməlidir. Bu vəzifəni mən 9 ayın sosial-iqtisadi yekunlarına həsr edilmiş müşavirədə

səsləndirdim. Bizim əsas vəzifəmiz qeyri-neft sektorunu inkişaf etdirmək və məşğulluğu artırmaqdır. Bunun da çox sadə səbəbi vardır. Müstəqillik günündən bu günə qədər Azərbaycan əhalisi təxminən 3 milyon artıbdır. Bu həm böyük üstünlüyümüzdür, böyük sərvətimizdir, həm də ölkə iqtisadiyyatına, o cümlədən infrastruktura və sosial infrastruktura böyük yükdür. Yeni məktəblər, yeni uşaq bağçaları tikilməlidir, yeni yollar çəkilməlidir. Yolların çəkilişi üçün vaxtilə qanunsuz tikilmiş binalarda yaşayan vətəndaşlar köçürülməlidir. Onlara dövlət tərəfindən kompensasiya verilir. Kompensasiya onları qane etməlidir. Yəni biz bir çox xərclərlə üzləşirik.

Cənubi Qafqazda bizdən başqa, digər ölkələrdə demoqrafik artım yoxdur. Ona görə o ölkələrdə bizim üzləşdiyimiz problemlər də mövcud deyil. Mən dəfələrlə demişəm ki, bizim iqtisadi artımımız demoqrafik artımı üstələməlidir. Buna nail olmaq üçün biz yeni artım mənbələri aşkar etməliyik. Onlardan biri «kölgə» iqtisadiyyatına qarşı mübarizədir. Əfsuslar olsun ki, hələ də «kölgə» iqtisadiyyatı bizim iqtisadiyyatımızın bir hissəsini ehtiva edir. Düzdür, bütün postsovet ölkələrində bu problem var və ölkələr çalışır ki, bu problemlə mübarizə aparılsın. Azərbaycanda «kölgə» iqtisadiyyatına qarşı mübarizə daha mütəşəkkil formada aparılır. Hesab edirəm ki, «kölgə»dən çıxarılacaq biznes, əlbəttə, bizim iqtisadi göstəricilərimizi də düzəldəcək. Yəni göstəricilər reallığı əks etdirəcək. Eyni zamanda, biznes dairələri bilməlidir ki, ölkədə vahid qanunlar, vahid qaydalar mövcuddur. İnhisarçılığa qarşı çox ciddi mübarizə aparılmalıdır. Bəzi hallarda

dövlət məmurları, hansılar ki, eyni zamanda, müxtəlif biznes dairələrinə də kömək göstərirlər, onlar haqsız rəqabət aparırlar. Azərbaycanda inhisarçılığa qarşı mübarizə mütəşəkkil xarakter daşımalıdır. Əgər biz buna nail olsaq, əlbəttə, biznes dairələri üçün daha yaxşı şərait yaradılacaq. Ona görə iqtisadi artımı qeyri-neft sektorunun hesabına təmin etmək, məşğulluğu artırmaq lazımdır.

Hər il on minlərlə yeni iş yeri yaradılır. Məhz buna görə işsizlik Azərbaycanda aşağı səviyyədədir. Ancaq buna baxmayaraq, işsizlik arta bilər. Nəyə görə? Əhali artır və əgər iqtisadi inkişaf artan əhalinin tempi ilə uzlaşmasa, gələcəkdə bizi bir çox problemlər gözləyə bilər. Biz isə öz siyasətimizi strateji hədəflər əsasında qururuq. Bizim siyasətimiz uzunmüddətlidir və siyasətimizin əsas qayəsi odur ki, dayanıqlı inkişaf təmin edilsin.

Bu gün ölkə iqtisadiyyatının 85 faizi özəl sektorda formalaşır. Qeyri-neft sektorumuz da artır, 9 ayda 3,5 faiz artıb, kənd təsərrüfatı 7 faizdən çox artıb, qeyri-neft sənayesi 15 faizdən çox artıbdır. Ancaq biz bilirik ki, ehtiyatlar kifayət qədər böyükdür. Özəl sektorun iqtisadi sahədə payı yüksək olsa da, bilirik, bizdə qeyri-neft ixracı hələ ki, çox aşağı səviyyədədir. Mütləq rəqəmlər artır, amma faiz nisbəti artmır. Bunun səbəbi ondan ibarətdir ki, son illər aparılan uğurlu enerji siyasəti nəticəsində biz daha böyük həcmdə təbii qazı hasil edirik və beləliklə, enerji resurslarının ümumi daxili məhsuldakı payı artır və artacaq, yeni kontraktlar üzrə kəşfiyyat və qazma işləri aparılır. Buna uyğun olaraq qeyri-neft sektoru da, qeyri-

neft ixracı da artmalıdır. Hələ ki, ixracımızın əsas hissəsi neft-qaz və neft məhsulları hesabına təmin edilir. Hesab edirəm ki, Baş Nazirin müavini kimi, siz bu işlərə ciddi fikir verəcək, müvafiq qurumlar arasındakı koordinasiyanı təmin edəcəksiniz.

Siz İqtisadiyyat naziri kimi, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının hazırlanması və icrası ilə bağlı işlərdə fəal iştirak etmisiniz və bu proqramın tərtibatında önəmli rol oynamısınız. Hesab edirəm ki, bu sahə daim diqqətinizdə olmalıdır. Siz bir sıra ikitərəfli hökumətlərarası birgə komissiyaların Azərbaycan tərəfindən həmsədrisiniz. Bu sahədəki fəaliyyətinizi davam etdirməlisiniz. Mənim göstərişimlə bir çox ölkələrə ezam olunaraq, orada Azərbaycanın ixracını təşviq etmək üçün müxtəlif tədbirlər təşkil etmisiniz. Biznes qurumlarına Azərbaycanda istehsal olunmuş ixrac yönümlü malları xarici bazarlara çıxarmaq və satışını təşkil etmək üçün böyük kömək və səylər göstərilir. Bu sahəyə də daim diqqət olmalıdır. Dövlət investisiyalarının məqsədyönlü olması haqqında mən öz sözümü dedim. İnvestisiyalar qeyri-neft sektorunun artımına xidmət etməlidir. Məşğulluğu, artan əhalini işlə təmin etmək üçün şərait yaradılmalıdır.

Mən ümid edirəm ki, siz etimadımı doğruldacaqsınız. Yəni sizin iş təcrübəniz bunu deməyə əsas verir. Siz Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrini çox yaxşı bilirsiniz. Sizdən fəal iş və ciddi nəticə gözləyirəm.

**Ş a h i n M u s t a f a y e v:** Möhtərəm cənab Prezident, ilk növbədə, mənim fəaliyyətimə yüksək qiymət

verdiyinizə görə minnətdarlığımı bildirmək istəyirəm. Dövlət başçısı tərəfindən bir məmur kimi fəaliyyətimə verilən belə yüksək qiymət, haqqımda söylədikləriniz şəxsən mənim üçün ən böyük şərəfdir. Cənab Prezident, istəyirəm Sizə minnətdarlığımı bildirim ki, məni bu yüksək etimada layiq görmüsünüz. Mən Sizi əmin edirəm, əlimdən gələni edəcəyəm ki, bu yüksək etimadınızı doğruldum.

Doğrudan da Azərbaycan möhtəşəm inkişaf yolu keçibdir. Bunu hər kəs, hər bir Azərbaycan vətəndaşı bilir, gündəlik həyatında görür. Müqayisəsiz bir mənzərə mövcuddur – 2003-cü il və 2019-cu il tamamilə başqa mənzərədir. Siz qeyd etdiyiniz kimi, ölkə iqtisadiyyatı 3,3 dəfə artıb, ölkənin əsas maliyyə mənbəyi neft sektoru olduğu üçün bu sektor daha yüksək templərlə inkişaf edib, qeyri-neft sektoru isə aşağı templərlə – 2,8 dəfə artıbdır.

Siz dövlət başçısı kimi fəaliyyətə başladığınız ilk dövrdən məhz iqtisadiyyatın şaxələndirilməsini, qeyri-neft sektorunun inkişafını bir vəzifə kimi, hökumətin qarşısına qoymuşdunuz. Ölkənin potensialını dəfələrlə artırmaqla yanaşı, bu sahədə də genişmiqyaslı işlər görülübdür. Siz burada regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramını xatırlatdınız. Bu proqram Sizin sosial-iqtisadi sahədə ilk proqramlarınızdan biri oldu. Qeyd etməliyəm ki, proqramın icrası nəticəsində ölkənin regionlarının siması, sözün əsl mənasında, dəyişdi, insanların həyat səviyyəsi dəfələrlə artdı. Azərbaycanda yoxsulluğun səviyyəsi 10 dəfəyə yaxın aşağı düşdü və bu gün təqribən 5 faiz təşkil edir. İşsizliyin səviyyəsi də

aşağı düşdü. Digər göstəricilər, ölkədə həyata keçirilən infrastruktur layihələri, yollar – 15 min kilometrə yaxın yol çəkilibdir. Ölkə, sözün əsl mənasında, nəqliyyat qovşağına çevrilibdir. Nəqliyyat sahəsində görülən işlər – Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, dəmir yolunda aparılan yenidən qurulma və təmir işləri, Bakı–Tbilisi–Qars dəmir yolu. Bu nəhəng layihələr ölkənin tranzit imkanlarını genişləndirdi. Mən bu ilin 9 ayının yekunları üzrə göstəricilərin birini xatırlatmaq istəyirəm ki, qeyri-neft tranzit daşımaların həcmi 43 faiz artıbdır. Sahibkarlıq ciddi inkişaf yolu keçib. Bu gün Azərbaycanda orta sinif, möhkəm sahibkarlıq sinfi formalaşıbdır.

Cənab Prezident, Siz oktyabrın 15-də keçirdiyiniz iqtisadi müşavirədə bizim qarşımızda çox aydın vəzifələr qoydunuz. Mən əminəm ki, verdiyiniz tapşırıqların icrası istiqamətində Sizin rəhbərliyinizlə görüləcək işlərin mütləq daha gözəl nəticələri olacaqdır. Sizi əmin etmək istəyirəm ki, bu nəticələrə çatmaq üçün mənə həvalə etdiyiniz sahədə əlimdən gələni əsirgəməyəcəyəm.

Cənab Prezident, Sizə bir daha minnətdarlığımı bildirirəm, çox sağ olun.

**İlham Əliyev:** Sizə uğurlar arzulayıram və sizdən yaxşı nəticələr gözləyirəm.

**ÇEX RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB MİLOŞ ZEMANA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Çexiya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza daim sülh və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *23 oktyabr 2019-cu il*

## İQTİSADİYYAT NAZİRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ MİKAYIL CABBAROV İLƏ GÖRÜŞ

*23 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu İqtisadiyyat naziri vəzifəsinə təyin olunması ilə əlaqədar qəbul etmişdir.*

**İ l h am Ə l i y e v:** Mən qərara gəldim ki, sizi İqtisadiyyat naziri vəzifəsinə təyin edim. Siz müxtəlif vəzifələrdə, o cümlədən İqtisadiyyat Nazirliyində nazir müavini vəzifəsində çalışmısınız, Təhsil naziri, Vergilər naziri kimi fəaliyyət göstərmisiniz. Xüsusilə sizin Vergilər naziri kimi fəaliyyətinizi qeyd etməliyəm. Aparılan islahatlar nəticəsində vergilər sistemində şəffaflıq təmin edilir, biznes dairələri üçün vahid qaydalar tətbiq olunur.

Azərbaycanda sahibkarlığın inkişafı üçün vergilər stimulverici rol oynayır və nəticələr də göz qabağındadır. Bu il Vergilər Nazirliyi plandan əlavə, təqribən 350 milyon manatdan çox vəsait toplayıb və əlbəttə ki, bu, şəffaflığın təzahürüdür. Təbii ki, bu vəsait bizə bu il çox geniş və ciddi sosial paket icra etmək imkanı verdi. Deyə bilərəm ki, bu sosial təşəbbüsün analoqu bu günə qədər olmamışdır. 4 milyon 200 min insan bu sosial təşəbbüsdən faydalanıb, minimum əməkhaqqı təxminən

2 dəfə, minimum pensiya 70 faizdən çox artırılıbdır. Minimum pensiyanın alıcılıq qabiliyyətinə görə biz MDB məkanında 1-ci yerdəyik, amma orta pensiyanın səviyyəsinə görə 3-cü yerdəyik. Yəni bu doğrudan da çox böyük sosial təşəbbüsdür. Əlbəttə, əgər bizim maliyyə imkanlarımız olmasaydı, biz bunu edə bilməzdik.

Bütün bunları nəzərə alaraq, mən sizi İqtisadiyyat naziri vəzifəsinə təyin edirəm. Bu çox məsuliyyətli vəzifədir. Əlbəttə, Azərbaycan iqtisadiyyatının bundan sonra qeyri-neft sektoru hesabına inkişafı bizim əsas prioritetimizdir.

Hələ ulu öndər Heydər Əliyev vaxtilə demişdir ki, iqtisadiyyatı güclü olan ölkə hər şeyə qadirdir. Bu, tam həqiqətdir və bu gün bizim siyasi müstəqilliyimizin təməlində iqtisadi müstəqillik dayanır. Mən bunu öz çıxışlarımda dəfələrlə demişəm. Əgər bizim iqtisadiyyatımız kənar dairələrdən asılı olsaydı, biz uğurlu siyasi kurs icra edə bilməzdik. Bizim siyasi müstəqilliyimizin, o cümlədən xarici siyasətdə apardığımız prinsipial mövqenin əsas baza prinsipi iqtisadi müstəqilliyimizdir. Mən Prezident kimi, ilk illərdən iqtisadi müstəqilliyə nail olmaq üçün çalışmışam, müvafiq göstərişlər vermişəm. Bu gün Azərbaycan iqtisadi baxımdan, o cümlədən siyasi baxımdan heç kimdən, heç bir ölkədən asılı deyil, prinsipial müstəqil siyasət aparır, o siyasət ki, Azərbaycan xalqının maraqlarını təmin edir. Azərbaycan xalqının maraqlarını, dövlət maraqlarını bütün beynəlxalq tribunalardan müdafiə etmək üçün, əlbəttə, bizim iqtisadi imkanımız olmalıdır.

Biz indi dünyada gedən proseslərə diqqətlə baxırıq və görürük ki, hansı ölkələr iqtisadi cəhətdən başqa ölkələrdən, yaxud da beynəlxalq maliyyə qurumlarından asılıdırsa, o ölkələr müstəqil siyasət apara bilməz, o ölkələr bir növ böyük ölkələrin girovuna, alətinə çevrilir. O ölkələrin hökumətlərini bəzi hallarda öz xalqına, öz milli maraqlarına görə istifadə etmək üçün onlara təzyiq edilir və onlar bu təzyiqə davam gətirə bilmir. Bizə də təzyiq göstərilir və mənim Prezident kimi fəaliyyətimin bütün dövrlərində göstərilən təzyiqlə üzləşmişik. Ancaq buna davam gətirə bilmişik, müqavimət göstərmişik, öz sözümüzü demişik və heç bir təzyiq, heç bir hədə-qorxu, heç bir təhdid bizim siyasətimizə təsir edə bilməz. Nə üçün? İlk növbədə, biz xalqın dəstəyinə arxalanırıq. Son müddət ərzində keçirilən rəy sorğuları göstərir ki, bizim hökumətimizə ictimai dəstək nə qədər yüksəkdir. O cümlədən Davos Dünya İqtisadi Forumunun son hesabatında – mən bunu səsləndirdim – hakimiyyətə olan inam baxımından biz dünya miqyasında ön sıralardayıq. Ona görə iqtisadi müstəqillik bizim üçün əsas vəzifə olaraq qalır. Buna nail olmaq üçün biz gələcək illərdə çox böyük səy göstərməliyik.

Bizim iqtisadiyyatımızın əsas hissəsini neft-qaz sektoru təşkil edir. Bu təbiidir. Bu, demək olar ki, neft-qazla zəngin olan bütün ölkələrdə müşahidə edilən mənzərədir və bu faktdır. Bəzi hallarda bunu mənfi amil kimi yozurlar. Mən bunu mənfi amil kimi qəbul edə bilmərəm, çünki məhz neft-qaz sektorunun inkişafı hesabına biz böyük infrastruktur layihələri icra etmişik, neft-qaz sektorunun gəlirləri hesabına 300 mindən çox

köçkünü yerləşdirmişik, ordumuzu gücləndirmişik, böyük sosial layihələri icra etmişik. Əgər bizdə neft-qaz sektoru olmasaydı, yaxud da ki, bu sektoru inkişaf etdirməsəydik, biz nəyin hesabına inkişaf edəcəkdik? Yoxsa kimsə gəlib bizə arxamı duracaqdı?! Hansısa ölkə, yaxud da ki, beynəlxalq maliyyə qurumu bizə köməkmi edəcəkdi?!

Biz o illəri yaxşı xatırlayırıq. Ötən əsrin 90-cı illərində bizim pulumuz yox idi və biz beynəlxalq maliyyə qurumlarından, böyük dövlətlərdən bir növ, asılı idik. Onlar da bəzi hallarda bizə diktə etməyə çalışırdı. Ona görə iqtisadi müstəqillik mənim siyasətimin ana xəttini təşkil edir. Bu bizə güc verir, inam verir, xalqımız təhlükəsizlik şəraitində yaşayır və biz ölkə üçün vacib olan bütün layihələri icra edirik.

İndiki dövrü mən şərti olaraq, postneft dövrü adlandırardım. Ona görə yox ki, bizim neftimiz tükənir, əksinə, bizim ehtiyatlarımız kifayət qədər yüksəkdir, o cümlədən qaz ehtiyatlarımız 2,6 trilyon kubmetrə bərabərdir. Yeni kontraktlar imzalanıb, kəşfiyyat işləri aparılır və neft-qaz sektorumuz bundan sonra da ölkəmizin həyatında önəmli rol oynayacaq. Ona görə mən indiki dövrü postneft-qaz dövrü adlandırıram ki, bizim siyasətimizdə bu sahə kənara qoyulmalıdır. Bu sahədə nə lazım idisə gördük – Bakı–Tbilisi–Ceyhan neft, Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri, «Cənub Qaz Dəhlizi» tarixi layihələrdir. Bunları biz görmüşük. İndi bu layihələrin faydasını biz və gələcək nəsillər görəcəkdir. Ancaq biz iqtisadi inkişafımızı qeyri-neft sektoru üzərində qurmalıyıq və burada, əlbəttə ki,

aparıcı rol İqtisadiyyat Nazirliyinin üzərinə düşür. Əminəm ki, İqtisadiyyat naziri kimi, siz bu tapşırıqları yerinə yetirəcəksiniz.

Bizim iqtisadiyyatımız dayanıqlı olmalıdır. İndiki iqtisadi artım templəri məni qane etmir. Düzdür, bunun obyektiv səbəbləri vardır. Hazırda neftin hasilatının bir qədər aşağı düşməsi nəticəsində ümumi daxili məhsulda müəyyən dərəcədə yavaşıma vardır. Ancaq 9 ayda ümumi daxili məhsul 2,5 faiz artıb, amma qeyri-neft sektorunda 3,5 faiz. Hesab edirəm ki, bu, pis göstərici deyil. Ancaq bizi qane etmir. Düzdür, kənd təsərrüfatı 7 faizdən çox, qeyri-neft sənayesi 15 faizdən çox artıb. Bu çox müsbət haldır. Ancaq biz elə etməliyik ki, bu inkişaf dayanıqlı olsun. Buna nail olmaq üçün bundan sonra da çox ciddi islahatlar aparılmalıdır.

İslahatlara alternativ yoxdur. Mən yeni iqtisadi model haqqında öz andiçmə mərasimimdə fikirlərimi ifadə etmişəm. Əsas konturlar o vaxt müəyyən olunub. Ondan sonra aparılan islahatlar, o cümlədən kadr islahatı bu məqsədi güdür. Kadr islahatı labüddür, bu qaçılmazdır. Çünki biz XXI əsrdə köhnə təfəkkürlə uğurlara imza ata bilmərik. Əlbəttə, yeni, savadlı, bilikli, müasir kadrlar ilk növbədə, vətənə bağlı olmalı, hər hansı bir xarici təsirdən azad və vətənpərvər olmalıdırlar ki, vətənin inkişafı üçün öz səylərini göstərə bilsinlər.

Əsas vəzifələr bundan ibarətdir. Deyə bilərəm ki, islahatlar yaxşı nəticələr verir. Bu ilin 9 ayında 100 mindən çox əmək müqaviləsi qeydiyyata alınıb. Bu nə deməkdir? Yəni bu 100 min insan «kölgə» iqtisadiyyatında fəaliyyət göstərirdi. Onlar zərflərdə maaş alır-

dılar. Bəzi hallarda onlara yazılan aşağı maaş reallığı əks etdirmirdi. Bu bizim iqtisadiyyatımızı təhlükə altına qoyur. Bir də ki, bu insanlar gələcəkdə pensiyaya çıxacaqlar. Bəs onların pensiya haqqı nəyin hesabına hesablanacaq? Ona görə mən o cümlədən, muzdla işləyən vətəndaşlara da üz tutub deyirəm: bu işlərə baş qoşmayın. Əgər hansısa sahibkar sizə tutaq ki, 500 manat maaş verir və onun 250 manatını rəsmi qaydada verirsə, siz buna razı olmayın. Çünki sabah pensiya almayacaqsınız. Sosial sığorta problemi olacaq. Biz indi icbari tibbi sığortaya keçirik. Orada da problem yaranacaq. Əlbəttə, burada nəzarət daha güclü olmalıdır. Hesab edirəm ki, 100 mindən çox iş yerinin rəsmiləşdirilməsi ilə bu iş yerlərini, o cümlədən o sahibkarların fəaliyyətini biz «kölgə»dən çıxarırıq. Bu iş yerlərinin 80 faizi qeyri-neft sektorunda qeydiyyata alınıb. Hələ ki, ən azı on minlərlə insan indi, demək olar ki, bir növ «kölgə» iqtisadiyyatında fəaliyyət göstərir.

Bu sahə çox ciddi diqqət tələb edir, çox ciddi addımlar atılmalıdır. Əminəm ki, İqtisadiyyat Nazirliyi bu məsələnin öhdəsindən gələcək. Ümumiyyətlə, bizim iqtisadi inkişafımız bundan sonra da qeyri-neft sektoru hesabına davam etdirilməlidir. Buna nail olmaq üçün son illər böyük işlər görülüb, sənaye zonaları yaradılıb və orada xüsusi vergi rejimi tətbiq olunur. Aqroparklar yaradılıb və orada da məhsuldarlıq daha yüksəkdir. Ancaq bütün bu işləri biz ilk növbədə, biznesin inkişafı prizmasından həll etməliyik. Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə hələ ki, belə

deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyili, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun. Sahibkarlara yönəlmiş o çirkin əllər gərək kəsilsin. Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə bölgələrdə. Əgər kimsə özü üçün bir balaca iş qurursa, gəlib zəli kimi onun bədənindən yapışır, qanını sorurlar. Belə adamlara qarşı çox ciddi tədbirlər görüləcəkdir. Hüquq-mühafizə orqanları artıq məndən çox ciddi tapşırıq alıb və siz nazir kimi çalışmalısınız ki, belə hallara yol verilməsin, əgər yol verilərsə, dərhal məni məlumatlandırın. Belə yaramaz məmurlara qarşı ən ciddi sanksiyalar və tədbirlər görüləcəkdir. Biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa, heç bir ödəniş ola bilməz.

Eyni zamanda, haqsız rəqabət də bizim üçün böyük problem yaradır. Buna təkan verən dövlət məmurlarıdır, hansıların ki, biznes maraqları vardır. Onlar öz imkanlarından istifadə edərək, rəqibləri sıradan çıxarır, bəzi hallarda şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olub ya bizneslərini satırlar, ya da ki, çıxıb gedirlər. Buna da yol vermək olmaz, heç kimdən çəkinməyin. Mən bilirəm, sizə nazir kimi, xüsusilə Vergilər naziri kimi, bəziləri təzyiqlər göstərməyə çalışırdılar ki, bizim biznesimizə dəymə. Mən bilirəm ki, siz onların qarşısında çox mətanətlə çıxış etmisiniz. Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib

ola bilməz. Bir imtiyaz var: vergini vermək, vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək.

Ona görə sizin qarşınızda çox böyük vəzifələr dayanır. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafı bizim üçün hazırda əsas prioritet məsələdir. Dediyim kimi, bu, imkan verəcək ki, biz sosial sahəyə daha böyük vəsait ayıraq.

**M i k a y ı l C a b b a r o v:** Möhtərəm cənab Prezident, Sizə dərin təşəkkürümü bildirirəm. İlk növbədə, göstərdiyiniz etimada görə təşəkkür edirəm. Məsuliyyətimi tam şəkildə dərk edirəm. Sizin rəhbərliyinizlə indiyə qədər gördüyümüz işlərdə əldə etdiyimiz nailiyyətlər Sizin dəstəyinizin, həmkarlarımın gərgin işinin nəticəsidir. Olan çatışmazlıqlar isə mənim üzərimə düşən məsuliyyətdir.

Fəaliyyətimizə verdiyiniz qiymət mənim üçün ən böyük şərəfdir. Sizin rəhbərliyinizlə, həmkar nazirlik və dövlət təsisatlarımızla birlikdə biz ölkəmizin dayanıqlı və davamlı inkişafının, iqtisadi inkişafının təmin edilməsi üçün Sizin tapşırdığınız prinsiplər əsas götürülməklə fəaliyyət göstərəcəyik. Söz verirəm ki, bu məqsədlər üçün səylərimi əsirgəməyəcəyəm.

İqtisadiyyatımızın rəqabətliliyini daim artırmağı, iqtisadi müstəqilliyimizi daim möhkəmləndirməyi, iqtisadiyyatı inkişaf etdirməyi əsas vəzifəm kimi qəbul edirəm. İnanıram ki, iqtisadiyyatı inkişaf etdirmək dövlət və vətəndaşların gəlirlərinin və imkanlarının artırılmasının yeganə yoludur. Sizin kimi siyasi liderin, möhtərəm cənab Prezident, hökumətində yer tutmaq mənim üçün ən böyük şərəfdir. Bir daha yüksək etimadınıza görə Sizə dərin təşəkkürümü bildirmək istəyirəm.

**İ l h a m  Ə l i y e v:** Sağ olun. Sizə uğurlar arzulayıram. Əminəm ki, nəticələr yaxşı olacaqdır.

## İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ CAVAD ZƏRİFİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərifin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı Azərbaycan ilə İran arasında dostluq və mehriban qonşuluq münasibətlərinin olduğunu qeyd edərək, əməkdaşlığımızın mövcud səviyyəsinin məmnunluq doğurduğunu vurğuladı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında Şimal–Cənub, Cənub–Qərb nəqliyyat dəhlizləri çərçivəsində əməkdaşlıq üçün böyük imkanların olduğunu bildirdi. Dövlət başçısı Azərbaycan ilə İran arasında iqtisadi-ticari əlaqələrin inkişafında hökumətlərarası birgə Komissiyanın rolunu qeyd etdi və Komissiyanın eyni tərkibdə bundan sonra da fəaliyyətini davam etdirəcəyini vurğuladı.*

*İran İslam Respublikasının Xarici İşlər naziri Cavad Zərif Prezident Həsən Ruhaninin səmimi salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Prezident Həsən Ruhaninin «Qoşulmama Hərəkatı»nın ölkəmizdə keçiriləcək XVIII Zirvə görüşündə*

*iştirak etmək üçün yaxın günlərdə Azərbaycana səfər edəcəyini bildirərək, səfər çərçivəsində dövlətimizin başçısı ilə görüşünün əlaqələrimizin daha da inkişafına töhfə verəcəyini diqqətə çatdırdı.*

*Cavad Zərif «Qoşulmama Hərəkatı»nın Bakı Zirvə görüşünün Azərbaycan tərəfindən yüksək səviyyədə təşkil olunacağına əminliyini ifadə etdi və 2019–2022-ci illərdə ölkəmizin «Qoşulmama Hərəkatı»na sədrliyi uğurla aparacağını söylədi.*

*Prezident İlham Əliyev İran İslam Respublikası Prezidentinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını İran Prezidentinə çatdırmağı xahiş etdi. Dövlət başçısı «Qoşulmama Hərəkatı»nın Bakıda keçiriləcək Zirvə görüşü çərçivəsində Prezident Həsən Ruhani ilə görüşünü məmnuniyyətlə gözlədiyini bildirdi.*

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ ƏNVƏR QARQAŞIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Xarici İşlər üzrə Dövlət naziri Ənvər Qarqaşın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaq Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın salamlarını və ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın Prezident İlham Əliyevə dərin hörmət və ehtiram bəslədiyini qeyd etdi.*

*Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətli inkişaf yolu ilə getdiyini söyləyən qonaq bütün bunlara dövlət başçısının yüksək idarəçilik qabiliyyəti və yorulmaz fəaliyyəti nəticəsində nail olunduğunu diqqətə çatdırdı. O, 120 min nəfər BƏƏ vətəndaşının ölkəmizə turizm məqsədilə səfər etdiyini vurğulayaraq, Azərbaycanın Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları üçün mühüm turizm məkanlarından birinə çevrildiyini bildirdi.*

*Dövlət başçısı Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin dost və tərəfdaş dövlətlər olduğunu qeyd etdi. Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirlikləri rəhbərliyinin ölkənin inkişafı istiqamətində böyük baxışa malik olduğunu, şəhər quruculuğu, infrastruktur və digər meyarlar baxımından Birləşmiş Ərəb Əmirliklərinin nümunəvi inkişafa nail olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə çatdırmağı xahiş etdi.*

## AKADEMİK RAMİZ MEHDİYEV İLƏ GÖRÜŞ

*23 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 23-də akademik Ramiz Mehdiyevi qəbul edən zaman və ona «Heydər Əliyev» ordenini təqdim etmişdir.*

**İ l h a m  Ə l i y e v**: Hörmətli Ramiz müəllim, siz uzun illərdir ki, müxtəlif məsul vəzifələrdə işləyirsiniz. Həm sovet, həm də müstəqillik dövründə ölkəmizin inkişafına böyük töhfələr vermisiniz. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev sizi hələ gənc yaşlarınızda önəmli vəzifələrə təyin etmişdir. Yaxşı bilirsiniz ki, Heydər Əliyev kadrların seçilməsində çox tələbkar idi və onun bir sıra çox ciddi meyarları vardı. Sizi gənc yaşlarında önəmli vəzifələrə təyin etməklə onu göstərirdi ki, siz buna layiqsiniz. Siz gənc, istedadlı kadr kimi, ulu öndərin rəhbərliyi ilə həm sovet dönəmində, həm də müstəqillik dövründə işləmisiniz. Xatırlayıram ki, sovet dövründə, ötən əsrin 70-ci illərində siz Bakımızın əsas rayonu olan, o vaxt «26 Bakı Komissarı» adlandırılan, indiki Səbail rayonunun birinci katibi təyin olunmusunuz və bu vəzifədə böyük uğurlar əldə etmisiniz. Ondan sonra ulu öndər sizi Mərkəzi Komitəyə dəvət edib sizi təşkilat şöbəsinin rəhbəri vəzifəsinə irəli çəkdi. Bu, Mərkəzi

Komitənin bəlkə də ən aparıcı şöbəsi idi. Çünki bu şöbədə kadr hazırlığı məsələləri diqqət mərkəzində idi. Heydər Əliyev Moskvada Siyasi Büroda işə başlayanda bilirsiniz ki, onun tövsiyəsi ilə siz Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin ideologiya üzrə katibi vəzifəsinə təyin olunmusunuz. Bu da çox önəmli vəzifə idi, yəni ideoloji işlərə rəhbərlik edirdiniz. Təbii ki, ulu öndər Heydər Əliyev əsassız olaraq bütün vəzifələrdən çıxarılandan sonra sizi də vəzifədən azad etdilər və yalnız Heydər Əliyev Azərbaycanda hakimiyyətə qayıdandan sonra o yenə də sizi dəvət etdi. Bu, böyük bir inamın təzahürü idi. Çünki siz də yaxşı bilirsiniz, mən də yaxşı bilirəm ki, o vaxt Heydər Əliyevin yetişdirdiyi, böyük vəzifələr verdiyi bir çox kadrlar ona sadiq çıxmadılar və o, 1993-cü ildə hakimiyyətə qayıdandan sonra həmin kadrlara etibar etmədi. Bir halda ki, sizi dərhal vəzifəyə təyin etdi, deməli, o həm sizə inanırdı, həm də xalqımız üçün həmin ağır illərdə siz ulu öndərə öz sədaqətinizi saxlamısınız və onun rəhbərliyi altında işlədiyiniz dövr ərzində bunu sübut etmisiniz. Heydər Əliyev tərəfindən Prezident Administrasiyasının rəhbəri vəzifəsinə təyin olunmusunuz və bu çox önəmli məsul işdə böyük nailiyyətlər əldə etmisiniz. Son 16 il ərzində isə biz birlikdə işləyirik. Demək olar ki, hər gün əlaqədəyik, gündə bir neçə dəfə təmasdayıq. Ölkəmizin uğurlu, hərtərəfli inkişafında sizin çox böyük və danılmaz rolunuz var. Mənim sizə böyük hörmətim vardır. Siz həmişə dövlətçiliyi hər şeydən üstün tutmusunuz və bu gün Azərbaycan dövləti inkişaf

edir, qarşıda duran bütün vəzifələr icra olunur. Bu vəzifələrin icrasında sizin böyük rolunuz vardır.

Ancaq həyat yerində durmur, artıq yaşınız 80-i keçib və siz də həmişə deyirdiniz ki, biz gərək gəncləri irəli çəkək, gənclərə yol verək, onlar da yetişsinlər ki, bizim inkişafımız uzunmüddətli olsun. Gənclər elə yetişməlidir ki, gələcəkdə onlar ölkəmizi layiqincə idarə edə bilsinlər. Gənclər milli ruhda tərbiyə olunmalıdır. İndi siz də yaxşı bilirsiniz, qloballaşma adı altında, demək olar ki, bəzi ölkələrin, xalqların milli mənliyi silinmək təhlükəsi ilə üzləşib. Qloballaşma adı altında eyniləşmə gedir, bəzi xalqlara yad olan dəyərlər aşılanır və biz buna müqavimət göstəririk. Biz elə gənclər yetişdirməliyik ki, onlar Vətənə, xalqa bağlı olsunlar, müstəqilliyi hər şeydən üstün tutsunlar. Ona görə də gənc kadrların qabağa çəkilməsi onlara imkan verir ki, həm təcrübə toplasınlar, həm də artıq yaşlı kadrlar öz məsləhətlərini verməklə, onları düzgün yola istiqamətləndirsinlər.

Mən bilirəm ki, siz elmi işlərlə də fəal məşğulsunuz, bir çox böyük elmi əsərlərin müəllifisiniz. Bilirəm, sizin də istəyiniz ondan ibarətdir ki, bundan sonra elmi işlərlə məşğul olasınız. Sizin çox böyük potensialınız var, müəllifi olduğunuz kitablar çox böyük diqqət və qiymətə layiqdir.

Xalq, dövlət qarşısında göstərdiyiniz xidmətlərə görə mən sizi bu gün dövlətimizin ən ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif edirəm. Siz bilirsiniz ki, bu orden bir çox hallarda xarici dövlət və hökumət başçılarına verilir, hər kəsə yox. Bu orden doğrudan da xalqımızın, dövlətimizin dostlarına,

ikitərəfli əlaqələrin inkişafında xüsusi rol oynamış dövlət və hökumət başçılarına, ziyalılara, incəsənət xadimlərinə verilir. Ona görə bu ordenin sizə verilməsi, əlbəttə ki, xüsusi məna daşıyır, siz buna layiqsiniz. İlk növbədə, ona görə ki, uzun illər ərzində ulu öndər Heydər Əliyevə və dövlətə sədaqətlə xidmət etmisiniz. Ulu öndərin adını daşıyan bu orden sizə bütün əsaslar olmaq şərtilə verilir. Əminəm ki, siz gələcək fəaliyyətinizdə də ümumi işimizə dəyərli töhfələr verəcəksiniz. İndi isə icazə verin, bu ordeni sizə təqdim edim.

*Prezident İlham Əliyev «Heydər Əliyev» ordenini Ramiz Mehdiyevə təqdim etdi.*

**R a m i z M e h d i y e v:** Hörmətli cənab Prezident! Sizə xüsusi təşəkkür edirəm ki, məni dövlətimizin ən yüksək mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif etdiniz. Heydər Əliyev Azərbaycan tarixində yaşayıb-yaratmış görkəmli ictimai və siyasi xadimlər sırasında ümummilli lider səviyyəsinə yüksəlmiş yeganə şəxsiyyətdir. Onun adına təsis olunmuş bu ali ordenlə təltif olunmaq hər bir dövlət qulluqçusunun, hər bir ictimai və siyasi xadimin arzu etdiyi ali mükafatdır. Bu tarixi məqamı mənə yaşatdığınıza görə bir daha Sizə minnətdarlığımı bildirir, Azərbaycanın inkişafında bundan sonra da yeni nailiyyətlər və uğurlar arzulayıram. Müstəqil Azərbaycan dövlətinin banisi və qurucusu olmuş, xalqımızın qəlbində əbədi məskən salmış ulu öndərin xatirəsi saydığım bu ali mükafat mənim həyatda nail olduğum və qazandığım ən böyük mükafatdır. Buna görə

Sizə, cənab Prezident, bir daha öz dərin təşəkkürümü bildirirəm.

Sizə məlum olduğu kimi, cənab Prezident, həyatımın 54 ilini dövlət qulluğunda keçirmişəm. Onun iyirmi doqquz ilini ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında, son 16 ildə isə bilavasitə Sizin rəhbərliyiniz altında çalışmışam. Həyata keçirdiyiniz siyasi-iqtisadi, sosial-mədəni kursun böyük uğurlu nəticələr verdiyinin bilavasitə şahidi olmuşam. Sizin silahdaşınız olaraq çalışmışam ki, tapşırıqlarınızı vaxt itirmədən icra edim. Deyə bilərəm ki, Sizin, cənab Prezident, nadir siyasi şəxsiyyət və görkəmli dövlət rəhbəri kimi fəaliyyətinizi və qiymətinizi gördüyünüz işlər müəyyən edir. Mərd və genişürəkli xalqımız da buna böyük qiymət verir.

Son 16 il ərzində Azərbaycan Sizin rəhbərliyinizlə modernləşərək, yeni bir keyfiyyət mərhələsinə qədəm qoydu. Ölkənin siyasi, iqtisadi, mədəni həyatı yenilənərək, kökündən dəyişdi. Bu da Azərbaycan xalqının həyat səviyyəsini yüksəltdi, onun problemlərinin böyük qismini həll etdi və dövlətlə xalqı vahid bir platformada birləşdirdi.

Sizin nümayiş etdirdiyiniz praqmatizm, çevik və ağıllı dövlət siyasəti, sistemli və ardıcıl yanaşma ölkəmizin milli maraqlarının təmin olunmasında önəmli rol oynamış və onun müasir inkişafını təmin etmişdir.

Dövlətin idarə olunmasında, milli maraqların qorunmasında nümayiş etdirdiyiniz uzaqgörənlik, prinsipiallıq, daxili siyasətdə təlqin etdiyiniz yüksək idarəçilik, ciddi və humanist yanaşma bir siyasətçi olaraq, Sizin həm siyasətinizi, həm də şəxsiyyətinizi xarakterizə

edən ali keyfiyyətlərdir. Biz dünya tarixində öz dəstxəti ilə dərin iz buraxmış məşhur dövlət başçılarının simasında müşahidə etdiyimiz bütün əsas və ən yüksək keyfiyyətləri bu 16 il müddətində, möhtərəm cənab Prezident, Sizdə müşahidə etmişik. Tarix elə gətirdi ki, üçüncü minilliyin başlanğıcında Heydər Əliyevin qurduğu müstəqil Azərbaycan dövlətini idarə etmək və gələcəyə aparmaq Sizə nəsib oldu.

Azərbaycanı modernləşdirmək, XXI əsrin çağırışlarının tələblərini nəzərə alaraq, xalqımızı öz ətrafınızda birləşdirmək, dövlətimizi yeni inkişaf mərhələsinə qovuşdurmaq missiyası məhz Sizə nəsib oldu. Bu gün heç kim inkar edə bilməz ki, cənab Prezident, Siz bu ali və tarixi missiyanın öhdəsindən layiqincə gəldiniz.

Əgər ümummilli lider müstəqil Azərbaycan dövlətinin banisi kimi, öz adını tarixə yazdırdısa, Siz müasir və inkişaf etmiş Azərbaycan dövlətinin qurucusu olaraq, tarixə düşdünüz. Böyük dövlət təşkilatçısı olaraq, Siz xalqımızın daxili enerjisini ölkəmizin qarşısında duran vəzifələrin həlli üçün bacarıqla səfərbər edirsiniz. Bu gün Azərbaycan Sizin səylərinizlə inkişaf etmiş ölkələrin siyahısına daxil olubdur.

Çoxşaxəli və uğurlu siyasi fəaliyyətinizin nəticəsi olaraq, Sizin beynəlxalq sahədə çox böyük nüfuzunuz vardır. Bunu böyük dövlət başçıları da qeyd edir, xarici mətbuat və nüfuzlu beynəlxalq qurumların rəhbərləri də bildirirlər, Sizi islahatçı Prezident adlandırırlar.

Son 100 ildə ulu öndər Heydər Əliyevlə birlikdə Siz Azərbaycan tarixinə düşmüş ən görkəmli siyasi lider sayılırsınız. Azərbaycan vətəndaşları böyük qürur hissi

keçirirlər ki, xalqımızın belə siyasi rəhbəri ilə bir dövrdə yaşayırlar.

Siz müstəqil Azərbaycanın dövlət qulluğu sisteminin yeni bir sivil ənənəsini yaratdınız. Bu gün bütün Azərbaycan cəmiyyəti uzun müddət Azərbaycan dövlətçiliyinə xidmət göstərmiş, dövlət qulluğu sistemində məsuliyyətlə və sədaqətlə çalışmış yüksəkvəzifəli şəxslərin ölkə Prezidenti tərəfindən hansı hörmət və izzətlə yola salınması prosedurundan danışır. İnanıram ki, bu ənənə gələcəkdə də dövlət–cəmiyyət münasibətlərində öz xoş izlərini buraxacaq. Bu ənənə vəzifəyə təyin olunan insanlar üçün hansı xoş əhval-ruhiyyəni bəxş edirsə, vəzifəsini başa vurub təqaüdə gedən insanlar üçün də eyni xoş ovqatı aşılayacaqdır. Bu ənənəni yaratdığınız üçün, cənab Prezident, Siz böyük şəxsiyyət kimi, bir daha ucaldınız.

Fürsətdən istifadə edib mənim ünvanıma səsləndirdiyiniz bütün xoş sözlərə görə Sizə dərin təşəkkürümü bildirirəm. Sizi əmin etməyi özümə borc bilirəm ki, mən Heydər Əliyevlə və onun davamçısı kimi, şəxsən Sizinlə birlikdə çalışmağı həmişə özümə şərəf saymışam. Bu xidmətin məsuliyyətini həmişə dərindən dərk etmişəm. Çalışmışam ki, mənim rəhbərlik etdiyim sahələrdə bütün işlər yürüdülən siyasətə uyğun olsun. Mənim fəaliyyətimdə dövlətçilik prinsipi bütün dövrlərdə ümdə olub. Hesab edirəm ki, harada işləməyimdən asılı olmayaraq, hər an məsuliyyət hissini gözləmişəm, ciddi, tələbkar və təvazökar olmağa çalışmışam. Əlbəttə, hər bir digər məmur kimi, mənim də görə biləcəyim işlərin həddi var

və indiyə qədər nəyə nail ola bilmişəmsə, o haqda Siz artıq öz fikirlərinizi bildirdiniz.

Sizi əmin etmək istəyirəm ki, möhtərəm cənab Prezident, bundan sonrakı həyat və fəaliyyətimdə də mən həmişə ümummilli liderin siyasətini, Sizin həyata keçirdiyiniz siyasi kursu rəhbər tutaraq, əlimdən gələni əsirgəməyəcəyəm. Sizin həyata keçirdiyiniz siyasət Azərbaycan dövlətinin inkişafına və xalqımızın firavan, təhlükəsiz həyatının qurulmasına xidmət göstərir. Ona görə də düşünürəm ki, hansı mövqedə fəaliyyət göstərməsindən asılı olmayaraq, Vətənini sevən hər bir azərbaycanlı bu kursu dəstəkləməli, Sizin ətrafınızda olmalı və dövlətçiliyə xidmət etməlidir.

Siz Azərbaycan xalqının, dövlətinin şərəfli Prezidentisiniz. Öz dövlətimizə bütün səylərimizlə xidmət etməliyik və onu qorumalıyıq. Təşəkkür edirəm.

**İlham Əliyev**: Sağ olun, Ramiz müəllim. Mən də xoş sözlərə görə təşəkkür edirəm. Bir daha mükafat münasibətilə sizi təbrik edirəm.

**Ramiz Mehdiyev:** Çox sağ olun, cənab Prezident.

## AKADEMİK AKİF ƏLİZADƏ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də akademik Akif Əlizadəni qəbul etmiş və ona 1-ci dərəcəli «Əmək» ordenini təqdim etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Hörmətli Akif müəllim, dünən siz öz ərizənizlə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti vəzifəsindən istefa vermisiniz. Mən bu gün sizi dəvət etdim ki, apardığınız işlərə görə sizə təşəkkürümü bildirim.

**A k i f  Ə l i z a d ə:** Xoş gördük, cənab Prezident! Çox sağ olun.

**İ l h a m  Ə l i y e v:** Siz uzun illərdir ki, Azərbaycan elminin inkişafında çox önəmli rol oynayırsınız, həm sovet, həm də müstəqillik dövründə. Siz böyük alimsiniz, böyük təşkilatçısınız. Azərbaycanda elmi kadrların hazırlanmasında da çox böyük işlər görmüsünüz. Sizin gördüyünüz işlər Azərbaycan dövləti tərəfindən yüksək qiymətləndirilir. Siz həm sovet, həm də müstəqillik dövründə müxtəlif təltiflərə layiq görülmüsünüz.

Bu gün də Siz Azərbaycan elminin inkişafı üçün öz dəyərli töhfənizi verirsiniz. Biz Azərbaycan elminin inkişafı ilə bağlı sizinlə bir çox söhbətlər etmişik və mənim Azərbaycan elminin inkişafına münasibətimi bi-

lirsiniz. Elmin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində son illər çox böyük işlər görülüb – institutların təmiri, müasir avadanlıqların alınması və digərləri. Hesab edirəm ki, bizim elmimizə ən gözəl hədiyyə müasir elmi kitabxanadır. Onun təməlini də mən qoymuşam, açılışında da iştirak etmişəm. Azərbaycan Milli Ensiklopediyasının hazırlanması işi də, bilirsiniz ki, mənim təşəbbüsümlə baş verir və ensiklopediya üçün çox gözəl müasir bina da təqdim etmişik.

Siz mənim tərəfimdən böyük dövlət mükafatları ilə, ordenlərlə təltif edilmisiniz və buna layiqsiniz. «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif olunmusunuz. Bu gün isə mən gördüyünüz işlərə görə sizi Azərbaycanın yüksək ordeni olan 1-ci dərəcəli «Əmək» ordeni ilə təltif edirəm.

**A k i f  Ə l i z a d ə:** Cənab Prezident, təşəkkür edirəm.

*Prezident İlham Əliyev 1-ci dərəcəli «Əmək» ordenini Akif Əlizadəyə təqdim etdi.*

**İ l h a m  Ə l i y e v:** Təbrik edirəm.

**A k i f  Ə l i z a d ə:** Cənab Prezident, əlbəttə, hər şeydən əvvəl mən Sizə böyük etimada görə təşəkkür edirəm. Bilirsiniz, 60 ildən artıqdır ki, mən akademiyada çalışıram. Ulu öndər ötən əsrin 70-ci illərində məni yanına dəvət etdi, xeyli söhbətimiz oldu. Siz Azərbaycan üçün çox böyük işlər görmüsünüz, cənab Prezident. Mən çalışdım ki, var qüvvəmlə, bütün varlığımla dövlətimizə, elmimizə, Sizə xidmət edim, edirəm də, son nəfəsimə qədər edəcəyəm də.

Akademiyada Sizin dəstəyinizlə dirçəliş vardır. Siz bu işə də böyük dəstək verdiniz, cənab Prezident. 2005–2006-cı illərdən sonra böyük, dinamik hərəkət başlandı, onun zirvəsi də yeni kitabxana oldu. Ondan MDB-də yoxdur. O binalar akademiyaya böyük hədiyyə idi.

**İlham Əliyev:** O vaxt akademiyanın bəzi binaları başqa qurumlar tərəfindən zəbt edilmişdi. Mən onlardan alıb sizə qaytardım.

**Akif Əlizadə:** Bəli, qaytardınız. Onlar akademiyanın bəzi institutlarını da zəbt edirdilər, özəlləşdirirdilər.

**İlham Əliyev:** Zəbt edirdilər, özəlləşdirirdilər, onları sökmək istəyirdilər. Çünki o yerlər şəhərin mərkəzində idi. Orada binalar tikmək istəyirdilər.

**Akif Əlizadə:** Bəli, tamamilə düzdür. Mən Sizə müraciət etdim, Siz onların hamısını dərhal akademiyaya qaytardınız. Sizə böyük texnopark məsələsinə görə də təşəkkür edirəm. O, akademiyanın gələcəyidir. İndi bizim orada hərbi təyinatlı işlərimiz, həmçinin Müdafiə Nazirliyi ilə müqaviləmiz də var. Sonra Sərhəd Qoşunları, Kənd Təsərrüfatı Nazirliyi ilə bizim çox gözəl işlərimiz var.

**İlham Əliyev:** Əlbəttə, bizim elmimiz gərək ümumi inkişafımıza təkan versin. Fundamental elmin inkişafı prioritetdir. Humanitar elmlərin inkişafı çox böyük əhəmiyyət kəsb edir, xüsusilə tarix elmləri. Çünki bizim bədnam qonşularımız tarixi saxtalaşdırmaqla məşğuldurlar.

**Akif Əlizadə:** Elədir.

**İlham Əliyev:** Əlbəttə, tətbiqi elmlərin inkişafına da böyük təkan verilməlidir. Kənd təsərrüfatında yeni

texnologiyalar məhsuldarlığı bir neçə dəfə artırır. Biz gərək onları təhlil edək. Eyni zamanda, baxmalıyıq ki, bu texnologiyaların zərərli tərəfləri də ola bilər. Yəni biz özümüzü qorumalıyıq. Ona görə Qida Təhlükəsizliyi Agentliyi yaradılıb ki, Azərbaycan vətəndaşlarına təqdim edilən ərzaq məhsulları bütün yüksək keyfiyyətlərə malik olsun. Eyni zamanda, sizin də uzun illər məşğul olduğunuz geologiya elmində nə qədər böyük irəliləyiş vardır. Baxın, biz indi hansı dərinlikdə quyular qazırıq? Biz nefti və qazı hansı dərinlikdən çıxarırıq? Siz yaxşı bilirsiniz ki, sovet vaxtında suyun təqribən 150 metr dərinliyindən aşağı gedə bilmirdik.

**Akif Əlizadə:** Bəli, 200 metrdən.

**İlham Əliyev:** Bu əslində bizə imkan verdi ki, bu yataqları müstəqillik dövrü üçün saxlayaq. Əgər o vaxt o texnologiya olsaydı, «Azəri–Çıraq»dan, «Günəşli»dən bütün neft, «Şahdəniz»dən isə qaz çıxarılacaqdı. İndi orada dərinlik 400 metrdir, başqa yeni kəşfiyyat layihələrində isə 700 metrə çatır. Biz «Heydər Əliyev» qazma qurğusunu tikdik, o, suyun dərinliyi 1000 metr olan sahələrdə quyular qaza bilir. Ondan sonra layların dərinliyi 7000 metrə qədər gedir. Sovet vaxtında bu yox idi. Mən həmişə deyirəm ki, o vaxt belə texnologiyanın olmaması bizi xilas etdi. Olsaydı, bütün ehtiyatları çıxaracaqdılar. Necə ki, quruda neftimizin hamısını çıxarıb aparıblar. Azərbaycandan 1 milyard tondan çox neft çıxarılıb. Sovet İttifaqı dağılanda biz nə gördük? Dağılmış infrastruktur, neftlə çirklənmiş gölməçələr, Bibiheybət, Balaxanı, ekoloji fəlakət qoyub getdilər. İndi

biz bunları təmizləyirik, nə qədər əziyyət çəkilir, nə qədər vəsait ayırırıq.

**Akif Əlizadə:** Çox böyük.

**İlham Əliyev:** Xoşbəxtlikdən o vaxt bu texnologiyalar yox idi. Bu gün isə var. Onu da deməliyəm ki, bu gün bizim geoloqlarımız qədər Azərbaycanın təbii sərvətlərini, yerin təkində mövcud olan ehtiyatları, dəniz altındakı yataqları bilən yoxdur.

**Akif Əlizadə:** Bəli, yoxdur.

**İlham Əliyev:** Mən sizə öz təcrübəmdən deyim, bilirsiniz ki, imzalanmış kontraktların bir hissəsinə xitam verildi. Çünki orada ehtiyatlar tapılmadı. Elə yataqlar var idi ki, xarici şirkət oraya gəlib quyu qazıb, boşa çıxdığına görə tərk edib gedirdi. Bizim geoloqlarımız deyirdilər ki, səhv yerdə qazırsınız, burada qazın. Ondan sonra digər şirkət gəlib bizim geoloqlarımızın dediyi yerdə quyu qazırdı və yataq aşkar edilirdi. «Abşeron» yatağı bunun əyani sübutudur. Biz «Abşeron» yatağı üzrə kontraktı imzalayanda tam əmin idik ki, orada böyük qaz yataqları vardır. Xarici bir şirkət gəldi, səhv yerdə qazdı, çıxdı getdi. Sonra başqa bir şirkət bu layihəni götürdü və 2 ildən sonra biz «Abşeron»dan qaz, kondensat çıxaracağıq.

**Akif Əlizadə:** İnşallah.

**İlham Əliyev:** Elmin inkişafı istiqamətində görülmüş işlər nəticə verir. Kənd təsərrüfatının inkişafının, ekoloji tarazlığın qorunmasının çox böyük əhəmiyyəti vardır. Eyni zamanda, hesab edirəm ki, alimlərin məişət şəraitini yaxşılaşdırmaq üçün biz sizinlə böyük işlər görmüşük.

**A k i f Ə l i z a d ə:** Biz orada işlərə başladıq. Masazırda artıq bir blok qaldırılıbdır.

**İ l h a m Ə l i y e v:** Bəli, alimlər səbirsizliklə bunu gözləyirlər.

**A k i f Ə l i z a d ə:** Bəli, gözləyirlər. Sizə təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Alimlərin maaşlarının artırılması üçün müvafiq göstərişlər verilibdir. Biz imkan daxilində bütün bu işləri görəcəyik.

**A k i f Ə l i z a d ə:** Bütün alimlər adından Sizə təşəkkür edirəm. Hamı razılıq edir, hamı çalışır. Siz yaxşı bilirsiniz ki, indi əsas istiqamət innovativ elmdir, onun tətbiqidir. Tapşırıqlar verilib, əminəm ki, biz bu istiqamətdə bundan sonra da inkişaf edəcəyik. Bütün bunlara görə Sizə böyük təşəkkürümüz vardır.

# İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də İran İslam Respublikasının Prezidenti Həsən Ruhani ilə görüşmüşdür.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Prezident, əziz dostum, Azərbaycana xoş gəlmisiniz! Mən çox şadam ki, qardaş ölkə «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə ən yüksək səviyyədə təmsil olunur. Sabah bu önəmli təsisata Azərbaycan sədrlik edəcək. Çalışacağıq ki, 3 il ərzində üzv dövlətlərin maraqlarını müxtəlif beynəlxalq tədbirlərdə layiqincə müdafiə edək. Əlbəttə, Sizin səfəriniz yaxşı fürsətdir ki, ikitərəfli gündəliyi müzakirə edək və gələcək birgə fəaliyyət üçün tədbirlər görək.

Bizim əlaqələrimiz qədim tarixə, ortaq mədəniyyətə əsaslanır. Bu gün bu əlaqələr ən yüksək səviyyədədir. Biz son bir neçə il ərzində Sizinlə 10 dəfədən çox görüşmüşük. Hər bir görüşün böyük əhəmiyyəti var və hər bir görüşdən sonra verilən tapşırıqlar icra olunur. Hesab edirəm ki, iki dövlət arasındakı əlaqələr hazırda ən yüksək zirvədədir.

Təbii ki, bu möhkəm əlaqələr bütün sahələrə müsbət təsir göstərir. Keçən il ticarət dövriyyəmiz 70 faizdən çox

artıb. Hesab edirəm ki, bu, rekord göstəricidir. Bu ilin 9 ayında isə yenə də 45 faiz artıb. Şadam ki, bizim birgə icra etdiyimiz Şimal–Cənub nəqliyyat dəhlizi uğurla fəaliyyət göstərir. Keçən il bu dəhlizlə 8 dəfədən çox yük daşınıb. Bu ilin 9 ayında, mənə verilən məlumata görə, yükdaşımalar 70 faiz artıb. Sizinlə danışdığımız kimi, hazırda eyni zamanda, Cənub–Qərb nəqliyyat dəhlizi fəaliyyət göstərir. Qarşılıqlı sərmayə qoyulub. İran texnologiyaları əsasında Avtomobil zavodu fəaliyyət göstərir. Biz bu zavodun açılışını birgə qeyd etmişdik. Avtobus İstehsalı zavodunun tikintisi ilə əlaqədar indi layihələndirmə işləri aparılır. Neft-qaz sahəsində yaxşı əməkdaşlıq edirik. Eyni zamanda, keçən ilin avqustunda Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi həm beştərəfli, həm də ikitərəfli əlaqələrimizi daha da möhkəmləndirir. Mədəniyyət sahəsində ənənəvi əməkdaşlıq çox müsbətdir.

Yəni elə bir sahə yoxdur ki, biz əməkdaşlıq etməyək və bu əməkdaşlıq nəticədə özünü göstərir. Nəticələr də göz qabağındadır. Əminəm ki, bugünkü görüş də bizim əlaqələrimizə yeni təkan verəcəkdir. Bir daha xoş gəlmisiniz!

**Həsən Ruhani:** Cənab Prezident, bu gün burada Azərbaycan dövlətinin və Azərbaycan xalqının qonağı olmağımızdan çox sevinirik. Sizi təbrik etmək istəyirəm, «Qoşulmama Hərəkatı»na sədrlik Sizə həvalə olunur. Çox sevinirik ki, Sizin ölkənizdə bu Zirvə görüşünün keçirilməsi üçün çox yüksək təşkilati işlər aparılıbdır.

Mən çox şadam ki, hər dəfə Sizinlə görüşdükdə iki ölkə arasındakı əlaqələrdə müsbət bir halın, müsbət

dəyişikliyin şahidi oluruq. Sizin də qeyd etdiyiniz kimi, müxtəlif sahələrdə, o cümlədən iqtisadi, mədəni, elmi və digər sahələrdə bizim əlaqələrimiz çox müsbət irəliləyibdir. İki ölkənin əlaqələrinin genişləndirilməsi üçün çox yaxşı iqtisadi əməkdaşlıq var və bu, hər iki ölkəni sevindirir. Düşünürəm, Azərbaycanda və İranda mövcud olan hakimiyyət iki ölkənin mənafeyinin, iki ölkənin rifahının və xalqların rifahının qaldırılması üçün yaxşı işlər görür və bu sevindiricidir. Mən Sizi əmin edirəm ki, İran dövləti və İran xalqı daim Azərbaycan dövlətinin və Azərbaycan xalqının yanında olub və olacaqdır. Ümid edirəm, bugünkü görüşümüzdə də hər iki tərəfi maraqlandıran mövzular haqqında fikir mübadiləsi aparacağıq.

## VYETNAM SOSİALİST RESPUBLİKASININ VİTSE-PREZİDENTİ DANQ THİ NQOK THİNHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Vyetnam Sosialist Respublikasının vitse-prezidenti xanım Danq Thi Nqok Thinhin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən Sizi Azərbaycanda salamlamağa şadam. Ölkəmizə xoş gəlmisiniz! Mən çox məmnunam ki, dost Vyetnam dövləti «Qoşulmama Hərəkatı» Zirvə görüşünün işində yüksək səviyyədə iştirak edir. Bu sizin ölkənizin belə mühüm beynəlxalq təşkilatda iştiraka böyük diqqət yetirdiyini sübut edir. Bildiyiniz kimi, Azərbaycanın «Qoşulmama Hərəkatı»na sədrliyi üzərinə götürməsi ilə bağlı qərar bütün üzvlər tərəfindən yekdilliklə qəbul olunub. Bu, üzv ölkələr tərəfindən Azərbaycana böyük hörmətin, etimadın təzahürüdür. Biz də sədr kimi, qarşıdakı 3 il ərzində «Qoşulmama Hərəkatı»nın bütün beynəlxalq məsələlərdə fəal iştirakının davamı üçün əlimizdən gələni edəcəyik. Həmçinin biz üzv ölkələrlə, o cümlədən sizin ölkənizlə ikitərəfli əlaqələri daha çox fəallaşdırmağı planlaşdırırıq.

Mən şadam ki, münasibətlərimiz çox dinamik, uğurla inkişaf edir və qarşılıqlı hörmətə əsaslanır.

Mən sizin ölkənizə rəsmi səfərimi məmnuniyyətlə xatırlayıram. Mən ölkənizin sürətli inkişafından, mühüm sosial məsələlərin həlli və iqtisadiyyatın çox dinamik artımından təsirləndim. Həmçinin mənim Azərbaycanın ali təhsil müəssisələrinin Vyetnamda mühüm dövlət və ictimai vəzifələri tutan məzunları ilə ayrıca görüşüm oldu. Bu görüşdə mən vaxtilə Bakıda təhsil almış dostlarımızı Azərbaycana səfərə dəvət etdim. Onlar mənim dəvətimi qəbul edərək, burada çox yaxşı günlər keçirdilər. Bundan 1 il sonra – 2015-ci ildə Vyetnam Prezidenti Azərbaycana rəsmi səfərə gəldi. Yəni bu, münasibətlərin dinamikasının müəyyənləşdiyindən xəbər verir və sizin bugünkü səfəriniz də əlaqələrimizin dostluq xarakterini bir daha təsdiq edir. Əminəm ki, gələcəkdə də bizim dostluq əlaqələrimiz uğurla inkişaf edərək, siyasi, iqtisadi, humanitar və digər sahələri əhatə edəcəkdir. Bir daha xoş gəlmisiniz!

**Danq Thi Nqok Thinh:** Hörmətli cənab Prezident! İlk növbədə, Sizinlə görüşməyimə çox şadam. Çox sağ olun ki, bizim nümayəndə heyətini qəbul etməyə vaxt tapmısınız. Azərbaycanda keçirilən Zirvə görüşü zamanı bizim nümayəndə heyətinin səmimi qəbuluna görə təşəkkürümü bildirmək istərdim.

Bu sizin gözəl və çox müasir ölkənizə – Azərbaycana mənim ilk səfərimdir. Bu Zirvə görüşünün Azərbaycan tərəfindən təşkilini çox yüksək qiymətləndirirəm və ölkənizin inkişafında qazanılmış böyük uğurlar münasibətilə Sizi təbrik edirəm. Sizin dediyiniz kimi,

Vyetnam da Azərbaycanla dostluq və əməkdaşlıq münasibətlərinin inkişafına və möhkəmlənməsinə böyük əhəmiyyət verir. Fürsətdən istifadə edib bizim baş katibimiz, Vyetnam Prezidenti Nquyen Fu Çonqun Sizə səmimi salamlarını və Vyetnama rəsmi səfərə dəvətini çatdırmaq istərdim. Vyetnam hökuməti və xalqı ölkənin müdafiəsi və quruculuğu işində Azərbaycan xalqı tərəfindən Vyetnam xalqına göstərilmiş böyük köməyi heç vaxt unutmur. Xüsusilə kadrlar hazırlanması işində, o cümlədən Siz dediyiniz kimi, neft mütəxəssislərinin hazırlanması sahəsində Azərbaycan Vyetnama böyük kömək göstəribdir.

Bu il ikitərəfli münasibətlərdə çox mühüm mərhələdir. Biz 1959-cu ilin iyulunda Prezidentimiz Xo Şi Minin Azərbaycana səfərinin 60 illiyini qeyd edirik. Mənim fikrimcə, bu səfər həmin andan bizim ölkələrimiz arasında münasibətlərin inkişafının təməlini qoyub. Müasir neft sənayesinin inkişafında Bakı Vyetnam üçün xüsusi nümunədir. Mən Sizin fikrinizlə tamamilə razıyam ki, gələcəkdə bütün sahələrdə münasibətlərimizin inkişafı üçün səy göstərməliyik. Mən həmçinin təklif edirəm ki, tərəflər ən yüksək səviyyədə əldə edilmiş bütün razılaşmaların həyata keçirilməsini sürətləndirsin, idarələr, nazirliklər arasında, partiya və parlament xətti ilə əməkdaşlığı fəallaşdırsın. Biz elmi-texniki, iqtisadi-ticari əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiya çərçivəsində də sıx əməkdaşlıq etməliyik ki, iqtisadiyyat və ticarət, investisiyalar, elm və texnologiyalar sahəsində münasibətlərimiz daha da inkişaf etsin. Yarana biləcək çətinliklərin vaxtında aradan

qaldırılması, habelə əməkdaşlığın yeni dövrün tələblərinə uyğun irəliləməsi üçün tərəflər bu Komissiyanın vaxtaşırı iclaslarının keçirilməsi imkanlarını qoruyub saxlamalıdır.

Siz qeyd etdiyiniz kimi, ölkələrimiz arasında münasibətlərin inkişafı üçün böyük potensial vardır. Buna görə də biz hesab edirik ki, tərəflər neft kimyası, neft-qaz sənayesi kimi sahələrdə əlaqələrin, ticarət, kənd təsərrüfatı, turizm sahələrində, humanitar sahədə əməkdaşlığın inkişafına böyük əhəmiyyət verməlidir. Mən həmçinin təklif edirəm ki, tərəflər kadr hazırlığı, xüsusən neft mütəxəssisi və mühəndis hazırlıqları sahəsində səmərəli praktiki əməkdaşlığı bərpa etsin.

Fürsətdən istifadə edib, 2019–2021-ci illərdə Vyetnamın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəklənməsinə görə Azərbaycana bir daha təşəkkür etmək istəyirik. Təklif edirəm ki, tərəflər beynəlxalq arenada, o cümlədən BMT və «Qoşulmama Hərəkatı» çərçivəsində qarşılıqlı dəstək ənənəsini davam etdirsinlər.

## OMAN SULTANLIĞI DÖVLƏT ŞURASININ SƏDRİ YAHYA BİN MƏHFUZ ƏL-MUNZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Oman Sultanlığı Dövlət Şurasının Sədri Yahya bin Məhfuz əl-Munzirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Sizi görməyimə çox şadam. Ümidvaram ki, ölkəmizə səfəriniz çox maraqlı və məhsuldar olacaqdır.

**Yahya bin Məhfuz əl-Munziri:** İcazə verin, fürsətdən istifadə edərək, zati-aliləri Qabusun salamlarını şəxsən Sizə və Azərbaycan xalqına çatdırım.

**İlham Əliyev:** Təşəkkür edirəm. Mənim də salamlarımı və ən xoş arzularımı zati-alilərinə və Oman xalqına çatdırın. Əminəm ki, Bakıya səfəriniz ərzində şəhərimizlə tanış olacaq, Azərbaycanın inkişafını görəcək, həmçinin Zirvə görüşündə iştirak edəcəksiniz. Omanın Zirvə görüşündə çox yüksək səviyyədə təmsil olunduğuna görə ölkənizə çox minnətdarıq. Bu sizin bu qurumda üzvlüyə verdiyiniz əhəmiyyəti göstərir, eyni zamanda, bunu bizə olan dostluğun göstəricisi hesab

edirik. Çünki ev sahibliyi edən ölkə olaraq, biz bu mühüm beynəlxalq tədbiri təşkil etmişik və 3 il ərzində bu quruma sədrlik edəcəyik. Sözsüz ki, biz «Qoşulmama Hərəkatı» çərçivəsində, eləcə də ikitərəfli formatda birlikdə işləyəcəyik.

Sizin səfəriniz həm də ikitərəfli əməkdaşlığımızın bəzi məsələlərini müzakirə etmək üçün yaxşı imkandır. Siyasi əlaqələrin səviyyəsi, siyasi dialoq və beynəlxalq təşkilatlarda, xüsusilə BMT-də, İslam Əməkdaşlıq Təşkilatında bir-birimizə nümayiş etdirdiyimiz həmrəylik bizi çox qane edir. Biz həmçinin iqtisadi əlaqələrimizi genişləndirmək istəyirik, bugünkü əlaqələr orta səviyyədədir. Lakin düşünürəm ki, birgə səylərlə biz yaxşı irəliləyişə nail ola bilərik, çünki bizim bir-birimizə təklif edəcəyimiz çox şey vardır. Biz ticari əlaqələrimizi genişləndirə bilərik və bir çox əməkdaşlıq sahələrini tapa bilərik. Mən çox şadam ki, indi sizin ölkənin vətəndaşları Azərbaycana daha müntəzəm səfər edirlər.

**Yahya bin Məhfuz əl-Munziri:** Bura səfər etmək baxımından onlar üçün yaxşı yerdir.

**İlham Əliyev:** Bəli, tamamilə doğrudur. Həmçinin sərbəst viza rejimi onlara istədikləri vaxt ölkəmizə gəlmək imkanı verir. Mən sizə Azərbaycanda yaxşı vaxt keçirməyi arzu edirəm.

**Yahya bin Məhfuz əl-Munziri:** Zati-aliləri, mən keçən il burada olmuşdum. Həmçinin parlamentinizin 100 illik ildönümünü qeyd etmək üçün tədbirlərə qatılmaq məqsədilə gəldiyim zaman Sizinlə görüşmək mənim üçün şərəf idi. Biz Azərbaycanda, Bakıda çox gözəl vaxt keçirdik. Bu səfər çərçivəsində biz Sizin

rəhbərliyinizlə 3 il müddətində «Qoşulmama Hərəkatı»nın uğur qazanması üçün səylərimizi əsirgəməyəcəyik. Omanda infrastrukturumuza sərmayə yatırmaq üçün çox böyük imkanlar var, xüsusilə mən «Dokon» və digər layihələri nəzərdə tuturam. Ümid edirik ki, bu sahədə ölkələrimiz arasında müəyyən ikitərəfli razılaşmalar olacaq. Zati-aliləri, Sizinlə görüşmək üçün mənə vaxt ayırdığınıza görə çox sağ olun.

## KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI ALİ XALQ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİ SƏDRİ ÇOE RYONQ HAENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyəti Sədri Çoe Ryonq Haenin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Ali Xalq Məclisinin Rəyasət Heyəti Sədri Çoe Ryonq Hae Koreya Xalq Demokratik Respublikasının Dövlət İşləri üzrə Komissiyasının Sədri Kim Çen Inın salamlarını dövlətimizin başçısına çatdırdı.*

*Görüşdə Azərbaycan Respublikası ilə Koreya Xalq Demokratik Respublikası arasında əməkdaşlıq əlaqələrinin inkişaf etdiyi bildirildi, iqtisadi, humanitar sahələrdə əlaqələrin genişləndirilməsi üçün imkanların olduğu vurğulandı. Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyəti Sədri Çoe Ryonq Haenin ölkəmizə səfərinin ikitərəfli münasibətlərin inkişafına töhfə verəcəyinə əminlik ifadə olundu.*

*Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyəti Sədri xalqımızın ümummilli lideri*

*Heydər Əliyevin 1985-ci ildə Sovet İttifaqı rəhbərliyində çalışarkən Koreya Xalq Demokratik Respublikasına səfərinin məmnuniyyətlə xatırlandığını vurğuladı.*

*Söhbət zamanı Azərbaycanın «Qoşulmama Hərəkatı»na sədrliyinin uğurlu olacağına əminlik ifadə edildi.*

*Prezident İlham Əliyev Koreya Xalq Demokratik Respublikası Dövlət İşləri üzrə Komissiyasının Sədri Kim Çen Inın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kim Çen Ina çatdırmağı xahiş etdi.*

## KUBA RESPUBLİKASININ PREZİDENTİ MİGEL DİAZ-KANEL İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 24-də Kuba Respublikasının Prezidenti Migel Diaz-Kanel ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Prezident Migel Diaz-Kaneli qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Sonra Azərbaycan və Kuba prezidentlərinin görüşü oldu.*

**İlham Əliyev:** Cənab Prezident! Mən Sizi salamlayıram, Azərbaycana xoş gəlmisiniz! Ölkənizin «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə ən yüksək səviyyədə təmsil olunmasına görə çox şadam. Bu, «Qoşulmama Hərəkatı»nda iştiraka Sizin verdiyiniz əhəmiyyətə dəlalət edir. Bildiyiniz kimi, sabahdan Azərbaycan bu çox mühüm beynəlxalq təsisatda sədrliyi öz üzərinə götürəcək. Bizim namizədliyimizi yekdilliklə dəstəklədiklərinə görə Kubaya və digər üzv ölkələrə təşəkkürümü bildirmək istərdim. «Qoşulmama Hərəkatı»nda cəmi 8 il üzv olan ölkə üçün bu, böyük nailiyyət, böyük şərəf və böyük məsuliyyətdir. Bu həmçinin görüşüb ikitərəfli əməkdaşlıq məsələlərimizi müzakirə etmək üçün yaxşı imkandır.

İlk növbədə, Sizi Kuba Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə təbrik etmək və bu məsuliyyətli vəzifədə Sizə uğurlar diləmək istərdim. Əminəm ki, birgə səylərimizlə ikitərəfli münasibətlərimizi inkişaf etdirmək üçün əlimizdən gələni edəcəyik. Biz beynəlxalq məkanlarda, o cümlədən BMT-də, «Qoşulmama Hərəkatı»nda aktiv qarşılıqlı fəaliyyət göstəririk. Lakin bu gün bizim iqtisadi göstəricilərimizlə tanış oldum və əlbəttə ki, bu göstəricilər bizi qane edə bilməz. Fikrimcə, iki ölkə arasında əmtəə dövriyyəsini artırmaq üçün imkanlar çoxdur. Biz humanitar, turizm, idman sahələrində də əməkdaşlığı inkişaf etdirməyi çox istəyirik. Buna görə düşünürəm ki, əlaqələrimizin gündəliyi genişlənməli, biz qarşılıqlı faydalı əməkdaşlıq formalarını axtarıb tapmağa çalışmalıyıq. Düşünürəm ki, Sizin Azərbaycana səfəriniz çərçivəsində biz qarşılıqlı fəaliyyət yollarını müəyyənləşdirəcək, əlaqələrimizin inkişafına yaxşı təkan verəcəyik. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**Migel Diaz-Kanel:** Hörmətli Prezident Əliyev! Sizin gözəl ölkənizdə olmaq bizim üçün çox xoşdur və bunu özümüzə böyük şərəf sayırıq. Bizə vaxt ayırdığınıza görə Sizə təşəkkürümüzü bildirmək istərdik, çünki bizi məhz buraya gəldiyimiz gün qəbul edirsiniz. İşinizin gərgin, gündəliyinizin zəngin və geniş olduğunu bilirik. İlk növbədə, Sizi 2019-cu ildən 2022-ci ilə qədər «Qoşulmama Hərəkatı»nda sədrlik etməyiniz münasibətilə təbrik edirik.

Azərbaycan həm də dövlət və hökumət başçılarının XVIII Zirvə görüşünün keçirildiyi yerdir. Onu da qeyd

etmək istərdim ki, Siz «Qoşulmama Hərəkatı»nın sədri olduğunuz müddətdə Kubanın hərtərəfli dəstəyinə bel bağlaya bilərsiniz. Beynəlxalq gündəlik məsələsində Kuba ilə Azərbaycanın baxışları ümumidir, üst-üstə düşən məqamlar çoxdur. Bizim qarşımızda birlikdə «Qoşulmama Hərəkatı» çərçivəsində birliyi qoruyub saxlamaq məqsədi durur. Biz həm də bir fikri vurğulamaq istəyirik ki, «Qoşulmama Hərəkatı» fikirlərin razılaşdırılması, dialoqun dəstəklənməsi üçün münasib məkan olmalıdır. Biz bilirik ki, Siz sədrliyi çox mürəkkəb siyasi şəraitdə həyata keçirəcəksiniz. Lakin biz Sizi hərtərəfli dəstəkləyəcəyik. Kuba bütün münaqişələrin sülh, dialoq və danışıqlar yolu ilə həll edilməsinin tərəfdarıdır.

Bizim xalqlarımız və ölkələrimiz arasında münasibətlər tarixi və ənənəvi münasibətlərdir. Siyasi dialoq müsbət və sabitdir. Bu münasibətlərin mənbəyi məhz Kubanın Ali Baş Komandanı Fidel Kastro Rus və Azərbaycanın ümummilli lideri Heydər Əliyev arasında yaranmış dostluqdur. Biz Bakıya gələn kimi Heydər Əliyevin xatirəsini ehtiramla yad etdik. Buna görə də Sizinlə razıyam ki, biz siyasi dialoqu dəstəkləmək və ticarət mübadiləsini yaxşılaşdırmaq üçün nə mümkündürsə etməliyik. Siyasi dialoqla əlaqədar deyə bilərəm ki, son illərdə Xarici İşlər nazirləri arasında və başqa səviyyələrdə mübadilələr olub, digər nazirlər Azərbaycana və sizin nazirlər Kubaya səfərlər ediblər. Mən Sizə ordu generalı Raul Kastro Rusdan salam gətirmişəm.

*Kuba Prezidenti ticari-iqtisadi, səhiyyə, təhsil, elm, humanitar, mədəniyyət, biotexnologiyalar, idman sahələrində əməkdaşlıq məsələlərinə toxundu, ölkəsinin azərbaycanlı sahibkarların investisiyalarına açıq olduğunu vurğuladı. Azərbaycanda neft-qaz sahəsində əldə olunmuş uğurları yaxından izlədiklərini qeyd edən Kuba dövlətinin başçısı sovet dövründə 240-dan çox kubalı mütəxəssisin məhz Bakıda təhsil aldığını xatırlatdı.*

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. İlk növbədə, Sizdən xahiş etmək istərdim ki, ən xoş arzularımı və səmimi salamlarımı general Raul Kastro Rusa çatdırasınız. Azərbaycan dövlətçiliyinin təməlini qoymuş Heydər Əliyevin xatirəsinə hörmətinizə görə də Sizə təşəkkür edirəm. Siz qeyd etdiyiniz kimi, sovet dövründə Heydər Əliyevlə böyük komandan Fidel Kastro Rus arasında çox səmimi, dərin hörmətə və etimada əsaslanan münasibətlər yaranmışdı. Biz də sizin ölkənizlə bütün istiqamətlərdə fəal qarşılıqlı əlaqə saxlamaq əzmindəyik. Xarici İşlər nazirlərinin qarşılıqlı səfərləri baş tutub, bu isə siyasi əlaqələrin yüksək səviyyədə olduğunu təsdiqləyir.

Əminəm ki, sizin səfərinizdən sonra həm bizim, həm də sizin tərəfdən ölkələrimiz arasında əmtəə dövriyyəsini artırmaq üçün qarşılıqlı iqtisadi əlaqələrin formalarını tapmaq barədə iqtisadi bloka müvafiq tapşırıqlar veriləcək. Fikrimcə, investisiya siyasəti əməkdaşlığımızın istiqamətlərindən biri ola bilər. Azərbaycan artıq bir sıra ölkələrdə iri investisiya layihələri reallaşdırıb. Bu istiqamətdə yaxşı təcrübəmiz vardır. İdman sahəsində əməkdaşlığı Siz də qeyd etdiniz və

bizim kubalı dostlarımızın bəziləri Azərbaycan klublarının tərkibində idman yarışlarında iştirak edirlər. Səhiyyə sahəsində sizinlə əməkdaşlıq bizim üçün çox maraqlıdır. Siz bu sahədə ən yüksək dünya səviyyəli nəticələr əldə etmisiniz. Bizim üçün bu sahə prioritetdir. Düşünürəm ki, əməkdaşlıq çoxplanlı ola bilər və kadrların hazırlanmasının keyfiyyətini, müəyyən müştərək layihələrin həyata keçirilməsini də əhatə edə bilər.

Azərbaycan «Qoşulmama Hərəkatı»nın sədri kimi üzv ölkələr arasında həmrəyliyin möhkəmləndirilməsi üçün nə mümkündürsə edəcək. Biz «Bandunq prinsipləri»nə sadiqik, bu prinsiplər bizim xarici siyasətimizin əsas istiqamətləri ilə tam üst-üstə düşür. Ölkələrin suverenliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə hörmət həm «Bandunq prinsipləri»nin, həm də beynəlxalq hüququn əsasını təşkil edir. Əlbəttə, Azərbaycan beynəlxalq hüququn pozulmasından əziyyət çəkmiş ölkə kimi, təbii ki, beynəlxalq arenada beynəlxalq hüququn aliliyinin, ölkələrin ərazi bütövlüyünə və suverenliyinə hörmətin tərəfdarıdır. Bizdə «Qoşulmama Hərəkatı»nın üzvü olan bütün ölkələrlə qarşılıqlı hörmətə əsaslanan çox səmərəli münasibətlər yaranıb. Bunun əyani sübutu bizim bütün 120 ölkə tərəfindən yekdilliklə «Qoşulmama Hərəkatı»na sədr seçilməyimizdir. Həmçinin 155 ölkənin dəstəyi ilə Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsində «Qoşulmama Hərəkatı»nın üzvləri böyük rol oynayıblar. Hərəkatda sədrlik böyük məsuliyyətdir. Mən əminəm ki, biz bu vəzifənin öhdəsindən gələcəyik

və üzv ölkələrlə, o cümlədən Sizin ölkənizlə ikitərəfli əlaqələri fəal inkişaf etdirəcəyik.

## «QOŞULMAMA HƏRƏKATI»NA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ XVIII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*25 oktyabr 2019-cu il*

*Bakıda «Qoşulmama Hərəkatı»na üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşü oktyabrın 25-də öz işinə başlamışdır.*

*«Bandunq prinsipləri»ni rəhbər tutmaqla, müasir dünyanın çağırışlarına birgə və adekvat cavab verilməsini təmin etmək» mövzusunda keçirilmiş XVIII Zirvə görüşündə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak etdilər. Ümumilikdə Zirvə görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılıblar.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə iştirak edən Belarus Parlamenti Nümayəndələr Palatasının Sədri Vladimir Andreyçenkonu, Oman Dövlət Şurasının Sədri Yahya bin Məhfuz əl-Munzirini, Koreya Xalq Demokratik Respublikası Ali Xalq Məclisinin Rəyasət Heyəti Sədri Çoe Ryonq Haeni, Liviyanın Baş Naziri Faiz Saracı, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Olini, Banqladeşin Baş Naziri xanım şeyxa Hasina Vazedi, Malayziyanın Baş Naziri*

*Mahathir Məhəmmədi, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaya Naydunu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinhi, Ekvatorial Qvineyanın Prezidenti Obianq Nquema Mbasoqonu, Sudanın Prezidenti Abdul-Fattah əl-Burhanı, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin serb əsilli Sədri Milorad Dodiki, Cibutinin Prezidenti İsmail Ömər Qelleni, Qananın Prezidenti Nana Akufo-Addonu, Əlcəzairin Prezidenti Abdelkader Bensalahı, Namibiya-nın Prezidenti Haqe Qotfrid Qeynqobu, Venesuelanın Prezidenti Nikolas Maduronu, Esvatininin Kralı III Msvatini, Əfqanıstanın Prezidenti Məhəmməd Əşrəf Qanini, Kubanın Prezidenti Migel Diaz-Kaneli, Türk-mənistanın Prezidenti Qurbanqulu Berdıməhəmmədovu, İranın Prezidenti Həsən Ruhanini, Pakistanın Prezidenti Arif Alvini qarşıladı.*

*Dövlət və hökumət başçıları birgə foto çəkdirdilər.*

*«Qoşulmama Hərəkatı»na sədrlik edən Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro Zirvə görüşünü açaraq, təşkilata üzv bəzi ölkələrin dün-yasını dəyişmiş sabiq dövlət və hökumət başçılarının xa-tirəsinin bir dəqiqəlik sükutla yad edilməsini təklif etdi.*

*Nikolas Maduro çıxışında Azərbaycan hökumətinə qonaqpərvərliyə görə təşəkkür etdi. Maduro Venesuela-nın sədrliyi dövründə «Qoşulmama Hərəkatı»nın böyük inkişaf yolu keçdiyini, dünyada sülhün və təhlükəsizliyin gücləndirilməsinə xidmət göstərdiyini bildirdi və növbəti 3 il üçün sədrliyin Azərbaycana keçdiyini bəyan etdi.*

*«Qoşulmama Hərəkatı»na sədrlik Azərbaycana təhvil verildi.*

*«Qoşulmama Hərəkatı»nın sədri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Zirvə görüşündə nitq söylədi.*

**Azərbaycan Prezidenti İlham Əliyevin nitqi**

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli qonaqlar, xanımlar və cənablar!

«Qoşulmama Hərəkatı»nın XVIII Zirvə görüşünün bütün iştirakçılarını səmimiyyətlə salamlayır və hər birinizə «Xoş gəlmisiniz!» – deyirəm. 2016–2019-cu illərdə «Qoşulmama Hərəkatı»na sədrlik etdiyinə görə Venesuela Bolivar Respublikasına təşəkkürümü bildirirəm.

«Qoşulmama Hərəkatı» bəşəri dəyərlərin təbliğinə xidmət edir və bütün ölkələrin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə sadiqliyini nümayiş etdirir. «Qoşulmama Hərəkatı» özündə 120 ölkəni birləşdirməklə, BMT Baş Assambleyasından sonra dünya dövlətlərinin təmsil olunduğu ən böyük siyasi təsisatdır.

Azərbaycan 2011-ci ildə «Qoşulmama Hərəkatı»na üzv qəbul olunub. «Qoşulmama Hərəkatı»nda olduğu qısa müddət ərzində ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazanıbdır.

Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə görüşündə növbəti sammitin Bakı şəhərində keçirilməsi və 2019–2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunmuşdur. Bu, ölkəmizə

göstərilən hörmətin, inamın və etimadın təzahürüdür. Bunu dünya ölkələrinin əksəriyyətini öz sıralarında birləşdirən «Qoşulmama Hərəkatı»nın bizim siyasətimizə verdiyi dəstək kimi qiymətləndirir və bu qərara görə bir daha sizlərə təşəkkürümü bildirirəm.

Azərbaycan «Qoşulmama Hərəkatı»nda sədrliyi zamanı öz prioritetlərini və fəaliyyətini tarixi «Bandunq prinsipləri» üzərində quracaq. Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmamaq və qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasətinin təməl prinsipləri ilə üst-üstə düşür.

Biz beynəlxalq hüququn norma və prinsiplərinə hamılıqla əməl olunması üçün səylərimizi artırmalıyıq. Bu baxımdan BMT-nin fəaliyyətində islahatlara böyük ehtiyac duyulur. Sərhədlərin güc yolu ilə dəyişdirilməsi, gücdən istifadə olunmaqla, ölkələrin ərazi bütövlüyünün pozulması, daxili işlərə müdaxilə yolverilməzdir.

Azərbaycan «Qoşulmama Hərəkatı»nda sədrliyi zamanı digər təsisatlarla dialoqun qurulması və inkişaf etdirilməsi, əməkdaşlığın coğrafiyasının genişləndirilməsi üçün səylər göstərəcəkdir. «Qoşulmama Hərəkatı»na üzv ölkələrin əksəriyyətinin inkişaf etməkdə olan ölkələr olduğundan Hərəkat çərçivəsində iqtisadi sahədə əməkdaşlığın inkişaf etdirilməsi çox mühümdür. Bu mənada keçən ay Azərbaycanın «77-lər qrupu»na qoşulması sosial-iqtisadi sahədə beynəlxalq miqyasda səylərimizi daha da artırmağa imkan verir. Üzv

dövlətlərin maraqlarının BMT çərçivəsində birgə səylərlə müdafiə olunması xüsusi əhəmiyyət kəsb edir.

Ən az inkişaf etmiş, dənizə çıxışı olmayan kiçik ada ölkələrinin üzləşdiyi təhdidlərə xüsusən diqqət yetirilməlidir. 2005-ci ildən etibarən Azərbaycan 90-dan çox ölkəyə humanitar və texniki yardımlar göstəribdir. Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım Agentliyi müxtəlif ölkələrdə yoxsulluğun azaldılması, elm, mədəniyyət, səhiyyə, informasiya texnologiyalarının inkişafı, su resurslarından səmərəli istifadə olunması, qrant proqramları və digər sahələrdə layihələr həyata keçirir.

Azərbaycan 2018-ci ildən etibarən «Qoşulmama Hərəkatı»na üzv dövlətlərin vətəndaşlarına ölkəmizin ali məktəblərində təhsil almaq məqsədilə tam ödənişli təqaüdlər verir. Bu gün 31 üzv dövlətdən 37 gənc bu proqramdan faydalanır.

Azərbaycanda gənclər siyasəti prioritet sahə kimi müəyyən edilibdir. Azərbaycan gəncləri milli ruhda, ənənəvi dəyərlərlə, vətənə bağlı və vətənpərvər ruhda tərbiyə alırlar. Biz «Qoşulmama Hərəkatı» tarixində ilk dəfə olaraq Gənclər Sammitinin keçirilməsi təşəbbüsü ilə çıxış etmişik. Hazırkı Zirvə görüşü ərəfəsində keçirilmiş Gənclər Sammitində 40 dövlətdən ölkəmizə gəlmiş gənclər iştirak etmişlər.

Xanımlar və cənablar, hörmətli qonaqlar!

Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşı vardır. Bir həftə öncə – oktyabrın 18-də müstəqilliyimizin bərpa olunması gününü qeyd etdik. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı 7 rayon

– ölkəmizin beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi 25 ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparıb və nəticədə 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşübdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi və qaçqınların, məcburi köçkünlərin əhalinin adambaşına düşən sayına görə ölkəmiz dünyada ilk yerləri tuturdu. Ermənistan azərbaycanlılara qarşı Xocalı soyqırımını törədib. Xocalı soyqırımı nəticəsində 613 günahsız insan, o cümlədən 106 qadın və 63 uşaq yalnız azərbaycanlı olduqlarına görə vəhşicəsinə qətlə yetiriliblər. 1000-dən çox insan itkin düşübdür.

Xocalı soyqırımı dünyanın 10-dan çox ölkəsi tərəfindən tanınıb. 1993-cü ildə BMT Təhlükəsizlik Şurası tərəfindən qəbul edilmiş 4 qətnamədə Ermənistan qoşunlarının Azərbaycanın ərazisindən tam və qeyd-şərtsiz çıxarılması tələb olunur. Təəssüf ki, həmin qətnamələr həyata keçirilməmişdir. Bəzən Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günün içində icra edilir. Bəzən isə Azərbaycanın üzləşdiyi münaqişəyə münasibətdə olduğu kimi, 26 ildir ki, kağız üzərində qalır.

Bu ikili standartlar siyasətinə son qoyulmalıdır. İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, ATƏT və digər nüfuzlu təşkilatlar Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasını tələb edən qətnamə və qərarlar qəbul edib. Fürsətdən istifadə edərək, «Qoşulmama Hərəkatı»nın indiyə qədər qəbul olunmuş sənədlərində münaqişənin BMT Təhlükəsizlik

Şurasının qətnamələrinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə dəstək ifadə etdiklərinə görə üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycanın işğal olunmuş ərazilərində bütün tarixi abidələr, məscidlər, məzarlıqlar Ermənistan tərəfindən dağıdılmış, muzeylər və maddi-mənəvi sərvətlərimiz talan edilibdir. Ermənistan məqsədli surətdə işğal olunmuş ərazilərdə Azərbaycanın izini itirməyə çalışaraq, bütün toponimləri erməniləşdirir. Ermənistan, həmçinin işğal olunmuş ərazilərdə beynəlxalq humanitar hüquqa zidd olaraq, qeyri-qanuni məskunlaşdırma siyasəti aparır və qanunsuz iqtisadi fəaliyyətlə məşğul olur.

2016-cı ilin aprel ayında Ermənistanın törətdiyi hərbi təxribat nəticəsində aralarında bir uşaq olmaqla, 6 azərbaycanlı mülki şəxs həlak olub, 26-sı yaralanıb, yüzlərlə ev dağıdılıbdır. Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır.

Azərbaycan müstəqil xarici siyasət yeridir. Bu siyasət milli maraqlara, ədalətə əsaslanır və bizə çoxlu dost qazandırıbdır. 2011-ci ildə Azərbaycanın 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə seçilməsi buna bariz nümunədir. Təhlükəsizlik Şurasına üzvlük müddətində Azərbaycan beynəlxalq sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə, ədalətin təmin edilməsinə mühüm töhfələr verib və beynəlxalq siyasi proseslərin fəal iştirakçısına çevrilibdir.

Azərbaycan BMT Təhlükəsizlik Şurasının mandatı əsasında təsis edilmiş beynəlxalq sülhməramlı

əməliyyatlara da öz töhfəsini verir. Ölkəmiz Rusiya–NATO, Rusiya–ABŞ yüksək hərbi rəhbərliyin mütəmadi olaraq keçirilən görüşlərinə ev sahibliyi edir. Dünyada 200-ə qədər ölkə vardır. Bu ölkələr arasında qeyd etdiyim görüşlər üçün Azərbaycanın seçilməsi bizim yürütdüyümüz müstəqil xarici siyasətə olan hörmətin göstəricisidir.

Hörmətli qonaqlar, müstəqilliyimizin ilk illəri Azərbaycan üçün çox keşməkeşli olubdur. Xəyanətkar, satqın, qorxaq, səriştəsiz Azərbaycan Xalq Cəbhəsi hakimiyyəti illərində ölkəmiz böyük bəlalara düçar olmuş, Azərbaycanda vətəndaş müharibəsi başlamışdır. Yalnız 1993-cü ildə Azərbaycan xalqının tələbi ilə Prezident Heydər Əliyevin hakimiyyətə gəlməsi ölkəmizi daha böyük faciələrdən xilas etdi. Azərbaycan demokratik, dayanıqlı inkişaf yoluna qədəm qoydu, ölkədə sabitlik və əmin-amanlıq bərqərar oldu.

Azərbaycan demokratiya, insan hüquqları və azadlıqları kimi dəyərlərə sadiqdir. Bunun dərin tarixi kökləri vardır. Biz fəxr edirik ki, bir əsr bundan əvvəl Şərqdə müsəlman dünyasında ilk dəfə olaraq Azərbaycanda demokratik respublika qurulmuş, qadınlara səsvermə hüququ verilmişdir. Bu sahədə biz hətta əksər Qərb ölkələrini də qabaqlamışıq. Demokratik inkişaf Azərbaycanın şüurlu seçimidir. Azərbaycanda bütün fundamental insan hüquq və azadlıqları, qanunun aliliyi, mətbuat azadlığı təmin olunur.

Son 15 il ərzində Azərbaycan iqtisadiyyatı sürətlə inkişaf edib, ümumi daxili məhsul 3 dəfədən çox artıbdır. Azərbaycana 270 milyard dollardan artıq sərmayə

qoyulubdur ki, bunun da yarısı xarici sərmayədir. Azərbaycanın xarici borcu ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir. Bu göstəriciyə görə biz dünyada 9-cu yerdəyik. Azərbaycanda yoxsulluq 5 faiz səviyyəsindədir. Təkcə bu il minimum əməkhaqqı və sosial müavinətlər 2 dəfə, minimum pensiya 70 faiz artıbdır. 280 mindən çox insanı əhatə edən 68 min ailə ünvanlı sosial yardımdan faydalanır və hər bir ailə təxminən 140 ABŞ dolları ekvivalentində aylıq sosial yardım alır. Son 15 il ərzində Azərbaycanda 3200-dən çox məktəb və 640-dan çox xəstəxana və tibb müəssisəsi tikilib və ya təmir edilibdir. Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. 300 mindən çox məcburi köçkün pulsuz evlər və mənzillərlə təmin edilibdir. Məcburi köçkün ailələrinə orta hesabla 180 ABŞ dolları ekvivalentində aylıq müavinət verilir.

Azərbaycanın əldə etdiyi nailiyyətlər beynəlxalq aləmdə təqdir olunur. Dünya Bankının 2020-ci il üzrə «Doing Business» hesabatında Azərbaycan ən islahatçı 20 ölkə sırasında yer alıb. Davos Dünya İqtisadi Forumun hesabatında hökumətin uzunmüddətli strategiyasına görə Azərbaycan dünya miqyasında 10-cu, rəhbərliyin islahatlara meyillilik səviyyəsində isə 5-ci yerdədir.

Azərbaycan kosmik ölkədir. Hazırda ikisi telekommunikasiya, biri isə Yer səthini müşahidə edən 3 peykimiz vardır. Əhalimizin 80 faizi internet istifadəçisidir. Azərbaycanda enerji təhlükəsizliyi təmin edilibdir. Yenə də Davos Dünya İqtisadi Forumun hesabatına istinad edərək deməliyəm ki, elektrik enerjisinin əlçatanlıq

əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Azərbaycan eyni zamanda, bir sıra ölkələrin enerji təchizatçısıdır. Asiya və Avropa qitələri arasında körpü rolu oynayan Azərbaycan açıq dənizə çıxışı olmayan ölkə kimi, bir sıra regional nəqliyyat layihələrinin təşəbbüskarı və icraçısıdır. Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizi layihələrinin fəal iştirakçısı olaraq, hazırda digər mühüm layihələr – Cənub–Qərb və Şimal–Qərb layihələri üzərində çalışırıq. Beləliklə, Azərbaycan etibarlı tranzit ölkəsi kimi, çoxtərəfli beynəlxalq əməkdaşlığa öz dəyərli töhfəsini verir.

İqlim dəyişikliyi qlobal təhlükədir. Azərbaycan onun fəsadlarına qarşı mübarizə üzrə beynəlxalq səyləri dəstəkləyir. Azərbaycan Paris Sazişini ratifikasiya edib, baza ili – 1990-cı illə müqayisədə 2030-cu ilə istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalmanı hədəf kimi götürübdür. Elektrik enerjisinin istehsalı üçün Azərbaycanda ancaq ekoloji təmiz qaz və su-elektrik stansiyalarından istifadə olunur.

Azərbaycan zəngin tolerantlıq, multikulturalizm ənənələrinə malikdir. Multikulturalizm Azərbaycan xalqının həyat tərzidir. 11 il əvvəl İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin iştirakı ilə başladığımız «Bakı prosesi» təşəbbüsü BMT tərəfindən də dəstəklənir. BMT-nin Baş katibi Antonio Quterreş «Bakı prosesi»ni 2008-ci ildən mədəniyyətlər arasında dialoqun təbliğinin ön cəbhəsi kimi dəyərləndiribdir. «Bakı prosesi»nin məntiqi davamı olaraq təsis edilmiş və iki ildən bir ölkəmizdə keçirilən Mədəniyyətlərarası Dialoq üzrə Ümumdünya Forumu artıq BMT Baş

Assambleyasının qətnamələri ilə mədəniyyətlərarası dialoqun təşviq olunması üçün əsas qlobal platforma kimi tanınıbdır.

Hörmətli qonaqlar, əminəm ki, Zirvə görüşü çərçivəsində aparılacaq müzakirələr «Qoşulmama Hərəkatı»nın gündəliyində duran hədəflərin həyata keçirilməsinə xidmət göstərəcəkdir. Azərbaycan Hərəkata sədrlik edəcəyi müddətdə öz prioritetlərini üzv dövlətlərlə birgə həyata keçirmək üçün ardıcıl səylər göstərəcəkdir.

Mən Zirvə görüşünün işinə uğurlar arzulayır və bir daha hamınıza «Xoş gəlmisiniz!» – deyirəm. Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sonra Zirvə görüşü Prezident İlham Əliyevin sədrliyi ilə davam etdi.*

*Zirvə görüşünün gündəliyi qəbul edildi, Büro üzvləri seçildi, xüsusi qonaq olan dövlətlərin və təşkilatların siyahısı təsdiqləndi.*

*Daha sonra BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande çıxış etdi.*

*BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmarin DiKarlo çıxış etdi və Baş katib Antonio Quterreşin müraciətini oxudu.*

*Zirvə görüşü «77-lər qrupu» təşkilatının sədri Riyad Mənsurun və Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun çıxışları ilə davam etdi. Çıxışlarda «Qoşulmama Hərəkatı»nın qarşısında mühüm vəzifələrin*

*durduğu bildirildi, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyi vurğulandı.*

*Çıxışlardan sonra Prezident İlham Əliyev «Qoşulmama Hərəkatı»nın dövlət və hökumət başçılarının sessiyasını bağlı elan etdi.*

*Fasilədən sonra Prezident İlham Əliyevin sədrliyi ilə davam edən Zirvə görüşündə Pakistan Prezidenti Arif Alvi, İran Prezidenti Həsən Ruhani, Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov, Malayziyanın Baş Naziri Mahathir bin Məhəmməd, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Kuba Prezidenti Migel Diaz-Kanel, Cibuti Prezidenti İsmail Ömər Qelle, Rusiya Prezidenti Vladimir Putinin Zirvə görüşünə ünvanladığı müraciəti səsləndirən Rusiya Xarici İşlər nazirinin müavini Sergey Verşinin, Əlcəzair Prezidenti Abdelkader Bensalah, Esvatininin Kralı III Msvati, Qana Prezidenti Nana Akufo-Addo, Namibiya Prezidenti Haqe Qotfrid Qeynqob, Ekvatorial Qvineya Prezidenti Obianq Nquema Mbasoqo, Sudan Prezidenti Abdul-Fattah əl-Burhan, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaya Naydu, Vyetnamın vitse-prezidenti xanım Danq Thi Nqok Thinh, Banqladeşin Baş Naziri xanım şeyx Hasina Vazed, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Oli və Liviyanın Baş Naziri Faiz Sarac çıxış etdilər.*

*Zirvə görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkür edən natiqlər «Qoşulmama Hərəkatı»nın qarşısında mühüm vəzifələrin durduğunu qeyd edərək, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının vacibliyini*

*vurğuladılar. Çıxışlarda terrorçuluqla mübarizə, münaqişələrin həlli ilə bağlı beynəlxalq əməkdaşlığın daha da möhkəmləndirilməsi, beynəlxalq hüquq və öhdəliklərin yerinə yetirilməsi, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınması, qaçqınlar problemi, yoxsulluğun azaldılması, ətraf mühitin qorunması, üzv ölkələr arasında iqtisadi-ticari əlaqələrin genişləndirilməsi və digər məsələlərlə bağlı fikirlər diqqətə çatdırıldı. Çıxış edənlər mövcud problemlərin həllində «Qoşulmama Hərəkatı»nın kifayət qədər güclü mövqelərə malik olduğunu bildirərək, 60 il bundan qabaq qəbul olunmuş «Bandunqprinsipləri»nin bu gün də aktual olması fikrində həmrəylik nümayiş etdirdilər.*

*Qeyd edək ki, «Qoşulmama Hərəkatı»nın yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq üçün bir forum rolunu oynamasıdır. Tamhüquqlu 120 üzvü olan «Qoşulmama Hərəkatı» özündə 17 müşahidəçi dövləti və 10 müşahidəçi beynəlxalq təşkilatı birləşdirir. 1961-ci ildə yaradılmış təşkilata üzv olan hər bir dövlət onun prinsiplərinə bağlılığını bildirməlidir. Hərəkata üzvlük prinsipləri hələ təşkilatın təsis olunmasından əvvəl, 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilmiş konfrans zamanı qəbul edilibdir.*

*Azərbaycan Respublikası 2011-ci il mayın 26-da «Qoşulmama Hərəkatı»na üzv ölkələrin yekdil dəstəyini əldə edərək, təşkilata tamhüquqlu üzv qəbul olunub. Azərbaycan Hərəkatın müxtəlifsəviyyəli iclas və konfranslarında iştirak edir və üzv ölkələrlə ikitərəfli münasibətlərini sıxlaşdırmaqla, onun məqsəd və prin-*

*siplərinə öz töhfəsini verir. Hərəkata üzv olduğumuz qısa müddət ərzində Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə beynəlxalq ictimaiyyətin geniş dairələrində məlumatlılıq daha da artıb, təşkilatın daxili prosedur və sənədlərində Azərbaycan Respublikasının ərazi bütövlüyü çərçivəsində həllinə davamlı olaraq dəstək əks olunubdur. Hərəkata üzvlük, həmçinin beynəlxalq sülh, təhlükəsizlik və əməkdaşlığa dair proseslərə ölkəmizin daha yaxından cəlb olunmasına və çoxsaylı dövlətlərlə ikitərəfli münasibətlərin inkişaf etdirilməsinə münasib şərait yaradıbdır.*

## «QOŞULMAMA HƏRƏKATI»NA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ XVIII ZİRVƏ GÖRÜŞÜNÜN DEBATLARLA DAVAMINDA İŞTİRAK

*25 oktyabr 2019-cu il*

*«Qoşulmama Hərəkatı»na üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilmiş XVIII Zirvə görüşü işini ümumi debatlarla davam etdirmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə keçən debatlarda Pakistan Prezidenti Arif Alvi, İran Prezidenti Həsən Ruhani, Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov, Malayziyanın Baş Naziri Mahathir bin Məhəmməd, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Kuba Prezidenti Migel Diaz-Kanel, Cibuti Prezidenti İsmail Ömər Qelle, Rusiya Xarici İşlər nazirinin müavini Sergey Verşinin, Əlcəzair Prezidenti Abdelkader Bensalah, Esvatininin Kralı III Msvati, Qana Prezidenti Nana Akufo-Addo, Namibiya Prezidenti Haqe Qotfrid Qeynqob, Ekvatorial Qvineya Prezidenti Obianq Nquema Mbasoqo, Sudan Prezidenti Abdul-Fattah əl-Burhan, Hindistanın vitse-prezidenti Muppavarapu Venkaya Naydu, Vyetnamın vitse-prezidenti*

*xanım Danq Thi Nqok Thinh, Banqladeşin Baş Naziri xanım şeyxa Hasina Vazed, Nepalın Baş Naziri Khadqa Prasad Şarma Oli və Liviyanın Baş Naziri Faiz Sarac çıxış etdilər.*

*Çıxışlarda 2030-cu il üçün Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində göstərilən səylərin artırılmasının, iqlim dəyişikliyi, miqrasiya, qaçqın və köçkün problemlərinin qarşısının alınmasının, dünyada sülhün və təhlükəsizliyin təmin olunmasının, transmilli cinayətkarlığa qarşı mübarizənin, kütləvi qırğın silahlarının yayılmasının qarşısının alınmasının, ölkələrin suverenliyinə və ərazi bütövlüyünə hörmət edilməsinin önəmi vurğulandı, «Qoşulmama Hərəkatı»na üzv dövlətlərin bu sahədə birgə əməkdaşlığının vacibliyi diqqətə çatdırıldı.*

*Natiqlər XVIII Zirvə görüşünü yüksək səviyyədə təşkil etdiyinə və nümayəndə heyətlərinə göstərilən qonaqpərvərliyə görə Azərbaycan Prezidentinə, Azərbaycan hökumətinə və xalqına minnətdarlıqlarını bildirdilər.*

## TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*25 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Türkmənistan Prezidenti Qurbanqulu Berdıməhəmmədov ilə görüşmüşdür.*

**İlham Əliyev:** Hörmətli Qurbanqulu Məlikqulıyeviç, xoş gəlmisiniz!

Sizi Azərbaycan torpağında yenidən görməyimə şadam. Bu yaxınlarda Sizinlə Türkmənistanda MDB Dövlət Başçıları Şurasının iclası çərçivəsində görüşmüşük. Fürsətdən istifadə edib Sizi həmin iclasın gözəl təşkili münasibətilə təbrik etmək və əlbəttə, Aşqabad haqqında təəssüratlarımı bir daha bölüşmək istərdim. Mən Sizin ölkənizdə tez-tez oluram və orada böyük dəyişiklikləri görürəm. Bunu Sizə Aşqabadda da demişdim, indi də demək istəyirəm. Bu, şəhərsalma və şəhərin, onun infrastrukturunun müasir dinamik inkişafı, vətəndaşlar üçün, sakinlər üçün yaxşı şəraitin yaradılması nümunəsidir.

Əlbəttə, biz gündəlikdəki ikitərəfli məsələlər barədə bir daha fikir mübadiləsi aparmaq imkanını əldən verə bilmərik. Biz müntəzəm olaraq görüşürük. Keçən il Sizin ölkənizə rəsmi səfərimi, bundan əvvəlki

görüşümüzü böyük məmnuniyyətlə xatırlayıram. Bu gün biz praktiki olaraq bütün sahələri əhatə edən ikitərəfli inkişafla bağlı mühüm məsələləri müzakirə edəcəyik.

Ölkələrimiz arasında qardaşlıq, dostluq münasibətlərinin böyük tarixi əsası vardır. Xalqlarımız çoxəsrlik tarix ərzində həmişə bir-birinə qardaşlıq münasibəti bəsləyib. Biz də bu ənənələri davam etdiririk. Buna görə Sizə bir daha səmimi-qəlbdən «Xoş gəlmisiniz!» – deyirəm və təşəkkür edirəm ki, Türkmənistan «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə ən yüksək səviyyədə iştirak edir.

**Qurbanqulu Berdıməhəmmədov:** Hörmətli İlham Heydər oğlu, Türkmənistanın ünvanına səslənmiş səmimi ürək sözlərinizə görə sağ olun. Mən də Sizə təşəkkür etmək istərdim ki, məni «Qoşulmama Hərəkatı»nın iştirakçısı olan ölkələrin XVIII Zirvə görüşünə dəvət etmisiniz. Mən bəri başdan Sizi təbrik etmək istəyirəm. Zirvə görüşü ən yüksək və mütəşəkkil səviyyədə keçir. Bu münasibətlə Sizi təbrik edirəm. Əlbəttə, Zirvə görüşünün mahiyyəti bütün dünyada sabitliyin, təhlükəsizliyin və sülhün möhkəmləndirilməsidir. Burada bizim iqtisadi münasibətlərimiz və ən başlıcası, deyərdim ki, humanitar və beynəlxalq məsələlər mühüm rol oynayır. Yəqin ki, hər bir dövlətdə məhz onun öz maraqları mühüm rol oynayır. Bu, Hərəkat üzvlərinin bugünkü çıxışlarından da aydın görünürdü. Hər bir dövlətin suverenliyi, ərazi bütövlüyü yəqin ki, çox böyük əhəmiyyət kəsb edir. Buna görə bildiyiniz kimi, biz də bitərəf ölkəyik, Türkmənistan neytraldır. Biz Sizin qonşularınız, qardaşlarınızıq. Əlbəttə, biz buna

Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi mövqeyindən də baxırıq ki, heç vaxt qarşıdurma olmasın. Bütün bu məsələləri, əlbəttə, siyasi, diplomatik vasitələrlə həll etmək lazımdır. Buna görə bu gün bəlkə də bütün beynəlxalq arena üçün çox vacib Zirvə görüşünün uğurlu keçirilməsi münasibətilə Sizi bir daha təbrik etmək istəyirəm.

Bir söz də demək istərdim və bu, kompliment deyil. Qədim Xəzərin sahilindəki Bakı həmişəki kimi gəncləşir və gözəlləşir. Onun özünəməxsus memarlığı vardır. İnsan burada gördüklərinə hər dəfə sevinir. Buna görə öz adımdan Sizi təbrik etmək istəyirəm.

Bizim ikitərəfli münasibətlərimizə gəldikdə, Siz də dediyiniz kimi, siyasət məsələsini bərabər xatırlatdıq. İqtisadi məsələlərə gəldikdə, qeyd etmək istərdim ki, onlar yüksələn xətt üzrə inkişaf edir və belə də olmalıdır. Sevindirici haldır ki, enerji təhlükəsizliyi məsələlərində biz eyni mövqedəyik. Bizdə bütün bu məsələləri İqtisadi Əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiya əlaqələndirir. Ümumiyyətlə, Sizə təşəkkür edirəm ki, bu gün biz nəqliyyat və tranzit dəhlizlərini nəinki regionda, daha geniş miqyasda birlikdə inkişaf etdiririk.

Dəvət üçün Sizə bir daha təşəkkür edirəm, dövləti fəaliyyətinizdə bundan sonra da uğurlar diləyirəm, qardaş Azərbaycan xalqına firavanlıq, xoşbəxtlik arzu edirəm. Bir daha sağ olun.

## VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURO İLƏ GÖRÜŞ

*25 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə görüşmüşdür.*

*Prezident Nikolas Maduro «Qoşulmama Hərəkatı»na üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə görüşünün yüksək səviyyədə təşkil olunduğunu qeyd etdi və Prezident İlham Əliyevə bu Zirvə görüşünə sədrliyinə görə minnətdarlığını bildirdi. Söhbət zamanı Azərbaycanın «Qoşulmama Hərəkatı»na uğurla sədrlik edəcəyinə əminlik ifadə olundu. Görüşdə Bandunq prinsiplərinin dövlətlərarası münasibətlərdə mühüm rolu xüsusi qeyd olundu və bu prinsiplər əsasında «Qoşulmama Hərəkatı»nın beynəlxalq sülh və təhlükəsizliyə töhfə verdiyi vurğulandı. Bandunq prinsipləri, xüsusilə dövlətlərin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və onların daxili işlərinə qarışılmamasının beynəlxalq münasibətlərin təməl prinsipləri olmasının vacibliyi bildirildi.*

## CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ İSMAİL ÖMƏR QELLE İLƏ GÖRÜŞ

*25 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 25-də Cibuti Respublikasının Prezidenti İsmail Ömər Qelle ilə görüş müşdür.*

*Cibuti Prezidenti «Qoşulmama Hərəkatı»nın XVIII Zirvə görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.*

*Prezident İsmail Ömər Qelle Azərbaycanın qonşu dövlətin təcavüzünə məruz qaldığını, münaqişənin həlli ilə bağlı Azərbaycanın haqlı tələbinin legitim xarakter daşıdığını vurğuladı. Dövlət başçısı Cibuti Milli Assambleyasında Xocalıda baş verənlərin soyqırımı kimi tanınması ilə bağlı qətnamənin qəbul edildiyini xatırlatdı.*

*Prezident İlham Əliyev ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığın və qarşılıqlı dəstəyin vacibliyini qeyd etdi. Azərbaycan Prezidenti Xocalıda baş verənlərin 10-dan çox dövlət tərəfindən soyqırımı kimi tanındığını bildirdi. Dövlətimizin başçısı Cibuti Milli Assambleyasının Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi qətnamənin yüksək qiymətləndirildiyini nəzərə çatdırdı.*

## «QOŞULMAMA HƏRƏKATI»NA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ XVIII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK EDƏN NÜMAYƏNDƏLƏRİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*25 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından oktyabrın 25-də «Qoşulmama Hərəkatı»nın Bakıda keçirilmiş XVIII Zirvə görüşündə iştirak edən dövlət və hökumət başçıları, nümayəndə heyətləri rəhbərlərinin şərəfinə rəsmi ziyafət verilmişdir.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva ziyafətdə iştirak etdilər.*

*Dövlət başçısı rəsmi ziyafətdə çıxış etdi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Hörmətli dövlət və hökumət başçıları!

Hörmətli qonaqlar!

Xanımlar və cənablar!

Mən sizin hamınızı bir daha salamlayır, «Azərbaycana xoş gəlmisiniz!» – deyirəm.

Zirvə görüşümüzün birinci günü başa çatır. Sabah işimizi davam etdirəcəyik. Hərəkata üçillik sədrlik səlahiyyətlərinin yekdilliklə Azərbaycana verilməsinə görə bütün üzv dövlətlərə təşəkkürümü bildirirəm.

Azərbaycan öz prioritetlərini tarixi Bandunq prinsipləri üzərində quracaqdır. Məqsədimiz üzv dövlətlərlə birgə «Qoşulmama Hərəkatı»nın beynəlxalq münasibətlər sistemindəki rolunu və nüfuzunu daha da yüksəltmək, dünyada sülhün və təhlükəsizliyin möhkəmləndirilməsinə, dayanıqlı inkişafa və ədalətin təmin olunmasına töhfələr verməkdir.

Bütün ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət, dövlətlərin daxili işlərinə qarışmama, qarşılıqlı maraqların qorunması və əməkdaşlığın təşviqi kimi prinsipləri ehtiva edən Bandunq prinsipləri Azərbaycanın xarici siyasəti ilə üst-üstə düşür.

Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar «Qoşulmama Hərəkatı»nın sənədlərində əks olunmuş, Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən qərarlara görə təşəkkürümü bildirirəm. Biz bu dəstəyi yüksək qiymətləndiririk.

Ölkəmizin Hərəkata sədrliyi dövründə üzv dövlətlər arasında həmrəylik və qarşılıqlı dəstək münasibətlərinin təşviqi prioritetimiz olacaqdır. Biz həmçinin üzv ölkələr arasında mövcud olan məsələlərin, yarana biləcək problemlərin həllinə kömək göstərməyə çalışacağıq.

BMT Baş Assambleyasından sonra üzv dövlətlərin sayına görə ən böyük beynəlxalq təsisat olan «Qoşulmama Hərəkatı»nın bu iki gün ərzində – bu gün və sabah Bakıda keçirilən Zirvə görüşü dünya miqyasında ən önəmli hadisədir.

Ümid edirəm ki, nümayəndə heyətlərinin üzvləri imkan tapıb paytaxt Bakı ilə tanış olacaqlar. Bakı dünyanın ən qədim şəhərlərindən biridir. Ən azı 20 min il tarixi

olan Qobustan petroqlifləri, VI əsrə aid olan Qız qalası, XII əsrdə inşa edilmiş İçərişəhər, Qala divarları və Şirvanşahlar sarayı kimi abidələrimiz UNESKO Ümumdünya irs siyahısına daxildir. Üç ay bundan əvvəl Bakıda UNESKO Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasında qədim Azərbaycan şəhəri olan Şəkinin tarixi mərkəzi və Şəki Xan sarayı Ümumdünya irs siyahısına daxil edilmişdir.

Azərbaycan qədim tarixə, zəngin mədəniyyətə malikdir. Ölkəmizdə mövcud olan tarixi abidələr bunu əyani şəkildə təsdiq edir. Azərbaycan ərazisində eramızdan əvvəl I əsrdə yaradılmış və böyük bir ərazini əhatə etmiş Qafqaz Albaniyasına aid çoxlu tarixi abidələrimiz mövcuddur. Belə abidələrdən biri də Şəki rayonunun Kiş kəndindəki alban məbədidir.

On üç əsr bundan əvvəl, 743-cü ildə inşa olunmuş Şamaxı Cümə Məscidi Qafqazda və Yaxın Şərqdə ən qədim məscidlərdən biridir. Zaman-zaman təbii fəlakətlərdən və qəsdlərdən zərər çəkmiş bu qədim məsciddə sonuncu dəfə mənim sərəncamımla əsaslı təmir və bərpa işləri aparılıb, 2013-cü ildə məscidin açılışı olubdur. Bakı yaxınlığında atəşpərəstliyin erkən orta əsrlərə aid Atəşgah məbədi mövcuddur. Bizim dini və etnik müxtəlifliyimiz böyük sərvətimizdir. Bu il biz qədim Şamaxı şəhərində dünyaya gəlmiş böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin 650 illik yubileyini qeyd edirik. Mənim sərəncamımla 2019-cu il Azərbaycanda «Nəsimi ili» elan olunubdur. Azərbaycan dünya mədəniyyətinə Nizami Gəncəvi, İmadəddin Nəsimi, Məhəmməd Füzuli, böyük sərkərdə və şair Şah

İsmayıl Xətai və digər dühalar bəxş edibdir. Onların əsərləri dünya ədəbiyyatının inciləri sırasına daxildir.

Bakı şəhəri müntəzəm olaraq sanballı beynəlxalq tədbirlərə ev sahibliyi edir. Bunların sırasında Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunu, Dünya Dini Liderlərinin Forumunu, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumunu qeyd etmək olar. 2008-ci ildən bizim təşəbbüsümüzlə həyata keçirilən «Bakı prosesi» və onun məntiqi davamı olaraq təsis edilmiş Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal platforma kimi, BMT Baş Assambleyasının qətnamələri ilə dəstəklənir. Gələn ay isə ölkəmizdə Dünya Dini Liderlərinin II Sammiti keçiriləcəkdir. 2015-ci ildə Azərbaycanda keçirilmiş birinci Avropa oyunlarında, 2017-ci ildə ölkəmizdə təşkil olunmuş IV İslam Həmrəyliyi oyunlarında ümumilikdə Avropa və müsəlman dünyasını təmsil edən 104 ölkədən idmançılar iştirak etmişlər. Söz düşmüşkən, Azərbaycan komanda hesabında Avropa oyunlarında 2-ci yeri, İslam Həmrəyliyi oyunlarında isə 1-ci yeri tutmuşdur. İdman Azərbaycanın dövlət siyasətini təşkil edir. Rioda keçirilmiş son yay Olimpiya oyunlarında ölkəmiz qazanılmış medalların sayına görə dünyada 14-cü, Avropa ölkələri arasında 7-ci, müsəlman aləmində isə 1-ci yeri tutmuşdur. Onu da deyim ki, hər il Bakı şəhəri 500 milyon tamaşaçısı olan «Formula-1» yarışlarına da ev sahibliyi edir.

Hörmətli qonaqlar, xanımlar və cənablar!

Bizim tarixi abidələrimizlə yanaşı, gözəl təbiətimiz, mülayim iqlimimiz, zəngin mətbəximiz və ən əsası isə qonaqpərvər xalqımız vardır. Müasir infrastruktura malik

Bakı şəhəri dünyanın ən gözəl və təhlükəsiz şəhərlərindən biridir. Ümid edirəm ki, nümayəndə heyətləri buradan ən xoş təəssüratlarla ayrılaraq, Bakıya bir daha qayıtmaq istəyəcəklər. İnanıram ki, Bakı haqqında qəlbinizdə daim xoş xatirələr qalacaqdır. Sağ olun.

*Rəsmi ziyafət konsert proqramı ilə davam etdi.*

**TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA**

Hörmətli cənab Prezident!

Əziz qardaşım!

Türkiyə Respublikasının milli bayramı – Respublika Günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

Bu gün qardaş Türkiyə dinamik və hərtərəfli inkişaf yolundadır. Əldə etdiyi nailiyyətlər onu dünyanın iqtisadi cəhətdən qüdrətli və ən qabaqcıl ölkələri sırasına çıxarıbdır. Türkiyə, həmçinin öz dövlətçilik mənafelərindən çıxış edərək, dünyada və regionda cərəyan edən proseslərdə ədalətli və qətiyyətli mövqe nümayiş etdirir.

Azərbaycan–Türkiyə dostluğu və qardaşlığı xalqlarımızın ortaq milli-mənəvi dəyərlərindən və ənənələrindən güc alır.

Əminəm ki, müttəfiqliyimiz, qarşılıqlı etimad və dəstəyə əsaslanan strateji tərəfdaşlığımız bundan sonra da xalqlarımızın rifahına, ölkələrimizin hərtərəfli inkişafına töhfələr verəcəkdir.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, qardaş Türkiyə xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının**
**Prezidenti**

Bakı, *25 oktyabr 2019-cu il*

## BMT BAŞ KATİBİNİN SİYASİ VƏ SÜLH QURUCULUĞU MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ XANIM ROZMARİN DİKARLO İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da BMT Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini xanım Rozmarin DiKarlonu qəbul etmişdir.*

*Dövlət başçısı xanım Rozmarin DiKarlonu salamladı.*

**İ l h a m Ə l i y e v:** Zirvə görüşündə iştirak etdiyinizə görə sizə təşəkkür edirəm. Çıxışınız üçün sağ olun. BMT-nin burada yüksək səviyyədə təmsil edilməsi çox vacibdir. Sədrliyi qəbul etdik və 3 il ərzində «Qoşulmama Hərəkatı»nın əsas prinsiplərinə sadiq qalmaq üçün əlimizdən gələni etməyə çalışacağıq. Əlbəttə, bu bizim üçün böyük məsuliyyət, eyni zamanda, şərəfdir. Çünki biz nisbətən yeni üzv ölkəyik, yalnız 8 ildir üzv olmuşuq və hazırda bütün üzvlərin dəstəyini görürük. Bildiyiniz kimi, sədrliyə olan namizədliyimiz yekdilliklə qəbul edildi. Bu, beynəlxalq ictimaiyyətin üçdə ikisinin dəstəyini nümayiş etdirməsi idi. Əlbəttə ki, bizim siyasətimiz, atdığımız addımlar, beynəlxalq hüququn, ədalətin qorunmasına, aparıcı beynəlxalq təşkilatların

qərar və qətnamələrinin icra edilməsinə sadiq qalmaq üzrə baxışımız bu qərarın qəbul edilməsində mühüm rol oynadı.

Bildiyiniz kimi, bəzi üzv ölkələr arasında müəyyən problemlər vardır. Bəzilərinin uzun tarixçəsi var, bəzi problemlər yeni ortaya çıxıb. Lakin buna baxmayaraq, Azərbaycana göstərilən münasibət baxımından, hətta Azərbaycanla ikitərəfli əlaqələri yaxşı olmayan bəzi ölkələr belə, bizi dəstəkləyir. Hesab edirəm ki, açıq, səmimi siyasət yürütməklə, harada ki, sözlərimiz və imzalarımız üst-üstə düşür, biz belə bir yekdil dəstəyi ala bilmişik. Əlbəttə, qarşıdan gələn illərdə qlobal gündəlikdə olan məsələlərin həlli üzrə sizinlə birgə işləyəcəyik. Zirvə görüşündə iştirak etdiyiniz üçün bir daha təşəkkür edirəm.

**R o z m a r i n D i K a r l o:** Çox sağ olun. Məni qəbul etdiyiniz üçün təşəkkür edirəm. Bizə gözəl ölkənizi ziyarət etmək imkanı yaratdığınız üçün Sizə minnətdaram. 29 il əvvəl Azərbaycana gəlmişdim. Onu deyim ki, ölkəniz əhəmiyyətli şəkildə dəyişib. Hərəkata sədrliyi qəbul etdiyinizə görə, eyni zamanda, bir çox beynəlxalq tədbirləri burada, Bakıda təşkil etdiyinizə görə Sizə təşəkkür edirəm və Sizi təbrik edirəm. Sizin bu yaxınlarda irəli sürdüyünüz bir çox təşəbbüslərdən bizim məlumatımız var və bunlar bizim üçün olduqca vacibdir, çünki siz çoxtərəfliliyin güclü tərəfdarısınız. Beynəlxalq ictimaiyyətlə, BMT ilə bu istiqamətdə bir sıra təşəbbüslər üzərində işləyirsiniz.

**İ l h a m Ə l i y e v:** Sözləriniz üçün sağ olun. Biz Baş katib Quterreşin multikulturalizm təşəbbüsümüzə

göstərdiyi dəstək üçün minnətdarıq. «Bakı prosesi» mədəniyyətlərarası dialoq məsələləri üçün qlobal platformaya çevrilib. Biz BMT-nin bu təşəbbüsə dəstəyini yüksək qiymətləndiririk. Bu prosesə başlayanda onun uğurlu olacağı ilə bağlı böyük ümidlərin olmadığını xatırlayıram. Bu, 2008-ci ilin sonuna təsadüf edirdi. Dedim ki, niyə də cəhd etməyək? Çünki Azərbaycan həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olan çox az ölkələrdən biridir. Bu imkanımızdan niyə də istifadə etməyək? Nəzərə alsaq ki, yalnız müstəqillik illərində yox, bütün siyasi və ictimai təzahürlərin tərkibində, hətta başqa ölkələrin tərkibində olduğumuz zaman da multikulturalizm ruhu həmişə bizdə mövcud olub. Bakı müxtəlif dinlərin, etnik qrupların nümayəndələrinin sülh içində yaşadığı şəhər, Azərbaycan isə ölkə olub və bu, işə yaradı. İndi BMT-nin güclü dəstəyini görürük. Şəffaflıqla bağlı səylərimizin yüksək qiymətləndirilməsi üçün də sizə minnətdaram. Bir neçə il əvvəl Neft Fondu adlanan suveren fondumuz BMT-dən mükafat aldı. Hazırda başqa ölkələrdə də fəaliyyətini genişləndirən dövlət xidmətləri sistemi olan «ASAN»ın da fəaliyyəti BMT tərəfindən xüsusi olaraq qiymətləndirilibdir. Biz buna böyük dəyər veririk. Həyata keçirdiyimiz bütün işlər də ölkənin gücləndirilməsi, insanlar üçün daha yaxşı şəraitin yaradılması və beynəlxalq əməkdaşlığın dərinləşdirilməsinə istiqamətlənib. Bunlara nəqliyyat və energetika layihələri də daxildir. Onlar bizi birləşdirdi, ölkələr arasında qarşılıqlı bağlılıq yaratdı. Bu gücdür, sabitlikdir.

## BANQLADEŞ XALQ RESPUBLİKASININ BAŞ NAZİRİ ŞEYXA HASİNA VAZED İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Banqladeş Xalq Respublikasının Baş Naziri xanım şeyxa Hasina Vazedi qəbul etmişdir.*

*Banqladeş Xalq Respublikasının Baş Naziri xanım şeyx Hasina Vazed «Qoşulmama Hərəkatı»nın XVIII Zirvə görüşünün yüksək səviyyədə təşkilinə, həmçinin nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.*

*Dövlət başçısı İlham Əliyev üzv dövlətlərin yekdil dəstəyi ilə Azərbaycanın «Qoşulmama Hərəkatı»na sədr seçilməsinin ölkəmizə olan yüksək etimadın və hörmətin təzahürü olduğunu vurğuladı.*

*Görüşdə «Qoşulmama Hərəkatı»nın gündəliyində duran məsələlər, həmçinin kənd təsərrüfatı, humanitar, mədəniyyət və digər sahələrdə əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparıldı.*

*Daha sonra Azərbaycan Respublikası Hökuməti və Banqladeş Xalq Respublikası Hökuməti arasında mədəniyyət sahəsində əməkdaşlıq haqqında Saziş imzalandı.*

## ESVATİNİ KRALI ƏLAHƏZRƏT III MSVATİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Esvatini Kralı əlahəzrət III Msvati ilə görüşmüşdür.*

*Görüşdə Esvatini Kralı əlahəzrət III Msvati «Qoşulmama Hərəkatı»nın XVIII Zirvə görüşünün yüksək səviyyədə təşkil edildiyini vurğuladı və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi.*

*Görüşdə ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin əhəmiyyəti qeyd olundu. Müxtəlif sahələrdə, o cümlədən turizm, energetika, elm, təhsil, humanitar və digər sahələrdə əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.*

## ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə görüşmüşdür.*

*Dövlət başçısı Əfqanıstan Prezidentini salamladı.*

**İ l h a m Ə l i y e v:** Cənab Prezident, bir daha xoş gəlmisiniz! Dünən biz sammit iştirakçılarının çox mühüm görüşünü keçirdik. Bu günlərdə bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirik. Əfqanıstanın sammitdə mümkün olan ən yüksək səviyyədə iştirakı Sizin bu quruma verdiyiniz əhəmiyyəti əks etdirir və biz bunu həm də Azərbaycana münasibətdə dostluq və tərəfdaşlığın göstəricisi hesab edirik. Biz dost, qardaş ölkələrik. Biz Sizinlə dəfələrlə beynəlxalq tədbirlər zamanı Bakıda görüşmüşük. Sonuncu dəfə bu ilin martında çox yaxşı görüşümüz oldu və sənəd imzalandı. Ölkələrimiz arasındakı əlaqələrin inkişafından məmnunam. Ən mühümü isə odur ki, biz razılaşdırdığımız bütün məsələləri həyata keçirməyə çalışırıq. Düşünürəm ki, ikitərəfli əlaqələrdə, siyasi təmasların gücləndirilməsində çox böyük irəliləyişə nail olmuşuq. Azərbaycanın ölkənizdə sülhməramlı inkişafı dəstəkləmək səyləri Sizə məlumdur. Bildiyiniz kimi, biz Əf-

qanıstandakı hərbçilərimizin sayını artırmışıq. Sizin ölkənizdə təhlükəsizlik, sabitlik və tərəqqi bizim üçün böyük əhəmiyyət kəsb edir. Çünki dost və qardaş olaraq, biz sizin bütün islahatlarınızın, planlarınızın həyata keçirilməsini görmək istəyirik. Mən Sizə söyləmişdim ki, Siz bu mühüm vəzifəyə gələndən bizim əlaqələrimiz çox səmərəli tərəfdaşlığa çevrilib. Bizim mütəmadi görüşlərimiz və müzakirələrimiz, qəbul edilmiş qərarlar, bu qərarların icrası qarşılıqlı siyasi iradəni nümayiş etdirir. Əvvəlki görüşlərimizdən birində müzakirə etdiyimiz kimi, biz dəmir yollarımızı və nəqliyyat qurğularını birləşdirmək istəyirdik və bunu etdik. Biz artıq «Lapis-Lazuli» layihəsindən Azərbaycan vasitəsilə yükləri qəbul etmişik. Beləliklə, biz bu məsələlər üzərində işləməyə davam edəcəyik. O vaxtdan biz Mərkəzi Asiyadakı dostlarımız və qonşularımızla da çox fəal şəkildə əməkdaşlıq edirik. Belə ki, Mərkəzi Asiyadan Azərbaycan vasitəsilə daşınan yükün həcmi artır. Hazırda Əfqanıstan, Azərbaycan və Avropa arasında fiziki bağlantı vardır və düşünürəm ki, bu, tarixi nailiyyətdir. Bu gün biz qarşılıqlı maraq kəsb edən bəzi başqa məsələləri də müzakirə edəcəyik. Bir daha xoş gəlmisiniz və bizimlə birlikdə olduğunuz üçün təşəkkür edirik.

**Məhəmməd Əşrəf Qani:** Sizinlə görüşməkdən məmnunluq hissi keçirirəm, Sizi təbrik edirəm. «Qoşulmama Hərəkatı»na sədrliyin Azərbaycan tərəfindən qəbul olunması, hesab edirəm ki, Sizi və qardaş Azərbaycan xalqını Dağlıq Qarabağ münaqişəsinin həllinə bir addım daha yaxınlaşdırır. Əfqanıstanın Azərbaycanla bağlı prinsipial mövqeyini nəzərə alaraq,

bizdən nəsə tələb olunarsa, tərəddüd etmədən bunu bizə bildirin. Biz İnsan Hüquqları üzrə Komissiyanın tərkibinə daxilik və əlaqələndirmə ilə bağlı hər hansı bir xüsusi zərurət yaranarsa, mən bizim səfirimizə sizin səfirinizlə çox yaxından koordinasiya etmək tapşırığını verə bilərəm. Hesab edirəm ki, belə beynəlxalq tədbirlərə ev sahibliyi etmək strategiyanızla hər gün daha çox insanı bunun faydalı olduğuna inandırırsınız. İkitərəfli əlaqələrimizə gəldikdə, onların səviyyəsi bizi çox sevindirir. Bu – mən bunu həmişə deyirəm – Sizin Çikaqodakı çıxışınızdan başlandı. O vaxt bu, arzu idi, lakin indi bu, həyata keçirilib. «Lapis-Lazuli» dəhlizi bizim üçün çox böyük əhəmiyyətə malikdir. Biz Bakıdan liman kimi necə istifadə olunması məsələsini daha çox müzakirə etmək istəyirik. İslahatların aparılması, ya da indi etibarlı dəmir yolu dəhlizimizin olması bizim üçün çox vacib hadisədir. Eyni ilə biz dəhlizi genişləndirmək istəyirik. Bu dəhlizin genişləndirilməsi üçün ciddi proqram hazırlamışıq və Bakının mərkəzi qovşaq kimi burada bizə xidmət etməsi bizim üçün böyük maraq kəsb edir. Bakıda əfqan məhsullarının ilk sərgisi keçirilib və biz İqtisadiyyat Nazirliyi ilə daha yaxından əməkdaşlıq etmək istəyirik ki, bazar təhlili aparılsın və bizim komanda bazar təhlili üzərində çalışa bilsin. Bu potensial sahələrdən biri tikinti materiallarıdır.

## MALAYZİYANIN BAŞ NAZİRİ MAHATHİR BİN MƏHƏMMƏD İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Malayziyanın Baş Naziri Mahathir bin Məhəmmədi qəbul etmişdir.*

*Dövlət başçısı Malayziyanın Baş Nazirini qarşıladı. Azərbaycan Prezidenti və Malayziyanın Baş Naziri birgə foto çəkdirdilər.*

*Sonra Prezident İlham Əliyevin və Baş Nazir Mahathir bin Məhəmmədin görüşü oldu.*

**İlham Əliyev:** Cənab Baş Nazir, Azərbaycana xoş gəlmisiniz! Sizi bir daha görməyimə çox şadam. Minnətdaram ki, sammitdə iştirak edirsiniz. Bu, Malayziyanın mühüm beynəlxalq tədbirə böyük əhəmiyyət verdiyini nümayiş etdirir və ölkəniz mümkün olan ən yüksək səviyyədə təmsil olunubdur. Dünəndən biz «Qoşulmama Hərəkatı»na sədrliyi qəbul etmişik. Sammitdə çıxışım zamanı dediyim kimi, Azərbaycan ölkənin prioritetləri, siyasəti, o cümlədən xarici siyasət prioritetlərinə tam uyğun olan «Bandunq prinsipləri»nə sadiq olacaq. Suverenlik, ərazi bütövlüyü, müstəqillik, bir-birinin işlərinə qarışmamaq bizim xarici siyasət gündəliyimizin əsas xəttidir. Düşünürəm ki, bu amil sayəsində, həmçinin Azərbaycanın milli maraqlara

əsaslanan müstəqil xarici siyasət yürütməsi sayəsində biz «Qoşulmama Hərəkatı»nda yekdil dəstək əldə etmişik. Biz yekdil qərarla sədr seçilməyimizi böyük şərəf hesab edirik. Bu onu nümayiş etdirir ki, ölkəmizin yürütdüyü siyasət beynəlxalq ictimaiyyət üzvlərinin mütləq əksəriyyəti tərəfindən dəstəklənir. Biz təşkilatda olduğumuz qısa zamanda öz mövqemizi nümayiş etdirə bilmişik. Sədr olaraq biz bütün üzv dövlətlərin legitim hüquqlarını müdafiə edəcək, bəzi üzv dövlətlər arasında gərginliyin azaldılmasında ölkələrə uyğun gələn şəkildə rol oynamağa çalışacağıq. «Qoşulmama Hərəkatı»nda birliyi, qarşılıqlı siyasi dəstəyi gücləndirməyə ehtiyac vardır. Biz mütləq iqtisadi əməkdaşlıq məsələsi ilə məşğul olacağıq. Çünki biz bir-birimizə kömək etməliyik, ticarət mübadiləsini genişləndirməliyik, hazırda başqa yerlərdən aldığımız məhsulları üzv dövlətlərdən almalıyıq. Bildiyiniz kimi, biz Gənclər Sammiti təşəbbüsü ilə çıxış etmişik. Bir çox üzv ölkələrdə əhalinin, o cümlədən gənclərin sayı artır, onların məşğulluğu, cəmiyyətə inteqrasiyası, ənənəvi dəyərlərə sadiqliyi ən mühüm məsələlərdir. Biz Azərbaycanda gənclərimizin vətənə sadiq, vətənpərvər olmasına, milli ruhda yetişdirilməsinə, hər cür xarici təsirdən azad olmasına və gələcək nəslin milli maraqlarımızı bizim kimi qorumasını təmin etməyə çox böyük əhəmiyyət veririk. Bizim sədr olaraq, qarşıdakı, 3 il üçün həqiqətən də geniş gündəliyimiz vardır. Biz sizin şəxsi dəstəyinizə və məsləhətinizə güvənirik, sizi dünya miqyasında ən görkəmli siyasətçilərdən biri kimi, «Malayziya möcüzəsi»nin müəllifi kimi tanıyırıq. Mən bilirəm ki, bir çox ölkələr sizin

dəyişikliklərlə bağlı təcrübənizi öyrənib və siz hər zaman ədaləti müdafiə etmisiniz. Sizin dünənki çıxışınızda yenə də mövqe var idi, baxış var idi, qlobal gündəlikdə olan mühüm məsələlərə açıq yanaşma var idi. Əlbəttə ki, biz ölkələrimiz arasındakı çox sıx dostluq əlaqələrini, siyasi əlaqələri gücləndirmək istəyirik. Bizim enerji sektorunda artıq çox yaxşı əməkdaşlığımız vardır. «Petronas» şirkəti Azərbaycana sərmayə yatırır və biz əməkdaşlığı genişləndirmək, hər iki ölkədən turistlərin sayını artırmaq, daha çox mədəni tədbirlər keçirmək istəyirik. Bir sözlə, biz ölkələri yaxınlaşdırmaq üçün səy göstərmək istəyirik. Bir daha Azərbaycana xoş gəlmisiniz!

**Mahathir bin Məhəmməd:** Mənə və nümayəndə heyətimə göstərdiyiniz qonaqpərvərliyə görə təşəkkür edirəm. İlk səfərimdən sonra həmişə bir daha buraya gəlmək istəmişəm, lakin Baş Nazir vəzifəsini tərk etdikdən sonra xarici ölkələrə səfərlərimi əsasən azaltdım, amma hakimiyyətə bir daha qayıtdıqdan sonra adət etdiyimdən daha çox səfərlər etməliyəm. «Qoşulmama Hərəkatı» Sammitinin burada baş tutacağını öyrənəndə səbirsizliklə yenidən Azərbaycana gəlməyi gözləyirdim. Əlaqələrimiz yaxşıdır. Əlbəttə ki, əlaqələrimiz çox yaxın deyil, çünki Malayziyada Azərbaycan haqqında çox şeyi bilmirik. Bakı haqqında bilirik, lakin Azərbaycan haqqında o qədər də məlumatlı deyilik. Düşünürəm ki, Azərbaycan haqqında tarixən maraqlı şeylər var və bu, bir çox ölkələri buraya cəlb edəcək. Xüsusilə Həcc ziyarətini edib geri qayıtdıqda buraya gələ bilərik.

Biz bütün məsələlərdə neytralıq. Hamı ilə dost olmaq istəyirik. Heç bir dövlətin daxili sistemi və ya ideologiyası bizi maraqlandırmır. Çünki Malayziya ticarət ölkəsidir. Onun inkişafı ticarətdən asılıdır və buna görə biz həmişə bazarlarla dost olmalıyıq. Hər ölkəni də məhsullarımız üçün bir bazar olaraq görürük. Bu gün biz, demək olar ki, 190 ölkə ilə ticarət aparırıq və praktiki olaraq, hər bir ölkə ilə bizim biznesin aparılması ilə bağlı müəyyən münasibətlərimiz vardır. Hətta Azərbaycanda da qalmaq üçün bir sıra əlaqələrimiz vardır. Bəziləri, əlbəttə ki, neft sahəsindədir. Ümid edirik ki, Sizin rəhbərliyinizlə «Qoşulmama Hərəkatı» başladığı ideologiyanı canlandıracaq. Çünki o zaman bu, böyük hərəkat idi. Soyuq müharibə dövründə iki rəqib arasında üçüncü bir güc olmalı idi və bu güc də əsasən İndoneziyanın Prezidenti Sukarno tərəfindən yaradıldı. «Qoşulmama Hərəkatı» BMT-dən sonra ən böyük beynəlxalq təşkilata çevrildi. Biz bu Hərəkatın fəaliyyətinin davam etdirilməsini təmin etməliyik, çünki birlikdə biz bir çox şeyləri edə bilərik. İnanırıq ki, ticarət və kommersiya ilə biz ölkələrimizi inkişaf etdirə biləcəyik.

## ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ABDELKADER BENSALAH İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Əlcəzair Xalq Demokratik Respublikasının Prezidenti Abdelkader Bensalah ilə görüşmüşdür.*

*Dövlət başçısı Əlcəzair Prezidentini qarşıladı.*

*Prezidentlər birgə foto çəkdirdilər.*

*Sonra Prezident İlham Əliyevin və Prezident Abdelkader Bensalahın görüşü oldu.*

**İlham Əliyev:** Mən çox şadam ki, ölkəniz sammitdə mümkün ən yüksək səviyyədə təmsil olunur. Azərbaycanın «Qoşulmama Hərəkatı»nın sədrliyinə namizədliyini dəstəklədiyinizə görə təşəkkür edirəm. Bildiyiniz kimi, biz bütün üzv dövlətlərin yekdil qərarı ilə sədr seçilmişik. Biz bunu siyasətimizə olan güclü dəstək və əməkdaşlığımızın yaxşı göstəricisi hesab edirik. «Qoşulmama Hərəkatı»nın sədri olaraq, biz ölkələr arasında həmrəyliyi gücləndirmək üçün əlimizdən gələni edəcək və lazım gələrsə, konkret problemlərin həllinə yardım üçün səy göstərəcəyik. Əlbəttə, bu, ikitərəfli əlaqələrimizlə bağlı məsələləri müzakirə etmək üçün yaxşı imkandır.

Sizin Azərbaycana səfəriniz tarixi əhəmiyyət kəsb edir. Çünki diplomatik əlaqələrimiz ərzində ilk dəfədir ki, Əlcəzair Prezidenti Azərbaycana səfər edir. Sözsüz ki, bu səfər hər iki ölkə üçün xüsusi məna kəsb edir. Biz ölkələrimiz arasında olan çox fəal siyasi dialoqu nümayiş etdiririk. İslam Əməkdaşlıq Təşkilatında ölkəniz Ermənistanla münaqişədə bizi dəstəkləyir. Ona görə də biz BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və əlbəttə ki, «Qoşulmama Hərəkatı»nda qarşılıqlı dəstəyi davam etdirəcəyik. Mən həmçinin düşünürəm ki, hazırda iqtisadi əməkdaşlıq məsələlərini, xüsusilə ticarət dövriyyəsinin artırılması yollarını müzakirə etmək üçün yaxşı vaxtdır. Bir daha xoş gəlmisiniz!

**Abdelkader Bensalah:** Zati-aliləri, təşəkkür edirəm. İcazə verin, sammitdə iştirak etmək və onun uğuruna töhfə vermək üçün dəvətə görə minnətdarlığımı bildirim. Mən təşkilatımıza sədrliyiniz münasibətilə Sizi təbrik etmək istərdim. İcazənizlə bildirim ki, biz bu mühüm sammit nəticəsində qəbul olunacaq qərar və tövsiyələrin mətninin tərcüməsi və dəqiqləşdirilməsi üçün Sizin qulluğunuzdayıq. Sammitin çox yaxşı və uğurlu təşkili münasibətilə Sizi təbrik etmək istərdim. Bizim münasibətlərə gəldikdə isə, biz ikitərəfli münasibətlərin inkişafına hazırıq. Ölkələrimizin və xalqlarımızın istəklərinə nail olmaq üçün münasibətlərimizi inkişaf etdirməyə çox şadıq. İcazə verin bildirim ki, ölkənizi idarəetmə tərziniz və qəbul etdiyiniz inkişaf siyasətini qavrama üsulunuz təkcə Azərbaycanda yox, bütün inkişaf etməkdə olan ölkələrdə qürur hissi doğurur. Ölkənin və Azərbaycan xalqının nailiyyətləri,

uğuru və inkişafını təmin etmək istiqamətində yürütdüyünüz siyasətlə tanış olmaq bizim üçün çox yaxşı imkan idi. Biz bu münasibətlərin inkişafından fəxarət hissi keçiririk. Bu kontekstdə mən bu yaxınlarda Azərbaycana yeni xanım səfirin təyin olunması xəbərini Sizə verməkdən şərəf hissi duyuram. Biz bu səfirə böyük etimad göstərəcəyik.

## BOSNİYA VƏ HERSEQOVİNA RƏYASƏT HEYƏTİNİN SƏDRİ MİLORAD DODİK İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədri Milorad Dodik ilə görüşmüşdür.*

*Dövlət başçısı İlham Əliyev Bosniya və Herseqovina Rəyasət Heyətinin Sədrini qarşıladı.*

*Prezident İlham Əliyev və Rəyasət Heyətinin Sədri Milorad Dodik birgə foto çəkdirdilər.*

*Sonra Prezident İlham Əliyevin və Rəyasət Heyətinin Sədri Milorad Dodikin görüşü oldu.*

**İ l h a m  Ə l i y e v:** Cənab Sədr, Azərbaycana xoş gəlmisiniz! Sizi görməyimə və sammitdə iştirak etdiyiniz üçün çox şadam. Bu həm də ikitərəfli gündəlikdə olan məsələləri müzakirə etmək üçün yaxşı imkandır. Mən çox şadam ki, ölkələrimiz arasında əlaqələr çox uğurla inkişaf edir. Bizim beynəlxalq təşkilatlar, xüsusilə BMT, «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox fəal əməkdaşlığımız vardır. Beynəlxalq təşkilatlardakı qarşılıqlı dəstəyimiz çox vacibdir. İndi isə Azərbaycan «Qoşulmama Hərəkatı»nın sədri olaraq, əlbəttə, üzv ölkələrin qanuni maraqlarını nəzərə alacaq. Qarşıdakı 3 il ərzində təşkilata yaxşı sədrlik etmək və üzv

ölkələr arasında həmrəyliyi gücləndirmək üçün əlimizdən gələni edəcəyik.

İkitərəfli müstəvidə bizim çox fəal əməkdaşlığımız və bir çox yüksək səviyyəli siyasi təmaslarımız vardır. Mən dəfələrlə Sizin sələflərinizlə həm Bakıda, həm də beynəlxalq tədbirlər çərçivəsində görüşmüşəm. Biz ikitərəfli əlaqələrin çərçivəsini müəyyənləşdirmişik. Sözsüz ki, Sizi Azərbaycanda qəbul etməyimə çox şadam. Əminəm ki, ölkələrimizi bir-birinə daha da yaxınlaşdırmaq və ikitərəfli əlaqələrimizi gücləndirmək üçün birgə səylərimizi davam etdirəcəyik. Bir daha xoş gəlmisiniz!

**M i l o r a d D o d i k:** Təşəkkür edirəm, cənab Prezident. Bu mənim ölkənizə səfər etməyim və Sizinlə söhbət aparmağım üçün gözəl imkandır. Bu gözəl şəhərinizdə gördüklərimə və indiyə kimi qarşılaşdığım gözəl insanlara heyranlığımı ifadə etməliyəm. Ölkələrimiz arasındakı ikitərəfli əlaqələri yaxşılaşdırmaq üçün göstərdiyiniz möhtəşəm səylərə görə Sizə təşəkkür edirəm. Bilirəm ki, Bosniya və Herseqovina ilə yaxşı əlaqələrin qurulmasına böyük marağınız var və Siz bu işə sadiqsiniz. Bizə əvvəllər təklif etdiyiniz yardıma – istər humanitar yardım, istərsə də biznes imkanına görə də Sizə təşəkkürümü bildirir və bu uğurlu əməkdaşlığımızı davam etdirmək istəyirəm. Sizin Bosniya və Herseqovinadakı səfiriniz yaxşı fəaliyyət göstərir. O çox sadiq və fəaldır. Bu bizə yaxşı perspektivlər yaratmağa imkan verir. Lakin mən bilirəm ki, onun hər bir addımının arxasında Sizin bu işə sadiqliyiniz durur. İnanıram ki, Sizin «Qoşulmama Hərəkatı»na sədrliyiniz

münasibətlərimizi yeni müstəviyə çıxaracaq. Sammitin uğurlu təşkilinə görə Sizə təşəkkürümü bildirmək və Sizi təbrik etmək istərdim. Bu, əlbəttə ki, bizim daha ədalətli və əmin-amanlıq içində olan dünyaya inamımızı artırır.

## LİVİYA DÖVLƏTİNİN BAŞ NAZİRİ FAİZ SARAC İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Liviya Dövlətinin Baş Naziri Faiz Saracı qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Hörmətli cənab Baş Nazir, sizi Azərbaycanda bir daha salamlayıram! Xoş gəlmisiniz! Sizin «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündəki fəaliyyətiniz yüksək qiymətləndirilir. Təşəkkür edirəm ki, Siz bu gün Azərbaycandasınız.

Azərbaycan artıq «Qoşulmama Hərəkatı»nda sədrliyə başladı. Biz çox şadıq ki, sədr seçilməyimiz üzv ölkələrin yekdil qərarı əsasında oldu. Bu, üzv ölkələrin bizim siyasətimizə göstərdiyi böyük inamın, dəstəyin təzahürüdür. «Qoşulmama Hərəkatı»na sədrlik dövründə Azərbaycan bu önəmli siyasi təsisatın baza prinsiplərini müdafiə edəcək. Ölkələrin müstəqilliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı «Bandunq prinsipləri»nin əsasını təşkil edir və bizim siyasətimizin də təməl prinsipləridir.

Əminəm ki, bu gün qəbul ediləcək yekun Bəyannamədə bu prinsiplər öz əksini tapacaq və Azərbaycanın bu təsisatda rolu qeyd olunacaqdır.

Eyni zamanda, sizin bu tədbirdə – Zirvə görüşündə iştirakınız yaxşı imkan yaradır ki, ikitərəfli gündəliyi də nəzərdən keçirək və ikitərəfli əlaqələrə təkan verək. Bir daha xoş gəlmisiniz!

**F a i z  S a r a c:** Təşəkkür edirəm. Bu gözəl tədbir əsnasında Sizin də vaxtınız çox məhduddur. Hər şeydən öncə mən Sizi gözəl təşkilatçılığa görə və Azərbaycan Respublikasının «Qoşulmama Hərəkatı»na sədrliyə başlaması münasibətilə təbrik edirəm.

Arzu edirəm ki, Sizin sədrliyiniz dövründə Azərbaycan daha da çiçəklənsin və öz rolunu oynasın. Həqiqətən, mən Bakıda gördüyüm gözəlliyin, memarlığın vurğunu oldum.

## PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ARİF ALVİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşmüşdür.*

*Prezident İlham Əliyev Prezident Arif Alvini qarşıladı.*

*Dövlət başçıları birgə foto çəkdirdilər.*

*Sonra Prezident İlham Əliyevin və Prezident Arif Alvinin görüşü oldu.*

**Arif Alvi:** Maşallah, 3 il ərzində «Qoşulmama Hərəkatı»na sədrlik edəcəksiniz.

**İlham Əliyev:** Bəli, dünən Sizin dəstəyinizlə biz fəaliyyətə başladıq. Bizim «Qoşulmama Hərəkatı»na sədr kimi namizədliyimizi dəstəklədiyiniz üçün Sizə bir daha təşəkkürümü bildirmək istəyirəm. Qarşıdakı 3 il ərzində biz üzv ölkələr arasında həmrəyliyi gücləndirmək, onlar üçün həssas olan məsələlərin həlli məqsədilə əlimizdən gələni etməyə çalışacağıq. Biz, əlbəttə ki, beynəlxalq hüquq, ədalət və «Bandunq» prinsiplərini dəstəkləyəcəyik. Bunlar bizim prinsiplərlə, yəni ərazi bütövlüyü, müstəqillik, suverenlik, bir-birinin işlərinə qarışmama ilə üst-üstə düşür. Bunlar Azərbaycanın beynəlxalq arenada müdafiə etdiyi bütün

əsas prinsiplərdir. Hesab edirəm ki, siyasətimizin önəmli elementlərindən biri də beynəlxalq təşkilatların qəbul etdiyi qərar və qətnamələrin icra edilməməsi məsələsinin həllinə çalışmaq olacaqdır.

**A r i f A l v i:** Birləşmiş Millətlər Təşkilatı kimi...

**İ l h a m Ə l i y e v:** Birləşmiş Millətlər Təşkilatı kimi. Bizim timsalımızda söhbət erməni qoşunlarının qeyd-şərtsiz olaraq və dərhal ərazilərimizdən çıxarılmasını tələb edən 4 qətnamədən gedir. Lakin onlar icra olunmur. Bəzi hallarda isə BMT Təhlükəsizlik Şurasının qətnamələri bir neçə günə icra olunur.

**A r i f A l v i:** «Qoşulmama Hərəkatı» burada böyük rol oynaya bilər.

**İ l h a m Ə l i y e v:** Biz, əlbəttə, bunu edəcəyik. Biz ikili standartlara qarşı mübarizə aparacağıq. Fürsətdən istifadə edərək, cənab Prezident, mən hökumətinizə, qardaş Pakistan xalqına Dağlıq Qarabağ məsələsində Azərbaycana davamlı dəstək göstərdiyinə görə minnətdarlığımı bildirmək istəyirəm. Pakistanın Azərbaycan ərazilərini işğal etdiyinə görə Ermənistanla diplomatik münasibətlər qurmaması faktı bizim xalqımız tərəfindən çox yüksək qiymətləndirilir.

**A r i f A l v i:** Təşəkkür edirəm.

**İ l h a m Ə l i y e v:** Bizim xalqımız bunu bilir. Xalqımız bilir ki, siz əsl qardaşlarsınız və qardaşlığın bu misilsiz jesti tərəfimizdən həqiqətən, yüksək qiymətləndirilir. Biz hazırda bir çox sahələri əhatə edən yaxın qardaşlıq münasibətlərini qurmuşuq. Mən Sizin gözəl ölkənizə bir neçə dəfə səfər etmişəm. Çox

şadam ki, Siz bizə səfər edirsiniz, lakin biz Sizin rəsmi səfərinizi gözləyəcəyik.

**A r i f  A l v i:** Bəli, elədir. Yaxşı fürsət tapan kimi gələcəyəm. Zati-aliləri, biz ticarətin artırılmasına, bir sıra sahələrdə əməkdaşlığın inkişafına diqqət yetirməliyik. Hesab edirəm ki, biz təhsil və səhiyyə sahələrində əməkdaşlıq edə bilərik. Mən geri qayıdandan sonra Pakistanın yaxşı təhsil verən və yaxşı xəstəxana, müalicə xidmətləri təklif edən qurumlarını Bakıda standartlara cavab verən xəstəxana və məktəb tikmək imkanlarını nəzərdən keçirməyə ruhlandıracağam. Eyni zamanda, Azərbaycan neft sektorunda möhtəşəm, uzunmüddətli təcrübəyə malikdir. Mən Qvadarda neft emalı müəssisəsi yaradılmasının mümkünlüyünü nəzərdən keçirməyi təklif etmək istərdim. Qvadar dəniz limanıdır.

**İ l h a m  Ə l i y e v**: Bəli, bilirəm.

**A r i f  A l v i:** Şimal–Cənub dəhlizi faktiki olaraq Çabahardan keçir. Qvadarla da bağlantı yaratmaq olar ki, Azərbaycan cənubdan okean vasitəsilə bütün təchizat məhsullarını ixrac edə bilsin. Bir çox sahələrdə əməkdaşlığı artırmaq mümkündür.

## SUDAN RESPUBLİKASI SUVEREN ŞURASININ SƏDRİ ABDEL FATTAH ƏL-BURHAN İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da Sudan Respublikası Suveren Şurasının Sədri Abdel Fattah əl-Burhan ilə görüşmüşdür.*

*Abdel Fattah əl-Burhan «Qoşulmama Hərəkatı»nın Bakıda keçirilən XVIII Zirvə görüşünün yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə təşəkkürünü bildirdi. O, Azərbaycanın 2019–2022-ci illərdə «Qoşulmama Hərəkatı»na uğurla sədrlik edəcəyinə əminliyini vurğuladı. Abdel Fattah əl-Burhan Azərbaycanın inkişafının, ölkəmizdə olan sabitliyin və əmin-amanlığın, paytaxt Bakının gözəlliyinin onda böyük təəssürat yaratdığını diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Azərbaycanın «Qoşulmama Hərəkatı»na üzv ölkələrlə əməkdaşlığa mühüm əhəmiyyət verdiyini, ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində bir-birini dəstəkləməsinin vacibliyini vurğuladı. Dövlət başçısı Azərbaycanın «Qoşulmama Hərəkatı»na sədrliyi dövründə üzv ölkələr arasında*

*əməkdaşlığın inkişafına və həmrəyliyin gücləndirilməsinə töhfə verəcəyini ifadə etdi.*

*Görüşdə Azərbaycan ilə Sudan arasında iqtisadi-ticari, elm,təhsil və digər sahələrdə əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparıldı.*

## BMT BAŞ ASSAMBLEYASININ PREZİDENTİ TİCANİ MƏHƏMMƏD-BANDE İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 26-da BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bandeni qəbul etmişdir.*

*BMT Baş Assambleyasının prezidenti Ticani Məhəmməd-Bande «Qoşulmama Hərəkatı»nın Bakıda keçirilən XVIII Zirvə görüşünün yüksək səviyyədə təşkil olunduğunu, bu tədbirin dünyada sülhün qorunması, əməkdaşlığın genişləndirilməsi işinə xidmət etdiyini bildirdi. Qonaq Bakıya səfəri çərçivəsində Qobustan Dövlət Tarixi-Bədii Qoruğunda, Sumqayıt Texnologiyalar Parkında, «ASAN xidmət»də olduğunu, bu xidmətin fəaliyyətinin yüksək səviyyədə təşkil edildiyini vurğuladı.*

*Prezident İlham Əliyev Ticani Məhəmməd-Bandenin «Qoşulmama Hərəkatı»nın XVIII Zirvə görüşündə iştirakının önəmini qeyd etdi, onun dünənki çıxışında dəyərli fikirlər səsləndirdiyini bildirdi. Dövlət başçısı bu səfərin BMT ilə Azərbaycan arasında gələcək əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün də yaxşı imkan yaratdığını söylədi. Prezident İlham Əliyev qonağın «ASAN xidmət»də olmasını qeyd edərək, «ASAN xidmət»in Azərbaycanın təşəbbüsü ilə*

*yaradıldığını, onun BMT-nin mükafatına layiq görüldüyünü vurğuladı. Dövlət başçısı bu xidmətin təcrübəsindən artıq xarici ölkələrdə də istifadə olunduğunu, Əfqanıstanda «ASAN xidmət»in fəaliyyətə başladığını, bununla Azərbaycanın artıq öz intellektual məhsulunu ixrac etdiyini nəzərə çatdırdı. Prezident İlham Əliyev əhaliyə sosial dəstək məqsədilə DOST xidmətinin də yaradıldığını, yaxın gələcəkdə 30-dan çox mərkəzin açılacağını bildirdi. Ticani Məhəmməd-Bandenin Sumqayıta səfərinə toxunan dövlət başçısı Sumqayıt Texnologiyalar Parkında həyata keçirilən işlərdən danışdı, orada böyükhəcmli ekoloji tədbirlərin görüldüyünü qeyd etdi.*

*Prezident İlham Əliyev qeyri-neft sektorunun inkişafı, iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülmüş işləri qeyd etdi, texnologiyalar sahəsinin inkişafına Azərbaycanda böyük önəm verildiyini, ölkəmizdə kosmik sənayenin yaradıldığını bildirdi. Dövlət başçısı Amerikada Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilər zamanı Bakı şəhərinin 2022-ci ildə keçiriləcək Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazandığını qeyd etdi. Bu mötəbər beynəlxalq tədbirin bir neçə şəhər arasında məhz Bakıda keçirilməsi ilə bağlı qərarın ölkəmizin bu sahədə gördüyü işlərə beynəlxalq aləmdə verilən qiymətin təzahürü olduğunu bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanda turizmin inkişafına da böyük əhəmiyyət verildiyini, ölkəmizə gələn çoxlu sayda turistlərə qısa zamanda asanlıqla elektron viza almaq üçün hər cür şəraitin yaradıldığını vurğuladı.*

*Dövlət başçısı Azərbaycanda multikulturalizmin dövlət səviyyəsində dəstəkləndiyini, ölkəmizdə müxtəlif xalqların və dinlərin birgə yaşaması üçün hər cür şəraitin yaradıldığını, beynəlxalq ictimaiyyətin ölkəmizdə bu sahədə aparılan işləri yüksək qiymətləndirdiyini, tarixi dini abidələrin dövlət səviyyəsində qorunması istiqamətində tədbirlərin görüldüyünü bildirdi.*

## QƏBƏLƏ RAYONUNA SƏFƏR

*28 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı ümummilli lider Heydər Əliyevin Qəbələ şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev Prezident İlham Əliyevə son illər rayonda görülən işlər, həyata keçirilən layihələr barədə məlumat verdi.*

*Bildirildi ki, rayonun sosial-iqtisadi göstəriciləri xeyli yaxşılaşıb, çoxlu sosial infrastruktur obyektləri tikilib, istehsal müəssisələri yaradılıbdır.*

*Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

### Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonunun Vəndam qəsəbəsində dekorativ gülçülük istixanası ilə tanış olmuşdur.*

*Dövlət başçısına istixanada görülmüş işlərlə bağlı məlumat verildi.*

*«AzRose» MMC-nin direktoru Nicat Mirzəyev bildirdi ki, ölkəmizdə ənənəvi və ixrac potensialı yüksək olan sahələrdən biri də gülçülükdür. Azərbaycan Prezidenti İlham Əliyevin regionların mövcud iqtisadi potensialından daha səmərəli istifadə olunması, ənənəvi sahələrin inkişafı ilə bağlı verdiyi tapşırıq və göstərişlərə uyğun olaraq, gülçülüyün inkişaf etdirilməsi istiqamətində də zəruri işlər görülür. Bu sahənin Azərbaycanda ənənəvi xarakter daşıdığını, hələ sovet dövründə bu sahədə ciddi işlərin həyata keçirildiyini nəzərə alsaq, gülçülüyün ölkəmizdə yenidən inkişaf etdirilməsi ilə bağlı görülən işlər təqdirəlayiqdir. Çünki bu sahədə əldə olunan məhsullara dünya bazarında böyük tələbat vardır. Statistik göstəricilərə görə, dünya üzrə ildə təxminən 3 ton qızılgül yağı istehsal olunur. Bu bazarda Azərbaycanın da təmsil olunması ölkəmizə yeni valyuta axınını təmin edəcək, digər tərəfdən də «made in Azerbaijan» brendinin dünyada daha da məşhurlaşmasına səbəb olacaqdır.*

*Qeyd olundu ki, Qəbələ gülçülük istixanasının yaradılması ilə bağlı işlərə 2017-ci ilin noyabr ayında başlanılıb. İllik istehsal gücü 6 milyon ədəd gül olan müəssisədə suvarma, işıqlandırma, isitmə və havalandırma sistemləri tamamilə elektronlaşdırılıb. Məhsuldarlığın artırılması məqsədilə 2005 LED lampası quraşdırılıbdır.*

*Çeşidləmə və paketləmə prosesi ilə tanışlıq zamanı bildirildi ki, Qəbələ istixana kompleksinin yaradıl-*

*masında 90 illik holland təcrübəsinə malik «Bosman van Zaal» şirkətinin texnoloji yeniliklərindən istifadə olunub. Burada «Red Naomi», «Avalanj», «Talea», «Aqua», «Sveet Avalanj», «Jumilia» və «London eye» kimi xüsusi qızılgül növləri yetişdirilir, yerli və xarici bazarlara satışa çıxarılması hədəflənir.*

*İnvestisiya dəyəri 19 milyon manat təşkil edən müəssisənin ümumi ərazisi 10 hektardır. İstixana ərazisi 3 hektardır və gələcəkdə genişləndirilməsi planlaşdırılır. «AzRose» hazırda daxili bazarın 60 faizini güllə təmin edir. Qiymət daha ucuz və münasibdir. Zirə və Şəmkirdə də istixanalar vardır. Vəndam qəsəbəsində dekorativ gülçülük istixanasında ümumilikdə 50 yerli işçi çalışır və onların orta aylıq əmək haqları 550 manat təşkil edir. Gələcəkdə istehsalın 40 faizinin Rusiya, Qazaxıstan və digər ölkələrə ixracı planlaşdırılır.*

*Sonda istixananın kollektivi ilə xatirə şəkli çəkdirildi.*

## «Qəbələ» elektrik yarımstansiyasının yenidən qurulmadan sonrakı vəziyyəti ilə tanışlıq

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonunda 110/35/10 kilovoltluq «Qəbələ» elektrik yarımstansiyasının yenidən qurulmadan sonra istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı yarımstansiyada yenidən qurulmadan sonra yaradılmış şəraitlə tanış oldu.*

*«Azərişıq» ASC-nin sədri vəzifəsini icra edən Vüqar Əhmədov bildirdi ki, yarımstansiyada 110/35/10 kV-luq*

*40 MVA gücündə 2 yeni transformator quraşdırılıb, bununla da yarımstansiyanın gücü artırılaraq, 80 MVA-ya çatdırılıb. Yarımstansiyanın yenidən qurulması ilə 110 kV-luq qidalandırıcı elektrik verilişi xətlərinin əlaqələnmə sxemlərinin dəyişdirilməsi mümkün olub. Bununla da «Şəki» Elektrik Stansiyası, «Ağsu» və «Ağdaş» qovşaq yarımstansiyaları arasında 110 kV-luq dairəvi elektrik təchizatı sxeminin etibarlılığı artırılıbdır.*

*Qəbələ rayonunda 21375 abonentin, o cümlədən 20112 əhali və 1263 qeyri-əhali abonentin və bir sıra istehsal və infrastruktur obyektlərinin elektrik enerjisi ilə təminatı yaxşılaşdırılıb. Yarımstansiya müasir standartlara cavab verən elektron tipli rele mühafizəsi və avtomatika sistemləri ilə təchiz edilib, 110, 35 və 10 kV-luq yeni paylayıcı qurğular inşa olunub və məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulubdur.*

*Qeyd edildi ki, indi istehlakçıların etibarlı və keyfiyyətli elektrik enerjisi ilə təchiz olunması qarşıda duran ən mühüm vəzifələrdən biridir. Bu məqsədlə əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması, qəza açılmalarının minimuma endirilməsi, kənd təsərrüfatının inkişafı məqsədilə suvarma sistemlərinin elektrik enerjisi ilə təminatı üçün ilkin profilaktik tədbirlərin görülməsi, qeyri-neft sektorunun, sənaye sahələrinin və turizm obyektlərinin elektrik təchizatının etibarlılığının yüksəldilməsi diqqət mərkəzində saxlanılır. Bu baxımdan yeni texnologiyaların tətbiqi və maddi-texniki bazanın müasirləşdirilməsi başlıca prioritetlərdəndir.*

*Vurğulandı ki, dövlət başçısının göstərişlərinə uyğun olaraq, regionlardakı istehlakçıların elektrik enerjisi təchizatı Bakı şəhərindəki səviyyəyə çatdırılmalıdır və bu istiqamətdə silsilə tədbirlər davam etdirilir. Hazırda ölkəmizin bütün ərazilərində perspektiv inkişaf nəzərə alınmaqla, istehlakçıların etibarlı, təhlükəsiz və səmərəli elektrik enerjisi ilə təchiz edilməsinə yönəlmiş tədbirlər geniş vüsət alıb. Paylayıcı elektrik şəbəkələrində informasiya-kommunikasiya texnologiyalarının və ən müasir standartlara cavab verən idarəetmənin geniş tətbiqi də maksimum diqqətdə saxlanılır.*

*Prezident İlham Əliyev «Qəbələ» elektrik yarımstansiyasını, eyni zamanda, 110/35/10 kilovoltluq «Ağdaş» elektrik yarımstansiyasını işə saldı.*

*Qeyd edək ki, 2005-ci ildə istifadəyə verilmiş «Ağdaş» yarımstansiyasının istismar müddəti bitdiyindən, artan tələbatı qarşılaya bilmirdi və onun yenidən qurulması zərurətə çevrilmişdi. Yarımstansiya tam yenidən qurularaq, gücü 41 MVA-dan 50 MVA-ya çatdırılıb, 110 kV-luq açıq paylayıcı qurğu inşa edilib, avtomatlaşdırılmış SCADA dispetçer sisteminə qoşulubdur. Yarımstansiyada 35 kV-luq hava xəttinin tikintisi və şəbəkə ilə əlaqələndirilməsi, Ağdaş və Ucar rayonlarının 35 kV-luq dairəvi elektrik təchizat sxemlərinin yaradılması bu rayonlarda elektrik enerjisinin dayanıqlılığına və etibarlılığına xidmət edəcək. Ümumilikdə son vaxtlarda Ağdaşda 195 kilometr müxtəlif gərginlikli elektrik veriliş xətti çəkilib, 3600 ədəd dayaq quraşdırılıbdır.*

## Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*«Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov dövlət başçısına məlumat verdi ki, qədim tarixə və zəngin turizm imkanlarına malik Qəbələ şəhərində əhalinin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılması məqsədilə icra olunan layihə artıq yekunlaşıb. Bu layihənin icrası Azərbaycan hökuməti və Dünya Bankının birgə maliyyələşdirdiyi «Milli Su Təchizatı və Kanalizasiya Xidmətləri» layihəsi, həmçinin Dövlət İnvestisiya Proqramı çərçivəsində həyata keçirilib. Layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla, Qəbələ şəhərində 30 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıbdır.*

*Qəbələ şəhərində əhalini dayanıqlı və keyfiyyətli içməli su ilə təmin etmək məqsədilə Dəmiraparan çayın yatağında 8 subartezian quyusu qazılıb. Su mənbəyindən Qəbələ şəhərinə 10,5 kilometr magistral su xətti çəkilərək, yeni şəbəkəyə birləşdirilibdir. Layihə çərçivəsində şəhərdə ümumi tutumu 10400 kubmetr olan 6 su anbarı, xlorator qurğusu və laboratoriya binası inşa edilibdir.*

*Diqqətə çatdırıldı ki, görülən işlər nəticəsində şəhərdə 132 kilometr içməli su şəbəkəsi yaradılıb, 7000-dən*

*çox abonent yeni şəbəkəyə qoşulub və sayğaclaşma işləri aparılıbdır. Hazırda şəhər əhalisi yeni yaradılmış infrastruktur hesabına fasiləsiz rejimdə içməli su ilə təmin olunur. Şəhərdə 123 kilometrlik kanalizasiya şəbəkəsi və 8,2 kilometr uzunluğunda kanalizasiya kollektoru inşa edilib. Tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə məhsuldarlığı sutkada 4400 kubmetr olan tullantı sutəmizləyici qurğunun tikintisi yekunlaşıbdır.*

*Dövlət başçısı Qəbələ şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

**«Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılışı mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də «Azərxalça» Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı Qəbələ filialının açılışını bildirən lenti kəsdi.*

*«Azərxalça» Açıq Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədri Vidadi Muradov bildirdi ki, qədim el sənətlərindən olan xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər öz bəhrəsini verir. Qeyd olundu ki, bu sahənin inkişafına xüsusi diqqət və qayğı sayəsində artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib və bəzi regionlarda yeni fabriklərin açılması istiqamətində işlər gedir. Hazırda dövlət səviyyəsində bu fabriklərin yerli istehsal hesabına xammalla təmin olunması diqqət mərkə-*

*zindədir. Bu fabriklərin açılması xüsusilə qadınların işlə təmin olunmasında müstəsna əhəmiyyətə malikdir. Bu sırada təbii ki, Qəbələ Xalça fabriki də fərqlənir. Müəssisədə əsasən Şamaxı, Ağdaş, Ağsu, Kürdəmir, Hacıqabul, Göyçay, Zərdab, İsmayıllı, Qobustan, Ucar, Qəbələ, Qax, Zaqatala və Oğuz rayonlarının kəndlərində toxunan tarixi və orijinal Şirvan xalça çeşnilərinə üstünlük veriləcək. Bu çeşnilər dünya muzeylərində, şəxsi kolleksiyalarda mühafizə olunan, həmçinin respublikamızın ayrı-ayrı bölgələrindən toplanılan qədim xalçalar əsasında «Azərxalça»nın rəssamları tərəfindən hazırlanıbdır.*

*Qəbələ filialı toxuculuq emalatxanası, rəssam otağı, anbar, yeməkxana, tibb otağı, xalça-satış salonu və digər bölmələrdən ibarətdir. Emalatxanada müxtəlif- ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunulacaq, bura zəruri xammal və ləvazimatlarla – müxtəlifrəngli yun iplərlə, həvə, qayçı, bıçaq kimi alətlərlə təmin edilibdir. Toxucular Qəbələ şəhərinin və rayonun ayrı-ayrı kəndlərinin sakinləridir. Onlar bir neçə ay ərzində «Azərxalça»nın burada təşkil olunmuş hazırlıq-tədris kurslarında mütəmadi iştirak edib, xalçaçılıq üzrə bacarıq və vərdişlərini təkmilləşdiriblər. Tədris-hazırlıq kursu filial fəaliyyətə başladıqdan sonra da öz işini davam etdirəcək və bu kursun məzunları «Azərxalça» ASC-nin tədris sertifikatını alacaqlar. Xalça-satış salonunda «Azərxalça» ASC-də toxunmuş xalça və xalça məmulatlarının sərgilənməsi və satışı həyata keçiriləcəkdir.*

*Dövlət başçısı toxunuşu başa çatan xalçanı kəsdi və filialın kollektivi ilə görüşdü.*

**İ l h a m Ə l i y e v:** Mən sizi ürəkdən salamlayıram. Sizi yeni Xalça fabrikinin açılışı münasibətilə ürəkdən təbrik edirəm. Bu gözəl müəssisədə indi 50-dən çox iş yeri yaradılıb. Gələcəkdə iş yerlərinin sayı daha da çox olacaq. Əsas məsələ ondadır ki, burada qadınlar üçün iş yerləri yaradılır. Yəni qadınları işlə təmin etmək üçün xüsusi tədbirlər görülür ki, Azərbaycanda iş yerləri daha da sürətlə açılsın, daha geniş əhalini əhatə etsin. Burada iş şəraiti də, əməkhaqqı da yaxşıdır. Azərbaycanda xalçaçılıq sənətinin bundan sonra da yaşadılması üçün biz çox böyük işlər görürük. Bu məqsədlə «Azərxalça» müəssisəsi yaradılıb və mənim göstərişimlə ölkəmizdə 30-dan çox Xalça fabriki tikilməlidir. Onlardan 10-u istifadəyə verilib, o cümlədən biri Qəbələ şəhərində. Növbəti illərdə isə 20-dən çox fabrik fəaliyyətə başlayacaq. Bu fabriklərdə minlərlə yeni iş yeri yaradılacaqdır.

Xalçaçılıq sənəti bizim qədim milli sənətimizdir. Azərbaycan xalçaları dünyanın ən aparıcı muzeylərində nümayiş etdirilir. Xalça bizim məişətimizin ayrılmaz hissəsidir və Azərbaycan xalçaları öz keyfiyyəti ilə seçilir. Biz elə etməliyik ki, bu sənət daim yaşasın. Buna nail olmaq üçün, əlbəttə, belə fabriklərin yaradılması çox böyük əhəmiyyət kəsb edir. Əminəm ki, gənc nəsil bu gözəl sənətə gələcək və bizim peşəkar mütəxəssislərimiz öz təcrübələrini bölüşərək, bunu gənc nəslə də ötürəcəklər. Beləliklə, xalça sənəti yaşayacaq, necə ki, əsrlərboyu yaşayıbdır.

Eyni zamanda, xalça ixrac yönümlü məhsuldur. Bu xalçalar xaricə satılmaqla, ölkəmizə valyuta gətirəcək. Biz Sumqayıt şəhərində böyük Əyirici-Boyaq fabriki yaradırıq. Ölkə üzrə yun tədarük mərkəzləri yaradılır. Bizim öz boyalarımız, öz iplərimiz olacaq və idxaldan asılılıq aradan qaldırılacaqdır.

«Azərxalça»nın yaradılması görün nə qədər böyük, gözəl hadisələrə təkan verdi. Həm iş yerləri yaradılır, həm sənətimizi yaşadırıq, gənc nəsli yetişdiririk, həm də bölgələrdə yunçuluqla bağlı aparılan tədbirlər öz səmərəsini verir və nəticədə Azərbaycan daha da güclənir, ölkəmizin uğurlu inkişafı təmin edilir.

Qəbələ rayonuna çox böyük diqqət göstərilir. Son illər ərzində burada bir çox önəmli müəssisələrin, obyektlərin açılışı olub. Təsadüfi deyil ki, mən son 16 il ərzində Qəbələyə 13 dəfə səfər etmişəm, şəhərin, rayonun inkişafı ilə bağlı göstərişlər verilib və gözəl açılışlarda iştirak etmişəm.

Qəbələ Azərbaycanın Bakıdan sonra ikinci turizm məskənidir. Turizmin inkişafı sürətlə davam edir, 9 hotel, 9 istirahət mərkəzi yaradılıb. Bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Qəbələdə beynəlxalq aeroport tikilib. Sovet vaxtında Qəbələdə aeroport yox idi, indi isə beynəlxalq uçuşlar təşkil edilir. İcra başçısı mənə məlumat verdi ki, bu il təkcə hotellərdə 150 min qonaq istirahət edib. Fərdi evlərdə bəlkə bir o qədər də qonaq istirahət edib. Bu, vətəndaşlara da böyük maddi dəstəkdir. İmkanı olan vətəndaşlar öz evlərinin bir hissəsini kirayəyə verir, pul qazanırlar. Kəndlilər də öz

məhsullarını satırlar. Turizmin inkişafı əhalinin çox böyük bir hissəsini əhatə edir.

Əlbəttə, Qəbələdə sosial infrastruktur da icra edilir. O cümlədən biz bu gün içməli su-kanalizasiya layihəsini icra etdik. Bundan sonra Qəbələ ən yüksək standartlara cavab verən içməli su ilə təmin ediləcəkdir. Şəhər sakinləri bundan faydalanır. «ASAN xidmət» Mərkəzi yaradılıbdır ki, bu da vətəndaşlara çox böyük rahatlıq verir. Heydər Əliyev adına böyük Konqres Mərkəzi yaradılıb və orada beynəlxalq tədbirlər, musiqi festivalları keçirilir. Yəni Qəbələdə hərtərəfli inkişaf təmin edilir – iş yerləri, yeni müəssisələr, Konserv zavodu, 2 böyük heyvandarlıq müəssisəsi, bu gün tanış olduğum, Azərbaycanın tələbatının böyük hissəsini öz üzərinə götürmüş gülyetişdirmə mərkəzi və bu Xalça fabriki. Qəbələnin timsalında biz ölkəmizin uğurlu inkişafını görürük.

Şəhər də gündən-günə gözəlləşir, abadlaşır. Həm tarixi abidələr qorunur, həm yeni obyektlər göz oxşayır. Belə də olmalıdır. Çünki Qəbələ dünyanın ən qədim yaşayış yerlərindən biridir. Qəbələ qədim Qafqaz Albaniyası dövlətinin paytaxtı olmuşdur. Bu şəhərin çox böyük tarixi vardır. Biz indi Qəbələnin tarixi simasını saxlamaqla, şəhərə, rayona yeni nəfəs veririk. Yeni inkişaf konsepsiyası icra edilir. Hər dəfə Qəbələdə olanda mən gördüyüm bu inkişafı qiymətləndirir və buna sevinirəm.

Sizə gələcəkdə yeni uğurlar arzulayıram. Arzu edirəm ki, bu müəssisədə yaxşı işləyəsiniz, həm ailə büdcənizə

töhfə verəsiniz, həm də burada gözəl sənətimizi yaşadasınız.

**X a l ç a ç ı l a r:** Çox sağ olun, cənab Prezident.

## Böyük Əmili–Bılıx–Əmirvan avtomobil yolunun yenidən qurulmadan sonra açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ rayonunun Böyük Əmili–Bılıx–Əmirvan avtomobil yolunun yenidən qurulmadan sonra açılışında iştirak etmişdir.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov bildirdi ki, regionların inkişafı dövlət proqramlarına uyğun olaraq, son illərdə yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Avtomobil yollarının tikintisi və yenidən qurulması işlərinin həcmi ildən-ilə artır. Hazırda respublikanın yol-nəqliyyat infrastrukturunun yenidən qurulması və təkmilləşdirilməsi ilə bağlı dövlət büdcəsi vəsaiti hesabına irimiqyaslı layihələr uğurla icra olunur. İndi əsas diqqət regionlarda kənd və qəsəbələri birləşdirən yolların, həmçinin yaşayış məntəqələrinin daxili yollarının təmirinə və yenidən qurulmasına yönəldilibdir.*

*Diqqətə çatdırıldı ki, Böyük Əmili–Bılıx–Əmirvan avtomobil yolu 10 min nəfər əhalinin yaşadığı 11 yaşayış məntəqəsini birləşdirir. Uzunluğu 19 kilometr olan yol 4-cü texniki dərəcəlidir. İki hərəkət zolaqlı yol üzərində xeyli yol nişanı və göstərici lövhələr, siqnal dirəkləri və 8 avtodayanacaq quraşdırılıb. Avtomobil yolunun 10-cu kilometrliyində Qaraçay çayı üzərində 4 aşırımlı yeni*

*körpü tikilib, Zalamçay çayı üzərində isə 2 aşırımlı körpü təmir edilibdir. Bu yolun inşası əhalinin mənzil başına tez və rahat çatmasına, həmçinin kənd təsərrüfatı məhsullarının vaxtında bazarlara və digər satış məntəqələrinə çatdırılmasına şərait yaradacaqdır.*

*Prezident İlham Əliyevə rayonun Nic–Mıxlıqovaq–Yemişanlı–Uludaş–Tikanlı–Abrıx avtomobil yolunun tikintisi barədə də məlumat verildi. Qeyd olundu ki, 11 min əhalinin yaşadığı və 8 yaşayış məntəqəsini birləşdirən yolun uzunluğu 18 kilometrdir.*

*Prezident İlham Əliyev Şamaxı–İsmayıllı yolunun yenidən qurulması barədə göstəriş verdi.*

**İ l h a m Ə l i y e v:** Mən indi Bakı–Şamaxı yolu ilə gəldim. Bu yol yaxşıdır. Vaxtilə göstəriş vermişdim ki, yol 4 zolağa genişləndirilsin, demək olar, başa çatıb. Amma Şamaxı–İsmayıllı yolu bərbad vəziyyətdədir. Belə bir yolla biz barışa bilmərik. Niyə məlumat vermirsiniz bu haqda? Biz indi kənd yollarını magistral yollar səviyyəsində inşa edirik. Amma şəhərlərarası, xüsusilə turizm zonasına gedən yol belə bərbad vəziyyətdə qala bilməz. Təkliflər verin ki, biz Şamaxı–İsmayıllı yolunu investisiya proqramına salaq. Gələn il gərək Şamaxı–İsmayıllı yolu istifadəyə verilsin, özü də yüksək səviyyədə.

*Sonra dövlət başçısı Böyük Əmili–Bılıx–Əmirvan avtomobil yolunun yenidən qurulmadan sonra açılışını bildirən lenti kəsdi.*

## AĞDAŞ RAYONUNA SƏFƏR

*28 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ağdaş rayonuna səfərə gəlmişdir.*

*Dövlət başçısı xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağdaş şəhərində ucaldılmış abidəsini ziyarət edərək, önünə gül dəstəsi qoydu.*

*Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı Tofiq İbrahimov Prezident İlham Əliyevə son illər Ağdaşda görülmüş işlər, həyata keçirilmiş layihələr, eləcə də ulu öndərin abidəsi ətrafında aparılmış abadlıq-quruculuq işləri barədə məlumat verdi.*

*Prezident İlham Əliyev müvafiq tapşırıqlarını verdi.*

### Yenidən qurulmış Qolqəti–Dəhnəxəlil–Qoşaqovaq–Ərəbocağı avtomobil yolunun açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ağdaş rayonunda yenidən qurulmuş Qolqəti–Dəhnəxəlil–Qoşaqovaq–Ərəbocağı avtomobil yolunun açılışı mərasimində iştirak etmişdir.*

*Qeyd edək ki, Prezident İlham Əliyevin siyasətinə uyğun olaraq, hazırda ölkəmizin regionlarında infrast-*

*rukturun təkmilləşdirilməsi və inkişaf etmiş ölkələrdəki səviyyəyə çatdırılması diqqət mərkəzindədir. Bu baxımdan dövlət başçısının müvafiq tapşırıqları əsasında respublikamızda kənd yollarının inşası və yenidən qurulması da geniş vüsət alıb. Bütün bölgələrdə kənd yollarının tikintisi ilbəil daha da genişlənir. Bu həm sosial, həm də iqtisadi layihələrdir. Həmin layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılır. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına da təkan verir, kənd təsərrüfatı məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradır. Kənd yollarının inşasının genişləndirilməsi məqsədilə büdcə vəsaiti ilə yanaşı, Prezidentin ehtiyat fondundan da əlavə vəsait ayrılır.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov dövlət başçısına məlumat verdi ki, Qolqəti–Dəhnəxəlil–Qoşaqovaq–Ərəbocağı yolunun uzunluğu 33 kilometr, hərəkət hissəsinin eni isə 6 metrdir. Dövlət büdcəsinin investisiya xərclərindən Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılmış 12,7 milyon manat vəsait hesabına salınmış yol əhatə etdiyi 10 yaşayış məntəqəsinin rayon mərkəzi ilə nəqliyyat əlaqəsinin yaxşılaşdırılmasında, həmçinin bu bölgədə iqtisadiyyatın və kənd təsərrüfatının inkişafında, eləcə də insanların həyat tərzinin və rifah halının yüksəldilməsində mühüm əhəmiyyət kəsb edəcəkdir.*

*Sonra dövlət başçısına rayonun Orta Qəsil–Şordəhnə–Qarağan Şıxlar–Kükəl–Ərəb–İkinci Aral avtomobil yolunun tikintisi layihəsi barədə məlumat verildi.*

*Bildirildi ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 15 yanvar tarixli Sərəncamı ilə kəndlərarası avtomobil yollarının tikintisi üçün ayrılmış vəsait hesabına 17 min nəfər əhalinin yaşadığı 16 yaşayış məntəqəsini əhatə edən bu yolun tikintisi məqsədilə 18,7 milyon manat vəsait ayrılıbdır. 4-cü texniki dərəcəli yolun ümumi uzunluğu 40,5 kilometrdir.*

*Prezident İlham Əliyevə Nehrəxəlil–Kotanarx–Cardam–Tofiqi–Şəmsabad avtomobil yolunun tikintisi barədə də məlumat verildi. Qeyd olundu ki, tamamilə yenidən qurulmuş bu yol 12,8 min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirir. Yolun ümumi uzunluğu 27 kilometrdir.*

*Dövlət başçısı Qolqəti–Dəhnəxəlil–Qoşaqovaq–Ərəbocağı avtomobil yolunun rəmzi açılışını bildirən lenti kəsdi.*

# İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA SİSTEMLƏRİNİN İSTİSMARA VERİLMƏSİ MƏRASİMİNDƏ AĞDAŞ ŞƏHƏR İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı içməli su təchizatı və kanalizasiya sistemlərinin istismara verilməsi mərasimində rayon ictimaiyyətinin nümayəndələri ilə görüşdü və çıxış etdi.*

## Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

Mən sizi ürəkdən salamlayıram. Yenidən Ağdaş rayonunda olmağımdan çox məmnunam. Bu, Prezident kimi, mənim Ağdaş rayonuna 5-ci səfərimdir. Hər səfərdə biz hansısa önəmli layihənin ya təməl daşını qoyuruq, ya da ki, açılışını qeyd edirik, o cümlədən bu gün. Artıq neçə vaxtdır ki, Ağdaş şəhərinə içməli suyun verilməsi təmin edilibdir. Bu gün isə bu gözəl layihənin rəsmi açılışını qeyd edirik. Bu doğrudan da çox böyük hadisədir. Həm içməli su, həm kanalizasiya layihəsi tam başa çatıb və şəhər əhalisi sutkaboyu təmiz içməli su ilə təmin olunur. Bu suyun keyfiyyəti də Ümumdünya

Səhiyyə Təşkilatının bütün standartlarına cavab verir. İndi bu gözəl hadisəni biz birlikdə qeyd edirik.

Onu da bildirməliyəm ki, bu gün Qəbələ şəhərinin də içməli su layihəsi artıq icra edildi, açılışı oldu. Ancaq Qəbələ şəhərində 15 min əhali varsa, Ağdaş şəhərində bu, 35 mindir. Ona görə də burada gələcəkdə görüləcək işlər elə hesablanmalıdır ki, artan əhali də nəzərə alınsın. «Azərsu»ya göstəriş verilib ki, bu layihə təqribən gələcək 20–30 ili də ehtiva etsin və artan əhali bu imkandan istifadə edə bilsin.

Bildiyiniz kimi, içməli su insan orqanizmi üçün ən vacib amildir. İçməli su problemi bir sıra ölkələrdə çox ciddi problem kimi qalır. Bəzi ölkələrdə insan ömrünün uzunluğunun o qədər də böyük olmamasının səbəbi də içməli suya olan tələbatdır. Biz isə bütün şəhərlərdə bu layihəni icra edirik. İlk növbədə, Bakı şəhərində bunu icra etdik və çox müasir, dünya miqyasında ən böyük sutəmizləyici stansiya tikildi. İndi bütün şəhərlərdə bu layihələr ya icra edilib, ya da ki, icradadır. Cəmi 5 şəhər qalıb ki, hələ orada işlər başlanmayıb. Ancaq «Azərsu»ya göstəriş verilib ki, gələn ildən başlayaraq, qalan bu 5 şəhərin də içməli su problemi öz həllini tapsın.

Eyni zamanda, insan sağlamlığı üçün digər vacib amil keyfiyyətli qidadır. Bu məsələyə də diqqət yetirilir, Qida Təhlükəsizliyi Agentliyi yaradılıbdır. Agentlik həm idxala, həm də yerli istehsala nəzarət edir. Ekoloji vəziyyət çox böyük əhəmiyyət daşıyır, bu sahədə də yaxşı nəticələr vardır.

İdman, əlbəttə ki, hər bir insanın fiziki sağlamlığını möhkəmləndirir. Ağdaşda Olimpiya Kompleksi, Mərkəzi

Rayon Xəstəxanası fəaliyyət göstərir. Xəstəxana tam şəkildə əsaslı təmir olunub və bütün avadanlıqlarla təchiz edilibdir. Bildiyiniz kimi, hər il Azərbaycanda 5 milyondan çox insan dövlət xətti ilə tibbi müayinədən keçir. Hesab edirəm ki, bu təşəbbüsə görə Azərbaycan dünyada liderdir. Çünki əksər ölkələrdə bu xidmət pulludur, ancaq Azərbaycanda pulsuzdur. İndi bütün bölgələrdə müasir tibb ocaqları vardır və hər bir vətəndaşa qan analizləri vermək, ultrasəs müayinədən, digər müayinələrdən keçmək tövsiyə olunur. İndi imkan da var, şərait də yaradılır.

Həmçinin Ağdaş rayonunda icra edilən layihələr rayonun potensialının inkişafına, ümumi inkişafımıza xidmət göstərir. Bu gün «Ağdaş» elektrik yarımstansiyası da fəaliyyətə başladı. Mən onu Qəbələdəki yarımstansiyadan düyməni basmaqla işə saldım. Elektrik enerjisi ilə bağlı heç bir problem olmamalıdır, yoxdur və olmayacaqdır. İçməli su layihəsi icra edilib, qazlaşdırılma 80 faiz səviyyəsindədir. Mənə dedilər ki, cəmi 19 kənddə hələ qaz yoxdur. İndi Azərbaycan Dövlət Neft Şirkətinə tapşırıq verirəm ki, o 19 kəndə də qısa müddət ərzində qaz xətləri çəkilsin.

Avtomobil yollarının tikintisinə gəldikdə, son 2 il ərzində Ağdaşda 100 kilometrdən çox kənd yolları salınıb, birinin açılışını bu gün etdik. Yəni bu sosial infrastruktur layihələri öz həllini tapır. Modul tipli 28 sutəmizləyici qurğu fəaliyyət göstərir. İndi içməli su sistemini işə salacağıq. Beləliklə, rayonun hərtərəfli inkişafı üçün şərait yaradılır. Yeni müəssisələr yaradılır, o cümlədən Biyan Kökü İstehsalı və Emalı zavodu. O da

çox böyük sənaye müəssisəsidir ki, burada işsizlik olmasın, vətəndaşlar işlə təmin edilsinlər. Həmçinin onlar yaxşı tibbi xidmət alsınlar, təmiz sudan içsinlər və sağlam olsunlar. Məqsədimiz budur. Sizi bir daha təbrik edirəm.

**Gülcənnət İsmayılova** (*rayon sakini*): Əziz Prezidentimiz İlham Əliyev, Ağdaşa xoş gəlmisiniz! Bizim ürəyimizdən gələnlərin hamısını Siz dediniz, artıq nəsə deməyə ehtiyac yoxdur. Allah Sizi qorusun, yardımçınız olsun. Biz Sizi çox sevirik, ona görə də biz işləyənə səs veririk, biz işləyənin arxasında dayanırıq. Bu qədər işləri görmək hər bir ölkəyə nəsib deyil. Bir xahişimiz də var, Ağdaş camaatının, xüsusən də ağdaşlı anaların salamlarını bizim Birinci vitse-prezidentimizə çatdırın. Bizdən ötrü, gələcəyimiz olan uşaqlarımızdan ötrü gördüyünüz bu işlərə görə Sizə ürəkdən «Sağ olun» – deyirik. Çox sağ olun, Sizə təşəkkür edirik, Allah Sizi qorusun.

**İlham Əliyev:** Çox sağ olun. Vətəndaşlara xidmət etmək bizim borcumuzdur. Prezident kimi, mənim əsas vəzifəm ölkə daxilində olan problemləri həll etməkdir. Ona görə də mən bölgələri gəzirəm, hər il bəlkə də 30–35 rayonda oluram. Elə rayonlar var ki, 10 dəfədən çox olmuşam. Amma 4-5 dəfədən az olduğum rayon yoxdur. Gəlirəm, vəziyyətlə tanış oluram, mövcud olan problemləri vətəndaşların dilindən eşitmək istəyirəm ki, o problemlər həll olunsun. Mənim işimin əsas hissəsini daxili məsələlər tutur və məhz buna görə Azərbaycan çox uğurla inkişaf edir. Bu yaxınlarda aparılmış yeni hesabatlarda yenə də Azərbaycanın uğurlu

inkişafı öz əksini tapıb. Misal üçün, Dünya Bankının, Davos Dünya Forumunun hesabatlarında göstərilir ki, elektrik enerjisinə əlçatanlıq əmsalına görə Azərbaycan dünyada ikinci yerdədir. Baxın görün dünyada nə qədər inkişaf etmiş ölkələr vardır. Onların arasında, bütün dünya ölkələri arasında biz ikinci yerdəyik. Xalqın hökumətə inamına görə indi biz birinci onluqdayıq. Bu nəyi göstərir? Bunu biz demirik, bunu geniş təhlil aparan dünyanın ən mötəbər qurumları deyir və bu da həqiqətdir. Bizim gücümüzün də mənbəyi budur. Çünki xalq-iqtidar birliyi bizim inkişafımızı şərtləndirir və bu dəstək bizə güc verir ki, biz öz sözümüzü deyək, öz mövqemizi müdafiə edək.

Eyni zamanda, beynəlxalq gündəliyimiz də çox zəngindir. Təkcə bu ay ərzində Azərbaycan iki önəmli təşkilata sədrliyi öz üzərinə götürüb. Oktyabrın ortasında Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb və biz 1 il bu təşkilata rəhbərlik edəcəyik. Oktyabrın 25-də isə dünyanın ikinci böyük təşkilatı olan «Qoşulmama Hərəkatı»na sədrlik etməyə başladıq. «Qoşulmama Hərəkatı»ndan daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur, özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqemizi müdafiə edir. İki gün əvvəl yekun Bəyannamədə bizim istədiyimiz bütün məsələlər

öz əksini tapıb, o cümlədən ərazi bütövlüyü ilə, erməni işğalı ilə bağlı. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bizim mövqemizlə bağlı istədiyimiz bütün müddəalar orada öz əksini tapıb. Yəni bu, böyük nailiyyətdir. Mən tam səmimi deyirəm, bu təşkilatda yekdil dəstək almaq çox böyük qəhrəmanlıqdır. Çünki təşkilatın 120 üzv ölkəsi vardır. Bəzi ölkələr bir-biri ilə yola getmir, bəzi ölkələr arasında çox böyük ixtilaflar, hətta münaqişələr vardır. Buna baxmayaraq, onların hamısı bizi dəstəklədilər.

Bizim daxili siyasətimiz, bax, bu reallığı yaradır, xarici siyasətimiz də mövqemizi gücləndirir. Ona görə bizim gələcəkdə ancaq inkişaf yolu ilə getməyimiz üçün bütün şərtlər vardır. Mən tam əminəm ki, Azərbaycan bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolu ilə gedəcək, bu gün xalqı narahat edən bütün problemlər – sosial infrastruktur, sosial ədalətlə bağlı olan problemlər öz həllini tapacaqdır. Bir daha sizi təbrik edirəm.

**S a k i n l ə r:** Çox sağ olun. Hər şey Sizin sayənizdədir.

*Sonra «Azərsu» ASC-nin sədri Qorxmaz Hüseynov dövlət başçısına layihə çərçivəsində görülən işlərlə bağlı məlumat verdi. Bildirildi ki, 2008-ci ildə «Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi»nin həyata keçirilməsinə başlanılıb və layihə mərhələlərlə icra olunubdur. Layihə 2035-ci ilə qədər perspektiv inkişaf nəzərə alınmaqla, Ağdaş şəhərində 47 min nəfərin içməli su təchizatının və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Eyni zamanda, 20 min sakinin yaşa-*

*dığı 13 kəndə də içməli suyun verilməsi nəzərdə tutulub. Ümumilikdə bu layihədən 67 min nəfər sakin faydalanacaq. Rayon mərkəzini və ətraf kəndləri içməli su ilə təmin etmək üçün mənbə olaraq yeraltı sular seçilib. İlkin mərhələdə Türyançayın məcrasında 2 kəşfiyyat quyusu qazılıb. Mənbədə aparılan tədqiqatlar suyun keyfiyyətinin mövcud standartlara uyğunluğunu təsdiqləyib. Araşdırma zamanı məlum olub ki, mənbənin məhsuldarlığı da optimal səviyyədədir, şəhər mərkəzi və ətraf kəndləri davamlı olaraq su ilə təmin etməyə imkan verir. Bütün bunlar nəzərə alınaraq, ümumi məhsuldarlığı saniyədə 240 litr olan 8 subartezian quyusu qazılıb. Su mənbəyində yerləşən qurğuların Türyançayda baş verə biləcək sel və daşqınlardan mühafizəsi məqsədilə müvafiq tədbirlər görülüb. Subartezian quyularından qəbul olunan suyun toplanması və optimal paylanması üçün tutumu 10 min kubmetr olan 2 su anbarı inşa edilib. Əhaliyə verilən içməli suyun keyfiyyətinin standartlar səviyyəsində saxlanılması məqsədilə zərərsizləşdirici qurğu inşa edilib. Anbarlardan şəhər şəbəkəsinə və ətraf kəndlərə suyun nəqli məqsədilə ümumi uzunluğu 13 kilometr olan, 560 millimetr diametrli polad borulardan ibarət 2 magistral su xətti çəkilib. Layihə çərçivəsində Ağdaş şəhərində 183 kilometr içməli su şəbəkəsinin inşası tam başa çatıb, 7500 ev birləşməsi və su sayğacı quraşdırılıbdır. Şəhər əhalisi yeni tikilmiş şəbəkə vasitəsilə 24 saat keyfiyyətli içməli su ilə təmin olunacaq. Layihə çərçivəsində yeni yaradılmış infrastruktur hesabına şəhər mərkəzinə yaxın və magistral su xəttinin marşrutu boyu yerləşən 5 kəndə içməli su verilib. Hazır-*

*da Qaradağlı, Zeynəddin, Gürcüva, Nehrəxəlil kəndlərinin və Ləki qəsəbəsinin bir hissəsində 10 mindən çox sakinin içməli su təchizatı yaxşılaşdırılıbdır. Gələcəkdə daha 8 kəndə içməli suyun verilməsi nəzərdə tutulur. Bununla da həmin kəndlərdə 11 minədək sakinin keyfiyyətli içməli suya çıxışı təmin ediləcəkdir.*

*Bildirildi ki, layihə çərçivəsində Ağdaş şəhərində kanalizasiya infrastrukturu da tamamilə yenidən qurulub. Şəhər ərazisində 166 kilometr kanalizasiya şəbəkəsi tikilib. Hər bir evin və obyektin kanalizasiya şəbəkəsinə qoşulması təmin edilib. Şəhərdə yaranan tullantı sularının təmizləyici qurğuya ötürülməsi məqsədilə kanalizasiya nasos stansiyası və 9,6 kilometr uzunluğunda əsas daşıyıcı kollektor inşa edilib. Yaranan tullantı suların təmizlənib zərərsizləşdirilməsi məqsədilə şəhərin cənub hissəsində məhsuldarlığı sutkada 10 min kubmetr olan təmizləyici qurğunun tikintisi yekunlaşmaq üzrədir.*

*Qeyd edildi ki, yeni layihənin icrasına qədər şəhərə içməli su Türyançay çayının yatağında quraşdırılmış drenaj sistemi vasitəsilə verilirdi. Şəhərdə 32 kilometr paylayıcı şəbəkə mövcud idi və içməli su fasiləli rejimdə verilirdi. 24 min sakinin təxminən 50 faizinə xidmət göstərilirdi. Əhalinin qalan hissəsi isə tələbatını fərdi qaydada ödəyirdi. Şəhərdə mövcud olmuş 18 kilometr kanalizasiya şəbəkəsi kiçik bir hissəni əhatə edirdi və istismara yararsız vəziyyətə düşmüşdü.*

*Prezident İlham Əliyevə məlumat verildi ki, ümumilikdə Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramlarına uyğun olaraq 50 şəhər və rayon mərkəzində içməli su təchizatı və ka-*

*nalizasiya layihələri icra olunur. İndiyədək bu şəhərlərin 30-da su və kanalizasiya, 11-də isə su layihələrinin icrası yekunlaşıbdır.*

*Dövlət başçısı Ağdaş şəhərinə içməli suyun verilməsini bildirən düyməni basdı.*

**Ağdaş Telekommunikasiya Qovşağında «Şəbəkə» Xidmət Mərkəzinin istifadəyə verilməsi mərasimi**

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ağdaş Rayon Telekommunikasiya Qovşağında «Şəbəkə» Xidmət Mərkəzinin istifadəyə verilməsi mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı «Şəbəkə» Xidmət Mərkəzi ilə tanış oldu.*

*Qeyd edək ki, ölkəmizdə digər sahələrdə olduğu kimi, rabitə və informasiya texnologiyaları sahəsində də kompleks yenidən qurulma tədbirləri reallaşdırılır. Yüksək texnoloji tutumlu və rəqabətli iqtisadiyyatın qurulmasında İKT-nin rolunun genişləndirilməsi, infrastrukturun modernləşdirilməsi, sahə üzrə iqtisadi-təşkilati islahatların aparılması Azərbaycanın informasiya tranziti ölkəsinə çevrilməsinə xidmət edir. Bunun üçün bir neçə perspektiv layihələr üzrə əməli işlər görülür. Bunlardan biri də Prezident İlham Əliyevin tapşırıqlarına əsasən, 2017-ci il fevralın 10-da «Şəbəkə» xidmət mərkəzlərinin yaradılmasıdır. Yaradılan müasir xidmət mərkəzlərində Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin qurumları tərəfindən vətəndaşlara göstərilən xidmət-*

*lər vahid məkandan təqdim olunur. «Şəbəkə» mərkəzlərində əhaliyə ənənəvi telekommunikasiya və poçt xidmətlərindən əlavə, bank-maliyyə, eləcə də aviabilet satışı və turizm xidmətləri də göstərilir. Eyni zamanda, «Şəbəkə» mərkəzlərində lokal və beynəlxalq ödəniş kartlarının, icbari sığorta, elektron imza, zərf, marka, açıqca və pul köçürmələri, büdcə, kommunal, Dövlət İpoteka Fondu üzrə ödənişlər, mobil cihazların qeydiyyatı həyata keçirilir. Mərkəzlərdə müştərilər həm də xüsusi özünəxidmət terminallarından istifadə edə bilirlər.*

*Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə və «Aztelekom» MMC-nin baş direktoru Suat Paşayev xidmətin fəaliyyət istiqamətləri barədə dövlət başçısına məlumat verdilər. Bildirildi ki, «Şəbəkə» Xidmət Mərkəzinin yaradılmasında məqsəd nazirliyin bütün xidmətlərini əhaliyə vahid məkanda təqdim etməkdir. Xidmətləri vahid məkanda cəmləməklə, vətəndaşların vaxt itkisini aradan qaldırmaq, həmçinin xidmətlərə görə dövlət xərclərinə qənaət etmək mümkün olacaqdır.*

*Diqqətə çatdırıldı ki, «Şəbəkə» Xidmət Mərkəzində poçt xidmətləri, bütün növ ödənişlər, telefon çəkilişləri, internetə qoşulma, IMEI qeydiyyat, «Elektron hökumət», elektron imza, valyuta mübadiləsi, aviabiletlərin və turpaketlərin satışı və digər bir çox xidmət növləri təqdim olunacaqdır.*

## «Biyan Products» MMC-yə məxsus Biyan Sənaye Parkının açılışı mərasimi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 28-də Ağdaşda «Biyan Products» MMC-yə məxsus Biyan Sənaye Parkının açılışı mərasimində iştirak etmişdir.*

*Dövlət başçısı əvvəlcə Biyan Tədarükü və Emalı zavodunu işə saldı.*

*Biyan Sənaye Parkının direktoru Ramin Məmmədov dövlət başçısına məlumat verdi ki, bu park Azərbaycan brendi ilə istehsal olunan məhsullara yeni nümunələr əlavə edəcək. Müəssisənin yaradılmasında məqsəd müasir texnologiyalardan istifadə edərək, emal olunmuş biyan kökü və biyandan hazırlanan 100 faiz bitki mənşəli, bioloji fəallığa malik qida əlavələrini dünya bazarına çıxarmaqdır. Ümumi sahəsi 11 hektar olan Biyan Sənaye Parkının ərazisinə Biyan Tədarükü və Emalı zavodu, Bitki Ekstraktı və Sirop zavodu, həmçinin digər yardımçı binalar daxildir.*

*Məlumat verildi ki, müəssisə saatda 2300 kiloqram biyan kökü emal etmək gücündədir. Zavodda Türkiyənin «Bigtem» şirkətinin istehsalı olan müasir avadanlıqlar quraşdırılıb. Biyan kökü həm mexaniki üsulla, həm də əllə seçilir, təmizlənir, yuyulur, müxtəlif formada və ölçüdə doğranır, qurudulur və qablaşdırılır.*

*Biyan Sənaye Parkının nəzdində fəaliyyət göstərən Bitki Ekstraktı və Sirop zavodunda bioloji fəallığa malik qida əlavələri istehsal olunur. İstehsal edilən məhsullar elmi patentlər əsasında hazırlanır. Bu patentlərdən biri 2019-cu ildə Koreya Respublikasında keçirilmiş Beynəlxalq İxtiraçı Qadınlar Forumunda xüsusi mükafat və*

*qızıl medal qazanıb. İstehsal olunan müalicəvi şərbətlər öskürək, iltihab, qrip və zökəm əleyhinə, bəlğəmgətirici, immuniteti, hemoqlobini artıran, sinir sistemini sakitləşdirən təsirlərə malikdir. Məhsulların başlıca üstünlükləri 100 faiz bitki mənşəli olması, xammalın ekoloji təmizliyi, tərkibində kimyəvi maddənin – konservant, dadverici və rəngvericilərin olmamasıdır. Xəttin illik istehsal gücü 350 min ədəddir. Bütün istehsal prosesi boyu məhsul nümunələri müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyada yoxlanılır. İstər doğranmış biyan kökünə, istərsə də biyan tərkibli bitki mənşəli şərbətlərə həm daxili, həm də xarici bazarda böyük tələbat vardır. Məhsulun ilk nümunələri İrana göndərilib. Gələcəkdə məhsulların ABŞ, Koreya, Hindistan, Misir və Avropa ölkələrinə ixracı da nəzərdə tutulur. Biyan Sənaye Parkında ildə 7500 ton biyan kökünün və 100 min ədəd biyan şərbətinin «made in Azerbaijan» brendi ilə ixracı planlaşdırılır.*

**Məhbubə Vəliyeva**(*«Biyan Products» MMC-nin elmi məsləhətçisi, Azərbaycan Tibb Universitetinin professoru*): Möhtərəm Prezidentimiz, biz fəxr edirik ki, bu ideyanı Siz vermisiniz. Buna görə zavodun kollektivi adından Sizə təşəkkür edirəm. «Çox sağ olun» – deyir, Sizi və xalqımızı təbrik edirəm. Burada sözümü deməliyəm. Çünkinin Prezident Heydər Əliyevin qarşısında da çıxış etmişəm. Mən ulu öndərimiz, təkrarsız və bənzərsiz şəxsiyyət və çox sevdiyim Heydər Əliyevin bu sözlərini xatırlatmaq istəyirəm. O dedi ki, Mən İlham Əliyevə özüm qədər inanıram. Möhtərəm Prezidentimiz, xalqımız Sizə çox inanır, Sizi çox sevir.

Biz bilirik ki, görülən bütün işlər, qazanılan nailiyyətlər Sizin adınızla bağlıdır. Mən Sizə cansağlığı, uzun ömür arzulayıram. Siz Azərbaycanda o qədər qlobal işlər görmüsünüz ki, bunu görməmək üçün gərək kor olasan. Biz Sizinlə fəxr edirik və sevinirik ki, Siz qiymətli vaxtınızı ayırıb bizimlə görüşə gəlmisiniz. Bütün kollektiv adından Sizə təşəkkürümü bildirirəm.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun, xoş sözlərə görə sizə təşəkkür edirəm, kollektivə də uğurlar arzulayıram. Şadam ki, mənim vaxtilə irəli sürdüyüm təşəbbüs belə gözəl nəticələrə gətirib çıxardı və doğrudan da dünya səviyyəli sənaye müəssisəsi yaradıldı. Burada bütün proses bir-birini tamamlayır – əkin sahələri, ondan sonra biyan kökünün yığılması, çeşidlənməsi, qurudulması, siropa, ekstrakta çevrilməsi və satışı. Yəni bütün zəncir burada təmin olunur, ixrac yönümlü məhsuldur. Mən baxdım ki, bir neçə mötəbər mükafata da layiq görülüb və bu onu göstərir ki, keyfiyyəti də yüksəkdir. Əgər yüksək olmasaydı, əlbəttə ki, bunu ixrac etmək də mümkün olmazdı. Demək olar ki, ölkəmizdə yeni bir sənaye sahəsi yaradılıbdır. Bizim ümumi inkişafımızı təmin edəcək, iş yerlərinin yaradılmasına xidmət göstərəcəkdir. Təsadüfi deyil ki, məhz belə müəssisələrin hesabına bu ilin 9 ayının yekunlarına görə bizim qeyri-neft sənayemiz 15 faiz artıb. Belə müəssisələrin yaradılması neft, qazdan asılılığı azaldır, iş yerləri, ixrac yönümlü məhsul yaradır, ölkəmizə valyuta daxil olur. Yəni görün bunun nə qədər böyük əhəmiyyəti və faydası vardır.

Əlbəttə, görürəm ki, siz bu işin çox böyük mütəxəssisisiniz, bu işlə çox böyük həvəslə, inamla məşğul olursunuz. Sizə bir daha uğurlar arzulayıram. Arzu edirəm ki, fəaliyyət sahəsini genişləndirəsiniz. Yeni yaradılan və gözəl nəticə verən müəssisələrə mənim yeganə tövsiyəm odur ki, maksimum genişləndirin, çünki bazar da var, tələbat da vardır. Bir daha təbrik edirəm, sizə yeni uğurlar arzulayıram.

## BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN AZƏRBAYCAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA EMMA NİKOLSON İLƏ GÖRÜŞ

*29 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolsonu qəbul etmişdir.*

*Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini bildirən dövlət başçısı enerji sahəsində Böyük Britaniyanın Azərbaycanın əsas tərəfdaşlarından biri olduğunu vurğuladı. Prezident İlham Əliyev qeyri-neft sektorunda əməkdaşlığın inkişafı üçün də geniş imkanların olduğunu diqqətə çatdırdı. Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin genişləndirilməsində Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi baronessa Emma Nikolsonun rolunu qeyd etdi.*

*Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin olduğunu vurğulayan baronessa Emma Nikolson iqtisadi, ticari, mədəni və humanitar sahələrdə əlaqələrimizin inkişafı üçün səylərini əsirgəmədiyini bildirdi. O, Azərbaycana səfəri çərçivəsində çoxsaylı görüşlər keçirdiyini, Muğam Mərkəzində*

*olduğunu və bu mərkəzin onda böyük təəssürat yaratdığını ifadə etdi.*

*Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı, səhiyyə, elm, təhsil, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsi aparıldı.*

## «AZƏRKOSMOS» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ RƏŞAD NƏBİYEV İLƏ GÖRÜŞ

*29 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da «Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Bir neçə gün bundan əvvəl Vaşinqtonda keçirilmiş Beynəlxalq Astronavtika Konqresində növbəti konqresin Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu çox böyük hadisədir, bizim böyük qələbəmizdir və bu münasibətlə sizi təbrik etmək istəyirəm. Bilirəm ki, «Azərkosmos» və digər dövlət qurumları bu konqresin Azərbaycanda keçirilməsi üçün böyük səylər göstəribdir.

Bu konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin əhəmiyyətini sübut edən məqamlardan biri də odur ki, konqresin işində Amerikanın vitse-prezidenti cənab Pens iştirak edirdi. Növbəti konqresin

Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi, əlbəttə, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir. Yadımdadır, bu ilin iyul ayında Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Azərbaycanda səfərdə idi. Mən onu qəbul etdim və ona öz niyyətimizi bildirdim ki, biz çox istəyirik növbəti konqres Bakıda keçirilsin və hesab edirik ki, bu, ədalətli olar. Çünki Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar doğrudan da çox təsirlidir. Gənc müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir. İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir.

Bu qələbə bir daha ona görə önəmlidir ki, bizim çox güclü rəqiblərimiz var idi. Dörd şəhər konqresin keçirilməsi üçün səy göstərirdi. Bakı ilə yanaşı, Sinqapur, Rio de Janeyro və Dehli şəhərləri. Yəni həm təcrübə, həm də əhali baxımından Hindistan və Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz, əlbəttə, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu 4 şəhərdən məhz Bakını seçdi. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət vardır. Təkcə bu ayın ərzində həm Türk Şurasına, eyni zamanda, dünyanın BMT-dən sonra ən böyük təşkilatına – «Qoşulmama Hərəkatı»na sədrliyimiz bunun əyani sübutudur. Azərbaycanla birlikdə 120 ölkə

yekdil qərarla Azərbaycanı «Qoşulmama Hərəkatı»na sədr seçib  və bu doğrudan da böyük tarixi nailiyyətdir. Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsi növbəti böyük qələbəmizdir. Mən bu hadisəni çox önəmli siyasi qələbə kimi qəbul edirəm.

İctimaiyyətin diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. 1973-cü ildə Sovet İttifaqı dönəmində Beynəlxalq Astronavtika Konqresi Sovet İttifaqında keçirilmişdir. Cəmi bir dəfə, o da Bakı şəhərində. O vaxt ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbəri kimi, böyük səylər göstərmişdir ki, Sovet İttifaqında bu konqres məhz Bakıda keçirilsin. Hesab edirəm ki, 2022-ci ildə – təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. O vaxt biz müstəqil deyildik, ancaq Sovet İttifaqında məhz Bakı Astronavtika Konqresinin məkanı kimi seçilmişdir. Bu gün isə biz müstəqilik və müstəqil Azərbaycan bu böyük tədbirə ev sahibliyi edəcəkdir.  Növbəti 2-3 il ərzində konqresin keçirilməsi üçün böyük təşkilati işlər aparılmalıdır. Biz təqribən 6-7 min xarici qonaq gözləyirik. Bu qonaqlar dünyanın texnoloji gündəliyini müəyyən edən qurumların rəhbərləri, nümayəndələridir. Ona görə vaxt gələndə konqresin yüksək səviyyədə keçirilməsi üçün Təşkilat Komitəsi yaradılacaq və əsas hazırlıq işlərini «Azərkosmos» öz üzərinə götürəcəkdir. Beləliklə, biz növbəti böyük uğura imza atdıq. İndi konqres zamanı aparılan müzakirələr və gedən proseslər haqqında məlumat verin.

**R ə ş a d  N ə b i y e v** (*«Azərkosmos» Açıq Səhmdar Cəmiyyətinin sədri*): Cənab Prezident, verdiyiniz yüksək

dəyərə və qiymətə görə çox sağ olun. Əvvəlcə bir məqamı qeyd etmək istərdim ki, konqresin Bakıda keçirilməsi ilə bağlı verilmiş qərar təbii ki, ölkəmizdə mövcud olan siyasi və iqtisadi sabitliklə bağlıdır. Nəyə görə? Çünki ölkələrin götürdüyü öhdəliklərin 3 ildən sonra yerinə yetirilməsi əsas şərtlərdən biri idi. Digər tərəfdən, ölkəmizdə yaradılmış infrastrukturun xüsusi rolu, önəmi oldu. Bizdə beynəlxalq tədbirlərin keçirilməsi üçün kifayət qədər yaxşı infrastruktur vardır. Digər bir məqam isə, ölkəmizdə bu səpkidə tədbirlərin keçirilməsi ənənəsinin mövcudluğudur. Bunların hamısından da ən vacibi, cənab Prezident, Sizin şəxsən Azərbaycan vətəndaşına və onun inkişafına verdiyiniz önəmdir. Çünki kosmik sənayenin özünü uğurlu edən əsas meyarlarından biri insan amilidir. Son illərdə Azərbaycanda təhsilə göstərilən diqqət və qayğı nəticəsində bu gün ölkəmizdə kifayət qədər bacarıqlı, texniki bilikləri və vərdişləri olan yeni bir nəsil formalaşmaqdadır. Ən önəmli məsələ isə odur ki, onlar öz vətənini, xalqını sevən bir nəsildir.

Cənab Prezident, seçki prosesinə gəldikdə isə bir məqamı vurğulamaq istərdim ki, Sizin tapşırığınızla «Azərkosmos»la yanaşı, ölkəmizdə aidiyyəti qurumların hər biri koordinasiyalı şəkildə öz səylərini bir araya qoyaraq, bu nəticəni əldə edə bilmişdir. 68 ölkədən 398 üzvü birləşdirən bu Federasiya dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Bu tədbir isə istər iştirakçıların say baxımına, istərsə də burada müzakirə olunan məsələlərin vacibliyinə görə ən mötəbər tədbirlərdən biridir.

Rəqiblərimiz, Siz vurğuladığınız kimi, Sinqapur, Rio de Janeyro və Dehli idi. Əgər biz Hindistana baxmış olsaq, onlar dünyanın ən aparıcı kosmik ölkələrindən biridir. Braziliyanın timsalında astronavtikaya baxmış olsaq, onlar dünyada sərnişin təyyarələri istehsal edən 3 ən öndə gedən ölkədən biridir. Sinqapur isə istər coğrafi mövqeyinə, istərsə də bu səpkidə tədbirlərin keçirilməsinə görə dünyanın ən lider ölkələrindən biridir.

Cənab Prezident, bu tədbirə maraq oyadan digər məqamlardan biri də ondan ibarətdir ki, son illərdə bu sahəyə özəl sektorun marağı durmadan artmaqdadır. «Amazon» şirkətinin rəhbəri Ceff Bezos da məlum olduğu kimi, burada əsas çıxışçılardan biri idi. Ötən illərdə əsas çıxışçılardan biri «SpaceX» şirkətinin yaradıcısı İlon Mask olub. Yəni bu onu göstərir ki, kosmik sənaye yalnız dövlətlərin marağında deyil, artıq özünün cəzbediciliyi baxımından özəl sektorun da marağını cəlb edir.

Uğur qazanmağımızın ən əsas səbəblərindən biri də 1973-cü ildə Sovet İttifaqında ilk və yeganə konqresin ulu öndərin təşəbbüsü ilə Azərbaycanda Bakı şəhərində keçirilməsi oldu. Bu tədbirdən təxminən 6 ay sonra Azərbaycanın kosmik sənayesinin əsasları qoyuldu. «Kaspi» Tədqiqat Mərkəzi yaradılmaqla, Azərbaycan mütəxəssisləri kosmik sahədə tədqiqatlara, kosmik cihazlar hazırlamağa başladı, sonradan o cihazlardan «Salyut» və «Soyuz» kimi peyklərdə istifadə olunurdu.

**İlham Əliyev:** Bəli, bu çox böyük hadisədir. Bir daha demək istəyirəm ki, biz bu hüququ çox gərgin

mübarizədə əldə etdik. Bu bizim ölkəmizin növbəti böyük qələbəsidir. Əminəm ki, konqres Azərbaycanda ən yüksək səviyyədə keçiriləcək, minlərlə xarici qonaq ölkəmizə səfər edəcək, o qonaqlar ki, bu gün dünyanın texnoloji gündəliyini müəyyən edir. Əlbəttə, bu bizim üçün həm böyük şərəf, həm böyük məsuliyyət, həm də böyük fürsətdir. Yəni biz bu konqresin Azərbaycanda keçirilməsindən çox böyük dividendlər əldə etməliyik. O mənada ki, beynəlxalq əməkdaşlıq daha da geniş vüsət almalıdır. Azərbaycan artıq bir neçə ildir ki, kosmik klubun üzvüdür. Əlbəttə, müasir texnologiyaların inkişafı bizim gündəliyimizin əsas məsələlərindən biridir. Bu gün dünyanın inkişafı müasir texnologiyaların imkanından asılıdır. O ölkələr ki, bu texnologiyaları icad edir, yaxud da ki, onları tətbiq edir, o ölkələr daim uğur qazanacaq. XXI əsr texnoloji mübarizə əsridir və bizim kadr potensialımız, texniki imkanlarımız buna hazır olmalıdır. Məhz buna görə Azərbaycan yüksək texnologiyaları inkişaf etdirən ölkələrdən biridir. Bundan sonra da kadr hazırlığı, texnoloji inkişaf, müasir texnologiyaların Azərbaycana gətirilməsi istiqamətində əlavə addımlar atılacaq. Siz də qeyd etdiyiniz kimi, hazırda artıq böyük biznes də bu sahəyə çox böyük maraq göstərir. Əslində inkişaf etmiş ölkələrdə müasir texnologiyalar, o cümlədən astronavtika sahəsində əldə edilmiş uğurlar böyük biznesin dəstəyi ilə baş verir. Biz elə etməliyik ki, dünyanın hansı aparıcı biznes strukturlarının rəhbərləri Azərbaycanda keçiriləcək konqresdə iştirak edəcəklərsə, onlar bu tədbirə qədər ölkəmiz haqqında geniş məlumatlandırılsınlar. Ona görə növbəti 2-3 il ərzində

sizin və digər aidiyyəti qurumların rəhbərləri gərək bu şirkətlərlə sıx təmaslar qursunlar. Konqresə hazırlıq dövrü elə olmalıdır ki, buraya gələcək qonaqlar artıq bizimlə müəyyən müxtəlif sahələrdə əməkdaşlıq etməyə hazır olsunlar. Konqresin keçirilməsi çox önəmli hadisədir, amma ondan sonrakı dövr də az əhəmiyyət daşımır. Çünki konqresdən sonrakı dövr Azərbaycanda yeni texnoloji inkişaf dövrü olmalıdır. Əlbəttə, genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində son illər ərzində əldə edilmiş təcrübə bizə imkan verəcək ki, konqres ən yüksək səviyyədə keçirilsin.

## MDB MÜDAFİƏ NAZİRLƏRİ ŞURASI İCLASININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*30 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da MDB Müdafiə Nazirləri Şurası iclasının iştirakçılarını qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Əziz qonaqlar, sizi salamlayıram. Çox şadam ki, Birlik ölkələrinin Müdafiə Nazirləri Şurasının növbəti iclası Bakıda keçirilir. Bu tədbir özlüyündə çox böyük əhəmiyyət kəsb edir. Bu, ölkələrimizi daha sıx birləşdirir, ikitərəfli gündəliyə dair söhbət etmək üçün yaxşı imkan yaradır. Bildiyiniz kimi, bu yaxınlarda Aşqabadda dövlət başçılarının Zirvə görüşü çox uğurlu keçdi. MDB üzvü olan digər ölkələr kimi, Azərbaycan da bu təşkilatda iştiraka böyük əhəmiyyət verir. Bir sıra məsələlərə dair bizim konstruktiv mövqemiz də MDB çərçivəsində qarşılıqlı fəaliyyətin daha da möhkəmləndirilməsinə töhfə verir. Əlbəttə, xüsusən müasir mərhələdə bizim regionda mövcud olan və yarana biləcək təhlükələr nəzərə alınmaqla, hərbi sahədə əməkdaşlıq çox böyük əhəmiyyət kəsb edir. Zənnimcə, buna görə MDB üzvü olan ölkələrin sabitliyi və davamlı inkişafı çox cəhətdən dövlətlərimizin

təhlükəsizliyini təmin edən orqanların qarşılıqlı fəaliyyətindən asılıdır.

Dövlət başçılarının Aşqabad Zirvə görüşü çərçivəsində müzakirə edilən mövzulardan biri İkinci dünya müharibəsində Qələbənin 75 illiyinə hazırlıq məsələsi idi. Biz Azərbaycanda da buna çox fəal hazırlaşırıq. Bu bizim ümumi Qələbəmizdir, Azərbaycanda dövlət səviyyəsində qeyd edilən Qələbədir. 9 May ölkəmizdə dövlət bayramıdır. Bu bayram Heydər Əliyev Azərbaycana qayıdandan sonra bərpa edildi. Təəssüf ki, müstəqilliyin ilk illərində Xalq Cəbhəsinin xalqa zidd olan iqtidarı təqvimdəki bu qırmızı günü silməklə, onu xalqımızın yaddaşından da silməyə cəhd göstərdi, veteranlara hörmətsizlik etdi. Əslində bu, İkinci dünya müharibəsinin tarixini təhrif etmək cəhdləri idi. İndi bəzi ölkələrdə belə cəhdlər təəssüf ki, kifayət qədər kütləvi xarakter alır. Beləliklə, 9 May – Qələbə Günü uzun illər boyu dövlət bayramı kimi qeyd edilir və veteranlara qayğı bizim gündəlik işimizin ayrılmaz tərkib hissəsidir. Veteranlar diqqət və qayğı ilə əhatə olunub, onların maddi vəziyyəti təmin edilir. Onlar bizim üçün, hamı üçün qəhrəmanlıq nümunəsidir.

Azərbaycan bizim ümumi Qələbəmizə böyük töhfə verib. Bunu demək kifayətdir ki, ümumi Qələbəmiz üçün tələb olunan yanacağın çox böyük hissəsini – neftin 70 faizini, benzinin 80 faizini, sürtkü yağlarının 90 faizini Bakı təmin edirdi. Bu potensial olmasaydı, faşist Almaniyasına qalib gəlmək çox çətin olardı. Təsadüfi deyil ki, faşist Almaniyası gözlərini Bakıya zilləmişdi, Bakını tutmaq planları vardı. Bu halda sovet

ordusu zəruri yanacaqdan məhrum olardı. Tarixdən yaxşı bilirik ki, faşistlərin öz hücumlarını inkişaf etdirə bilməməsinin bir səbəbi də məhz o idi ki, onlar yanacaq sarıdan korluq çəkirdilər. Bakı neftçiləri əsl fədakarlıq göstərir, gecə-gündüz işləyirdilər. Məhz həmin illərdə neft hasilatı rekord səviyyəyə – orta hasilat səviyyəsindən 2 dəfə yüksək həddə çatmışdı. İkinci dünya müharibəsində ümumi Qələbəyə Azərbaycan xalqının da sanballı töhfəsi olub. Xalqımızın 600 mindən çox nümayəndəsi müharibədə iştirak edib, onların yarısı ümumi Qələbəmiz uğrunda canlarından keçib. Sovet İttifaqı qəhrəmanlarından 170 nəfəri Azərbaycanın nümayəndələridir. Bu, xalqımızın qürur mənbəyi, böyüməkdə olan nəsil üçün örnəkdir.

Təsadüfi deyil ki, tarixin saxtalaşdırılması, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi, tarixin yenidən yazılması cəhdlərinə Azərbaycanda çox həssas yanaşırıq. Bu, təkcə tarixin təhrif edilməsi baxımından deyil, gələcək nəsillər üçün də böyük təhlükədir. Çünki onlar bu miflərə inana bilər, mahiyyət etibarilə tarixi həqiqətdən uzaqlaşa bilərlər. Buna görə biz müharibənin səbəbləri haqqında, təcavüzkarın kim olması və həm ölkəsini, həm də dünyanın yarısını XX əsrin bu taunundan xilas etmiş sovet xalqının qəhrəmanlığı barədə həqiqətin dünyaya çatdırılması üçün ümumi səylərimizlə çox fəal iş aparmalıyıq.

Aşqabad Zirvə görüşü zamanı mən belə bir məsələ qaldırdım ki, MDB məkanında da təəssüf ki, faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi faktları vardır. Məhz Ermənistanda faşist cəllad Ter-Arutyunyan qəhrəman

səviyyəsinə qaldırılıb. Ermənistanda meydanlara, küçələrə onun adı verilib. Bir neçə il bundan əvvəl isə Ermənistan paytaxtının mərkəzində ona təqribən 6 metr hündürlüyündə heykəl qoyulubdur. Bu adam deyirdi ki, Almaniya uğrunda ölənlər Ermənistan uğrunda ölür. Bu adam SMERŞ tərəfindən tutularaq, uzunmüddətli həbs cəzasına məhkum edilib və onun şərəfsiz ömrü Vladimir həbsxanasında başa çatıbdır. Bax, belə bir «xadim»ə heykəl qoyulub və bu heykəl indiyə qədər götürülməyibdir. Mən həm dövlət başçılarının, həm də Ermənistanın yeni rəhbərliyinin diqqətini bu məqama cəlb etdim ki, MDB məkanında bu, yolverilməz hərəkətdir. Ermənistanın yeni rəhbərliyi özünün faşizmin qəhrəmanlıq kimi qələmə verilməsi ilə assosiasiya edilməsinə imkan verməməlidir. Təəssüf ki, bu heykəl indiyə qədər götürülməyib və bu, erməni tərəfin səmimiyyəti barədə çox böyük suallar doğurur. Erməni tərəfi deyir ki, o da qəhrəmanların xatirəsinə ehtiram bəsləyir. Bu nonsensdir, ona görə ki, onlar faşistlərin əlaltılarının xatirəsinə ehtiram bəsləyir, yəni biz əslində bu mənfur əməllərə qarşı mübarizədə canlarından keçmiş insanların xatirəsinin təhqir edildiyini görürük. Buna görə biz öz tərəfimizdən bundan sonra da həm Birlik ölkələrinin, həm də digər dövlətlərin ictimaiyyətinin bu məsələyə diqqətini Qələbənin 75 illiyinə hazırlıq prizmasından cəlb edəcəyik. Düşünürəm ki, biz birgə səylərimizlə bundan sonra da işimizi bu istiqamətdə davam etdirəcəyik ki, İkinci dünya müharibəsi haqqında həqiqət bütün dünya birliyinin, xüsusən gənc nəslin diqqətinə çatdırılsın.

Bugünkü iclas məsələsinə qayıdaraq qeyd etmək istəyirəm ki, sizin gündəliyiniz çox zəngindir. Əminəm ki, müzakirələr ölkələrimiz arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə kömək edəcəkdir. Bir daha xoş gəlmisiniz!

**S e r g e y  Ş o y q u** (*Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı*): Hörmətli cənab Prezident! Bizimlə görüşmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkürümüzü və minnətdarlığımızı bildiririk. Biz konkret olaraq Qələbənin gələcək yubileyi, ata və babalarımızın igidlikləri ilə bağlı xatirəni ümumi səylərimizlə qoruyub saxlamalı olmağımız barədə Sizin baxışlarınıza şərikik. Əlbəttə, o tarixi yenidən yazmaq, qalibləri məğlublar, məğlubları isə qaliblər kimi qələmə vermək məqsədilə göstərilən hər hansı cəhdlərə qarşı mübarizə aparmaq üçün nə mümkündürsə etmək lazımdır. Eyni sözlər bu böyük savaşın, ölkəmiz üçün ağır müharibənin gedişində törədilmiş cinayətlərə də aiddir. Bu gün bir tərəfdən, tarixi yenidən yazmaq, digər tərəfdən, qaliblərin məğlub sayılması üçün əlindən gələni etmək istəyənlərin sayı get-gedə artmaqdadır. Biz bunu nəzərə alaraq, bütün həmkarlarımızı Moskvada keçiriləcək bayram tədbirinə dəvət etmişik ki, Birlik ölkələrindən olan hərbi kontingent «Qızıl Meydan»da Qələbə paradında iştirak etsin. Ümidvaram ki, azərbaycanlı hərbi qulluqçular da əvvəllər olduğu kimi, bu tədbirdə çox fəal iştirak edəcəklər.

Bizim gündəliyə gəldikdə isə o, kifayət qədər genişdir. Əməkdaşlıq bizim birlikdə baxdığımız, təsdiq etdiyimiz planlar üzrə inkişaf edir. Burada xüsusi qeyd etmək

istərdim ki, bu gün Rusiya beynəlxalq terrorizmə qarşı mübarizədə böyük təcrübə qazanıb, biz bu təcrübəni həmkarlarımızla bölüşməyə hazırıq. Bu həm beynəlxalq terrorizmə qarşı mübarizə, həm humanitar kömək, o cümlədən minalardan təmizləmə, tibbi yardım və bir sıra başqa məsələlərə aiddir. Son hadisələr, Soçidə aparılmış danışıqlar, əldə edilmiş razılaşmalar, Rusiya və Türkiyə prezidentləri tərəfindən imzalanmış Memorandum çətinliklə həyata keçirilir, lakin görürük ki, bu, sülhün bərqərar olması, Suriyanın suverenliyinin qorunub saxlanılması üçün yeganə üsuldur.

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ VƏ GÜRCÜSTAN BÖHRANI ÜZRƏ XÜSUSİ NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 30-da Avropa İttifaqının Cənubi Qafqaz və Gürcüstan böhranı üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüşdə dövlət başçısı İlham Əliyev Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini bir daha çatdıraraq, münaqişənin yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməli olduğunu vurğuladı.*

*Söhbət zamanı Azərbaycan–Avropa İttifaqı əlaqələri haqqında fikir mübadiləsi aparıldı.*

## YEVLAX ŞƏHƏRİNİN VƏ XAÇMAZ RAYONUNUN YENİ TƏYİN OLUNMUŞ İCRA HAKİMİYYƏTİNİN BAŞÇILARI ANAR TAĞIYEV VƏ ELNUR RZAYEV İLƏ GÖRÜŞ

*31 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Anar Tağıyevi Yevlax Şəhər İcra Hakimiyyətinin başçısı, Elnur Rzayevi Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı vəzifələrinə təyin olunması ilə əlaqədar qəbul etmişdir.*

**İ l h a m Ə l i y e v:** Mən sizi icra başçısı vəzifəsinə təyin edirəm. Siz bu günə qədər icra başçısının müavini vəzifəsində işləmisiniz, müəyyən təcrübə toplamısınız. İndi isə sizə böyük etimad göstərərək, Xaçmaz və Yevlax rayonlarına icra başçısı vəzifəsinə təyin edirəm. Bu, böyük etimaddır və siz bu etimadı doğrultmalısınız.

Xaçmaz rayonunda uzun illərdir ki, Şəmsəddin Xanbabayev işləyir. Şəmsəddin Xanbabayev Naxçıvanda ulu öndər Heydər Əliyevin rəhbərliyi altında Baş Nazir vəzifəsində işləmişdir. Ondan sonra Azərbaycanın Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini vəzifəsində işləmişdir. Əvvəlki nazir onu işdən çıxarmaq istəmişdi, mən qoymadım. Çünki Şəmsəddin Xanbabayev həm təcrübəli insandır, həm də ən ağır

dövrdə Heydər Əliyevə öz dəstəyini göstərmişdi və Heydər Əliyev onu Naxçıvanın Baş Naziri vəzifəsinə təyin etmişdi.

Son illər ərzində Xaçmaz rayonunda abadlıq işləri aparılıb, böyük infrastruktur layihələri icra edilibdir. Mənim təşəbbüsümlə modul tipli elektrik stansiyası tikilib, aqroparklar işə başlayıb, həm Bakıdan Xaçmaza qədər, həm də kənd yolları çəkilibdir. Xaçmaz rayonunun çox böyük turizm potensialı var və hesab edirəm ki, gələcəkdə biz bu imkanlardan daha geniş şəkildə istifadə etməliyik. Şimal zonasının turizm imkanları doğrudan da çox genişdir. Bildiyiniz kimi, Qusar rayonunda MDB məkanında ən yüksək səviyyəli dağ-xizək mərkəzlərindən biri fəaliyyət göstərir – Şahdağ kurortu. O da mənim təşəbbüsümlə yaradılıbdır. İlk dəfə mən o dağlara gələndə orada heç bir yaşayış, heç bir infrastruktur yox idi. Biz yollar çəkdik. Quba və Qusar rayonlarının sərhədində müasir elektrik stansiyası yaradıldı, qazlaşdırılma aparıldı, elektrik enerjisi, su təchizatı təmin edildi. Yəni bir sözlə, Qusar rayonunun çox böyük inkişaf layihəsi icra edildi. Bir daha demək istəyirəm ki, Şahdağ kurortu bu gün nəinki MDB-də, dünya miqyasında ən gözəl dağ-xizək kurortlarından biridir.

Xaçmaz rayonunun da özünəməxsus gözəl təbii şəraiti vardır. Təkcə Nabran bölgəsini qeyd etmək kifayətdir. Doğrudan da nadir təbii məkandır. Əlbəttə ki, orada turizm infrastrukturu müasir standartlara cavab verməlidir. Əfsuslar olsun ki, hazırda bu belə deyil. Mən Xaçmaz rayonuna son səfərim zamanı oradakı turizm imkanları ilə tanış oldum, gördüm ki, indiki

Azərbaycanın inkişaf səviyyəsinə uyğun gəlmir. Bir sıra istirahət zonaları çox primitiv, xidmət səviyyəsi də çox aşağıdır. Ona görə bu məsələyə ciddi diqqət göstərilməlidir. Dövlət xətti ilə lazımi kömək göstəriləcək. Ancaq yerli icra orqanları da bu sahəyə böyük diqqət yetirməlidir. O cümlədən Xaçmaz rayonunun böyük kənd təsərrüfatı potensialı var və orada yaradılmış Yalama aqroparkı çox böyük investisiya tutumlu layihədir. Digər sahələr üzrə də işlər düzgün aparılmalıdır. Yerli vətəndaşların müraciətlərini nəzərə alaraq, orada böyük suvarma layihələri icra edildi. Yəni rayonun çox böyük potensialı vardır. İnfrastruktura gəldikdə, həm Olimpiya İdman Mərkəzi, həm də xəstəxana yaradılıb, abadlıq işləri aparılıbdır. Bu işlər davam etdirilməlidir, ancaq müasir səviyyədə, müasir tələblərə uyğun şəkildə.

Yevlax rayonunun da çox böyük potensialı vardır. Orada böyük infrastruktur layihələri icra edilibdir. Düzdür, içməli su və kanalizasiya layihələri hələ ki, başlanılmamışdır. Xaçmaz rayonunda bu layihələr başa çatdırılıb. Bir neçə gün bundan əvvəl «Azərsu» Səhmdar Cəmiyyətinə göstəriş verildi ki, Yevlax rayonunun içməli su və kanalizasiya layihəsinə start verilsin. Hazırda Azərbaycanda cəmi 5 şəhərdə bu layihələrə başlanılmayıb. Ancaq müvafiq göstərişlər verilib və bu işlər davam etdirilməlidir.

Əlbəttə, kənd təsərrüfatı sahəsində böyük imkanlar vardır. Sənaye baxımından çox böyük potensial vardır. Yəni icra başçıları bütün bu işlərdə fəal olmalıdırlar. Düzdür, əsas işi dövlət qurumları görür. Yol çəkilişi,

elektrik enerjisi təchizatı, qaz təchizatı – bütün bunlar dövlət investisiya proqramı çərçivəsində həll olunan məsələlərdir. Yerli icra orqanları sadəcə, burada çox fəal olmalı və bütün bu layihələrin icrası üçün öz səylərini göstərməlidir.

Sizin qarşınızda duran əsas vəzifələr rəhbərlik edəcəyiniz rayonların sosial-iqtisadi inkişafını təmin etməkdir. Siz vətəndaşlarla daim təmasda olmalı, bütün kəndləri gəzməli, kənd camaatı ilə görüşməlisiniz. Sizin işiniz kabinet işi olmamalıdır. Düzdür, hər bir rəhbərin işi, o cümlədən qəbul edilən qərarlar, görülən işlər, keçirilən müşavirələr – bütün bunlar hər bir rəhbər işçinin gündəlik həyat tərzidir. Ancaq siz çox model başçılar kimi fəaliyyət göstərməlisiniz.

Mən bir neçə dəfə demişəm, əgər ölkəmizin bütün kəndlərinin problemləri həll olunarsa, deməli, bütün problemlər də həll olunacaq. Xüsusilə nəzərə alsaq ki, hazırda regionların sosial-iqtisadi inkişafı üzrə dördüncü Dövlət Proqramı icra edilir. Hesab edirəm ki, dördüncü proqramın icrası nəticəsində bu günə qədər həll olunmamış məsələlər tam şəkildə öz həllini tapacaqdır. Bu proqramın icrası Xaçmaz və Yevlax rayonlarını da əhatə edir. Siz vətəndaşların qayğıları ilə yaşamalı, onların problemlərini öyrənməli, düzgün təhlil aparmalısınız. Hansı məsələ rayon səviyyəsində həll oluna bilərsə, onları həll etməlisiniz. Əgər gücünüz çatmasa, onda mərkəzi icra orqanlarına müraciət etməlisiniz, o cümlədən Prezident Administrasiyasına ki, biz mövcud olan problemləri həll edək.

Siz vətəndaşlarla daim ünsiyyət əsnasında rayonun problemlərini və vətəndaşları narahat edən məsələləri daha dərindən öyrənib adekvat tədbirlər görməlisiniz. Bütün xoşagəlməz hallara son qoyulmalı, rüşvətxorluq, korrupsiya tamamilə yığışdırılmalıdır. Mən sizə şəxsən bu göstərişi verirəm. Əgər eşitsəm, bilsəm ki, əyri yola gedirsiniz, onda siz çox ciddi cəzalandırılacaqsınız. Bunu bəri başdan bilin və bütün başqa yerli icra orqanlarının nümayəndələri, rəhbərləri məni yaxşı eşitsinlər. Korrupsiyaya, rüşvətxorluğa qarşı Azərbaycanda amansız mübarizə aparılmalıdır. Bu yara bizim inkişafımızı ləngidir və gələcəyə olan planlarımızı sarsıda bilər. Düzdür, bu bəla hər bir ölkədə vardır. Əsas məsələ ondadır ki, rəhbərlik bu məsələyə necə münasibət göstərir. Azərbaycanda şəffaflıq, dürüstlük hər bir dövlət məmuru üçün həyat tərzi olmalıdır. Ona görə bu məsələ ilə bağlı aidiyyəti dövlət qurumları ilə birlikdə çox ciddi fəaliyyət göstərməlisiniz, tamamilə şəffaf vəziyyət yaradılmalıdır.

Rayonların abadlıq-quruculuq işlərinə diqqət yetirilməlidir, mövcud obyektlərin işlək vəziyyətdə olması da çox önəmlidir. Mənə verilən məlumatlara görə, bir neçə rayonda mənim iştirakımla açılmış Gənclər Mərkəzi indi bağlıdır, qapıya qıfıl vurulub və sadəcə olaraq, görüntü naminə fəaliyyət göstərir. Bu dözülməzdir, buna vəsait xərclənib. Gənclər mərkəzlərində gənclər öz asudə vaxtlarını keçirməlidirlər, orada maraqlı tədbirlər, intellektual oyunlar, vətənpərvərliklə bağlı tədbirlər təşkil olunmalıdır. Bu mərkəzlər tikilir, amma bir çox hallarda istifadə olunmur.

Heydər Əliyev mərkəzləri, demək olar ki, hər bir rayon mərkəzində vardır. Nədir bu mərkəzlərin məqsədi? Odur ki, o mərkəzlərə vətəndaşlar gəlib öz asudə vaxtlarını keçirsinlər, o mərkəzlərdə dərnəklər fəaliyyət göstərməli, sərgilər keçirilməlidir. O mərkəzlər rayonun mədəni həyatının ayrılmaz hissəsi olmalıdır. Ancaq mənə verilən məlumata görə, bəzi hallarda açılışdan sonra yenə də qapıları qıfıllanır və faktiki olaraq, bu mərkəzlər işləmir. Siz bu məsələ ilə çox ciddi məşğul olun. Yəni rayonlarda həyat daha da dinamik xarakter almalıdır. Əlbəttə ki, rayonlarla böyük şəhərlər arasında fərq var, hər bir ölkədə. Ancaq biz bu fərqi azaltmalıyıq. Rayonda elə şərait yaradılmalıdır ki, yerli əhali elə orada yaşasın. İş yerləri olmalıdır. İndi dövlət xətti ilə bu proqram icra olunur, o cümlədən ödənişli ictimai işlər yaradılıbdır. Bu il 40 minə yaxın ödənişli ictimai iş yeri yaradılıb. Ancaq əvvəlki mənzərə necə idi? Bəzi icra başçıları saxta adamların adlarını siyahıya yazdırır, onlara düşən vəsaiti mənimsəyir və beləliklə, talançılıqla məşğul idilər. Onların cəzası artıq verilibdir. Ona görə bu sahədə də tam şəffaflıq təmin edilməlidir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birlikdə siz ən kasıb təbəqəni bu işlərə cəlb etməlisiniz ki, onlar işsiz qalmasın. Mən demək istəyirəm ki, bu ödənişli iş yerlərinin böyük əksəriyyəti bizə lazım deyil. Ancaq biz bunu ona görə edirik ki, işsizlik aşağı səviyyədə olsun və rayonlarda iş axtaran işlə təmin olunsun. Yenə də demək istəyirəm ki, bu işlərdə artıq 40 minə yaxın vətəndaş işləyir və eyni zamanda, onların arasında bağbanlar, binaları təmir edənlər də vardır. O da bizə lazımdır. Ona görə bu sa-

həyə çox ciddi diqqət göstərilməlidir və elə etməlisiniz ki, vətəndaşlar sizin fəaliyyətinizdən razı qalsınlar.

İctimai nəzarət rayonlarda daha güclü olmalıdır. Buna nail olmaq üçün müvafiq təkliflər hazırlayın. İctimaiyyəti bizim ümumi işimizə cəlb etməliyik. Həm ictimaiyyət nümayəndələri öz səylərini göstərsinlər, həm də sizin işinizə, dövlət orqanlarının işinə nəzarət etsinlər. Əgər buna nail olsaq, onda hər hansı bir xoşagəlməz hadisə baş verərsə, biz dərhal ondan xəbər tutub lazımi tədbirlər görəcəyik. Bir çox hallarda rayonlardan gələn məlumat belədir ki, hər şey əladır, hər şey yaxşıdır, biz burada bütün işləri ən yüksək səviyyədə qururuq. Amma dərindən baxanda görürsən belə deyil, bəzi icra başçıları tərəfindən yalan məlumatlar ötürülür. Özlərini göstərmək, yaxud da ki, nöqsanlarını ört-basdır etmək üçün yalan raportlar, rayonların inkişafı ilə bağlı, mövcud problemlərlə bağlı həqiqəti əks etdirməyən məlumatlar verilir. Ona görə mən də rayonlara tez-tez gedirəm ki, o problemləri xalqın dilindən eşidim. Biz bu problemləri həll etməliyik. Əgər kimsə problemləri malalamaq istəyirsə, səhv yoldadır. Sizə də tapşırıram, hər bir ölkədə problem var, biz o problemləri ört-basdır etməməliyik. Əksinə, üzə çıxarmalıyıq. O cümlədən, mən media nümayəndələrinə də dəfələrlə müraciət etmişəm, demişəm ki, siz mənim köməkçilərimsiniz. Bəzi hallarda mən dözülməz vəziyyətlə bağlı mediadan xəbər tuturam. Bax, son hadisəni demək istəyirəm ki, Şamaxı rayonunda zəlzələ olub, oraya böyük vəsait ayrılıbdır. Mən oraya getmişəm, yeni tikilmiş evlərin açarlarını vətəndaşlara təqdim etmişəm. Ancaq o gün televizorda baxıram ki,

məktəb binasının yarısı uçubdur, çatlar var, uşaqlar qorxudan orada otura bilmirlər. Bəs yaxşı, bunun üstündən 8 ay keçibdir, bunu etmək mümkün deyilmi?! Vəsait ayrılıb, göstəriş verilib, bir çox evlər tikilib, bu məktəb belə yararsız vəziyyətdə ola-ola bununla necə barışmaq olar?! İndi əgər mediada, televizorda bu reportaj getməsəydi, mən bilməyəcəkdim. Mən bilən kimi dərhal göstəriş verdim. İndi orada işlər başlanacaq və o məktəb binası ya sökülüb yenidən tikiləcək, ya da ki, əsaslı təmir olunacaqdır. Ona görə ictimai nəzarət olmalıdır. Siz də bundan qorxmamalısınız, əksinə, ictimaiyyət sizə dəstək verməlidir.

Siz gəncsiniz, birinizin 37, digərinizin 38 yaşı vardır. İndi Azərbaycanda gəncləşmə siyasəti aparılır. Bu təbiidir, nəsillər dəyişir, yeni təfəkkürlü insanlar irəli çəkilir. Bu, təbii prosesdir və biz bu prosesdən kənarda qala bilmərik. Ancaq onu da bildirməliyəm ki, bu kampaniya xarakteri almamalıdır. Çünki mənə məlumat gəlir ki, bəziləri bunu kampaniyaya çevirmək istəyir və sınanmış, təcrübəli, bir qədər yaşlı insanlara qarşı bu kampaniyanı təşkil etmək istəyirlər. Mən buna yol verməyəcəyəm. Mən bilirəm kim nəyə qadirdir, kimin hansı xidmətləri olub əvvəlki dövrdə və bu gün. Ona görə Azərbaycanda təcrübə ilə gənclərin dinamizmi arasında vəhdət yaradılmalıdır. Bunun sintezi sayəsində biz gözəl nəticələr əldə edə bilərik. Bir də ki, yaşlı nəsil öz təcrübəsini bölüşməlidir. Ona görə hər kəs bilsin ki, mən bu kampaniyaya yol verə bilmərəm. Müəyyən dərəcədə xidmət göstərmiş insanlar dövlət tərəfindən də qiymətləndirilir və biz kampaniyaya yol verməyəcəyik.

Təbii ki, gəncləşmə prosesi getməlidir və burada söhbət təkcə yaşda deyil, təfəkkürdədir, işə yanaşmadadır. Siz mənim təyin etdiyim kadrlar kimi, elə işləməlisiniz ki, həm Yevlax camaatı, həm Xaçmaz camaatı minnətdarlıq bildirsin. Əgər siz bu etimadı doğrultmasanız, mən sizi işdən çıxaracağam və cəzalandıracağam.

Gedin işə başlayın və bir daha deyirəm ki, Prezidentin və xalqın yüksək etimadını doğruldun.

## YASAMAL RAYONUNDA ŞƏFAYƏT MEHDİYEV KÜÇƏSİNİN TBİLİSİ PROSPEKTİNDƏN LANDAU KÜÇƏSİNƏDƏK OLAN HİSSƏSİNDƏ YENİDƏN QURULMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*31 oktyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 31-də paytaxtın Yasamal rayonunda Şəfayət Mehdiyev küçəsinin Tbilisi prospektindən Landau küçəsinədək olan hissəsində yenidən qurulmadan sonra görülmüş işlərlə tanış olmuşdur.*

*Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədri Saleh Məmmədov görülmüş işlər barədə Prezident İlham Əliyevə məlumat verdi.*

**Saleh Məmmədov:** Möhtərəm cənab Prezident, xoş gəlmisiniz! Yasamal rayonundakı Şəfayət Mehdiyev küçəsi 2,4 kilometr uzunluğundadır. Bu küçənin Bəxtiyar Vahabzadə küçəsi ilə Əbdürrəhim bəy Haqverdiyev küçəsinin kəsişməsində 800 metr ərazi tam yaşayış və qeyri-yaşayış obyektləri ilə zəbt olunmuşdu.

**İlham Əliyev**: Bu hissə?

**Saleh Məmmədov:** Bəli, bu hissə tam yaşayış evləri idi. Hamısı köçürüldü və Sizin göstərişinizlə kompensasiya ödənildi.

**İlham Əliyev**: Lazımi səviyyədə verildi kompensasiya?

**Saleh Məmmədov:** Kompensasiyalar tam ödənildi, heç bir şikayət olmadı. Küçənin 800 metrlik bu hissəsi tam yenidən quruldu. İndi 18 metr enində 4 cərgəli avtomobil yoludur. Əvvəllər Cavid prospekti ilə gələn avtomobillər Cavid parkının ətrafını dolanıb Tbilisi prospektinə gedirdi. Bakıda nəqliyyatın hərəkətinin yaxşılaşdırılması ilə bağlı Sizin göstərişinizə əsasən görülən işlər nəticəsində indi həmin nəqliyyat vasitələri birbaşa Şəfayət Mehdiyev küçəsi ilə Tbilisi prospektinə çıxacaq.

**İlham Əliyev**: Əvvəllər çıxış yox idi?

**Saleh Məmmədov:** Xeyr, əvvəllər çıxış yox idi. Yalnız 5 metr enində məhəllədaxili yol var idi. Bunlar sökülən evlərin şəkilləridir. Sizin ayırdığınız vəsait hesabına həmin evlərin hamısı köçürüldü.

**İlham Əliyev**: Bu yol çox ensiz idi, burada qurtarırdı, bu tərəfə yol yox idi?

**Saleh Məmmədov:** Bəli, ancaq bu məhəllədəki binalara girmək üçün 5 metr enində yol var idi.

**İlham Əliyev**: Yaxşı layihədir.

**Saleh Məmmədov:** Sizin göstərişinizlə həyata keçirilib. Tıxaclar tam aradan qalxıb. Cənab Prezident, bu yol olmayanda, bütün avtomobil axını metronun «Elmlər Akademiyası» stansiyasının qarşısından keçirdi. Bu şəkillərdə göründüyü kimi, pik saatlarda burada tıxaclar yaranırdı. Artıq bu hissədən axın götürüləcək. İndi tam 4 cərgəli yoldur. Həm də Tbilisi

prospekti ilə birbaşa əlaqələndirilir. Gözəl bir yol sistemi yarandı.

**İ l h a m Ə l i y e v**: Burada yaşayan vətəndaşlara lazımi şərait yaradıldı?

**S a l e h M ə m m ə d o v:** Bəli, cənab Prezident, istədikləri vəsait tam ödənildi, hamısı da razı qaldı.

**İ l h a m Ə l i y e v**: Ancaq bu evlərə gedə bilərdilər də?

**S a l e h M ə m m ə d o v:** Ancaq bu evlərə. Məhəlladaxili küçələr idi. İndi artıq 2,4 kilometr uzunluqda gözəl bir prospekt yaranıb. Bundan əlavə, cənab Prezident, 2019-cu ilin investisiya proqramlarında nəzərdə tutulmuş, həmçinin büdcə fondundan ayırdığınız vəsait hesabına Bakı şəhəri və qəsəbələrində bir neçə yol tam çəkilib və istismara hazırdır. Bu yollardan biri Xocasən–Lökbatan yoludur, hansı ki, başlanğıcını «Sədərək» ticarət mərkəzindən götürür və Bakı–Şamaxı yolunun 9,5-ci kilometrliyinədək, «Coca-Cola» deyilən dairəyədək uzanır. Bu yol da indi tam hazırdır. Əvvəllər bu şəkillərdəki vəziyyətdə olub. İndi tam 4 cərgəli yoldur. Yolun ortasında ayırıcı beton zolaqlar qoymuşuq, 11,2 kilometrlik bu hissə istifadəyə tam hazırdır. Bundan əlavə, investisiya proqramından ayrılmış vəsait hesabına Sabunçu rayonunun Bakıxanov stansiyasından Suraxanı rayonunun Qaraçuxur qəsəbəsinə gedən 5,4 kilometrlik yolu bu il təmir etmişik, istismara tam hazırdır.

**İ l h a m Ə l i y e v**: Bu, əvvəlki vəziyyətidir?

**S a l e h M ə m m ə d o v:** Bəli, əvvəlki vəziyyətidir. İndi bu yolu bu vəziyyətə gətirmişik.

**İ l h a m Ə l i y e v**: Genişləndirmə aparıldı?

**Saleh Məmmədov:** Bəli, genişləndirmə aparıldı və yeni səkilər, piyada keçidləri yaradıldı. Bakı şəhərinin Azadlıq prospektindən Yeni Avtovağzala qədər olan yolun 6 kilometrlik hissəsi genişləndirildi. Ensiz bir yol idi. Nəqliyyat axınını yaxşılaşdırmaq üçün bu yol da Sizin göstərişinizlə 4 cərgəyə genişləndirildi. Burada qovşaqlar yaradıldı, Yeni Avtovağzal Binəqədi şosesi ilə birləşdirildi. Cənab Prezident, Əhmədli qəsəbəsində, Zığ şosesindən Neapol dairəsinədək olan küçə də ikigedişli idi. Uzunluğu 3,2 kilometr olan bu yolu da Sizin göstərişinizlə 4 cərgəli etmişik, istismara tam hazırdır.

**İlham Əliyev**: Çox yaxşı işlər görmüsünüz. Bakı şəhərinin bütün küçələri ən yüksək standartlara cavab verməlidir. Ona görə harada ki, problemli yerlər var, onların da siyahısını tutun və biz həm bu il, həm də gələn il onları da təmir edəcəyik. Mənə məlumat verilir ki, Bakı–Sumqayıt yolunda tez-tez tıxaclar olur.

**Saleh Məmmədov:** Bəli, böyük tıxaclar olur.

**İlham Əliyev**: Baxmayaraq ki, indi qatar da işləyir və vətəndaşların bir hissəsi qatardan istifadə edir, yenə də tıxaclar vardır. Ona görə baxın, bu yolu genişləndirmək üçün texniki imkan olmalıdır, layihə hazırlayın.

**Saleh Məmmədov:** Cənab Prezident, layihə hazırlayıb Sizə təqdim edərik.

**İlham Əliyev**: Biz o yolu genişləndirməliyik, lazımi vəsait ayırarıq. Bir də mən sizə göstəriş vermişdim ki, qəsəbədaxili yollar, Bakıətrafı qəsəbələrin yolları da abadlaşdırılsın. Siz ilkin təklifləri göndərmisiniz, baxılacaq və müvafiq göstərişlər veriləcək,

sərmayə ayrılacaq ki, biz Bakı qəsəbələrində bütün daxili yolları abadlaşdıraq. Torpaq yollar asfaltlanmalıdır. Bakı şəhərində, o cümlədən onun qəsəbələrində torpaq yol olmamalıdır.

**Saleh Məmmədov:** Cənab Prezident, Sizin göstərişinizlə elə də olacaq. Qəbulunuzda olarkən verdiyiniz tapşırığa əsasən biz bəzi qəsəbələrdə yolların torpaq əsaslarının tikintisinə başlamışıq.

**İlham Əliyev**: Bilirəm, siz başlamısınız. Əvvəl Kürdəxanı qəsəbəsinin yollarını abadlaşdırdınız. İndi digər qəsəbələr növbədədir.

**Saleh Məmmədov:** Pirşağı, Zabrat, ondan əlavə, Xəzər rayonunda, Binə qəsəbəsində...

**İlham Əliyev**: Xəzər rayonunda Mərdəkan, Şüvəlan və digər qəsəbələrdə biz yolların hamısını bərpa edəcəyik.

**Saleh Məmmədov:** Sizin göstərişinizlə bütün torpaq yolların hamısını mərhələlərlə asfaltlayacağıq.

## BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ELDAR ƏZİZOV İLƏ GÖRÜŞ

*4 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 4-də Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovu qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Bilirsiniz ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən abadlıq-quruculuq işləri haqqında öz təəssüratlarını bölüşür və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir.

Şəhərin ekoloji vəziyyəti yaxşılaşır, bir çox önəmli layihələr icra edilibdir. Əvvəlki illərdə şəhərin havasını çirkləndirən mənbələr aradan götürülüb. Onların arasında ilk növbədə, keçmiş Balaxanı zibilxanasını qeyd etməliyəm. Bu zibilxana elə bir tüstü buraxırdı ki, havanın keyfiyyəti çox aşağı düşmüşdü və insan sağlamlığına böyük zərər verirdi. İndi keçmiş Balaxanı zibilxanasının yerində müasir poliqon qurulub və zibilin çeşidlənməsi, bərk məişət tullantılarının yandırılması istiqamətində böyük addımlar atılıb, böyük investisiyalar qoyulub, Zibilyandırma zavodu inşa

edilibdir. Biz bu ekoloji fəlakət mənbəyini aradan götürdük.

Digər ekoloji fəlakət mənbəyi Bibiheybət neft mədənləri idi. Oradakı vəziyyət, ümumiyyətlə, çox acınacaqlı idi – neftlə çirklənmiş yerlər, gölməçələr. Bunların hamısı aradan götürüldü. İndi orada gözəl park salınıb və vətəndaşların sərəncamına verilibdir. İdman şəhərciyi yaradılıb, müasir idman hovuzu, digər ictimai obyektlər tikilibdir.

Eyni zamanda, Böyükşor gölü də böyük təhlükə mənbəyi idi. Onilliklər ərzində Böyükşor gölünə axıdılan kanalizasiya, lay suları, neftlə çirklənmiş sular o bölgəni də ekoloji fəlakət zonasına çevirmişdi. Biz oranı da təmizlədik, Böyükşor gölünün bir hissəsi tam ekoloji standartlara cavab verir, köçəri quşlar oraya qonur. Göl üzərində yeni yol çəkilib və gölün ikinci hissəsinin təmizlənməsi istiqamətində işlər gedir. Olimpiya stadionu vaxtilə bataqlıq kimi tanınan yerdə tikilibdir.

Ağacların əkilməsi şəhərin ekoloji vəziyyətini yüksək dərəcədə yaxşılaşdırır. Milyonlarla ağac əkilibdir. Bu gün Bakı yaşıl parklar, bağlar şəhəridir. Parkların sayına görə, hesab edirəm ki, Bakı dünya miqyasında ən qabaqcıl yerlərdədir. Bizim ən böyük parkımız olan bulvarın məsafəsi 3 kilometrdən 15 kilometrə uzadılıb. Mərkəzi Park indi şəhərə yeni yaraşıq verir. «Sovetski» adlandırılan ərazidə 20 hektarda çox gözəl, abad park salınıbdır. Heydər Əliyev Mərkəzinin önündə, Konqres Mərkəzinin önündə – vaxtilə Səttarxan adına zavodun ərazisi olan bu yer də ekoloji təhlükə mənbəyi idi – 20 hektar ərazidə park salınıb və vətəndaşlar böyük həvəslə

bu imkanlardan istifadə edirlər. Vaxtilə havanı çirkləndirən Lampa zavodu, Şifer zavodu və digər müəssisələr köçürülüb, onların yerində nəqliyyat infrastrukturu yaradılıbdır. Bir sözlə, bu gün Bakı həm ekoloji, həm də rahatlıq baxımından çox sürətlə inkişaf edən şəhərdir.

Eyni zamanda, şəhərin təsərrüfatı yenilənir və bu məqsədlə mənim tərəfimdən müvafiq sərəncamlar verilib, qərarlar qəbul edilibdir. Mən sizə dəfələrlə bu məsələlərlə bağlı öz tövsiyələrimi vermişəm və bu il şəhər təsərrüfatının müasirləşdirilməsi istiqamətində işlər aparılıb. Həm dövlət investisiya proqramı çərçivəsində, həm Prezidentin ehtiyat fondunun vəsaiti hesabına lift təsərrüfatı yenilənir, nümunəvi həyətlər qurulur. Heydər Əliyev Fondu bu sahədə çox böyük iş aparır. Dam örtüklərinin təzələnməsi üçün ehtiyat fondundan 10 milyon manat vəsait ayrılıbdır.

Bu üç istiqamət üzrə hansı işlər görülüb? Şəhərin abadlaşdırılması və inkişafı ilə bağlı daha hansı işlər görülüb? Bu barədə məlumat verin.

**E l d a r Ə z i z o v** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Möhtərəm cənab Prezident, qeyd etmək istərdim ki, son vaxtlar qonaqlar və Bakı sakinləri görülən bu işləri həqiqətən, yüksək qiymətləndirirlər. Birmənalı deyirlər ki, son 10 il ərzində Sizin səylərinizin nəticəsində Bakı keyfiyyətcə yeni bir səviyyəyə qalxıb. Bu, əhali və xarici qonaqlar tərəfindən qiymətləndirilir.

Bu gün Bakı Şəhər İcra Hakimiyyətinin və rayon icra hakimiyyətlərinin balansında 11 min yaşayış binası

vardır. Onları şərti olaraq həyətləri olan və olmayanlara bölmək olar. Deməli, bu gün həyətləri olan binaların sayı 6331-dir. Sizin tapşırığınıza uyğun olaraq, 2018–2019-cu illərdə 273 nümunəvi məhəllə yaradılıbdır. Mən burada bir məsələyə də toxunmaq istərdim. İlk növbədə, Leyla xanım Əliyevanın və onun təsisçisi olduğu IDEA İctimai Birliyinin fəaliyyətini qeyd etməyə dəyər. Möhtərəm cənab Prezident, İctimai Birliyin səyləri nəticəsində bu gün Bakı şəhərində yeni bir format – məhəllələrarası parklar formatı tətbiq olunub və olunur. Bu ərazilərdəki onlarla binanın fasadları, dam örtükləri, blokları təmir olunub, su təchizatı sistemi yenilənib və bütün yaş kateqoriyaları üçün həm istirahət etmək, həm idmanla məşğul olmaq, həm də asudə vaxtı səmərəli keçirmək üçün şərait yaradılıbdır. Bu proses davam edir.

İlin axırınadək daha 15 yeni nümunəvi məhəllə istifadəyə veriləcəkdir. Bizim hesablamalarımıza görə, yaxın illərdə hələ 743 belə layihə icra etmək mümkündür. Bu proses davam edir. Bu gün biz bir daha Heydər Əliyev Fondunun rəhbərliyinə və ilk növbədə, Leyla xanım Əliyevaya minnətdarlığımızı bildiririk.

**İ l h a m  Ə l i y e v:** Bu çox vacib məsələdir. Çünki vətəndaşların gündəlik həyatda üzləşdikləri problemlərdir. Biz bilirik ki, bir çox binalarda, bloklarda vəziyyət ürəkaçan deyil, lift təsərrüfatı köhnəlibdir. Evlərarası həyətlər bəzi hallarda zəbt olunur və ictimai istifadə üçün yerlər yoxa çıxır. Ona görə nümunəvi həyətlərin qurulması çox böyük məna daşıyır. Biz bu sahəyə kompleks şəkildə yanaşmalıyıq. Əlbəttə, həyətlər ilk növbədə, vətəndaşlar üçün rahat, işıqlı olmalı,

təhlükəsizlik baxımından tədbirlər görülməlidir. Bir çox inkişaf etmiş ölkələrin şəhərlərində həyətlərdə təhlükəsizlik kameraları qoyulur. İndi Bakı şəhərində bir çox yerlərdə təhlükəsizlik kameraları qoyulub və bu kameralar cinayətlərin aşkar edilməsi və cinayətkarların məsuliyyətə cəlb olunması üçün böyük rol oynayır. Hesab edirəm, həyətlərdə də təhlükəsizlik kameraları qoyulmalıdır ki, təhlükəsizlik tədbirləri daha yüksək səviyyədə təmin olunsun.

Lift təsərrüfatı da həmçinin. Bir neçə il bundan əvvəl yenə də mənim sərəncamımla bir çox binaların lift təsərrüfatı yeniləndi. Ancaq təəssüflər olsun ki, istismar dövründə liftlər sıradan çıxır. Ona görə lift təsərrüfatı tam yenilənməli və onların istismarı ilə bağlı təkliflər verilməlidir. Ümumiyyətlə, biz indi nümunəvi həyətlər yaradırıq. Ancaq bu həyətlər normal vəziyyətdə saxlanmazsa, əgər daim diqqət olmazsa, orada qurulan bütün işlər 1 il, 2 il, 5 ildən sonra sıradan çıxacaq. Ona görə siz fikirləşin, təkliflər verin, necə edək ki, yaradılmış yeni infrastruktur, o cümlədən abadlıqla bağlı işlər daim nəzarətdə olsun və təmirə ehtiyacı olan obyektlər vaxtaşırı təmir edilsin. İndi liftlərin quraşdırılması necə gedir?

**E l d a r Ə z i z o v:** Möhtərəm cənab Prezident, Sizin sərəncamınızla Bakı şəhərinin lift təsərrüfatını inkişaf etdirmək üçün 32 milyon manat vəsait ayrılıbdır. Biz bu sahədə Almaniyanın tanınmış «Vittur» şirkəti ilə danışıqlar apardıq, müqavilə bağladıq və bu günədək 430 lift Bakıya gətirilibdir. Onlardan 130-u artıq istifadəyə verilib. Bu proses davam etdirilir. Həmin sərəncamda

542 liftin alınması nəzərdə tutulmuşdu. Biz büdcə vəsaitindən səmərəli istifadə etmək barədə Sizin tövsiyələrinizə və tapşırıqlarınıza əsasən, şirkətlə danışıqlar apardıq və beləliklə, burada vəsaitə qənaət yarandı. Biz bu qənaət hesabına ilin axırınadək əlavə 39 lift almaq niyyətindəyik, danışıqlar gedir.

**İ l h a m Ə l i y e v:** Bütövlükdə, nə qədər yeni lift quraşdırılmalıdır?

**E l d a r Ə z i z o v:** İlin axırınadək 581 lift quraşdırılacaqdır. Amma yaxın illər üçün proqnozlarımız belədir ki, 2500-ə qədər lift mərhələ-mərhələ dəyişdirilməlidir.

**İ l h a m Ə l i y e v:** Onları da dəyişdirməliyik. İndi Dövlət İnvestisiya Proqramına baxılır, ona görə siz təkliflərinizi verin ki, Bakı şəhərinin lift təsərrüfatı tam yenilənsin və bütün liftlər həm təhlükəsizlik normalarına cavab versin, həm də işlək vəziyyətdə olsun.

**E l d a r Ə z i z o v:** Sizə məlumat verim ki, ilkin olaraq quraşdırılacaq 581 liftə Almaniya şirkəti tərəfindən xidmət göstərilməsi üçün Vahid Elektron İdarəetmə Mərkəzi yaradılır. Lift təsərrüfatında yaranan bütün problemlər dərhal həmin mərkəzə daxil olacaq və tədbir görüləcəkdir.

**İ l h a m Ə l i y e v:** Dam örtükləri ilə bağlı vəziyyət necədir? Qış yaxınlaşır. Bu məqsədlər üçün də ilkin olaraq Prezidentin ehtiyat fondundan 10 milyon manat vəsait ayrılıb. Əlbəttə ki, bütün dam örtüklərini bu vəsaitlə təmir etmək mümkün deyil. Ancaq mən sizə göstəriş vermişdim ki, bu işləri planlı şəkildə görməliyik, illərə bölməliyik və maksimum qısa müddət ərzində Bakı

şəhərinin bütün binalarının dam örtükləri tamamilə standartlara cavab verməlidir. Hansı işlər görülüb və nə planlaşdırılır?

**E l d a r  Ə z i z o v:** Sizin sərəncaminiza uyğun olaraq, bu proses artıq Bakı şəhərində fəal surətdə həyata keçirilir. Şəhərdə 380 binanın dam örtüyünü təmir etmək nəzərdə tutulubdur. Biz inşaat materiallarını mərkəzləşdirilmiş qaydada alandan sonra danışıqlar apardıq və burada da qənaət yaranıbdır. Biz artıq 380 deyil, 420 binanın dam örtüyünü təmir edə biləcəyik. Şirkətlərlə danışıqlar aparılıb, Sizin tələbiniz çatdırılıb ki, ən keyfiyyətli materiallardan istifadə etmək vacibdir. Biz öz tərəfimizdən sakinlərin istək və arzularını nəzərə alaraq, işin nəticələrini onların iştirakı ilə qəbul edəcəyik. Bu gün, demək olar ki, artıq 150 damda işlər tamamlanıb və proses gedir. Noyabrın ortalarına qədər bütün bu işləri qurtarmaq niyyətindəyik.

**İ l h a m  Ə l i y e v:** Çox yaxşı, bütün bu işləri görmək lazımdır, çünki buna ehtiyac vardır. Biz elə etməliyik ki, Bakı şəhərinin hər bir yeri abad olsun və vətəndaşları narahat edən problemlər aradan qaldırılsın, o cümlədən tikintilərlə bağlı məsələlər. Mən bu barədə də müvafiq göstərişlər vermişəm. Bəzi hallarda tikinti üçün yerlər zəbt olunur, bəzi hallarda sərəncamlar qanunsuz olaraq verilir, ağaclar qırılır. Vətəndaşlar sağ olsunlar ki, bir çox hallarda belə vəziyyətlə üzləşdikdə müvafiq orqanlara məlumat verirlər. Yəni bu, ictimai nəzarətin mövcudluğu deməkdir. Bundan sonra Bakıda şəhərsalma qaydaları tam təmin edilməlidir. Bütün şəhərlərdə bina tikintisi üçün müvafiq əmsallar mövcuddur. Əfsuslar

olsun ki, əvvəlki dövrlərdə bu əmsallar 10 dəfə, bəlkə də artıq götürülürdü. Yəni bütün şəhərsalma qaydaları pozulurdu. Mövcud binaların düz önündə yeni hündürmərtəbəli binalar tikilirdi və bəzi «sahibkar»lar köhnə binalarda yaşayan vətəndaşları günəş işığından məhrum edirdilər. Bir çox hallarda həyətlərdə evlərin tikintisi baş verirdi. Əvvəlki dövrdə hətta bəzi məktəblərin həyətlərində evlər tikilirdi. Sonra bu məsələyə son qoyuldu. Yəni şəhərsalma qaydaları tətbiq olunmalıdır, burada yerli icra orqanları və əlbəttə, Dövlət Arxitektura və Şəhərsalma Komitəsi öz işini yüksək səviyyədə qurmalıdır ki, bütün şəhərsalma normaları təmin edilsin. Əlbəttə ki, rayon icra hakimiyyətləri tərəfindən vətəndaşlara diqqət yüksək səviyyədə olmalıdır. Bəzi hallarda vətəndaşlar incidilir, onların problemlərinə reaksiya verilmir, qanunsuz olaraq müəyyən vəsait tələb edilir, rüşvətxorluq halları baş verir. Belə siqnallar bizə çatır və rayon icra hakimiyyətləri nəticə çıxarmalıdır. Xoşagəlməz hallara yol verilməməli, vətəndaşlara maksimum diqqət göstərilməli, rayon icra hakimiyyətlərinin nümayəndələri kabinetdə oturub kağızlara baxmaq yox, bütün rayonlarda vətəndaşlarla görüşməlidirlər. Mənim göstərişimlə son vaxtlar bu proses bir qədər geniş vüsət alıb, amma lazımi səviyyədə deyil. Mənə verilən məlumata görə, bəzi hallarda formal xarakter daşıyır, bəzi hallarda vətəndaşları narahat edən problemlərə reaksiya verilmir. Ona görə biz çox diqqətli olmalıyıq. Əgər vətəndaşı nəsə narahat edirsə, buna reaksiya verilməlidir. Əlbəttə, bütün məsələlərə obyektiv şəkildə baxılmalıdır. Bəzi hallarda elə məsələlər qaldırılır

ki, bunun heç bir əsası yoxdur, yaxud da sırf şəxsi xarakter daşıyır. Ancaq bir çox hallarda vətəndaşlar haqlı olaraq öz təkliflərini verir, onları narahat edən problemləri qaldırırlar. Bakı Şəhər İcra Hakimiyyəti və bütün rayon icra hakimiyyətləri vətəndaşlara böyük diqqətlə yanaşmalıdır. Beləliklə, Bakı şəhəri və Azərbaycanın bütün şəhərləri planlı şəkildə inkişaf etməlidir.

Bakı şəhərinin nadir, özünəməxsus, tarixi memarlıq siması vardır. Bu bizim böyük sərvətimizdir və hər bir tarixi binaya böyük diqqətlə yanaşılır. O binaların təmiri gərək elə aparılsın ki, onların tarixi görkəmi pozulmasın. Bəzi hallarda tarixi binaları sökürlər, onların yerində eybəcər hündürmərtəbəli binalar tikirlər. Buna yol vermək olmaz. Bakının memarlığı bizim milli sərvətimizdir. İçərişəhər UNESKO tərəfindən qorunur. Deyə bilərəm ki, dünyada o qədər də çox ölkə belə qədim İçərişəhər kimi şəhərlərlə öyünə bilməz. Eyni zamanda, şəhərin hər bir yeri abad olmalıdır. Bəzi yerlərdə, ümumiyyətlə, küçə işıqları yoxdur, qəsəbələrdə, bir çox yerlərdə torpaq yollar var. Mən artıq bu barədə «Azəravtoyol» Agentliyinə ciddi tapşırıq vermişəm, siz də nəzarət edin. Yəni şəhərin hər bir yeri bizim üçün əzizdir. Bakı şəhəri təkcə mərkəzdən ibarət deyil. Biz şəhərin infrastrukturunu ilk növbədə, vətəndaşlar, ondan sonra turistlər, xarici qonaqlar üçün yaradırıq. Onlar da özlərini Bakıda rahat hiss etməlidirlər. Ancaq biz ilk növbədə, şəhər sakinlərinin problemlərini həll etməliyik. Ona görə siz rayon icra hakimiyyətlərinin başçılarını yığın və həm abadlıqla, həm də təsərrüfat işləri ilə bağlı

müşavirə keçirin. İlk növbədə, xoşagəlməz hallara son qoyulmalıdır. Süründürməçilik, rüşvətxorluq, vətəndaşlara biganə münasibət – bunlara son qoyulmalıdır. Əgər kim bu sahədə öz işinə düzəliş etməsə, biz o adamlarla vidalaşacağıq və bu onlar üçün hələ ən yüngül cəza olacaqdır. Biz şəhərimizi inkişaf etdirməliyik. Bir daha demək istəyirəm ki, Bakı şəhəri dünyanın ən gözəl şəhərlərindən biridir və gələcəkdə də şəhərin inkişafı ilə bağlı əlavə addımlar atılacaqdır.

## «NEFT DAŞLARI»NIN 70 İLLİYİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN NEFTÇİLƏRİNƏ TƏBRİK

Hörmətli neftçilər! Sizi «Neft Daşları»nın 70 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

1949-cu il noyabrın 7-də Bakıda «Neft Daşları»nda ilk neft fontanının vurması və dünya təcrübəsində birinci dəfə açıq dənizdə neft hasilatına başlanması neft sənayesinin inkişafında mühüm hadisə idi. Məhz Azərbaycan neftçilərinin fədakar əməyi sayəsində dənizdə neftçıxarmanın mümkünlüyü ideyası gerçəkləşdi və dəniz akvatoriyalarının mənimsənilməsi epoxasının başlanğıcı qoyuldu. Bu, Azərbaycanın neft mütəxəssislərini ən qabaqcıl mövqelərə çıxardı. Nadir «Neft Daşları» yatağının kəşfi bir çox dənizlərdə axtarış-kəşfiyyat işlərinə güclü təkan verdi. Hazırda dünyada karbohidrogen hasilatının əsas hissəsi dəniz akvatoriyalarının payına düşür və dənizlərin dərinlikləri fəth olunmaqdadır. Fəxr edirik ki, həmin proseslərin mənbəyi bizim əfsanəvi «Neft Daşları»dır.

Ölkəmizin neft sənayesi tarixində müstəsna əhəmiyyətə malik «Neft Daşları»nda qazanılmış təcrübə Xəzərin daha dərin sahələrində axtarış-kəşfiyyat işlərinin sürətləndirilməsinə əlverişli zəmin yaratmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin müdrik rəhbərliyi altında keçən əsrin 70-ci illərində neft

sənayesinin müasirləşdirilməsi istiqamətində görülmüş işlər qısa müddətdə yeni yataqların kəşfi və istismarına yol açmışdır. Ulu öndər «Neft Daşları»nı respublikamızın alim və mütəxəssislərinin mühəndis fikrinin, elmi və texniki mədəniyyətinin milli təcəssümü kimi qiymətləndirmiş, müstəqil dövlətimizin uğurlu neft strategiyasının təməllərinin məhz «Neft Daşları»nda qoyulduğunu xüsusi vurğulamışdır. Azərbaycanın təşəbbüsü və liderliyi ilə bu gün də regional və qlobal miqyaslı enerji layihələri müvəffəqiyyətlə həyata keçirilir.

Ötən müddət ərzində böyük məsafə qət edərək, dəniz şəraitində müasir infrastrukturlu istehsalat «şəhəri»nə çevrilmiş «Neft Daşları» indi öz inkişafının yeni mərhələsini yaşayır. Əminəm ki, «Neft Daşları» yatağının zəngin ehtiyatları bundan sonra da uzun illər ölkəmizin iqtisadi potensialının gücləndirilməsinə və xalqımızın həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına xidmət edəcəkdir. Bu yolda hamınıza nailiyyətlər arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 noyabr 2019-cu il*

**ARGENTİNA RESPUBLİKASININ
YENİ SEÇİLMİŞ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB
ALBERTO FERNANDESƏ**

Hörmətli cənab Fernandes!

Argentina Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizə ən səmimi təbriklərimi yetirirəm. Ümidvaram ki, Azərbaycan–Argentina əlaqələrinin genişləndirilməsi, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin daha da möhkəmləndirilməsi və inkişafı yolunda birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Argentina xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *7 noyabr 2019-cu il*

**KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan ilə Kamboca arasındakı münasibətlər xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 noyabr 2019-cu il*

## HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN BAKININ XƏTAİ RAYONUNDA SALINAN YENİ «GƏNCLİK» PARKINDA «TƏBİƏT NAMİNƏ BİRLƏŞ, HƏYAT NAMİNƏ BİRLƏŞ!» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*11 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva noyabrın 11-də Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni «Gənclik» parkında «Təbiət naminə birləş, həyat naminə birləş!» layihəsi çərçivəsində ağac əkmə aksiyasında iştirak etmişlər.*

*Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlət başçısına və xanımına Xətai rayonunda Heydər Əliyev Fondu tərəfindən salınacaq yeni park barədə məlumat verdi.*

**Anar Ələkbərov:** Cənab Prezident, bura parkın ən hündür nöqtəsidir. Buradan bütün ərazi görünür. Parkın ərazisi 37,2 hektardır.

**İlham Əliyev:** Buradan gözəl mənzərə açılır.

**Anar Ələkbərov:** Elədir. Mehriban xanımın tapşırığına əsasən biz buraları qoruyub saxlamışıq və çalışırıq ki, tezliklə bu parkı insanların istifadəsinə verək. Bu ərazinin yeni planı nəzərdə tutulub. Burada böyük, özü də sadə bir park olacaqdır.

**Mehriban Əliyeva:** Təbii park.

**İlham Əliyev:** Bəli, təbii.

**Anar Ələkbərov:** İnsanların asudə vaxtlarının səmərəli təşkili üçün burada hər bir şərait yaradılacaqdır.

**İlham Əliyev:** İdman meydançaları da.

**Anar Ələkbərov:** Əsasən idman meydançalarına, idman qurğularına üstünlük veriləcək. Burada insanların daha çox təbiət qoynunda idman etmələri üçün xüsusi zolaqlar, velosiped yolları, sadə pikniklər üçün yerlər olacaqdır. İnsanların vaxtlarını, bayramlarını burada keçirmələri üçün bütün imkanlar yaradılacaqdır.

**İlham Əliyev:** Çox yaxşı. Burada iaşə obyektləri də olmalıdır ki, vətəndaşlar gələndə onlardan istifadə edə bilsinlər.

**Anar Ələkbərov:** Elədir, cənab Prezident.

**İlham Əliyev:** Amma bu təbii mənzərə qorunmalıdır. İndi burada yeni ağaclar əkilir.

**Anar Ələkbərov:** Bu gün 30 minə yaxın ağac əkiləcək. Sizin dəstəyinizə böyük ehtiyacımız var ki, biz bu parkı salaq və insanların istifadəsinə verək.

**İlham Əliyev:** Hesab edirəm ki, park qısa müddət ərzində tamamilə abadlaşdırılacaq və vətəndaşlar üçün burada gözəl imkanlar yaradılacaqdır.

**Mehriban Əliyeva:** Suvarma sistemi necə olacaq?

**Anar Ələkbərov:** Artıq onu həll edirik. Bu gün ağacları əkirik və Sizin göstərişinizlə suvarma sistemini də çəkirik. Amma təbii ki, burada əlavə işlər vardır. İşıqlandırma sistemlərinə yenidən baxılmalıdır. Xüsusi suvarma sistemləri qurulmalıdır. Onu təşkil edəcəyik.

**İ l h a m Ə l i y e v:** Burada zeytun ağacları da görürəm. Vaxtilə əkilib?

**A n a r Ə l ə k b ə r o v:** Bəli, vaxtilə burada çoxlu zeytun ağacı olub, məhsul da yığılıbdır.

**İ l h a m Ə l i y e v:** İndi də əkmək lazımdır, əsasən zeytun və şam ağacları.

**A n a r Ə l ə k b ə r o v:** Biz burada Eldar şamına üstünlük veririk. Əvvəllər burada zeytun ağacları ilə bərabər, Eldar şamları da çox idi. Ona görə bu qaydada davam edəcəyik.

* * *

*Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva parkda ağac əkdilər.*

*Dövlət başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyev Azərbaycan vətəndaşının sosial məsələlərinin həllini, onların sağlamlıqlarının qorunmasını prioritet məsələlərdən biri kimi müəyyənləşdirib. Bu istiqamətdə indiyədək çox sayda layihələr icra olunub. Bu layihələr sırasında əhalinin sağlam ekoloji mühitdə yaşaması məsələsinə də xüsusi diqqət yetirilir. Ölkəmizdə həyata keçirilən ekoloji siyasət nəticəsində yeni yaşıllıqların salınması, mövcudlarının qorunması ilə yanaşı, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağac əkmə aksiyalarının keçirilməsi Azərbaycanda ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələr verir, yaşıllıq zonalarının sahəsini artırır.*

*Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Ölkəmizdə yeni yaşıllıqların salınmasında və mövcud yaşıllıq sahələrinin qorunmasında Fondun töhfəsi olduqca böyükdür. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu vardır. Bu baxımdan Heydər Əliyev Fondunun «Təbiət naminə birləş, həyat naminə birləş!» layihəsi xüsusi əhəmiyyət daşıyır.*

*Aksiyada gənclər, rayon sakinləri, Heydər Əliyev Fondunun «Regional İnkişaf» İctimai Birliyinin könüllüləri fəal iştirak etdilər.*

*Bakıda və respublikanın müxtəlif rayonlarında ağac əkmə aksiyalarının təşkilini nəzərdə tutan layihə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərin aradan qaldırılması istiqamətində mübarizədə birgə fəaliyyətə səsləyir. Layihənin məqsədi eyni zamanda, insanları nəcib təşəbbüslər ətrafında birləşdirməyə yönəlib. Dövlət Bayrağı bayramının qeyd edildiyi günlərdə və 12 noyabr – Konstitusiya Günü ərəfəsində təşkil olunmuş bu aksiya həm də vətəndaşların ölkə üçün vacib layihə ətrafında birləşməsi ilə yadda qaldı.*

*Dövlət başçısı İlham Əliyev və xanımı Mehriban Əliyeva ağac əkmə aksiyasının iştirakçıları ilə görüşüb söhbət etdilər.*

*Ağac əkilən ərazidə əvvəlcə müvafiq iməcilik təşkil olunub, təmizlik işləri aparılıbdır.*

*Aksiya çərçivəsində ağacların əkilməsi, sulanması, ərazinin tullantılardan təmizlənməsi ilə yanaşı, burada mövcud ağaclarda quş yuvaları və yem qabları quraşdırılıbdır.*

*Tədbir çərçivəsində ərazidə müxtəlif əyləncəli və musiqili proqramlar, yarışlar təşkil olunubdur.*

*İştirakçılar aksiyaya qatılmaqdan məmnun qaldıqlarını bildirdilər.*

# BİR NEÇƏ RAYONUN YENİ TƏYİN OLUNMUŞ İCRA HAKİMİYYƏTİ BAŞÇILARI İLƏ GÖRÜŞ

*12 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayon icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Ölkəmizdə kadr islahatı davam edir. Kadr islahatı ümumi islahatların tərkib hissəsidir. Keçənilki Prezident seçkilərindən sonra yeni islahatlar dövrünə start verildi və bu islahatlar davam etdirilir. Sual yarana bilər ki, əgər ölkədə sürətli inkişaf təmin edilirsə, islahatlara ehtiyac varmı? Birmənalı olaraq cavab verə bilərəm ki, bəli, islahatlara ehtiyac vardır. İslahatlar təkmilləşmə deməkdir, islahatlar yeni dövrə uyğunlaşma deməkdir, islahatlar tərəqqi deməkdir. Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilibdir.

Son 16 il ərzində Azərbaycanda sürətli inkişaf dövrü yaşanır. Bu inkişaf özünü bütün sahələrdə büruzə verir. Ölkəmizin beynəlxalq nüfuzu yüksək dərəcədə artıbdır.

Bu gün biz dünya miqyasında çox böyük hörmətə layiq ölkə kimi, öz fəaliyyətimizi aparırıq. «Qoşulmama Hərəkatı»nın bu yaxınlarda Bakıda keçirilmiş Zirvə görüşü bunu bir daha təsdiqlədi. Biz artıq BMT-dən sonra dünya miqyasında ikinci böyük təşkilat olan «Qoşulmama Hərəkatı»na sədrlik edirik və 3 il ərzində sədrliyi davam etdirəcəyik. Bu sədrlik 120 ölkənin rəyi əsasında yekdil qərarla əldə edilibdir. Yəni bu onu göstərir ki, dünya birliyinin ən azı üçdə iki hissəsi Azərbaycanı dəstəkləyir və bizim siyasətimizə yüksək qiymət verir.

Eyni zamanda, siyasi islahatlar aparılır. Son illərdə demokratiyanın inkişafı istiqamətində, insan haqlarının qorunması işində böyük nailiyyətlər əldə edilib. Həmişə dediyim kimi, Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir.

O ki qaldı iqtisadi sahəyə, hesab edirəm ki, Azərbaycanın əldə etdiyi nəticə dünya miqyasında rekord göstəricidir, 15 il ərzində – 2003–2018-ci illərdə bizim iqtisadiyyatımız 3 dəfədən çox artıbdır. Bütün digər göstəricilər də təsdiq edir ki, iqtisadi artım eyni zamanda, vətəndaşların sosial təminatına da müsbət təsir göstərir. Beləliklə, Azərbaycanda yoxsulluq təxminən 50 faizdən 5 faizə düşüb. Xarici dövlət borcu ən aşağı səviyyədədir, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir və bu göstəriciyə görə biz dünya miqyasında 9-cu yerdəyik.

Böyük infrastruktur layihələri icra edilib və bu gün ölkəmizdə qazlaşdırılmanın səviyyəsi 96 faizdir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Dünya İqtisadi Forumu Azərbaycanı dünya miqyasında

2-ci yerə layiq görübdür. Bu çox böyük nailiyyətdir. Yolların tikintisi – 15 ildə 15 min kilometr yol, o cümlədən magistral, şəhərlərarası, kənd yolları çəkilibdir. Digər infrastruktur layihələri, o cümlədən sosial infrastrukturla bağlı layihələr uğurla icra edilib, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikilib, yenidən qurulub, yaxud da ki, təmir edilibdir. Yəni əldə edilmiş bütün bu nəticələri sadalamaq üçün saatlarla vaxt lazım olacaqdır.

Bildirməliyəm ki, texnoloji inkişaf istiqamətində də böyük uğurlar əldə edilib. Azərbaycan indi kosmik klubun üzvüdür, 3 peykimiz vardır. Deyə bilərəm ki, bu yaxınlarda çox gərgin yarış nəticəsində Azərbaycan 2022-ci ildə Dünya Astronavtika Konqresinə ev sahibliyi edəcək. Məlumat üçün bildirmək istəyirəm ki, bizim rəqiblərimiz Rio de Janeyro, Dehli və Sinqapur şəhərləri idi. Yəni bu şəhərlərin nə qədər inkişaf etməsi haqqında əlavə sözlərə ehtiyac yoxdur. Azərbaycan bu yarışda da qalib gəldi. Nəyin hesabına? Ona görə ki, dünya miqyasında bizim siyasətimizə çox böyük dəstək və rəğbət vardır. Bizim sözümüzlə əməlimiz birdir. Azərbaycan dünya miqyasında özünü çox məsuliyyətli ölkə kimi artıq təsdiqləyibdir.

Eyni zamanda, sosial islahatlar uğurla aparılır. Yoxsulluğun aşağı səviyyəyə düşməsinin əsas səbəbi də ondan ibarətdir ki, bizim iqtisadi islahatlarımız, o cümlədən sosial sahə böyük diqqətlə əhatə olunub. Bu il 4 milyon 200 mindən çox insan geniş sosial paketlə əhatə olunub, minimum əməkhaqqı və minimum pensiya əhəmiyyətli dərəcədə artıbdır. Minimum əməkhaqqı

təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox, müavinətlər 2 dəfə artıbdır. Bu il orta əməkhaqqı 35 faiz artıbdır. Mənə verilən statistik məlumata görə, hazırda Azərbaycanda orta əməkhaqqı 723 manat təşkil edir. Əminəm ki, gələcək illərdə bu rəqəm artacaq. Ona görə ki, həm maaşlar artacaq, həm də biz «kölgə» iqtisadiyyatına qarşı ciddi mübarizə apararaq, artıq 100 mindən çox iş yerini «kölgə»dən çıxarıb, onları rəsmiləşdirdik və bu proses davam edəcəkdir. Biz hələ işin başlanğıc mərhələsindəyik. Amma orta əməkhaqqının 35 faiz artırılması və 723 manata çatdırılması, əlbəttə ki, sosial siyasətimizin bariz nümunəsidir.

Son illərdə energetika, nəqliyyat sahələrində qarşımızda duran bütün vəzifələr icra edilib. Bu vəzifələri icra etmək üçün çox böyük səylər göstərilibdir. Çox mürəkkəb geosiyasi vəziyyətdə həm Bakı–Tbilisi–Ceyhan, həm də Bakı–Tbilisi–Ərzurum neft-qaz kəmərləri istismara verilib. TANAP kimi tarixi layihə artıq fəaliyyətdədir və «Cənub Qaz Dəhlizi»nin icrasının yekunlaşmasına, demək olar ki, 1 il vaxt qalıbdır. İnşallah, biz bu layihəni də uğurla başa vuracağıq.

Azərbaycanda nəqliyyat infrastrukturu müasirləşir. Yenə də Davos Dünya İqtisadi Forumun son hesabatına qayıtmaq istəyirəm. Orada göstərilir ki, dəmir yollarının səmərəliliyinə görə Azərbaycan dünya miqyasında 12-ci yerdə, hava nəqliyyatının səmərəliliyinə görə isə 11-ci yerdə, avtomobil yollarının keyfiyyətinə görə isə dünya miqyasında 27-ci yerdədir və MDB-də birincidir. Yəni eyni zamanda, Şimal–Cənub

və Şərq–Qərb nəqliyyat dəhlizlərinin fəaliyyəti də yüksək dərəcədə bizim uğurlu siyasətimizdən asılı idi və bu layihələrə artıq start verildi. Azərbaycan uzunmüddətli formatda bu layihələrdən həm böyük siyasi, həm də iqtisadi dividendlər götürəcəkdir.

Əlbəttə, bütün bu müsbət nəticələri qorumaq və onları artırmaq üçün mütləq kadr islahatı da aparılmalıdır. Bu məqsədlə Azərbaycanda hazırda çox ciddi kadr islahatı aparılır. Həm təcrübə qazanmış kadrlar öz işlərini daha da səmərəli qurur, həm də gənclərə böyük meydan verilir. Bu təbiidir, çünki gələcəkdə ölkəmizi bugünkü gənclər idarə edəcəklər. Onlar gərək həm təcrübə toplasınlar, peşəkar olsunlar, həm də vətənə bağlı, hər hansı bir xarici təsirdən azad olsunlar. Ona görə gənclərə vətənpərvərlik hissini aşılamaq hər birimizin borcudur. Ölkəmizin nüfuzu da artır, imkanları da. Bizim iştirakımız, razılığımız olmadan regional müstəvidə heç bir təşəbbüs, yaxud da ki, layihə icra edilə bilməz. Əlbəttə, belə olan halda, bizə həm maraq artır, həm də ki, bəzi dairələr tərəfindən təzyiqetmə cəhdləri də arta bilər. Düzdür, son 16 ilin təcrübəsi onu göstərir ki, kənardan edilən hər hansı bir təzyiqə Azərbaycan çox böyük məharətlə və ləyaqətlə davam gətirə bilir. Bizə qarşı ünvanlanmış bütün bu oxlara, silahlara tutarlı cavab verə bilmişik. Bu cavabın əsas mahiyyəti ondan ibarətdir ki, xalq–iqtidar birliyi bugünkü sabitliyin və müstəqil həyatımızın əsas təminatçısıdır. Ancaq yenə də deyirəm, gənclər mütləq məhz vətənpərvərlik ruhunda tərbiyə almalı və təcrübə toplamalıdırlar. Ona görə son dövrün kadr islahatının məqsədlərindən biri də odur ki, gənclərə

daha geniş imkanlar yaradılsın, geniş meydan verilsin ki, onlar həm təcrübə toplasınlar, həm də gələcəkdə öz işləri ilə ümumi işimizə töhfə versinlər.

Bu gün kadr islahatının yeni dövrüdür. Bu gün bir neçə rayona yeni icra başçısı təyin olunur. Onların bəziləri artıq neçə ildir ki, bu vəzifədə işləyir, bəziləri isə bu gün bu məsul vəzifəyə təyin olunur. Biz burada da təcrübə ilə yeniliyin sintezini, vəhdətini görürük və bu, uğurlarımızın əsas bazasıdır.

Yeni təyin olunan icra başçılarına mənim sözüm odur ki, siz ilk növbədə, vəziyyəti düzgün qiymətləndirməli, çox ciddi təhlil aparmalı, çatışmayan cəhətləri üzə çıxarmalı və mövcud olan problemlərin həlli üçün səylərinizi göstərməlisiniz. O problemlər ki, həlli mərkəzi icra orqanlarından asılıdır, siz mütləq mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, digər müvafiq qurumlara müraciət etməlisiniz. O məsələləri ki, həll edə bilərsiniz, özünüz də həll etməlisiniz. Başlıca məsələ ondan ibarətdir ki, sizin işinizdə əsas prinsiplər bərqərar olmalıdır. Birincisi, xalqa ləyaqətlə xidmət etməlisiniz. Bu həm bu gün yeni təyin olunan icra başçılarına, həm də artıq icra başçısı vəzifəsində işləmiş və digər rayon və şəhərlərə göndərilən icra başçılarına aiddir. Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi, öz vəzifəmi bunda görürəm – xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir.

Yenə də Davos Dünya İqtisadi Forumunun hesabatına qayıtmaq istəyirəm. Orada göstərilir ki, hakimiyyətin

dəyişikliklərə, islahatlara meyili və əhali tərəfindən rəhbərliyə olan dəstək sahəsində Azərbaycan dünya miqyasında birinci onluğa daxil edilib. Bu dəstək nəyin hesabınadır? Ona görə ki, xalqa xidmət etmək mənim borcumdur və bundan sonra da əsas borcum olaraq qalacaqdır.

İcra başçıları peşəkar, bilikli olmalı və işlədikləri rayonda, şəhərdə nüfuz qazanmalıdırlar. Bu onların sırf öz işindən asılıdır. Prezidentin etimadı artıq xalqa bir mesajdır ki, Prezident bu şəxslərə etimad göstərir. Ancaq bu etimad mütləq deyil, bu gün var, sabah olmaya bilər. Bu, artıq sizin işinizdən asılıdır. Siz işi elə qurmalısınız ki, vətəndaşlar sizi dəstəkləsinlər, sizə dayaq olsunlar. Əgər siz hansısa bəd əmələ düçar olsanız, əlbəttə ki, biz dərhal bundan xəbər tutacağıq və cəzanızı alacaqsınız. Elə işləməlisiniz ki, xalq sizdən razı olsun. İlk növbədə, xalqa xidmət etmək və öz vəzifənizin öhdəsindən peşəkarcasına gəlmək sizin borcunuzdur. Digər tərəfdən, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparmalısınız. Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir. Düzdür, elə ölkə yoxdur ki, bu problem orada olmasın. Amma əsas məsələ ondadır ki, rəhbərlik və hakimiyyət, o cümlədən yerli icra orqanları bu məsələyə necə münasibət göstərir. Əgər gözlərini yumurlarsa, yaxud da ki, özləri bu çirkin işlərə qarışırlarsa, əlbəttə, layiqli cəzalarını da alacaqlar və almalıdırlar. Bir daha vətəndaşlara müraciət etmək istəyirəm, əgər görsəniz ki, rəhbər şəxslər əyri yola gedirlər, mütləq məlumat verin, mütləq xəbər göndərin

və biz, əlbəttə, bütün siqnalları yoxlayıb düzgün qərar qəbul edəcəyik. O da həqiqətdir ki, bəzən hansısa şəxsi zəmində dövlət məmurlarına qarşı əsassız ittihamlar irəli sürülür. Xüsusilə özünü müxalifət adlandıran antimilli və tamamilə rəzil olmuş qorxaq dəstə bu işlərdə ön sıralardadır. Çünki onların əlindən heç nə gəlmir. Onların işi ancaq qarayaxma kampaniyaları aparmaq və bizim işimizə maneçilik törətməyə cəhd göstərməkdir. Ancaq tarix və həqiqət onu göstərir ki, ayağımıza dolaşmaq istəyən bu antimilli qorxaq dəstə bizim işimizə zərrə qədər ziyan vura bilməz. İndi onlar ancaq sosial şəbəkələrdən, bəzi internet resurslarından istifadə edərək, dövlət məmurlarına qarşı qarayaxma kampaniyası aparırlar. Ona görə yerlərdən gələn hər bir siqnala obyektiv baxılacaq və sizin fəaliyyətinizə obyektiv qiymət veriləcəkdir. Siz elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda işlər yaxşı getsin. Siz çalışmalısınız ki, rayonlara sərmayə qoyulsun, investorları inandırmaq üçün səylər göstərməlisiniz. Yəni gözləməməlisiniz ki, dövlət gəlib hansısa işi görəcək, onsuz da biz bunu görürük. Hazırda dördüncü regional inkişaf proqramının icrası davam edir. Əminəm ki, növbəti 4 il ərzində bu günə qədər həllini tapmamış məsələlər də öz həllini tapacaq. Ancaq siz hər bir rayonda mövcud olan problemlərə diqqət göstərməli, reaksiya verməli və çalışmalısınız ki, bu məsələlər öz həllini tapsın. Vətənpərvərlik, dürüstlük, şəffaflıq, vətəndaşlara xidmət, dövlətçilik prinsiplərini əsas tutmaq, investorları cəlb etmək, rayonların sosial-iqtisadi inkişafını təmin etmək sizin əsas vəzifəniz olmalıdır. Yenə də

deyirəm, həm sənaye, həm də kənd təsərrüfatı istehsalı sahələrinə dövlət xətti ilə çox böyük dəstək göstərilir. Təsadüfi deyil ki, bu ilin 9 ayının yekunlarına görə qeyri-neft sənayemiz 15 faizdən, kənd təsərrüfatı 7 faizdən çox artıb. Pambıq yığımı mövsümü artıq başa çatır, mənə verilən məlumata görə, bu il biz rekord göstəriciyə nail olmuşuq. Biz keçən ilə nisbətən əkin sahələrini azaltdıq, 132 min hektardan 100 min hektara endirdik, çünki bəzi yerlərdə torpaqlar düzgün seçilməmişdi. Ancaq məhsuldarlıq artdı. Hazırda yığım davam edir və hektardan məhsuldarlıq 27 sentnerə çatıb, keçən il 17 sentner idi. Keçən il biz 132 min hektardan 233 min ton pambıq yığmışdıqsa, bu il 100 min hektardan artıq 270 min tondan çox pambıq yığmışıq. Mən təkcə pambığı deyirəm. İndi taxılçılıqda da böyük irəliləyiş vardır. Ümumi göstərici hektardan 32 sentnerə çatıb. Bu çox yaxşı göstəricidir. Daha da artacaq. Meyvəçilikdə, fındıqçılıqda da məhsuldarlıq artır. Yəni kənd təsərrüfatı sahəsində dövlət xətti ilə çox böyük işlər görülür. Siz də öz dəstəyinizi verməli, sahibkarlara diqqət göstərməli, onları incitməməlisiniz. Əgər hansısa sahibkar vəsait qoymaq, iş görmək istəyirsə, birinci olaraq siz ona dəstək verməlisiniz. Bəzi hallarda sahibkarlara qarşı ədalətsizlik edilir və onlardan nəsə əldə etmək cəhdləri göstərilir. Buna qətiyyən yol vermək olmaz. Sahibkarlara da deyirəm ki, əgər belə xoşagəlməz halla üzləşsələr, dərhal bizə məlumat versinlər.

Ölkəmizin ümumi inkişafı müsbətdir və mən gələcəkdə hər hansı bir ciddi problem görmürəm. Çünki ölkəmiz siyasi cəhətdən çox möhkəmdir, sabitlik

Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Bizim siyasətimizə ləkə vuran hər bir adam öz cəzasını alacaqdır. Biz bu qədər səy göstəririk, bu qədər işlər görürük, əgər hansısa yaramaz məmur öz şəxsi maraqlarını təmin etmək üçün hansısa bəd əməl törədərsə, mütləq cəzasını alacaq və artıq tarix bunu göstərir. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız və elə işləyəcəksiniz ki, rəhbərlik edəcəyiniz rayon və şəhərlərdə inkişaf daha da sürətli olsun.

## BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT NAZİRİ SULTAN BİN SƏİD ƏL-MANSURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İlham Əliyev**: Xoş gəlmisiniz! Sizi yenidən görməyə şadam!

**Sultan bin Səid əl-Mansuri**: Mən burada olmaqdan çox məmnunam. Burada özümüzü evimizdəki kimi hiss edirik.

**İlham Əliyev**: Ümidvaram ki, səfəriniz çox yaxşı, çox uğurlu və səmərəli keçəcək. Sabah hökumətlərarası birgə Komissiyanın iclası keçiriləcək. Düşünürəm ki, o çox uğurlu olacaq, çünki fəaliyyətimizin əhatə dairəsi artır. Əlaqələr olduqca müsbət məcrada inkişaf edir. Siyasi əlaqələr çox güclüdür. Bizim aramızda çox yaxşı qarşılıqlı anlaşma və qarşılıqlı dəstək vardır. Mən həmçinin sizin «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə iştirak edən Xarici İşlər nazirinizi görməyə

çox şad oldum. Bu mühüm tədbirə verdiyiniz töhfəyə görə sizə təşəkkür edirəm. Bildiyiniz kimi, hazırda Azərbaycan bu mühüm təşkilata sədrlik edir. Biz 3 il ərzində buna məsuliyyət daşıyacağıq, sözsüz ki, dost ölkələrimizi dəstəkləyəcəyik. Bizim beynəlxalq təşkilatlarda çox yaxşı qarşılıqlı dəstəyimiz var, biz hər zaman bir-birimizi dəstəkləyirik. Ticarət dövriyyəmizdə yaxşı nəticələr vardır. Əlbəttə ki, turizm artır, hər iki istiqamətdə. Ölkəmizə səfər edən Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı artır və əlbəttə ki, Azərbaycan vətəndaşları da sizin gözəl ölkənizə səfər etməkdən çox məmnundurlar. Əminəm ki, Komissiya çərçivəsində siz əməkdaşlığın yeni sahələrini müəyyənləşdirəcəksiniz, ənənəvi sahələrdə əməkdaşlığı intensivləşdirmək üçün addımlar atacaqsınız və biz gələcəkdə dostluğumuzu gücləndirəcəyik.

**Sultan bin Səid əl-Mansuri**: Cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkür edirik. Mən bilirəm ki, Siz Birləşmiş Ərəb Əmirliklərinin ən böyük dostlarından birisiniz. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın və qardaşınız şeyx Məhəmməd bin Rəşid əl-Məktumun salamlarını çatdırmaq istəyirəm. Cənab Prezident, bildiyiniz kimi, Azərbaycan bizim qəlbimizdə xüsusi yer tutur. Biz görüşdüyümüz andan dərhal bunu hiss edirik. Bu gün mən hava limanından şəhərə gələndə ətrafı seyr etdim. Azərbaycanda möhtəşəm dəyişikliklər baş verib. Zati-aliləri, ikinci məsələ ondan ibarətdir ki, biz Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında iqtisadi əlaqələrə çox sadiqik.

*Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti əlahəzrət şeyx Xəlifə bin Zaid əl-Nəhəyyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş Naziri, Dubay əmiri şeyx Məhəmməd bin Rəşid əl-Məktumun salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və ölkənin vitse-prezidenti və Baş Nazirinə çatdırmağı xahiş etdi.*

*Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf dinamikasının önəmi vurğulandı, sərmayə qoyuluşu, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi, sabah Bakıda keçiriləcək Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticari və texniki əməkdaşlıq üzrə hökumətlərarası birgə Komissiyanın növbəti iclasının bu əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.*

## «AZƏRBAYCAN DƏMİR YOLLARI» QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ CAVİD QURBANOV İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri Cavid Qurbanovu qəbul etmişdir.*

*Dövlət başçısı son illər Azərbaycanın dəmir yollarında görülmüş işlər və qarşıda duran vəzifələrdən danışdı.*

**İ l h a m Ə l i y e v:** Son illər dəmir yolu infrastrukturuna böyük investisiyalar qoyulur. Bu investisiyalar hesabına dəmir yolu infrastrukturu xeyli inkişaf edibdir. Təsadüfi deyil ki, Davos Dünya İqtisadi Forumunun son hesabatında dəmir yollarının səviyyəsinə və keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir. Bu, kifayət qədər yüksək göstəricidir, son illərdə aparılan işlərin təzahürüdür. Onu da əlavə etməliyəm ki, nəqliyyat infrastrukturunun səviyyəsinə görə biz dünyada 31-ci yerdəyik. Yəni Azərbaycanda bütün nəqliyyat infrastrukturu yeniləşir, müasirləşir, keçən il yeni dəniz ticarət limanı, 2017-ci ildə Bakı–Tbilisi–Qars tarixi dəmir yolu istifadəyə verilib, daxili dəmir yolları müasirləşir. Bir sözlə, Davos hesabatında bizim yüksək yerə malik olma-

ğımız reallığı əks etdirir. Ancaq bununla paralel olaraq, biz gələcəkdə bu sahəyə daha böyük diqqət göstərməliyik, çünki ölkəmizin uğurlu inkişafı, o cümlədən nəqliyyat infrastrukturundan asılıdır.

Bu gün Azərbaycan etibarlı tranzit ölkə kimi, öz xidmətlərini göstərir. Ümumi rəyə görə – bu, beynəlxalq təşkilatların hesabatında da əks olunub – Azərbaycan çox etibarlı və önəmli tranzit ölkəyə çevrilibdir. Mən dəfələrlə demişəm ki, hər bir ölkənin öz tranzit potensialını inkişaf etdirmək üçün, ilk növbədə, qonşu ölkələrlə yaxşı münasibətləri olmalıdır və bu gün bu reallıqdır. Təkcə son 1-2 ay ərzində mənim 4 qonşu ölkənin rəhbərləri – Rusiya Prezidenti, Türkiyə Prezidenti, İran Prezidenti və Gürcüstanın Baş Naziri ilə görüşlərim olubdur. Bu görüşlərdə, o cümlədən nəqliyyat sahəsində əməkdaşlığa da kifayət qədər böyük vaxt ayrılmışdır. Bir sözlə, bizim tranzit potensialımız gələcəkdə qeyri-neft sektorunun inkişafına daha da böyük dərəcədə xidmət göstərəcəkdir. Bu gün də qeyri-neft sektorunun ümumi daxili məhsuldakı payının çoxaldılması istiqamətində nəqliyyat sektorunun rolu artmaqdadır. Biz hazırda Bakı–Tbilisi–Qars dəmir yolunun imkanlarından daha geniş miqyasda istifadə edirik, keçən il təqribən 300 min tona yaxın yük daşınıbdır. Önəmli məsələ ondan ibarətdir ki, biz artıq təkcə Asiya ölkələrindən gələn yüklərlə kifayətlənmirik, eyni zamanda, Avropa məkanında da fəal əməkdaşlıq edirik və bəzi Avropa ölkələrinin bu yoldan istifadə etməsi artıq reallığa çevrilibdir. Biz artıq Çindən konteyner qatarları qəbul etməyə başlamışıq. Çin–Qaza-

xıstan–Azərbaycan–Avropa dəhlizi fəaliyyət göstərir. Eyni zamanda, son müddət ərzində Əfqanıstan–Türkmənistan–Azərbaycan–Avropa istiqamətinə yüklər daşınır. Biz Lapis-Lazuli dəmir yolu ilə Bakı–Tbilisi–Qars dəmir yolunu birləşdirə bilmişik. Bu da böyük imkanlar yaradır. Mənim Orta Asiya respublikalarının prezidentləri ilə keçirdiyim görüşlər əsnasında dəmir yolu daşınmaları haqqında kifayət qədər geniş fikir mübadiləsi aparılıbdır. Hazırda Özbəkistan və Tacikistanla bizim dəhlizimizdən istifadə imkanlarını müzakirə edirik və əminəm ki, bu istiqamətdə də uğurlar əldə olunacaqdır.

Onu demək istəyirəm ki, vaxtilə Azərbaycanın təşəbbüsü ilə başlanan və bizim böyük maliyyə dəstəyimizlə reallaşan Bakı–Tbilisi–Qars dəmir yolu çox mühüm əhəmiyyət daşıyır. Mən əvvəllər də, dəmir yolunun təməlini qoyanda da demişdim ki, bu layihə dünyanın nəqliyyat xəritəsini yenidən tərtib edir və açıq dənizə çıxışı olmayan Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirəcəkdir. Eyni zamanda, biz Şimal–Cənub nəqliyyat dəhlizinə də çox böyük diqqət yetirmişik. Azərbaycan ərazisində bütün işlər yekunlaşıb, o cümlədən İran sərhədinə qədər uzanan dəmir yolunun tikintisi də artıq 2 ildir ki, tamamlanıb, dəmir yolu körpüsü tikilib və hazırda Şimal–Cənub nəqliyyat dəhlizi işləyir. 2018-ci ildə bu dəhlizlə daşınan yüklərin həcmi 8 dəfə, bu ilin 9 ayında daha 70 faiz artıbdır. Yəni böyük potensial vardır. Eyni zamanda, Şimal–Qərb nəqliyyat dəhlizi işləyir. Rusiyadan, həmçinin İrandan gələn yüklər Qərb istiqamətinə Azərbaycan ərazisindən daşınır. Şimal–Cənub və Şərq–Qərb nəqliyyat dəhlizlərinin iştirakçıları

bir çox ölkələrdir. Ancaq onların arasında yeganə ölkə Azərbaycandır ki, hər iki layihədə iştirak edir və hər iki layihənin reallaşmasına öz dəyərli töhfəsini veribdir. Bu bizə gələcəkdə həm siyasi, həm iqtisadi dividendlər gətirəcək, artıq gətirir də. Dəmir yolu nəqliyyatı sahəsindəki əməkdaşlıq ölkələri bir-birinə daha da yaxın edir, təhlükəsizliyi möhkəmləndirir, bölgədə vəziyyəti daha da müsbət istiqamətdə inkişaf etdirir və hər bir ölkəyə böyük iqtisadi dividendlər gətirir.

Eyni zamanda, mənim göstərişimlə ölkədaxili dəmir yollarının tikintisi və modernləşdirilməsi istiqamətində addımlar atılır, o cümlədən Bakı şəhərətrafı yolun tikintisi gedir. Bu, Bakı qəsəbələrini şəhərin mərkəzi ilə bağlayan yoldur. Eyni zamanda, bizim turizm mərkəzlərindən biri olan Qəbələ şəhərinə dəmir yolunun çəkilişi layihəsi davam etdirilir. Sovet vaxtında Qəbələyə dəmir yolu çəkilməmişdir, buna ehtiyac yox idi, ancaq hazırda böyük ehtiyac vardır. Mən bu təşəbbüsü irəli sürəndə bəziləri fikirləşirdilər ki, bu lazımsız bir işdir. Halbuki bu yaxınlarda Qəbələdə olarkən mənə məlumat verildi ki, bu ilin 9 ayında Qəbələyə 150 min turist gəlib. Söhbət ancaq təkcə hotellərdə yerləşən turistlərdən gedir. Əgər fərdi qaydada evlərdə kirayədə qalan turistləri də nəzərə alsaq, bu, əlavə 150 min olacaqdır. Yəni 1 ildə Qəbələyə 300 min turist gəlib. Qəbələyə bir yol var – Şamaxı–Qəbələ yolu. O yol da artıq mənim göstərişimlə yenidən qurulacaq. Əlbəttə ki, bu yol artan turizm trafikini götürə bilməyəcək. Ona görə Ləkidən Qəbələyə dəmir yolunun çəkilməsi xüsusi əhəmiyyət daşıyır.

Baxmayaraq ki, Şimal–Cənub nəqliyyat dəhlizi işləyir, ancaq Bakı–Yalama və Ələt–Astara dəmir yollarının vəziyyəti bizi qane edə bilməz. Çünki vaxtilə orada təmir işləri aparılmamışdır. Yollar tamamilə yenidən qurulmalıdır ki, qatarların sürəti artsın. Hazırda qatarlar saatda təqribən 40, maksimum 50 kilometr sürətlə gedir. Bu, böyük yükləri daşımağa və sərnişinlərə keyfiyyətli xidmət göstərməyə imkan vermir. Ona görə bizim məqsədimiz həm Şərq–Qərb, həm də Şimal–Cənub nəqliyyat dəhlizlərinin dəmir yolu hissəsinin modernləşdirilməsidir. Elə etməliyik ki, qatarlar saatda minimum 140 kilometr sürətlə hərəkət edə bilsin. Artıq Bakı–Yalama və Ələt–Astara dəmir yollarının modernləşdirilməsi prosesi başlanıbdır.

Mən sizi dəvət etmişəm ki, görülmüş işlərlə bağlı məlumat verəsiniz. Bu ilin sonuna qədər hansı işlər görüləcək və ən əsası, gələn il biz hansı işləri görməliyik? Çünki gələn ilin investisiya proqramında dəmir yollarının tikintisi nəzərə alınmalıdır.

**C a v i d  Q u r b a n o v** (*«Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri*): Təşəkkür edirəm, möhtərəm cənab Prezident. Əlbəttə, bu işlərin əvəzi yoxdur. Ölkəmizdə 15 min kilometrdən çox yol çəkilib, körpülər, aeroportlar tikilib, o cümlədən Azərbaycanın dəmir yollarında bir növ inqilab olub, yenilik edilibdir. Bunların hamısı Sizin dəstəyiniz və xüsusi qayğınız hesabınadır.

İcazənizlə, əvvəlcə Bakı dairəvi dəmir yolu barədə məlumat verim. Əvvəllər «elektriçka» adı ilə mövcud olmuş bu yol uzun illərdir ki, işləmirdi. Son 25 ildə

sadəcə, 5–10 elektrik qatarı var idi ki, onlar da 40 ildən çox idi işləyirdi və istismar müddəti çoxdan bitmişdi.

Sizin göstərişinizlə biz bu yolun yenidən tikintisinə başladıq. Yan yolları ilə birlikdə bu yolun ümumi uzunluğu 200 kilometrə yaxındır. Uzun illər ərzində yol yatağı sıradan çıxmışdı. Sizin göstərişinizlə bütün yol kəsişmələrini eyni səviyyəlilərdən müxtəlif səviyyəlilərə keçirdik, insanların rahatlığı üçün. Bunu bir növ, Abşeron dairəvi dəmir yolu adlandırmaq olar. Çünki bu dəmir yolu Xırdalan şəhəri də daxil olmaqla, bütün Abşeronu birləşdirir. Burada dəmir yolu üzrə işlərin 80 faizi, elektrik, rabitə və işarəvermə işlərinin isə 70 faizi yerinə yetirilib, 11 yeni, modern stansiya tikilib. Yol üzərində 18 piyada və 6 avtomobil keçidi inşa olunub. Yolboyu çirkab və tullantı sularını yığışdırmışıq.

Birinci hissə, Abşeron dairəsini – yəni Bakıdan çıxaraq Biləcəri, Xırdalan, Sumqayıt, oradan isə Novxanı, Fatmayi, Məhəmmədi, Zabrat-1, Zabrat-2, Zabrat-3, Sabunçu, Bakıxanov, «Koroğlu» metro stansiyası və nəhayət, Bakını birləşdirən yol ilin axırınadək tamamlanır.

**İlham Əliyev:** İlin axırına tamamlanır, çox yaxşı.

**Cavid Qurbanov:** İndi Bakı–Sumqayıt dəmir yolu ilə hər gün 12 min sərnişin daşınır. Hesab edirik ki, dairə tamamlanandan sonra təqribən 25–30 min sərnişin daşımaq imkanımız olacaqdır.

**İlham Əliyev:** Bu daha rahat nəqliyyat növüdür. Eyni zamanda, vətəndaşlar daha qısa müddət ərzində mənzil başına, iş başına çata biləcəklər. Çünki indi avtomobil yollarında kifayət qədər tıxaclar vardır.

Düzdür, bir çox yollar salınıb, yeni körpülər, yeni yol qovşaqları tikilib, amma yenə də pik saatlarda tıxaclar vardır. Ona görə bu yol həm insanlara rahatlıq verəcək, həm də avtomobil yolunun yükünü azaldacaqdır. İlin sonuna qədər nəzərdə tutulmuş bütün layihələr başa çatmalıdır və gələn il də bu işlər davam etdirilməlidir.

Bakı–Sumqayıt dəmir yolunun fəaliyyəti, onun əhəmiyyəti haqqında nə deyə bilərsiniz? Ümumiyyətlə, bu yol ilə nə qədər sərnişin daşınır?

**C a v i d Q u r b a n o v:** Artıq bu yol ilə hər gün 12 min sərnişin daşınır. Amma təzə yol açılandan sonra həm bu tərəfdən Sumqayıta gedən, həm də əks tərəfdən gedən yollar birləşəndə, avtobusların gediş-gəlişi də tənzimlənəndə gündə təqribən 25–30 min sərnişin daşınacaqdır. Bu da yəqin ki, ən azı 300–500 avtobusun işini azaldacaqdır. Həm ekoloji cəhətdən təmizdir, həm çox yüksək səviyyəli və sürətli qatarlardır, içərisində bütün rahatlığı var, həm də vaxt təqribən 2-3 dəfə azalır.

**İ l h a m Ə l i y e v:** Bəli, mən getmişəm o yolu, çox rahatdır.

**C a v i d Q u r b a n o v:** Sürəti də 140-a artırmaq istəyirik.

**İ l h a m Ə l i y e v:** Müasir «Stadler» vaqonları da alınıb, onlar da işləyir.

**C a v i d Q u r b a n o v:** Bəli, hamısı işləyir.

**İ l h a m Ə l i y e v:** Bakı–Gəncə dəmir yolu indi necə işləyir? Gəncədə son dəfə olarkən gəncəlilərə söz vermişdim ki, bu yol işləyəcək, artıq bu fəaliyyətdədir. Bizim planımız var ki, Gəncədən Gürcüstan sərhədinə

qədər həmin o vaqonlar işləsin və sərhəd rayonlarında yaşayan vətəndaşlar da bundan faydalansınlar.

**C a v i d Q u r b a n o v:** Hazırda hər gün bir qatar gedir, bir qatar gəlir.

**İ l h a m Ə l i y e v:** Neçə saata gedir?

**C a v i d Q u r b a n o v:** 4 saata gedir, cənab Prezident. Amma bu bizi qane etmir. Yolumuzun infrastrukturu imkan verir ki, bu sürəti Siz söylədiyiniz kimi, 140-a qaldıraq. Bu da o deməkdir ki, Gəncə şəhərinə 3 saata çata bilərik. Sizin tapşırığınızdan sonra biz yenidən bu məsələ ilə məşğul olduq. Bu gün Gəncə şəhərindən Ağstafa şəhərinə qədər olan yolda işləri tam bitirmişik. Orada 112-yə yaxın yolötürücü var idi, onların da 67-sini artıq tamamlamışıq. Fikrimiz odur ki, Ağstafaya gediş-gəliş təqribən 4,5 saata, Gəncəyə isə ən geci 3,5 saata olsun. Beləliklə, sərnişinlərin məmnunluğu, rahatlığı Sizin göstərişinizlə tam təmin olunacaqdır.

**İ l h a m Ə l i y e v:** Vətəndaşlar indi dəmir yolu ilə getməyi seçəcəklər, çünki həm rahatdır, təhlükəsizdir, həm də məsafə və vaxt baxımından daha da əlverişlidir. Bəs, Ləki–Qəbələ yolunun tikintisi nə yerdədir?

**C a v i d Q u r b a n o v:** Ləki–Qəbələ yolunun tikintisi davam edir. Bu yolun uzunluğu 46 kilometrdir.

**İ l h a m Ə l i y e v:** İndi torpaq işləri aparılır?

**C a v i d Q u r b a n o v:** Bəli, torpaq işləri aparırıq, yolun 11 kilometrini artıq qoymuşuq. Süni qurğular 100 ədəddir. Bunun 100-nü də artıq yerləşdirmişik, körpülər, istinad dayaqları və sair. İş davam edir.

**İ l h a m Ə l i y e v:** Nə vaxt hazır olacaq?

**C a v i d  Q u r b a n o v:** Bizim hesablamalarımıza görə, gələn ilin ortalarına, təqribən avqust–sentyabr aylarına artıq istifadəyə hazır olacaqdır.

**İ l h a m  Ə l i y e v:** Çalışın, yay mövsümünə qədər istifadəyə verilsin. Çünki yay aylarında o bölgələrə daha çox vətəndaş gedir.

**C a v i d  Q u r b a n o v:** Baş üstə, cənab Prezident. Bizim dəmir yollarımızın 60 faizi Sovetlər Birliyi dövründə elektrikləşdirilmiş yollardır. Bu həm Zaqatala–Qəbələ, həm də Astara zonasındadır. Sizin tapşırığınızdan sonra biz bu yollar üçün də 2-3 dizel qatarı sifariş etdik. 2 yeni qatarımız da gəlir. Qəbələyə işləyəcək bu qatarları sınaqdan keçirmək üçün Gəncə dəmir yoluna buraxacağıq.

**İ l h a m  Ə l i y e v:** Yaxşı. Bəs Ələt–Astara dəmir yolunda hansı işlər görülür?

**C a v i d  Q u r b a n o v:** Ələt–Astara yolu ilə bağlı Siz o vaxt göstəriş vermişdiniz ki, Lənkəran şəhərinin gözəlliyini, dənizə yaxınlığını nəzərə alaraq, həm də dənizi, ekologiyanı qorumaq üçün həmin yol kənardan aparılsın. Bu gün biz o yolla məşğuluq. Bütün layihələndirmə işləri görülüb. Siz dediyiniz kimi, Astara–Astara yolunun 17 kilometrlik hissəsi artıq tikilib. Həm körpü inşa olunub, həm də o tərəfdə böyük terminal tikilibdir. Terminal bu gün işləyir. İlin axırınadək orada daha 7-8 yol tikəcəyik. Avtomobil yolları da tikiləndən sonra orada bir dənə avtomobil terminalı tikmək lazım gələcək. Yəqin ki, bizim oradakı ərazimizdə tikiləcək. Dəmir yolu ilə daşımalara bu gün maraq çoxdur, artım vardır.

**İ l h a m  Ə l i y e v:** Bəli, biz bu yolu mütləq yenidən qurmalıyıq. Birincisi, mövcud yol artan yükdaşımanı öz üzərinə götürə bilməz. Bu faktdır və sürət də çox aşağıdır. Yol düz dəniz qırağı ilə gedir, həm təhlükəlidir, həm də ki, vaxt baxımından səmərəli deyil. Digər tərəfdən, Lənkəran indi böyük turizm potensialına malik olan rayondur. Son illərdə orada hotellər, istirahət zonaları tikilib. Biz Bakı–Lənkəran avtomobil yolunu yenidən qurmuşuq. Demək olar ki, heç bir şəhərə girməyən və məsafə baxımından təqribən 60–70 kilometr daha qısa yoldur. Ona görə vətəndaşlar tam rahatlıqla gedirlər. Odur ki, o dəmir yolunu sahildən başqa istiqamətə keçirmək, əlbəttə ki, böyük əhəmiyyət daşıyır. Beləliklə, Lənkəranın sahil zonası da turizm üçün açıq olacaq, iş adamları, investorlar gələcək, orada hotellər tikəcəklər. Çünki orada çox gözəl sahil zonası vardır və biz bundan istifadə etməliyik.

Bir də ki, mənim tapşırığımla indi Bakı–Yalama yolunda işlər gedir. Biz bu yolun da inşasını sürətləndirməliyik, ilk növbədə, Şimal–Cənub nəqliyyat dəhlizi üçün. Həmçinin bizim digər kurort zonası olan Qusar rayonuna da dəmir yolu çəkilməlidir, hansı ki heç sovet vaxtında da çəkilməmişdi. Mən göstəriş vermişəm ki, bu işlər də öz həllini tapsın. Bu istiqamətdə hansı işləri görmüsünüz?

**C a v i d  Q u r b a n o v:** Cənab Prezident, Biləcəri–Yalama istiqamətində yolun uzunluğu 348 kilometrdir. Büdcə Dünya Bankı, Fransa İnkişaf Agentliyi tərəfindən müəyyənləşib. Maliyyə və İqtisadiyyat nazirlikləri ilə birgə işləmişik. Artıq kredit yekunlaşıb. Biz o yolun

tikintisinə ya dekabr, yaxud da yanvar ayında başlayacağıq. Bu, yolun bir hissəsi üçündür. Vəsaitin qalan hissəsi Sizin tapşırığınızla büdcədən ayrılıb. Orada 5 yeni yarımstansiya tikilib, çox böyükdür. Elektrik, rabitə xətləri ilə bağlı işləri görmüşük, fiberoptik kabelləri də çəkirik. Tikinti işlərinə gələn il başlasaq, təqribən 2 il davam edəcəkdir.

**İ l h a m Ə l i y e v:** Bəli, o yola da çox böyük diqqət göstərilməlidir. Beləliklə, biz Şimal–Cənub nəqliyyat dəhlizinin səmərəsini yüksək dərəcədə artıracağıq.

## RUSİYA FEDERASİYASI FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ İLYAS UMAXANOV, FEDERASİYA ŞURASININ KOMİTƏ SƏDRİ SERGEY MELİKOV, DAĞISTAN XALQ MƏCLİSİNİN SƏDRİ XIZRI ŞIXSƏİDOV VƏ SƏDR MÜAVİNİ MƏHƏMMƏD QURBANOV İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Rusiya Federasiyası Federasiya Şurasının Sədr müavini İlyas Umaxanovu, Rusiya Federasiyası Federasiya Şurasının Regional Məsələlər üzrə Komitəsinin sədri Sergey Melikovu, Dağıstan Xalq Məclisinin Sədri Xızrı Şıxsəidovu və Dağıstan Xalq Məclisi Sədrinin müşaviri Məhəmməd Qurbanovu qəbul etmişdir.*

*Dövlət başçısı qonaqları salamladı.*

**İ l h a m Ə l i y e v:** Sizi yenidən görməyimə şadam. Xoş gəlmisiniz! Çox şadam ki, siz mühüm tədbirdə – Dünya Dini Liderlərinin Sammitində iştirak edəcəksiniz. Bu, ölkəmiz üçün çox mühüm hadisədir. Zənnimcə, bütün iştirakçılar üçün də belədir. Mən çox şadam ki, Rusiya Federasiyası çox yüksək səviyyədə, Federasiya Şurasının rəhbərliyi, qardaş Dağıstanın rəhbərliyi səviyyəsində təmsil olunub və zati-müqəddəsləri, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirilin də, müxtəlif

ölkələrdən olan çoxsaylı qonaqların da iştirakı gözlənilir. Zənnimcə, bu tədbir mədəniyyətlərarası, sivilizasiyalararası dialoqun gələcək inkişafına yaxşı təkan verəcəkdir.

Bildiyiniz kimi, Azərbaycanda bu qəbildən olan çoxlu tədbirlər keçirilir. Rusiya və Azərbaycan prezidentlərinin himayəsi ilə müntəzəm olaraq keçirilən Bakı Humanitar Forumu, ənənəvi Mədəniyyətlərarası Dialoq Forumu beynəlxalq təşkilatlar, o cümlədən BMT, UNESKO və digər təşkilatlar tərəfindən dəstəklənir. Beləliklə, Azərbaycan artıq çoxdandır ki, xalqları, müxtəlif dinlərin nümayəndələrini yaxınlaşdıran humanitar xarakterli tədbirlərin keçirildiyi məkana çevrilibdir.

Əlbəttə, bunlar həm də ikitərəfli gündəliyə aid məsələlər barədə söhbət etmək üçün yaxşı imkandır. Bu gündəlik olduqca zəngindir və yüksək səviyyədə olan əlaqələr bizim münasibətlərimizin inkişafına çox güclü təkan verir. Mənim Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə bir neçə dəfə görüşüm olub. Pekində «Bir kəmər – bir yol» konfransı zamanı görüşümüzü xüsusi xatırlayıram. Tədbirlər qrafikinin çox gərgin olmasına baxmayaraq, biz bir sıra məsələlər barədə çox ətraflı söhbət etməyə vaxt tapdıq. Rusiya Prezidentinin məni «Valday» Forumunda iştiraka dəvət etməsi də bizə hörmət və xoş münasibət əlaməti kimi qəbul edildi. Forum çərçivəsində Rusiya Prezidenti ilə mənim görüşüm oldu. Biz həmin görüşdə də ikitərəfli gündəliyə aid diskussiyaları davam etdirdik.

Əlbəttə, Valentina İvanovna Matviyenkonun rəhbərlik etdiyi nümayəndə heyətinizin bu ilin yazında ölkəmizə

səfəri də parlamentlərarası istiqamətdə münasibətlərə və bütövlükdə ikitərəfli gündəliyə aid məsələlərə güclü təkan verdi. Düşünürəm ki, bu görüş mühüm məsələlərə bir daha nəzər salmaq üçün yaxşı imkandır. Sizin timsalınızda qardaş Dağıstan nümayəndələrini görməyə çox şadam. Bir daha xoş gəlmisiniz!

**İ l y a s U m a x a n o v** (*Rusiya Federasiyası Federasiya Şurasının Sədr müavini*): Hörmətli İlham Heydər oğlu, vəziyyətlə əlaqədar əsasən Dağıstan təmsilçilərindən ibarət olan Rusiya nümayəndə heyəti ilə görüşmək üçün vaxt ayırdığınıza görə Sizə təşəkkür etmək istəyirik. Lakin bununla bərabər, demək istəyirəm ki, əlbəttə, Dünya Dini Liderlərinin Sammitində iştirak etmək bizim üçün çox vacib idi. Bu, artıq ikinci sammitdir. Mənə birinci sammitdə də iştirak etmək xoşbəxtliyi nəsib olub. Bu sammitin gedişini böyük hörmət və maraqla izləyəcəyik. Ona görə ki, Parlamentlərarası İttifaqın Sankt-Peterburqda keçirilmiş 137-ci Assambleyasında parlament rəhbərlərinin ümumdünya konfransının keçirilməsi təşəbbüsü irəli sürüldü. Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası həmin konfransın 2022-ci il mayın 21-də Rusiyada keçirilməsi barədə müvafiq qətnamə qəbul etdi. Etnik və konfessiyalararası məsələlərə həsr ediləcək bu konfransa Rusiya Federasiyası Prezidentinin razılığı alındı. Ona görə də ikinci sammitdə iştirak etmək, onun gedişini müşahidə etmək bizim üçün, əlbəttə, son dərəcə vacibdir.

Biz Birinci vitse-prezident, çox hörmətli Mehriban Əliyevanın Moskvaya səfərini səbirsizliklə gözləyirik. Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində Azərbaycan

pavilyonunun açılışı olacaq, həmçinin Regionlararası Forum keçiriləcəkdir.

## İRAN İSLAM RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ İSLAMİ ƏLAQƏLƏR TƏŞKİLATININ SƏDRİ ABUZƏR İBRAHİMİ TÜRKMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də İran İslam Respublikası Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Çox şadam ki, qardaş ölkə sabah keçiriləcək Dünya Dini Liderlərinin Zirvə görüşündə yüksək səviyyədə iştirak edəcək. Həm bu Zirvə görüşündə iştirak çox önəmlidir, həm də ikitərəfli məsələləri müzakirə etmək üçün yaxşı fürsətdir.

Bildiyiniz kimi, bu yaxınlarda İran İslam Respublikasının Prezidenti cənab Ruhani Azərbaycanda səfərdə idi, «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə iştirak edirdi. Səfər çərçivəsində bizim çox yaxşı görüşümüz oldu. Görüş zamanı gündəlikdə duran bir çox ikitərəfli məsələləri müzakirə etdik. Bir daha gördük ki, İran–Azərbaycan əlaqələri yüksək səviyyədədir, uğurla inkişaf edir. İmzalanmış bütün sənədlər, əldə olunmuş

razılaşmalar icra edilir. Bu göstərir ki, əlaqələr çox səmərəlidir və yaxşı nəticə verir. Əminəm ki, gələcəkdə bu əlaqələrin inkişafı üçün hər iki tərəf öz səylərini göstərəcək və əldə edilmiş bütün razılaşmalar həyatda öz yerini tutacaqdır.

**Abuzər İbrahimi Türkman** (*İranın Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri*): Çox sağ olun, təşəkkür edirəm. Bizə vaxt ayırdığınıza və bizi qəbul etdiyinizə görə Sizə təşəkkürümü bildirirəm. 2 il bundan əvvəl mənə belə bir fürsət yarandı, xanım Mehriban Əliyeva ilə görüşdüm və indiyədək həmin görüşü xatırlayıram, xoş təəssüratları yadımdadır.

Əvvəlcə istərdim ki, öz dövlətimin, İran İslam Respublikası dövlətinin və xalqının səmimi salamlarını Sizə çatdırım. Bizimlə Azərbaycan arasında müştərəkliklər, bağlılıqlar çoxdur, o cümlədən mədəni sahədə. Buna görə də biz mədəni sahədə bir çox birgə layihələri həyata keçirmişik və əməkdaşlıq etmişik. Mədəniyyət Nazirliyi ilə bir çox proqramlar, layihələr icra etmişik, gələcəkdə də bunu davam etdirəcəyik.

Mən uşaqlıqdan Azərbaycan dilini nənəmdən öyrənmişəm. İllər keçdikcə bu dili mənə öyrətdiyinə və öz sinəsindən mənim sinəmə bu dili nəql etdiyinə görə həmişə ona dua edirəm.

*Söhbət zamanı ölkələrimiz arasında enerji, ticarət və digər sahələrdə əməkdaşlığın inkişafından məmnunluq ifadə olundu, ikitərəfli əlaqələrimizin möhkəmləndirilməsində dövlət başçıları arasında mütəmadi olaraq keçirilən görüşlərin əhəmiyyəti qeyd edildi.*

## MİSİR ƏRƏB RESPUBLİKASININ NÜMAYƏNDƏLƏR PALATASI SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ƏL-SEYYİD MAHMUD ƏL-ŞƏRİFİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Misir Ərəb Respublikasının Nümayəndələr Palatası Sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Dövlət başçısı nümayəndə heyətinin üzvlərini salamladı.*

**İ l h a m Ə l i y e v:** Xoş gəlmisiniz Azərbaycana, sizi səmimiyyətlə salamlayıram! Zirvə görüşündə iştirak etməyiniz bizi çox məmnun edir, şadam ki, ölkəniz bu tədbirdə yüksək səviyyədə təmsil olunur. Əlbəttə, səfəriniz yaxşı imkan yaradır ki, biz ikitərəfli münasibətlər haqqında danışaq. Bizim ikitərəfli münasibətlərimiz də uğurla inkişaf edir və bir çox sahələri əhatə edir. Sizin ölkəniz bu yaxınlarda Bakıda keçirilmiş «Qoşulmama Hərəkatı»nın Zirvə görüşündə yüksək səviyyədə təmsil olunmuşdur və yekun Bəyannamənin qəbul edilməsində də ölkənizin mövqeyini biz yüksək qiymətləndiririk. Bildiyiniz kimi, növbəti 3 il

ərzində Azərbaycan bu Hərəkata sədrlik edəcək və biz bu vəzifəyə çox böyük məsuliyyətlə yanaşırıq. İqtisadi sahədə əlaqələrimizə gəldikdə deyə bilərəm ki, bu sahədə çox böyük potensial vardır. Yaxşı siyasi əlaqələrimizi nəzərə alaraq, hesab edirəm, iqtisadi sahədə biznes qurumlarına biz çox ciddi siqnal verməliyik ki, onlar fəaliyyətlərini bir az da genişləndirsinlər. Şadam ki, turizm sahəsində də yaxşı irəliləyiş var, həm Azərbaycan turistləri ölkənizi ziyarət edirlər, həm də ki, Misirdən gələn qonaqların sayı artmaqdadır. Təbii ki, parlamentlərarası əlaqələrə də böyük əhəmiyyət verilir. Əminəm ki, səfər zamanı bu əlaqələrə yeni təkan veriləcəkdir.

**Əl-Seyyid Mahmud əl-Şərif** (*Misir Ərəb Respublikasının Nümayəndələr Palatası Sədrinin birinci müavini*): Bismillahir rəhmanir rəhim. Möhtərəm cənab Prezident, icazə verin, əvvəlcə vaxt tapıb bizi qəbul etdiyinizə görə Sizə şəxsən öz adımdan və həmkarlarım adından təşəkkürümü bildirim. Bütün Azərbaycan xalqına qonaqpərvərliyə və istiqanlılığa görə dərin təşəkkürümüzü bildiririk. İcazə verin, Misir Ərəb Respublikasının Prezidenti cənab Əbdülfəttah əs-Sisinin şəxsən öz adından və Misir xalqı adından Sizə və Azərbaycan xalqına ehtiramını və dərin təşəkkürünü çatdırım. Şəxsən öz adımdan bildirmək istəyirəm, mən çox xoşbəxt insanam ki, 1994-cü ildə ümummilli lider Heydər Əliyevlə Misirdə görüşmüşəm. Bu gün də çox xoşbəxtəm ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə görüşürəm. Əlbəttə, son illər Azərbaycanın bütün sahələrdə – istər iqtisadi, istər

infrastruktur, istərsə də bütün digər sahələrin inkişafı baxımından əldə etdiyi nailiyyətlər digər dünya dövlətlərinə bir nümunədir.

*Prezident İlham Əliyev onun da salamlarını Misir Prezidenti Əbdülfəttah əs-Sisiyə çatdırmağı xahiş etdi. Misirin Nümayəndələr Palatası Sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərif bildirdi ki, ölkəsi beynəlxalq hüququn norma və prinsipləri əsasında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir.*

*Söhbət zamanı ölkələrimizin beynəlxalq təşkilatlar çərçivəsində uğurlu əməkdaşlığı və digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

# AMERİKA YƏHUDİ TƏŞKİLATLARI PREZİDENTLƏRİ KONFRANSININ İCRAÇI SƏDR MÜAVİNİ MALKOLM HONLAYN İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Əsas Amerika Yəhudi Təşkilatları Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı qəbul etmişdir.*

*Dövlət başçısı qonağı salamladı.*

**İlham Əliyev:** Xoş gəlmisiniz! Gəldiyinizə görə təşəkkür edirəm. Mən sammitdə sizin iştirakınızı yüksək qiymətləndirirəm.

**Malkolm Honlayn:** Sizi görməyə şadam. Bu qədər fikir ayrılığı, bu qədər gərginliyin şahidi olduğumuz bir zamanda Sizin vaxt ayıraraq, insanları bir araya gətirmək üçün təşəbbüs göstərməyiniz bir faktdır. Düşünürəm ki, bizim üzərimizə düşən məsuliyyət də burada olub Sizə dəstək nümayiş etdirmək və bunu qiymətləndirməkdir.

**İlham Əliyev:** Təşəkkür edirəm. Biz çox uğurlu Mədəniyyətlərarası Dialoq üzrə Forum və ənənəvi Bakı Humanitar Forumunu keçiririk. Beləliklə, biz dinlər, mədəniyyətlər, ölkələr arasında körpülərin qurulması istiqamətində fəaliyyətimizi davam etdiririk və

Azərbaycan artıq çox fəal dialoq məkanına çevrilibdir. Düşünürəm ki, belə mühüm tədbirə ev sahibliyi etmək üçün doğru zamandır. Ümidvaram ki, o, uğurlu olacaq, yaxşı nəticələr əldə ediləcəkdir.

**Malkolm Honlayn:** Sammitin keçirilməsi faktı özü bir uğurdur. Bu da bir faktdır ki, Siz və Azərbaycan qlobal, beynəlxalq səviyyədə elə bir nüfuz qazanmısınız ki, bura insanların bir araya gəldiyi bir məkandır.

## DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİNDƏ İŞTİRAK

*13 noyabr 2019-cu il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, xanımı Mehriban Əliyeva və qızı Leyla Əliyeva noyabrın 14-də Bakıda Dünya Dini Liderlərinin II Sammitinin açılışı mərasimində iştirak etmişlər.*

*Əvvəlcə birgə foto çəkdirildi.*

*Sammit müqəddəs Qurandan ayələrin oxunması ilə başlandı.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sammitdə nitq söylədi.*

### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Hörmətli şeyxülislam Allahşükür Paşazadə həzrətləri!

Zati-müqəddəsləri Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill!

Hörmətli din xadimləri, qonaqlar, xanımlar və cənablar!

Mən bütün qonaqları səmimiyyətlə salamlayıram. Dünya Dini Liderlərinin II Zirvə görüşündə iştirak edən bütün qonaqlara «Xoş gəlmisiniz!» – deyirəm.

Bu beynəlxalq tədbirin çox böyük əhəmiyyəti vardır. Biz fəxr edirik ki, Azərbaycan bu mötəbər tədbirə ikinci

dəfə ev sahibliyi edir. Bu bir daha onu göstərir ki, Azərbaycan dinlərarası dialoqun inkişafında öz önəmli rolunu oynayır və bundan sonra da oynayacaqdır.

Bakıda belə mötəbər tədbirin keçirilməsi, hesab edirəm ki, təbiidir. Çünki Azərbaycanın qədim dinlərarası ənənələri vardır. Azərbaycan ictimai-siyasi quruluşundan asılı olmayaraq, bütün dövrlərdə bu istiqamətdə nümunəvi ölkə kimi özünü göstəribdir. Əsrlərboyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələri bir ailə kimi sülh, mehribanlıq, dostluq, qarşılıqlı anlaşma şəraitində yaşayıblar. Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir, dini və etnik müxtəlifliyimiz bizim böyük sərvətimizdir. Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır. Bizim qədim tariximizi əks etdirən eləcə də bizim dini abidələrimizdir. Bizim dini abidələrimiz ilk növbədə, onu göstərir ki, Azərbaycan qədim diyardır. Digər tərəfdən onu göstərir ki, müxtəlif dövrlərdə müxtəlif dinlərin nümayəndələri Azərbaycanda yaşamış, yaratmış və gözəl tarixi miras qoymuşlar. Qeyd etməliyəm və biz fəxr edirik ki, islam aləminin ən qədim məscidlərindən biri Azərbaycanda yerləşir. Şamaxı Cümə məscidi 743-cü ildə inşa edilib, bir neçə il bundan əvvəl isə əsaslı təmir olunubdur. Bu məscid Dərbənd məscidindən sonra Qafqazın ən qədim məscididir.

Eyni zamanda, qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsi Azərbaycanın digər tarixi şəhəri – Şəkinin yaxınlığında yerləşir və bu kilsənin qədim tarixi vardır.

Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi – Atəşgah yerləşir. Bu da onu göstərir ki, zərdüştlük dininin Azərbaycanda qədim kökləri vardır. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar, katolik kilsəsi inşa edilmişdir. Onu da bildirməliyəm ki, Azərbaycan dövləti tarixi dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilir və ya yenidən tikilir. Beləliklə, dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir. Biz islam dininə sadiqik. Öz dinimizi təbliğ edirik, eyni zamanda, Azərbaycanda bütün dinlərin nümayəndələri sərbəst yaşayır, fəaliyyət göstərir, öz dini ayinlərini icra edirlər. Beləliklə, ölkəmizdə çox gözəl ictimai ab-hava vardır.

Beynəlxalq təşkilatlar və dünya dini liderləri Azərbaycanın bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndirirlər. Azərbaycana bir neçə dəfə səfər etmiş zati-müqəddəsləri Moskva və Bütün Rusiyanın patriarxi Kirill, Azərbaycana səfər etmiş Roma Papası Fransisk, İslam Əməkdaşlıq Təşkilatına rəhbərlik etmiş şəxslər Azərbaycanda dinlərarası dialoqun yüksək səviyyədə təşkil edilməsi haqqında dəfələrlə öz sözlərini demişlər. Bu sözlər, bu yüksək qiymət bizim üçün çox dəyərlidir və bu, reallığı əks etdirir.

Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur. Ənənəvi dəyərlər bizim üçün ən böyük sərvətdir. Biz çox şadıq ki, Azərbaycanda

yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də məhz bu olacaq. Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni «dəyərlər» aşılanır. Biz özümüzü və xüsusilə gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət – həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir.

Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir. Multikulturalizm Azərbaycanda həm həyat tərzidir, həm də dövlət siyasətidir. Təsadüfi deyil ki, Azərbaycanda bu istiqamətdə bir çox önəmli addımlar atılıb və bir neçə mötəbər beynəlxalq tədbirlər keçirilibdir. Tədbirlərin bəziləri ənənəvi xarakter daşıyır. Məsələn, Bakı Humanitar Forumu ənənəvi olaraq keçirilir. Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu BMT tərəfindən dəstəklənir. BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Dünya Dini Liderlərinin Zirvə görüşləri, yəni bütün bu tədbirlərin bir məqsədi var – dinlərarası dialoqu möhkəmləndirmək, dini ayrı-seçkiliyə qarşı birgə mübarizə aparmaq, multikultural dəyərləri təbliğ etmək və beləliklə, dünyada gedən müsbət proseslərə öz töhfəmizi verməkdir. Çünki biz yaxşı görürük və mətbuatdan da izləyirik ki, dini,

etnik, məzhəb zəminində bir çox xoşagəlməz hallar – münaqişələr, qarşıdurmalar, müharibələr, qardaş qanının axıdılması baş verir. Əfsuslar olsun ki, bəzi hallarda psevdodini şüarlar altında cinayətlər törədilir. Biz bu istiqamətdə öz səylərimizi birləşdirməliyik.

Azərbaycanda dövlət–din münasibətləri yüksək səviyyədə tənzimlənir. Dövlət–din münasibətlərinin əsasını ulu öndər Heydər Əliyev qoymuşdur. Heydər Əliyev Azərbaycan xalqının böyük oğludur və bütün dövrlərdə – həm sovet dövründə, həm müstəqillik dövründə xalqa ləyaqətlə xidmət etmişdir. Dövlət–din münasibətlərinin təməlini məhz Heydər Əliyev qoyub, necə ki, müasir Azərbaycanın bütün başqa istiqamətlər üzrə inkişaf konsepsiyası onun adı ilə bağlıdır. 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyinə nail oldu. Ancaq ilk 2 ildə müstəqillik formal xarakter daşıyırdı. Demək olar ki, ölkə idarəolunmaz vəziyyətdə idi. Xüsusilə 1992-ci ildə Azərbaycan Xalq Cəbhəsi tərəfindən həyata keçirilmiş hərbi çevriliş nəticəsində vəziyyət daha da ağırlaşdı, Azərbaycan dərin böhrana düçar oldu, ölkəni xaos, anarxiya, özbaşınalıq bürüdü. Eyni zamanda, dinlərarası, millətlərarası münasibətlərə böyük ziyan vuruldu. Azərbaycan Xalq Cəbhəsinin hakimiyyəti tariximizin qara ləkəsidir. Bu, rüsvayçılıq dövrüdür və təsadüfi deyil ki, Azərbaycan xalqı bu antimilli, satqın və qorxaq hakimiyyətə cəmi 1 il dözə bildi, 1 ildən sonra öz liderinə – Heydər Əliyevə üz tutub hakimiyyətə dəvət etdi və ölkənin gələcəyini ona etibar etdi.

Heydər Əliyev hakimiyyətə gələndən sonra, ilk növbədə, qanunsuz silahlı birləşmələrin tərk-silah edil-

məsi istiqamətində önəmli addımlar atdı, erməni işğalının qarşısını aldı və Azərbaycan işğal altında olan bəzi torpaqları geri qaytara bildi. Ölkədə sabitlik bərqərar oldu, inkişaf yoluna qədəm qoyuldu. Biz beynəlxalq təcriddən çıxa bildik, iqtisadi və siyasi islahatlar aparılmağa başlandı. O cümlədən dövlət–din münasibətlərinin formalaşması Heydər Əliyevin adı ilə bağlıdır. Eyni zamanda, şeyx həzrətləri bu istiqamətdə çox böyük fədakarlıq və fəaliyyət göstərmişdir. Mən bu işlərin şahidi kimi deyə bilərəm ki, Heydər Əliyevin və şeyx həzrətlərinin dostluğu dövlət–din münasibətlərinin formalaşmasında həlledici rol oynamışdır. Şeyx həzrətləri bu gün də dövlət–din münasibətlərinin sağlam zəmində davam etdirilməsi istiqamətində böyük işlər görür, Azərbaycanı dünyada təbliğ edir. Onun rəhbərliyi ilə aparılan işlər həm Azərbaycan xalqı tərəfindən, həm də dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilir. Hər il bir neçə ölkədə şeyx həzrətlərinin təşəbbüsü və rəhbərliyi ilə mötəbər beynəlxalq tədbirlər keçirilir. Həm Azərbaycanda, həm Qafqazda, həm də dünyada böyük nüfuz qazanmış şeyx həzrətləri dövlət–din münasibətlərinin necə tənzimlənməsi istiqamətində atılan addımları ölçüb-biçir və bu addımlar ölkəmizin ümumi inkişafını dəstəkləyir. Çünki hər bir ölkənin sabitliyi həmin ölkənin gələcəyi deməkdir. Sabitlik pozulan yerlərdə inkişafa da yer qalmır. Əfsuslar olsun ki, son illər ərzində dini zəmində müxtəlif ölkələrdə iğtişaşlar, müharibələr, münaqişələr baş alıb gedir, bir çox hallarda dini şüarlar altında böyük cinayətlər törədilir.

Şeyx həzrətləri Azərbaycanın ümumi inkişafına çox böyük töhfə vermiş böyük şəxsiyyətlərdən biridir. Bu ilin avqust ayında mənim sərəncamımla Azərbaycanın ən ali ordeni olan «Heydər Əliyev» ordeni şeyx həzrətlərinə verildi və bu gün təntənəli şəkildə bu yüksək mükafat şeyx həzrətlərinə təqdim ediləcəkdir.

Dinlərarası münasibətlərə gəldikdə, hesab edirəm ki, bu münasibətlərin spektri kifayət qədər genişdir. Biz Azərbaycanda ümumi konsepsiyaya baxdıqda görürük ki, bir neçə istiqamət var, bu sadəcə olaraq, dini liderlərin bir-biri ilə əlaqədə olması demək deyil. Bu, müxtəlif tədbirlərin keçirilməsi və önəmli mesajların verilməsidir. Mən bu tədbirlərin arasında Azərbaycanda bir neçə il bundan əvvəl keçirilmiş birinci Avropa və IV İslam Həmrəyliyi oyunlarını da qeyd etmək istəyirəm. Baxmayaraq ki, bu, idman yarışlarıdır, ancaq bu yarışların çox böyük siyasi mənası vardır. Çünki təsəvvür edin, cəmi 2 il ərzində bir ölkədə, bir şəhərdə islam ölkələrinin və Avropa ölkələrinin idmançıları yarışır və eyni zamanda, dostluq əlaqələri yaradırlar. Çünki bu oyunlar sadəcə olaraq, idman yarışı deyil. Bu oyunlar Azərbaycanda bir dostluq festivalına, dostluq bayramına çevrilmişdir. Hər iki idman yarışında 100-dən çox ölkə təmsil olunurdu, minlərlə idmançı, məşqçi, qonaq iştirak edirdi və əlbəttə, bu oyunların dinlərarası, mədəniyyətlərarası dialoqun təşviqində böyük rolu vardır.

Keçən il biz «Bakı prosesi»nin 10 illiyini qeyd etdik. «Bakı prosesi» bizim təşəbbüsümüzlə başlanmış prosesdir və bu gün bu, geniş beynəlxalq dəstəyə malikdir.

O cümlədən BMT «Bakı prosesi»ni dinlərarası, mədəniyyətlərarası dialoqun önəmli platforması kimi qəbul edir. 2008-ci ildə Bakıda Avropa Şurasının Mədəniyyət nazirlərinin toplantısı keçirilirdi və biz qərara gəldik ki, bu toplantıya İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrin Mədəniyyət nazirlərini də dəvət edək və beləliklə, birinci təmas yarandı. Ondan sonra 2009-cu ildə Bakıda İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Mədəniyyət nazirlərinin toplantısına biz Avropadan nazirləri dəvət etdik. Azərbaycan nadir ölkələrdəndir ki, həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzvdür və biz bu imkandan istifadə edib «Bakı prosesi»nə start verdik. Bayaq qeyd etdiyim kimi, bu gün beynəlxalq aləmdə «Bakı prosesi» çox yüksək qiymətləndirilir və bu, doğrudan da nadir əməkdaşlıq formatıdır.

Dinlərarası dialoqdan danışarkən, əlbəttə ki, biz təkcə müsbət məqamların qeyd edilməsi ilə kifayətlənməməliyik. Eyni zamanda, münaqişələri din amilinə bağlamaq cəhdlərini də çox ciddi şəkildə pisləməliyik. Bu nümunələrdən biri uzun illər davam edən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsidir. Bildirməliyəm ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır. Azərbaycan xalqı əsrlərboyu bu torpaqda yaşayıb yaratmışdır və qədim xəritələrdə, eyni zamanda, Çar Rusiyasının XX əsrin əvvəllərində çap edilmiş xəritələrində Dağlıq Qarabağa aid olan ərazidə bütün toponimlər Azərbaycan mənşəlidir. Qarabağ xanlığı Azərbaycan xanlığı olub. Sadəcə olaraq, XIX əsrin əvvəllərində ermənilər Dağlıq Qarabağa köçürülüblər və

XX əsrdə orada milli tərkib böyük dərəcədə deformasiyaya uğrayıbdır. Onu da bildirməliyəm ki, bolşevik inqilabından sonra respublikalar arasında cızılan xəritələrə gəldikdə, o vaxt bolşevik hökuməti tərəfindən qərar qəbul edilmişdir ki, Dağlıq Qarabağ Azərbaycanın tərkibində saxlanılsın. Bu çox önəmli məqamdır, çünki tarixi təhrif etməkdə usta dərəcəsinə çatmış erməni tarixçiləri qeyd edirlər ki, Dağlıq Qarabağın Azərbaycana verilməsi haqqında qərar qəbul edilmişdir. Halbuki bu belə deyil və tarixi sənədlər bunu göstərir, Dağlıq Qarabağı Azərbaycanın tərkibində saxlamaq haqqında qərar qəbul edilmişdir. Yəni bu eyni zamanda, tarixi və siyasi məqamları əks etdirir.

Ancaq Sovet İttifaqının dağılması ərəfəsində Dağlıq Qarabağda və Ermənistanda baş qaldırmış millətçi qüvvələr Azərbaycana qarşı təcavüzə başlamış və hərbi təcavüz nəticəsində torpaqlarımızın təxminən 20 faizi, o cümlədən Dağlıq Qarabağ və ətrafda olan 7 rayon işğal altına düşmüşdür. Bu ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı törədilib, bizim bütün tarixi abidələrimiz, qəbirlərimiz, o cümlədən məscidlərimiz ermənilər tərəfindən dağıdılıbdır. Münaqişə ilə bağlı BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul edib və bu qətnamələrdə Ermənistan silahlı qüvvələrinin bizim torpaqlarımızdan çıxarılması haqqında açıq-aydın müddəalar var, lakin Ermənistan bu qətnamələrə məhəl qoymur. Digər beynəlxalq təşkilatlar – «Qoşulmama Hərəkatı», İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası və başqa təşkilatlar oxşar qərar və qətnamələr qəbul edib.

Münaqişənin həlli üçün yeganə yol Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Bu böyük humanitar fəlakət nəticəsində Dağlıq Qarabağdan, Ermənistandan və Qarabağı əhatə edən rayonlardan 1 milyondan çox azərbaycanlı qaçqın-köçkün vəziyyətinə düşübdür. O vaxt Azərbaycanın əhalisi 8 milyon idi. Yəni təsəvvür edin nə qədər böyük humanitar fəlakət idi. Buna baxmayaraq, Azərbaycan uğurla inkişaf edir, ölkəmiz beynəlxalq aləmdə böyük nüfuz qazanıbdır. Keçən ay Bakıda keçirilmiş «Qoşulmama Hərəkatı»nın Zirvə görüşünün yekun Bəyannaməsi də ədaləti əks etdirir və bildirməliyəm ki, Azərbaycan bu böyük təşkilata sədrliyi öz üzərinə götürübdür. Azərbaycan 120 ölkənin yekdil qərarı ilə bundan sonra 3 il ərzində «Qoşulmama Hərəkatı»na sədrlik edəcəkdir.

Bizim iqtisadi göstəricilərimiz çox müsbətdir. 2003-cü ildən bu günə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə artıb, savadlılıq 100 faizə yaxındır, yoxsulluq son 16 il ərzində təxminən 50 faizdən 5 faizə düşübdür. Azərbaycan texnoloji inkişafa böyük önəm verir və bu gün dünyanın məhdud sayda olan kosmik klubunun üzvüdür, 3 peykimiz vardır. Önəmli nəqliyyat layihələri icra edilir. Bu layihələr sadəcə olaraq, nəqliyyat layihələri deyil, bu, əməkdaşlıq layihələridir. Çünki nəqliyyat elə bir sahədir ki, qonşu ölkələr və digər bölgə ölkələri bir-birindən asılı olur. Azərbaycan açıq dənizə çıxışı olmayan bir ölkə kimi artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilibdir – Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir.

Bütün bu nailiyyətlər deməyə əsas verir ki, inkişafımız bundan sonra da uğurlu gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir. Sabitliyin də təminatçısı Azərbaycan xalqıdır, onun rəyidir, onun bizə verdiyi dəstəkdir. Xalq–iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır.

Mən əminəm ki, bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacaq və Bakıdan səslənən mesajlar lazımi ünvana çatacaqdır. Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi–dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır.

Mən bir daha qonaqları səmimiyyətlə salamlayıram və Zirvə görüşünə uğurlar arzulayıram. Sağ olun.

* * *

*Sonra Prezident İlham Əliyevin Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadənin «Heydər Əliyev» ordeni ilə təltif edilməsi haqqında sərəncamı oxundu.*

*Dövlət başçısı «Heydər Əliyev» ordenini şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.*

**A l l a h ş ü k ü r  P a ş a z a d ə:** Bismillahir rəhmanir rəhim.

Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev!

Əziz qardaşım, zati-müqəddəsləri Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill həzrətləri!

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti möhtərəm Mehriban xanım Əliyeva!

Hörmətli rəyasət, dəyərli dini liderlər və dövlət xadimləri, əziz qonaqlar!

Dünya Dini Liderlərinin II Bakı Sammitində hər birinizi salamlamaqdan böyük şərəf duyuram. Allah-taala Quranda içərimizdə «yaxşılığa çağıran, xeyirli işlər görməyi buyuran və pis əməllərdən çəkindirən bir camaat» olmasını bizə tövsiyə etmişdir. Bugünkü Zirvə görüşündə məhz belə bir cəmiyyət toplanıb, milyonlarla dindarları təmsil edən qüdrətli dini liderlər, böyük nüfuza malik şəxsiyyətlər, siyasi və ictimai xadimlər bir araya gəliblər. Bu məqamda mən II Bakı Sammitinin dəyərli qonaqlarının iradəsini ifadə edərək, Bakı Zirvə görüşünün ərsəyə gəlməsinə xeyir-dua vermiş, tədbirimizə mənəvi və əməli dəstək olmuş Azərbaycan Prezidenti cənab İlham Əliyevə hamımızın adından minnətdarlığımı bildirmək istərdim.

Azərbaycan dövlətinin başçısı zati-aliləri Prezident İlham Əliyev qlobal miqyasda ümumbəşəri dəyərlərin carçısı, dünya miqyasında multikulturalizm, islam həmrəyliyi ideyalarının fəal təbliğatçısı, mədəniyyətlərarası əməkdaşlığa dair «Bakı prosesi»nin müəllifidir. Multikulturalizm bizim həyat tərzimizdir. Bu milli və

dini birlik ideyası ölkəmizdə dövlət siyasəti səviyyəsində həyata keçirilir. Ulu öndər Heydər Əliyev tərəfindən təməli qoyulmuş müasir Azərbaycanda zati-aliləri Prezident İlham Əliyevin qətiyyətli siyasi iradəsi, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yüksək dövlətçilik təfəkkürü ilə milli-mənəvi dəyərlərə verdiyi önəm sayəsində bəşəri birliyə xidmət edən multikulturalizm, islam həmrəyliyi kimi ideyaların reallaşması istiqamətində uğurlu addımlar atılır və bu addımlar beynəlxalq aləmdə böyük siyasi-mənəvi rezonans yaradır. Qeyd edim ki, Azərbaycan Prezidentinin tövsiyəsi ilə 2017-ci ildə Qafqaz Müsəlmanları İdarəsinin nəzdində Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzi təsis edilib və dövlət başçımızın ideya müəllifi olduğu qlobal çağırışlar mərkəzimizin İspaniya, Almaniya və Avstriyada keçirdiyi beynəlxalq tədbirlərdə böyük rəğbətlə qarşılanıbdır.

Bu gün keçirilən bu möhtəşəm sammitin əsas məqsədi beynəlxalq sabitliyə və təhlükəsizliyə ciddi təhdid olan ksenofobiya, islamofobiya, xristianofobiya, antisemitizm kimi təhlükələrin qarşısının alınması üçün siyasi, ictimai və dini liderlərin birgə səylərinin artırılmasının və qlobal dialoqun gücləndirilməsinin vacibliyini bir daha bəyan etməkdir. Təəssüf ki, müasir dövrümüzdə insanlar arasında təcavüzə, zorakılığa və ayrı-seçkiliyə təhrik edən nifrət çağırışları ictimai təhlükəyə çevrilməkdədir. İnformasiya-kommunikasiya sahəsindəki müasir texnologiyalar, sosial şəbəkələr, kütləvi media vasitələri nifrət çağırışlarını bütün dünyada genişmiqyaslı sistemə çevirir.

Qlobal miqyasda nifrət çağırışları İraqda, Suriyada, Fələstində, Əfqanıstanda və digər ölkələrdə sabitliyi pozub, hərbi və soyqırımı cinayətlərinə rəvac veribdir. Nifrətin ideoloji təsirləri altında Qərb dünyası miqrant probleminə antihumanist münasibətilə bəşəri fəlakətlərə, bəlkə də cinayətlərə yol açır. Məhz belə nifrət çağırışları sayəsində Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu Ermənistan tərəfindən hərbi təcavüzə və soyqırımına məruz qalıb, 20 faiz torpaqlarımız işğal edilib, 1 milyondan çox insan əzəli torpaqlarından qaçqın və məcburi köçkün düşüb, dini və mədəni abidələrimiz vəhşicəsinə dağıdılıbdır. Əfsuslar olsun ki, beynəlxalq hüququn norma və prinsiplərinə rəğmən bu tarixi ədalətsizlik bu günə qədər davam etməkdədir.

Nifrət çağırışlarının, təhrik mesajlarının çoxalması olduqca aktual problemdir. Təsadüfi deyil ki,BMT-nin Ekspert qrupu bununla əlaqədar xüsusi qətnamə qəbul edib. KAICIID Beynəlxalq təşkilatının iclasında qeyd olunduğu kimi, «Nifrət nitqlərinə qarşı mübarizə insan hüquqlarının müdafiəsinin vacib elementidir». Zati-aliləri İlham Əliyev cənablarının beynəlxalq müstəvidə aktual problemlərin həllində hər zaman öncül olduğunu, dərin təfəkkür tərzini bildiyimiz üçün nifrətə çağırış probleminin fəsadlarını və ictimai təhlükəsini nəzərə alaraq, sammit iştirakçıları adından zati-alilərinə müraciət etmək istərdim. Burada iştirak edən BMT və KAICIID Beynəlxalq Dinlər və Mədəniyyətlərarası Dialoq Mərkəzi və Bakı Dinlərarası Əməkdaşlıq Mərkəzinin birgə təşkilatçılığı ilə «Qlobal nifrət çağırışları ilə mübarizədə din, siyasət və ictimaiyyət xadimlərinin birgə

səyləri» mövzusunda gələcəkdə beynəlxalq konfransın keçirilməsinə dair təşəbbüsümüzün zati-aliləri tərəfindən dəyərləndirilərək, razılıq verməsi beynəlxalq ictimaiyyət və biz, din xadimləri üçün, Allahın köməyi ilə müstəsna əhəmiyyət kəsb edə bilər.

Biz, Azərbaycan heç vaxt söz azadlığının və demokratiyanın əleyhinə olmamışıq. Biz söz azadlığını nifrət çağırışlarına çevirənlərin əleyhinəyik. Söz – Yaradanın insana əmanətidir, insan hər sözü üçün Allah qarşısında məsuliyyət və cavabdehlik daşıyır. Söz – ana, vətən, nur, məhəbbət, cənnət də ola bilər, söz – savaş, müharibə, ölüm, cəhənnəm də ola bilər. Bizim məqsədimiz təfriqə və ayrı-seçkilikdən uzaq olan, xalqları və millətləri bir araya gətirən, mənəvi və insani dəyərləri üstün tutan vahid qardaşlıq dünyası naminə birgə çalışmaq, İlahi Nurun ardınca getməyi sözlə təbliğ etməkdir. Çünki bütün dini kitablarda deyildiyi kimi, iman gətirənlər qardaşdırlar! Hamımız babamız Adəmdən, Adəm isə torpaqdan yaranmışdır. Torpaq qardaşlarını birləşdirən cəhətlər isə onları ayıran və yadlaşdıran cəhətlərdən qat-qat üstün və dəyərlidir!

Zati-aliləri, möhtərəm sammit iştirakçıları! Mən öz iştirakı ilə tədbirimizi zinətləndirən ali qonaqlarımıza, sammitə təbrik məktubları göndərən dövlət və din xadimlərinə, beynəlxalq təşkilatlara və ictimai qurumlara minnətdarlığımı bildirirəm. Özəlliklə uzun illər səmərəli fəaliyyətimiz sayəsində özümə dost, qardaş bildiyim zati-müqəddəsləri Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill həzrətlərinə, digər dəyərli şəxsiyyətlərə və burada iştirak edən qardaş və bacılarıma təşəkkür edirəm.

Mənim və ailəm üçün çox əlamətdar haldır ki, bəşəri məsələlərin müzakirə olunduğu və mühüm qərarların bəyan edildiyi Dünya Dini Liderlərinin builki Bakı Sammiti yubileyimlə eyni vaxta təsadüf edir. Bu tarixi gündə Azərbaycan dövlətinin başçısı, zati-aliləri İlham Əliyev cənabları məni ölkəmizin ən ali mükafatı olan «Heydər Əliyev» ordeni ilə təltif etdi. Ulu öndər Heydər Əliyevin adını əbədiləşdirən ordeni mənə təqdim etməklə, Azərbaycan Prezidenti yüksək səviyyəli dövlətçilik təfəkkürünü, dünyəvi dövlətin milli dini dəyərlərə və dövlət–din münasibətlərinə ali diqqətinin bariz nümunəsini nümayiş etdirdi. Böyük qardaşım, ulu öndər Heydər Əliyevin adını daşıyan ordenə layiq görülmək həyatım boyu mənim üçün böyük şərəf və fəxarət olacaqdır. Bu mənim 70 illik yubileyimə və 40 illik şeyxülislamlıq fəaliyyətimə verilən ən böyük dəyər-dir. Bu illər ərzində ulu öndərin və daha sonra zati-alilərinizin rəğbəti və dəstəyi ilə Qafqaz Müsəlmanları İdarəsini dünyanın tanınmış dini təşkilatı səviyyəsinə qaldırmağa birgə nail olduq. Böyük tarixi nailiyyətimiz olan müstəqilliyimizin qorunması, dövlətçiliyimizin möhkəmləndirilməsi və milli-mənəvi dəyərlərimizə qayıdışı təmin etmək üçün zati-alilərinizin rəhbərliyi ilə var qüvvəmizlə çalışmaqdayıq. Bu gün əminliklə deyə bilərəm ki, harada dövlət və din münasibətləri düzgün məcrada inkişaf edirsə, orada dövlətin və xalqın siyasi, iqtisadi və mənəvi rifahı mütləq labüddür.

Zati-aliləri möhtərəm cənab Prezident! Hörmətli sammit iştirakçıları! Mən bir daha Azərbaycan Res-publikasının Prezidenti cənab İlham Əliyevə bu sam-

mitdə iştirakına və ali təltifinə görə minnətdarlığımı bildirirəm. Ümidvaram ki, sammitin qərarları yekun sənədində öz əksini tapacaq, Dünya Dini Liderlərinin II Bakı Sammiti qloballaşan dünyanın müasir çağırışlarının, aktual problemlərinin həllinə Azərbaycan dövlətinin dəyərli töhfəsi olacaqdır. Bu sammit dünya dinləri tarixinə əlamətdar hadisə kimi həkk olunacaq və beynəlxalq müstəvidə qarşılıqlı anlaşma mühitinin möhkəmləndirilməsinə xidmət edəcəkdir, inşallah!

Vəssalamu əleykum və rəhmətullahi və bərəkatuhu.

**K i r i l l** (*Moskvanın və Bütün Rusiyanın Patriarxı*): Zati aliləri çox hörmətli cənab Prezident!

Xanım Mehriban Əliyeva!

Mənim əziz qardaşım, möhtərəm şeyxülislam Allahşükür Paşazadə!

Zati-müqəddəslər və hörmətli dini liderlər!

Mən Azərbaycan hökumətinin, bu sammitin qonaqpərvər sahibi şeyxülislam Allahşükür Paşazadənin dəvəti ilə böyük sevinclə Bakıya gəlmişəm.

Bu tədbiri hərtərəfli dəstəklədiyinə və söylədiyi fikirlərə görə Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyevə minnətdarlığımı bildirmək istərdim. 2010-cu ilin aprelində Dünya Dini Liderlərinin ilk Bakı Sammitinin keçirildiyi vaxtdan, demək olar ki, 10 il sonra dinlərarası münasibətlər sahəsində yeni meyillər meydana çıxıb və ənənəvi dinlər qarşısında yeni çağırışlar durubdur. Son illər Bakıda və bir çox ölkələrdə Azərbaycanın himayədarlığı altında müasirliyin çətin suallarına

birlikdə cavab vermək məqsədilə çoxsaylı dinlərarası və mədəniyyətlərarası tədbirlər keçirilir. Əsasən Qafqaz Müsəlmanları İdarəsinin rəhbəri möhtərəm şeyxülislam Allahşükür Paşazadənin səyləri ilə məhz Bakı qlobal səviyyəli dinlərarası dialoq üçün mühüm meydana çevrilibdir.

Son onilliklər Yer kürəsinin ayrı-ayrı nöqtələrində müxtəlif münaqişələr və terrorçuluğun indiyədək görünməmiş tüğyanı hamını kədərləndirib. Terrorçular günahsız dinc insanların qanını axıdır. Şri-Lanka, Yeni Zelandiya, Suriya, İraq, Əfqanıstan, Fransa – bunlar son 2 ildə dünyanı sarsıdan terror aktlarının törədildiyi ölkələrin heç də tam siyahısı deyil. Etiraf etməliyik ki, ənənəvi dinlərə qarşı müharibə gedir. Bu müharibə şəhər və kəndlərdə, informasiya məkanında, ən vacibi isə insanların şüurlarında və qəlblərində aparılır. Ən təhlükəlisi odur ki, bu müharibədə ön sıralarda gənc nəslin nümayəndələri döyüşür. Ekstremist hərəkatın ideoloqları gənclərdə həyat təcrübəsinin olmamasından, onun nəyin bahasına olursa-olsun öz baxışlarını müdafiə etməyə hazırlığından istifadə edir. Bütün bunlar savadın aşağı səviyyəsi, təkcə digər dinlər haqqında deyil, hətta öz dini ənənələri haqqında baza biliklərinin çatışmazlığı ilə daha da dərinləşir. Biz hamımız bu gün informasiya müharibələrinin aparılması üçün hansı böyük resurslardan istifadə olunduğunu bilirik. Əlbəttə, biz dini xadimlər daimi təhdidlərə vərdiş etmişik. Şər qüvvələr öz həyatını Tanrıya xidmətə həsr edənlərə qara yaxmaq cəhdlərini heç vaxt tərk etməyiblər. Amma bu o demək deyil ki, biz enerjili və çox şey vəd edən gənclərimizin

vicdansız adamlar tərəfindən özlərini aldatmasına və istifadə olunmasına sakitcə durub baxmalıyıq. Niyə ekstremistlərin təbliğatı müəyyən uğur qazanır? Güman edirəm, ilk növbədə ona görə ki, onlar dindar adamların müasir sekulyar paradiqmalarını qəbul etməmələrindən bəhrələnirlər. Hər tərəfdən təlqin ediləndə ki, həyatda ən əsas şeylər uğur, var-dövlət, ləzzətdir, onda dindar insan belə yanlış dəyərlərin aqressiv sırınmasına qarşı etiraz etməyə bilmir. Sistemin ənənəvi dəyərlərinin böhranı təxribatçılar və ekstremistlər üçün geniş meydan açır. Onlar öz ideologiyalarını və sekulyar ideologiyanı asanlıqla dəyişir, onların toxumları münbit torpağa düşür. Buna görə də biz dini liderlər kimi, nəinki ekstremizmi rədd və ittiham etməliyik, həm də cəmiyyətdə müqəddəs yazılara əsaslanan sarsılmaz dəyərləri, ailəni, nikahı, böyüklərə hörməti, dinə hörməti, insanın dini seçimini, iztirab çəkənlərə və kimsəsizlərə dəstəyi tərbiyə etməliyik. İnandırıcı nümunələrlə möhkəmləndirilən bu ideyaları biz informasiya məkanında fəal translyasiya etməliyik. Bu gün bizim öz həmrəyliyimizi və əzab çəkən qardaşlarımıza diqqətimizi nümayiş etdirmək üçün çox gözəl imkanımız vardır. Mən son illərdə dağıdıcı qanlı münaqişələrdən əhalisinin çox ziyan çəkdiyi Yaxın Şərq regionu haqqında danışıram. Terrorçuların Suriyaya və İraqa vurduğu ziyanı görmək ağırdır. Yaxın Şərq böhranı kütləvi miqrasiyaya səbəb oldu. Təəssüf ki, heç də bütün miqrantlar gəldikləri ölkələrin yerli əhalisi ilə qarşılıqlı fəaliyyət göstərməyə hazır olmadılar. Çoxlarının elementar dinlərarası və millətlərarası

ünsiyyət mədəniyyəti çatmadı. Buna görə də bugünkü sammit kimi təşəbbüslər xüsusilə əhəmiyyətlidir.

Bu gün sekulyarizm cəmiyyətdə getdikcə daha çox yayılır və özündə dinin olmasını təkzib edir. Sekulyar ideyanın tərəfdarları hesab edirlər ki, dindən imtina etmək bütün insanların ümumi rifahına xidmət edir. İnformasiya texnologiyalarının fəal inkişafı sayəsində cəmiyyətdə dini təşkilatlar obrazı köhnəlmiş, məhdud dünyagörüşü sırıyan dini təşkilat obrazı kimi təbliğ edilir, mənəviyyat haqqında müasir təsəvvür yoxdur. Həm də bu zaman dindarlıqla birlikdə kişi ilə qadının ittifaqı kimi nikah, insanın doğulduğu andan təbii həyata qədərki ömrünün toxunulmazlığı, qeyri-təbii ədəbsiz özbaşınalığı aşıq-aşkar tənqid etməyə özündə güc və mərdlik tapan insanlar rədd olunurlar. Sekulyar ideologiyanın nümayəndələri onları dözülməzlikdə ittiham edirlər. Biz bir vaxtlar xristianlığın bəhrəsi olan, indi isə öz dini simasını sürətlə itirən Avropadakı vəziyyəti ürəkağrısı ilə qəbul edirik.

Bu zala müxtəlif dini ənənələrin nümayəndələri toplaşıblar. Dinlərin obyektiv fərqinə baxmayaraq, biz ictimai tərbiyə məsələlərinə eyni cür baxırıq. Bizim ümumi borcumuz və birgə vəzifəmiz – insanın həyatında mənəvi istiqamətləri göstərməkdir. Dini liderlər siyasi liderlərə yekdilliklə müraciət edə bilərlər və etməlidirlər. Siyasi vəzifələri zəiflərin ağrıları, o cümlədən zəif dövlətlərin hesabına həll etməyi dayandırmağın zəruriliyini birmənalı şəkildə bildirmək vaxtıdır. Enerji resurslarını məsuliyyətsiz bölməyi dayandırmaq vaxtıdır. Dünya ölkələrini birinci, ikinci və üçüncü dərəcələrə

bölməyi dayandırmaq vaxtıdır. İstərdik ki, daha inkişaf etmiş və varlı dövlətlər bəşəriyyətin taleyinə görə öz məsuliyyətlərini dərk etsinlər. Onlar qlobal qaydaların diktatorları yox, təhlükəsizliyin və sabitliyin təminatçıları olmalıdırlar. Təcrübənin göstərdiyi kimi, bəzi dövlətlərin digərlərinə öz qaydalarını, ənənələrini və mədəniyyətlərini sırımaları yaxşı heç nəyə gətirib çıxarmır. Xalqların özünəməxsusluğu və azadlığı təhlükəsiz və dinc birgəyaşayışın rəhnidir. Yoxsul ölkələrdə təbii ehtiyatların yırtıcılıqla hasilatının və ətraf mühitin çirkləndirilməsinin dayandırılması çox vacibdir. Biz insanların rifahı üçün yaradılmış Tanrı nemətlərinə görə məsuliyyət daşıyırıq və bizim müraciətimiz hər bir insana ünvanlanıb. Biz də səmimi-qəlbdən inanırıq ki, onu eşidəcəklər.

Mən dini azlıqların təqib olunması kimi problemi xatırlatmaq istərdim. Ən iri yerli pravoslav kilsələrindən birinin rəhbəri kimi, mən bir sıra ölkələrdə dindaşlarımın ayrı-seçkiliyə məruz qalması haqqında danışmalıyam. Onlar tez-tez təqiblərə məruz qalırlar. Yaxın Şərqdə, bütün avraamik dinlər üçün müqəddəs torpaqda xristianlığın mövcudluğuna ciddi ziyan vurulub. Tarix sübut edir ki, xristianlar, müsəlmanlar və yəhudilər əsrlərboyu bu torpaqda birlikdə yaşayıb və bu gün onlar sülhün qorunması üçün eyni dərəcədə məsuliyyət daşıyırlar. Xristianların təqib olunması haqqında danışarkən Afrikadakı problemdən yan keçmək olmaz. Cənubi Saxaranın bir sıra dövlətləri ekstremist qruplaşmaların nəzarətsiz fəaliyyətindən əzab çəkir. Xüsusilə Nigeriyada xristianların əsl soyqırımı törədilir.

Mən bütün xoşməramlı insanları Afrika ölkələrində xristianların problemlərini diqqətdən kənarda qoymamağa çağırıram. Əminəm ki, dini liderlər dialoq yolu ilə bu gün bəşəriyyətin rastlaşdığı problemlərə ciddi təsir göstərə bilərlər. Bizim səsimiz  o vaxt inandırıcı olar ki, birlikdə və həmrəyliklə səslənsin. Əminəm ki, biz birlikdə Tanrı qarşısında cavabdeh olduğumuz sülhyaradıcı vəzifəmizi yerinə yetirə bilərik. Səmimi-qəlbdən arzu edirəm ki, bugünkü sammit bunun təsdiqinə çevrilsin.

Biz buraya mühüm və xoş səbəbə görə – şeyxülislam Allahşükür Paşazadənin 70 illiyini qeyd etmək üçün toplaşmışıq. Bu gün Bakıya dünyanın hər yerindən yüzlərlə nüfuzlu dini liderin gəlməsi faktının özü çox şeydən, ilk növbədə, möhtərəm şeyxülislamin yüksək nüfuzundan xəbər verir. Biz hamımız onu uzun illərdir ki, dostluğun, dinlər və xalqlar arasında dialoqun ardıcıl tərəfdarı kimi tanıyırıq. Bu gün bizim əziz şeyximizi 70 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirik və ona rus pravoslav kilsəsinə göstərdiyi dəstəyə, sülhyaradıcı xidmətinə görə və anadan olmasının 70 illiyi ilə əlaqədar rus pravoslav kilsəsinin birinci dərəcəli  «Müqəddəs Serafim Sarovski» ordenini təqdim etmək mənim üçün olduqca xoşdur.

*Patriarx Kirill Rus Pravoslav Kilsəsinin birinci dərəcəli «Müqəddəs Serafim Sarovski» ordenini şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.*

*Sonra Rusiya Federasiyası Federasiya Şurasının Sədr müavini İlyas Umaxanov çıxış etdi və Prezident Vladimir Putinin Dünya Dini Liderlərinin II Bakı Sammitinə ünvanladığı məktubu oxudu.*

**İ l y a s  U m a x a n o v:** Çox hörmətli İlham Heydər oğlu!

Zati-müqəddəsləri Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə!

Zati-müqəddəsləri Moskvanın və Bütün Rusiyanın Patriarxı!

Hörmətli iştirakçılar, dostlar, qardaşlar, həmkarlar!

Mən artıq burada səsləndirilən fikirlərə xoş niyyətlərlə qoşuluram və məncə, bizim sammitin məqsədlərinə və vəzifələrinə birbaşa aidiyyəti olan bir sitat gətirmək istəyirəm: «Əsl mənəviyyatı nə milyonlara, nə də milyardlara almaq olmaz, lakin mənəviyyatdan məhrum olan insanların cəmiyyətdə heç bir dəyəri yoxdur, hətta əgər onların həmin milyonları və milyardları olsa da». Bu sözlər Azərbaycan xalqının böyük oğlu, Azərbaycanın ümummilli lideri Heydər Əliyevə məxsusdur.

Mən daha bir böyük tapşırığı yerinə yetirmək istərdim. Bu gün bu mənim üçün böyük şərəfdir. Xeyir-dualı Azərbaycan paytaxtında, çoxkonfessiyalı və çoxmillətli Bakıda Rusiya Federasiyasının Prezidenti Vladimir Vladimiroviç Putinin Qafqaz Müsəlmanları İdarəsinin sədrinə, MDB Dinlərarası Şurasının həmsədri zati-müqəddəsləri şeyxülislam Allahşükür Paşazadəyə məktubunu səsləndirmək istəyirəm.

**«MDB Dinlərarası Şurasının həmsədri**
**zati-müqəddəsləri şeyxülislam**
**Allahşükür Paşazadəyə**

Zati-müqəddəsləri, 70 illiyiniz münasibətilə səmimi təbriklərimi qəbul edin. Qafqazda sülhün və ictimai razılığın möhkəmləndirilməsinə yönəlmiş çoxillik yorulmaz xidmətinizlə Siz həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda təkzibolunmaz yüksək nüfuz qazanmısınız. Sizin Rusiyanın Mərkəzi Müsəlman Təşkilatları və Rus Pravoslav Kilsəsi ilə məhsuldar işbirliyinə, qədim dostluq, mehriban qonşuluq, qarşılıqlı hörmət və etimada əsaslanan Rusiya–Azərbaycan münasibətlərinə mühüm töhfələrinizi dərin məmnunluqla qeyd edirəm. Zati-müqəddəsləri, Sizə cansağlığı, mühüm və zəruri dini maarifçilik, sülhyaradıcı missiyanızda, bütün işlərinizdə və təşəbbüslərinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**VLADİMİR PUTİN**
**Rusiya Federasiyasının Prezidenti»**

Hörmətli İlham Heydər oğlu, Sizin dostunuz Vladimir Vladimiroviç Putindən mənim daha bir tapşırığım vardır. O mənə Rusiya Federasiyası Prezidentinin «Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Hümmət oğlu Paşazadənin cəmiyyətdə mənəviyyatın, tolerantlığın yüksəldilməsinə, fəal ictimai fəaliyyətə, xalqlar arasında mədəni-dini sahədə etimad mühitinin qurulmasına yönəlmiş fəaliyyətinə görə «Xeyirxah işlərə görə fərqlənmə nişanı» ilə mükafatlandırmaq haqqında» Fərmanını səsləndirməyi tapşırıbdır.

*Rusiya Federasiyası Federasiya Şurasının Sədr müavini İlyas Umaxanov Fərmanı oxuduqdan sonra «Xeyirxah işlərə görə fərqlənmə nişanı»nı şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.*

*Türkiyə Diyanət İşləri başqanı Ali Erbaş çıxış edərək, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın təbrik məktubunu oxudu.*

**A l i  E r b a ş:** Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri, cənab İlham Əliyev!

Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə həzrətləri!

Zati-alilərini və bu toplantıda iştirak edən dünya dini liderlərini hörmət və sevgi ilə salamlayıram.

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkatuhu.

Türkiyə Respublikasının Prezidenti möhtərəm Rəcəb Tayyib Ərdoğanın Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə göndərdiyi məktubu diqqətinizə təqdim edirəm.

**«Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə həzrətlərinə**

Çox hörmətli şeyxülislam Allahşükür Paşazadə həzrətləri, Qafqaz Müsəlmanları İdarəsinin sədri!

Əziz dostum, qardaşım Azərbaycan Prezidenti cənab İlham Əliyevin yüksək təqdiri ilə anadan olmağınızın 70 illiyi və şeyxülislamlıq fəaliyyətinizin 40 illiyi münasibətilə keçirilən sammitin uğurlu olmasını diləyirəm.

Fəaliyyətə başlamağınızdan bu günə qədər Azərbaycan ilə birlikdə bölgəmizdə faydalı töhfələrinizlə dini xidmətlərin yayılması sahəsində çox mühüm irəliləyişlərin əldə edildiyini bilirəm. Bu xidmətlərinizin islam aləminin və bütün bəşəriyyətin xeyrinə olmasını sidqi-ürəkdən arzu edirəm.

Uzun illər ərzində belə mühüm və məsuliyyəti böyük olan bir vəzifənin öhdəsindən uğurla gəldiyiniz üçün Sizi təbrik edirəm.

Fürsətdən istifadə edərək, Allah-taaladan Sizə cansağlığı, rəhbərlik etdiyiniz kollektivə uğurlar və müvəffəqiyyətlər diləyirəm.

Sizin vasitənizlə azərbaycanlı qardaşlarımıza sülh, cansağlığı, əmin-amanlıq və xoşbəxtlik diləyirəm.

Ən səmimi salamlarımla,

**RƏCƏB TAYYİB ƏRDOĞAN**
**Türkiyə Respublikasının Prezidenti»**

**Abuzər İbrahimi Türkman** (*İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri*): Azərbaycan Respublikasının möhtərəm Prezidenti bu ili «Nəsimi ili» elan edibdir.

Azərbaycan dövlətinin, şəxsən cənab Prezident İlham Əliyevin və həmçinin Allahşükür Paşazadənin təşəbbüsü ilə keçirilən bu sammitə görə təşəkkür edir və uğurlar arzulayıram. Azərbaycan dövlətinə və xalqına xoşbəxtlik diləyirəm.

**Əl-Seyyid Mahmud əl-Şərif** (*Misir Ərəb Respublikasının Nümayəndələr Palatası Sədrinin birinci müavini*): Cənab Prezident, icazə verin, zati-alinizə, eyni zamanda, qardaş Azərbaycan xalqına gözəl qarşılanma və ev sahibliyinə görə dərin təşəkkür və ehtiramımı bildirim. Habelə icazə verin, Misir rəhbərliyinin – cənab Prezident Əbdülfəttah əs-Sisinin, Misir parlamentinin, hökumətinin və xalqının salamlarını Sizə çatdırım. Həmçinin Sizin müdrik rəhbərliyinizlə uğurlar qazanan Azərbaycan xalqını təbrik edim. İndi Sizin ölkədə müşahidə etdiyimiz rifah və tərəqqi nümunə götürüləcək məsələlərdən biridir.

Misir və Azərbaycan iki qardaş ölkədir və onların arasında tarixin dərinliklərinə varan əlaqələr vardır. Bu əlaqələr dünyaya sülh mesajını daşıyan, ekstremizm və terrorla mübarizə aparan bütün bəşər övladları arasında insani qardaşlığı əhatə edən əlaqələrdir.

Öz adımdan, Əl-Əsəri Şərif alimləri adından, deputatlar adından şeyx həzrətləri Allahşükür Paşazadəyə bəşər övladları arasında dinc yaşayış mədəniyyətini yaymaqda göstərdiyi səylərə görə parlamentin qızıl medalını təqdim etmək istəyirəm. Sizə təşəkkür edirəm.

*Misir Nümayəndələr Palatası Sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərif qızıl medalı şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.*

**Rüstəm Kasimov** (*Özbəkistan Respublikası Prezidentinin Dövlət müşaviri*): Möhtərəm İlham Heydər oğlu!

Çox hörmətli xanım Mehriban Əliyeva!

Çox hörmətli şeyxülislam Allahşükür Paşazadə!

Hörmətli nümayəndə heyətlərinin rəhbərləri, Bakı Sammitinin iştirakçıları!

İcazə verin, Özbəkistan Respublikasının nümayəndə heyəti adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Heydər oğlu Əliyevə, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə səmimi qəbul, qonaqpərvərlik və sammitin çox gözəl təşkilinə görə ürəkdən təşəkkürümü bildirim, həmçinin belə mötəbər tədbirdə çıxış etmək imkanına görə minnətdarlığımı ifadə edim.

Qeyd etmək lazımdır ki, Azərbaycanda konstruktiv sivilizasiyalararası və dinlərarası dialoqun möhkəmləndirilməsinə kömək edən beynəlxalq tədbirlərin keçirilməsi gözəl ənənəyə çevrilib. Beynəlxalq Tolerantlıq Günü ərəfəsində belə böyük tədbirin təşkili əlamətdar hadisədir və əminəm ki, o, dialoqun dərinləşdirilməsinə, millətlərarası anlaşmanın və dini tolerantlığın möhkəmləndirilməsi sahəsində sıx əməkdaşlığın inkişafına, müasir çağırışlara və təhlükələrə qarşı fəaliyyətə şərait yaradacaqdır.

Cənab Prezident, Siz də qeyd etdiyiniz kimi, hazırda – dünya ictimaiyyətinin ziddiyyətlərin, həmçinin dini şüarlar altında ekstremizm və terrorizmin kəskinləşməsi problemlərindən narahatlıq keçirdiyi bir şəraitdə bu çox vacibdir. Tolerantlıq Günü bizim respublikanın Prezidenti Şavkat Miromonoviç Mirziyoyevin təşəbbüsü ilə Özbəkistanda da geniş qeyd olunur. Bu il respublikanın bütün regionlarında «Özbəkistan – bizim ümumi evimiz» devizi altında təşkil olunan dostluq və

mədəniyyət tədbirləri çərçivəsində tolerantlıq həftəsi keçirilir.

Hörmətli sammit iştirakçıları, bu gün bizim ölkəmizdə, xüsusən yaradılmış İslam Sivilizasiya Mərkəzində, Beynəlxalq İslam Akademiyasında, İmam Buxari və İmam ət-Tirmizi elmi-tədqiqat mərkəzlərində, Ali Hədisşünaslıq Məktəbində milli və dini dəyərlərin dirçəldilməsi və qorunub saxlanılması, görkəmli alim və mütəfəkkirlərin zəngin elmi tarixi irsinin öyrənilməsi və təbliği, cəmiyyətdə dini tolerantlığın möhkəmləndirilməsi üzrə məqsədyönlü praktiki iş aparılır. «Kəlam», «Hədis», «Təsəvvüf», «Akıda» və «Fikh» elmi ilahiyyat məktəbləri açılıb, Özbəkistan Müsəlmanları İdarəsinin dini müəssisələri nəzdində islamın humanist ideyalarını təbliğ edən və yayan təlim kursları fəaliyyət göstərir. Buxaradakı məşhur Miri Ərəb mədrəsəsinin statusu ali dini tədris müəssisəsi səviyyəsinə qaldırılıb. Yeri gəlmişkən, bu məktəbin məzunlarından biri də hörmətli şeyxülislam Allahşükür Paşazadədir. Burada iştirak edən çox hörmətli din xadimlərinin arasında Miri Ərəb məktəbinin bir neçə məzununu görmək mənim üçün xoşdur. Onlar öz fundamental təhsilini bu mədrəsədə alıblar. Dini konfessiyaların səmərəli fəaliyyətinin həyata keçirilməsi, həmçinin onların cəmiyyət və dövlət həyatında fəal iştirakı üçün hər cür lazımi şərait yaradılıb. Ölkədə 182 qeyri-islam dini təşkilatı, 16 konfessiya fəaliyyət göstərir. Özbəkistanda ekstremizmə qarşı profilaktika işinin səmərəli sistemi yaradılıb. Bu sistemin prioritet istiqaməti yanlışlıqla terrorçu və

ekstremist, yaxud digər qadağan edilmiş təşkilat və qrupların tərkibinə daxil olmuş şəxslərin deradikallaşması və sosiallaşmasıdır. Məqsədyönlü fəaliyyət sayəsində biz radikal ideyaların təsiri altına düşmüş və sonra islah yoluna qayıtmış 20 min vətəndaşın yenidən sosiallaşması üçün əlverişli şərait yaradılmasına nail olmuşuq. Dövlət başçısının təşəbbüsü ilə əsasən Suriya və İraqda silahlı münaqişələr zonasından 220 min vətəndaşımızın vətənə qayıtması üzrə təşkil edilmiş «Mehr» və «Mehr-2» əməliyyatları həyata keçirilibdir.

Hörmətli sammit iştirakçıları, müasir qlobal proseslər, təhlükəsizliyə getdikcə artan çağırış və təhdidlər səylərin birləşdirilməsini, beynəlxalq əməkdaşlığın genişləndirilməsini və konfessiyalararası dialoqun inkişafının zəruriliyini şərtləndirir. Məlum olduğu kimi, 2018-ci ilin dekabrında Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə BMT Baş Assambleyasının «Sülh mədəniyyəti» mövzusunda 73-cü sessiyasında «Maarifləndirmə və dini tolerantlıq» adlı xüsusi qətnamə qəbul edilib. Bu gün bütün dünya, o cümlədən islam icması həyəcanlı çağırışlarla üz-üzədir. Dini şüurun siyasiləşdirilməsi və müsəlman gənclərin radikallaşdırılması cəhdləri ən ciddi təhlil, qiymətləndirmə və adekvat cavabların verilməsini tələb edir. Təəssüflə qeyd etmək lazım gəlir ki, müəyyən qüvvələr islamofobiya əhval-ruhiyyəsini qızışdıraraq, islamı terrorizm ideologiyası ilə əlaqələndirməyə çalışır. Hesab edirəm ki, bu reallıq islam dünyasını sıx birləşməyə məcbur edir, ölkələrimizin həmrəyliyi isə dünyada gərginliyin azaldılmasında rol oynaya bilər. Biz

hesab edirik ki, bütün ölkələr bərabər səviyyədə bu istiqamətdə səy göstərə bilər. Biz bu aktual vəzifələrin öhdəsindən ancaq birgə səylərlə gələ bilərik. Bu fəaliyyətdə bizim böyük əcdadlarımızın mötədillik, dini etiqad, sülhsevərlik və qarşılıqlı anlaşma kimi yüksək ümumbəşəri dəyərlərlə müşahidə olunan mənəvi irsinin mahiyyətinin və məzmununun beynəlxalq ictimaiyyətə çatdırılmasına xüsusi yer ayrılmalıdır.

Əziz dostlar, əminəm ki, Dünya Dini Liderlərinin Bakı Sammiti konfessiyalararası münasibətlərin bəşəriyyətin ümumi maraqları naminə inkişafına və ekstremizm, terrorizm və separatçılıq kimi qlobal təhlükələrin aradan qaldırılmasına yeni təkan olacaqdır. İcazə verin, sammit iştirakçılarına məhsuldar iş, möhkəm cansağlığı, sülh və əmin-amanlıq arzulayım.

Hörmətli İlham Heydər oğlu, icazə verin, çox hörmətli şeyxülislamin Özbəkistan Respublikasının dövlət mükafatı ilə təltif olunması haqqında Özbəkistan Respublikası Prezidentinin Fərmanını oxuyum və mükafatı ona təqdim edim.

## «Allahşükür Hümmət oğlu Paşazadənin «Dostluq» ordeni ilə təltif olunması haqqında» Özbəkistan Respublikası Prezidentinin Fərmanı:

Dünya sivilizasiyasının inkişafında müsəlman aləminin böyük alimləri və mütəfəkkirlərinin misilsiz töhfəsinin öyrənilməsi istiqamətində məhsuldar və aktiv fəaliyyətinə, müqəddəs islam dininin humanist fəaliyyətinin müxtəlif millətlərin və xalqların nümayəndələrinə geniş çatdırılmasına, beynəlxalq miqyasda konfessiyalararası və mədəniyyətlərarası dialoqun qurulmasına, özbək və Azərbaycan xalqları arasında dostluq və əməkdaşlığın, o cümlədən elm və maarifçilik sahəsində əlaqələrin möhkəmləndirilməsində böyük xidmətlərinə, dini və dünyəvi biliklərə malik olan ixtisaslı kadrların hazırlanmasında layiqli töhfəsinə, gənc nəslin tolerantlıq ruhunda tərbiyə olunmasına, sülh və anlaşmaya, qarşılıqlı hörmətə görə Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Hümmət oğlu Paşazadə «Dostluq» ordeni ilə təltif olunsun.

**Şavkat MİRZİYOYEV**
**Özbəkistan Respublikasının Prezidenti»**

*Dövlət müşaviri Rüstəm Kasimov Özbəkistanın «Dostluq» ordenini şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.*

*Gürcüstanın Azərbaycandakı səfiri Zurab Pataridze çıxış etdi və Prezident Salome Zurabişvilinin məktubunu oxudu.*

**Zurab Pataridze:** Hörmətli Prezident cənab İlham Əliyev, ilk növbədə, Sizi salamlayıram!

Hörmətli şeyxülislam Allahşükür Paşazadə həzrətlərini salamlayıram!

Hörmətli qonaqlar, sizi salamlayıram!

Mən burada Gürcüstan Prezidenti xanım Salome Zurabişvilinin təbrik məktubunu diqqətinizə çatdırmaq istərdim.

**«Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadəyə**

Zati-müqəddəsləri, Sizi bir daha böyük ehtiramla 70 illik yubileyiniz və şeyxülislamlıq fəaliyyətinizin 40 illiyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Siz öz ölkənizdə dini möhkəmləndirmisiniz, bu isə böyük məsuliyyətli və şərəfli işdir. Təəssüf hissi ilə bildirirəm ki, bu mühüm tarixlərə həsr olunmuş tədbirlərdə iştirak edə bilməyəcəyəm. Gürcülər və azərbaycanlılar fərqli dinlərin nümayəndələridir. Lakin buna baxmayaraq, bizi yaxın dostluq əlaqələri birləşdirir. Bu münasibətlərin qorunub saxlanılmasında və möhkəmləndirilməsində mən hər zaman Sizin və Gürcüstanın katolikos-patriarxının şəxsi rolunu görürəm. İnanıram ki, bu dostluq heç zaman sarsılmayacaq, onu qoruyub saxlayacağıq və bununla regionumuzu daha da gücləndirəcəyik. Məhz bizim region üçün sülh, inkişaf

xüsusi əhəmiyyət kəsb edir. Sizə uzun ömür, gümrahlıq və fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

*Hörmətlə,*

**Salome ZURABİŞVİLİ**
**Gürcüstan Prezidenti»**

*Rusiya Federasiyası Çeçenistan Respublikasının müftisi, Çeçenistan rəhbərinin müşaviri Salah Mezhiyev Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun məktubunu oxudu.*

**S a l a h  M e z h i y e v:** Hörmətli Prezident İlham Heydər oğlu!

Bu ali məclisin hörmətli iştirakçıları!

Mən Çeçenistan Respublikasının başçısı Ramzan Əhmədoviç Kadırovun adından təbrik məktubunu diqqətinizə çatdırıram.

### «Dünya Dini Liderlərinin II Sammitinin iştirakçılarına

Mən Dünya Dini Liderlərinin II Sammitinin iştirakçılarını və qonaqlarını salamlayıram. Sammit təkcə qardaş Azərbaycan üçün yox, həm də bütün Qafqaz üçün əlamətdar hadisədir. Çeçenistan Respublikasının birinci Prezidenti, Rusiyanın Qəhrəmanı Hacı Əhməd Kadırov hörmətli şeyxülislam Allahşükür Paşazadənin dostu olub. Onlar Qafqaz üçün mürəkkəb illərdə öz

birgə fəaliyyətləri ilə qardaş xalqlarımız arasında dostluq və qarşılıqlı anlaşma körpüsü yaradıblar. Biz indi bu qiymətli irsin bəhrəsini görürük. Rusiya və Azərbaycan siyasi və dini məsələlərdə ortaq mövqeyə malikdir. Bu mövqe radikalizmə yol verilməməsi prinsiplərinə əsaslanır.

Çeçenistanın ekstremizmə və terrorizmə qarşı mübarizədə böyük təcrübəsi vardır. Qanunsuz silahlı qrup laşmaların 11 mindən çox üzvü Hacı Əhməd Kadırovun səyləri sayəsində tərk-silah olub. Hacı Əhməd Kadırov müharibənin davam etməsinin yolverilməzliyi barədə dindən əsaslar gətirib. Həmin dindən ki, peyğəmbər bütün dünyaya mərhəmət yayıb. Şübhəsiz ki, islam ümmətinin əsas vəzifələrindən biri bütün sağlam qüvvələrin birləşməsidir və mübaliğəsiz demək olar ki, şeyxülislam Allahşükür Paşazadənin Qafqaz Müsəlmanları İdarəsinin sədri vəzifəsində fəaliyyəti buna xidmət edir. Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin yaradılmasını vaxtında atılmış və zəruri addım olduğunu hesab edirəm. Bu addım ortaq səyləri əlaqələndirməyə kömək edəcəkdir.

Bu gün Qafqazda dinlərin və mədəniyyətlərin dialoquna həmişəkindən daha çox ehtiyac vardır. Bunun üçün potensial mövcuddur. Başlıcası, dinimizin əməkdaşlığa və qarşılıqlı anlaşmaya çağırmasını əsas tutaraq, planauyğun iş aparmaqdır. Müqəddəs Quranda deyilir: «Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın!» İslam ümmətinin tarixi bizə meydana gələn problemləri, nifaq və fikir ayrılıqlarını necə

aşmağın mümkün və lazım olduğunu göstərir. Bizim saleh əcdadlarımız ağır sınaqlardan keçib, sülh və anlaşma şəraitində yaşamağı vəsiyyət ediblər. Birliyin qüdrətli gücü təkcə müsəlmanları deyil, həm də bütün bəşəriyyəti dəyişəcək. Əminəm ki, sammit müasir dövrün bir sıra aktual problemlərinin həllinə sanballı töhfə olacaqdır.

**Ramzan**
**KADIROV**
**Çeçenistan Respublikasının**
**başçısı»**

Hörmətli şeyx həzrətləri, icazə verin, Ramzan Əhmədoviç Kadırovun və bütün çeçen xalqının adından Sizə yubileyiniz münasibətilə təbrikləri çatdırım və uca Allahın kitabı olan Quranı təqdim edim.

*Çeçenistan Respublikasının müftisi, Çeçenistan rəhbərinin müşaviri Salah Mezhiyev Quranı şeyxülislam Allahşükür Paşazadəyə təqdim etdi.*

**Malkolm Honlayn** (*Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini*):

Bu tədbir cəmiyyətlərdə fikir ayrılıqlarının şahidi olduğumuz və din pərdəsi altında nifrət, fanatizm, irqçilik aktlarının həyata keçirildiyi dövrdə mühüm əhəmiyyətə malikdir. Təbii ki, bu öz fəaliyyəti və işləri ilə ardıcıl olaraq cəsarət və anlayış nümayiş etdirən Prezident İlham

Əliyevin rəhbərliyi sayəsində mümkün olubdur. Həm Prezident İlham Əliyev, həm də şeyxülislam sözləri işlərlə uzlaşdırırlar. Onlar bilirlər ki, hansı ortaq dəyərlərə sahib olduğumuzu görmək və bizi ayıran yox, birləşdirən məqamların nələr olduğunu vurğulamaq üçün bir araya gəlmişik. Biz dünya liderləri səviyyəsində buraya toplaşmışıq ki, qarşılıqlı anlaşmanı, tolerantlığı təbliğ edək, Prezident İlham Əliyev və şeyxülislam tərəfindən müəyyən edilmiş nümunəni izləyək. Mən bizi bu yolla bir araya gətirə biləcək çox lider tanımıram.

Prezident İlham Əliyev və şeyxülislam bəyanatlar və sözlər verməklə kifayətlənmir, onların həyata keçməsi üçün əməli addımlar atırlar. Başqalarının istismarçılıqla məşğul olub, insanlar arasında gərginliklər yaratdığı bir vaxtda onlar hamının bir araya gəlməsinin nə qədər faydalı ola biləcəyini göstərirlər. Hamı bu yanaşmadan qazana bilər.

Biz bütün dünyada çox vaxt digər dinləri hədəfə almaqla, dini motivasiyalı nifrət zəminində cinayətlərin sayının kəskin şəkildə artdığının şahidi oluruq. Biz xristianların, müsəlmanların, bütün dinlərin nümayəndələrinin hədəfə alındığını görmüşük. Biz xüsusilə yəhudilərə münasibətdə nifrət – antisemitizm aktlarının artmasının şahidi olmuşuq. Yəhudi inancından olan fərdlər və təsisatlar fiziki zorakılıq, ayrı-seçkilik və qısnama aktlarının hədəfinə çevriliblər. Bunun şahidi olmadığımız yerlərdən biri məhz bura – Azərbaycandır.

Bizim Prezident və şeyxülislamın göstərdiyi nümunəyə əməl etməkdə üzərimizə düşəni etməməyimiz o de-

məkdir ki, bütün gələcək nəsillər də buna görə əziyyət çəkəcəklər. Nifrətə «yox» – deməyin vaxtı çatıb.

Amerikanın yəhudi icması, cənab Prezident İlham Əliyev, Sizə və hörmətli şeyxülislam, Sizə nümunə olduğunuza görə ehtiramını bildirir. Siz böyük liderlər və dəyərli dostlarsınız. Ümidvarıq ki, alınan dərslər gələcəkdə digər liderlərə nümunə olacaqdır.

*KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin baş katibi Feysəl bin Muammar çıxışını gənc liderlərin mədəniyyətlərarası dialoqda, tolerantlığın qorunmasında daha böyük rol oynamasının önəminə yönəltdi.*

* * *

**Ş l o m o  A m ar:** (*Qüds–Yerusəlimin ortodoks baş ravvini*): *Azərbaycan dünya miqyasında elə bir ölkədir ki, burada bütün proseslər sabit, rəvan şəkildə həyata keçirilir. Prezident İlham Əliyev bu gün bir çox cəmiyyətlər üçün bir siyasi xadim kimi çox yaxşı nümunədir, öz fəaliyyəti ilə yaxşı örnəkdir. Biz görürük ki, burada dinlər arasında anlaşmaya xüsusi töhfə verilir. Siz həmçinin xalqlar arasında da dostluq münasibətlərinin, sülhsevərlik mədəniyyətinin daha da inkişafına töhfə verirsiniz. Siz əslində öz səsinizlə bizim bu birliyimizi gücləndirirsiniz.*

Mənim yaxşı xatirimdədir, artıq 10 il keçir, mən ilk dəfə ölkənizə səfər etdim, Prezident İlham Əliyevlə və bir sıra digər rəsmilərlə görüşlərim oldu. Görüşümüz zamanı xüsusi bir qərar qəbul olundu ki, bizim yəhudi məktəbimiz paytaxt şəhərinizdə tikilsin. Biz buna görə minnətdarıq. Əlbəttə, bu əslində Prezident İlham Əliyevin xoş məramı, xoş arzusu, niyyəti idi ki, bu məktəb tikildi. Təbii ki, onun istəyi hər zaman insanlar arasında yaxşı işlərin görülməsinə yönələn bir arzudur. Bilirik ki, ümumiyyətlə, Azərbaycanda belə nəcib layihələrin sayı kifayət qədər çoxdur. Bilirik ki, sinaqoqun tam şəkildə bərpa olunmasına, yəhudi icmasının arzu və istəklərinin həllinə böyük töhfələr verilib. Bir azlıq olaraq, Azərbaycanda hər zaman Prezident tərəfindən bizə olan rəğbətin, hörmətin şahidi olmuşuq.

**Abdallah əl-Mətuq** (*BMT Baş katibinin humanitar məsələlər üzrə xüsusi məsləhətçisi*): Biz bu sammitin məhz Azərbaycanda keçirilməsini yüksək qiymətləndiririk. Birgəyaşayış, multikulturalizm dəyərlərinə dəstək olaraq, bu sammitdə iştirakımızdan qürur hissi keçiririk.

Azərbaycan dini liderlər arasında körpü yaratmaq, dialoq yollarını gücləndirmək, müştərək insani dəyərləri dərinləşdirmək, multikulturalizm və dini dəyərlər vasitəsilə gənclərin düşüncəsini inkişaf etdirmək, həmçinin ksenofobiya, ifratçılıq və ekstremizmin bütün formaları ilə mübarizə aparmaq üçün dünyanın müxtəlif dövlətlərindən dini rəhbərləri bir araya toplamaq işində nümunəvi təcrübəyə malik bir ölkədir.

**R ə ş i d  T e m r e z o v** (*Rusiya Federasiyası Qaraçay-Çərkəz Respublikasının başçısı*): Əvvəl, mən bizi Azərbaycana dəvət etdiyinə görə hörmətli cənab Prezidentə təşəkkürümü bildirirəm. Biz hər zaman böyük məmnuniyyətlə ölkənizə səfər edirik və hər zaman burada müsbət dəyişikliklərin şahidi oluruq. Sevindirici haldır ki, regionlararası səviyyədə Rusiya Federasiyasının subyektləri ilə Azərbaycan Respublikası arasındakı əməkdaşlıq ildən-ilə yaxşılaşır, güclənir.

*Bütün Gürcüstanın katolikos-patriarxı II İliyanın vikarisi mitropolit Teodor patriarxın məktubunu oxudu.*

*Qloballaşmanın sülhə təsirinin aktual məsələ olaraq qaldığı vurğulanan məktubda problemlərin aradan qaldırılmasında dini liderlərin öz sözlərini demələrinin vacibliyi qeyd olunur.*

*Məktubda deyilir*: «Bu beynəlxalq sammitin təşkilatçılarını və iştirakçılarını, Azərbaycan Prezidenti zati-aliləri cənab İlham Əliyevi, dini liderləri və müxtəlif ölkələrin siyasi xadimlərini səmimi-qəlbdən salamlayıram. Qafqaz Müsəlmanları İdarəsinin sədri, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin rəhbəri şeyxülislam Allahşükür Paşazadəni xüsusi olaraq salamlayıram. Onun 70 yaşının tamam olması, eləcə də şeyxülislam kimi 40 illik xidməti bu tədbirin Azərbaycanda keçirilməsində başlıca meyarlardan biridir».

*Birləşmiş Ərəb Əmirlikləri Prezidentinin dini işlər üzrə müşaviri Əl-Sayed əl-Haşim çıxış edərək, sammitin önəmindən danışdı, Azərbaycanın dinlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələri vurğuladı.*

**X a l e d  A k a ş e** (*Vatikanın Dinlərarası Pontifik Şurasının İslam ilə dialoq departamentinin sədri*): Cənab Prezident, ölkəniz çoxmillətlidir. Burada müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri dinc yanaşı yaşayırlar. Sizin rəhbərlik etdiyiniz və vətəndaşlarının qayğısına qaldığınız ölkədə din dövlətdən ayrıdır. Bu nə dinə düşmənçilik, nə də onun cəmiyyətdəki rolunu görməməzlikdir. Bu, adi işlərlə müdrikliyi fərqləndirmək, ədaləti qorumaq, insanlar arasında bərabərliyi həyata keçirmək zərurətindən irəli gəlir.

Həmçinin Azərbaycan Sizin rəhbərliyinizlə təkcə ölkə daxilində deyil, eləcə də regionda və dünya miqyasında qarşılıqlı hörmətin, sülh şəraitində birgəyaşayışın və səmərəli əməkdaşlığın gücləndirilməsi üçün çox dəyərli iş görür. Dini liderlərin bu özünəməxsus toplantısı dediklərimə ən yaxşı sübutdur.

*«RABİTA» Müsəlman Dünyası Liqası baş katibinin müavini Əbdüləziz Əhməd Sarhan və «Yaşamaq sənəti» beynəlxalq təşkilatının təsisçisinin xüsusi nümayəndəsi Svami Divyateç çıxışlarında terrorizmin bütün təzahürlərini pisləyərək, gənclərə din haqqında məlumatların daha dolğun çatdırılmasının əhəmiyyətini vurğuladılar, mədəni müxtəlifliyin qorunub saxlanılmasının vacibliyini qeyd etdilər.*

*Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə bir daha sammitin əhəmiyyətini vurğulayaraq, tədbirə gələn qonaqlara təşəkkürünü bildirdi.*

*Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70 illiyi ilə bağlı yubiley tədbirləri çərçivəsində*

*keçirilmiş sammitdə dünyanın 5 qitəsindən 70-dən çox dövlətin, 25 ənənəvi din və dini təriqətin lider və təmsilçiləri, həmçinin 10-dək nüfuzlu beynəlxalq təşkilatın 500-ə yaxın yüksək səviyyəli nümayəndəsi, o cümlədən Rusiya Federasiyası subyektlərinin başçıları və dini rəhbərləri iştirak etdilər.*

*Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi başəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə ev sahibliyi etdiyi Dünya Dini Liderlərinin II Bakı Sammiti Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən «Bakı prosesi», «Multikulturalizm» və «İslam həmrəyliyi» illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, o cümlədən Dünya Dini Liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişləndirilməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamıdır.*

*İkigünlük sammitdə «Multikulturalizm, tolerantlıq və dinlərarası həmrəyliyin təşviqində Azərbaycan dövlətinin nümunəvi rolu», «Şeyxülislam Allahşükür Paşazadənin dini rəhbər və ictimai xadim kimi sivilizasiyalararası və dinlərarası əməkdaşlığın inkişafına töhfəsi», «Dini liderlər terrorizm, təcavüzkarlıq, ksenofobiya, islamofobiya, antisemitizm və xristianofobiya əleyhinə», «Qadın və uşaq haqlarının qorunması, gənclərin maarifləndirilməsində dini liderlərin, dövlət, elm və*

*ictimai xadimlərin birgə fəaliyyətinin əhəmiyyəti» mövzuları ətrafında müzakirələr aparıldı.*

## QEYDLƏR

**1. Müstəqil Dövlətlər Birliyi**(MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə Azərbaycan, Belarus, Ermənistan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş Nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Pe-

terburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 7, 10, 12, 35, 208–213.

**2. Dünya Bankı** – BMT-nin hökumətlərarası ixtisaslaşdırılmış idarəsi. 1944-cü ildə ABŞ-da Bretton-Vuds konfransında təsis olunmuşdur. İdarə Heyəti Vaşinqtondadır. Məqsədi inkişaf etməkdə olan ölkələrin iqtisadi və sosial dirçəlişinə kömək etməkdir. Səhmdar cəmiyyəti formasındadır və iştirakçıları yalnız Beynəlxalq Valyuta Fondunun üzvləridir. Banka 188 dövlət daxildir. 1992-ci ildən Azərbaycan Respublikası Dünya Bankının üzvüdür. – 9, 61, 121, 271.

**3. Avropa Yenidənqurma və İnkişaf Bankı –** Qərbi və Şərqi Avropa, MDB ölkələrini uzunmüddətli kreditlə təchiz edən regional dövlətlərarası bank. 1990-cı ildə yaradılmışdır. Mənzil-qərargahı Londonda yerləşir. Bankın 61 üzvü var, eləcə də Avropa İnvestisiya Bankı və Avropa İttifaqı ora daxildir. – 9.

**4. Asiya İnkişaf Bankı** – Asiya və Sakit okean ölkələrinə uzunmüddətli kredit verən dövlətlərarası regional bank. 1966-cı ildə yaradılıb. Banka 50-yə yaxın ölkə daxildir. Ən böyük aksionerləri Yaponiya, ABŞ, Çindir. Mənzil-qərargahı Manilada yerləşir. – 9.

**5. Beynəlxalq Valyuta Fondu** (BVF) – beynəlxalq valyuta-maliyyə təşkilatı, BMT-nin ixtisaslaşmış orqanı. BMT-nin Bretton-Vudsda keçirilmiş konfransının qərarına əsasən (1944) yaradılıb, 1947-ci ildən əməliyyatlara başlayıbdır. Mənzil-qərargahı Vaşinqtonda yerləşir. 189 dövlət BVF-nin üzvüdür. İşçilərinin sayı 133 ölkədə 2500 nəfərdir. Kvotaların ümumi həcmi 383 milyard dollardır. Ehtiyat ayrılmaları üçün qəbul edilən əlavə öhdəliklər 600 milyard dollardır.

BVF-nin maliyyə resursları üzv ölkələrin üzvlük haqlarından – SDR-lə (beynəlxalq hesablaşma vahidləri) ifadə olunan kvotadan formalaşır. Kvota ölkənin iqtisadi potensialı və dünya ticarətindəki mövqeyindən asılı olaraq müəyyən edilir. 1992-ci ildən Azərbaycan Respublikası BVF-nin üzvüdür. – 9.

**6. Dünya İqtisadi Forumu,** D a v o s İ q t i s a d i F o r u m u – İsveçrənin kurort şəhəri Davosda keçirilən Forum. Forum 1971-ci ildə yaradılmışdır. Siyasi liderlər foruma ilk dəfə 1974-cü ildə dəvət edilmişdilər. Forum bu tarixdən qısa bir müddət sonra siyasi liderlər tərəfindən tərəfsiz bir platforma olaraq istifadə edilməyə başlanıldı. 1995-ci il yanvarın 26–30-da Azərbaycan Prezidenti Heydər Əliyev başda olmaqla, Azərbaycan

nümayəndə heyəti ilk dəfə bu Forumda iştirak etmişdir. – 10, 11, 35, 61, 122, 251, 254, 261.

**7. Əli Əsədov,** Ə l i  H i d a y ə t  o ğ l u (d.1956) – iqtisadçı. Azərbaycanın dövlət və siyasi xadimi. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. 1998–2012-ci illərdə Prezidentin İqtisadi məsələlər üzrə köməkçisi, 2012–2019-cu illərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, 2019-cu il oktyabrın 8-dən isə Azərbaycan Respublikasının Baş Naziridir. – 12, 15.

**8. Sahil Babayev,** S a h i l  R a f i q  o ğ l u (d.1980) – hüquq elmləri üzrə fəlsəfə doktoru, 1999–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Xarici İnvestisiyalar İdarəsinin baş mütəxəssisi vəzifəsində çalışıb. 2009-cu ildən İqtisadi İnkişaf Nazirliyinin Xarici İnvestisiyalar və Yardımların Əlaqələndirilməsi şöbəsinin müdiri olmuş, Azərbaycan Respublikası Prezidentinin 13 mart 2014-cü il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat və Sənaye nazirinin müavini, 30 yanvar 2016-cı il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasının İqtisadiyyat nazirinin müavini vəzifəsinə təyin edilmişdir. 2018-ci ildən isə Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi naziridir. – 13, 15, 22–24.

**9. Mehriban Əliyeva,** M e h r i b a n A r i f q ı- z ı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–92-ci illərdə akademik M.Krasnovun rəhbərliyi altında Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondunu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüşdür. 1996-cı ildə fond Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün 3 dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan–İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə UNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005–2017-ci illərdə Milli Məclisin üzvü olmuşdur. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliğinə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. 2015-ci ildə Bakıda keçirilmiş ilk Avropa oyunlarının Təşkilat Komitəsinin sədri olmuş, oyunların yüksək səviyyədə keçirilməsində müstəsna xidmətlərinə görə «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 15, 52, 134, 243–247, 275, 283, 294, 295, 300.

**10. Samir Şərifov,** S a m i r  R a u f  o ğ l u (d.1961) – hüquqşünas. 2001–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Fondunun icraçı direktoru olmuşdur. 2006-cı ildən Azərbaycan Respublikasının Maliyyə naziridir. Eyni zamanda, Qara Dəniz Ticarət və İnkişaf Bankında Azərbaycan Respublikası üzrə təməlçi direktordur. – 15, 16–17.

**11. Mikayıl Cabbarov, M i k a y ı l  Ç i n g i z o ğ l u** (d.1976) – hüquqşünas-iqtisadçı. 2004–2009-cu

illərdə Azərbaycan Respublikası İqtisadi İnkişaf nazirinin müavini, 2013–2017-ci illərdə Azərbaycan Respublikasının Təhsil naziri, 2017–2019-cu illərdə isə Vergilər naziri olmuşdur. 2019-cu il oktyabrın 23-dən İqtisadiyyat naziridir. – 15, 68–76.

**12. Elman Rüstəmov,** E l m a n  S i r a c  o ğ l u (d.1952) – iqtisadçı, iqtisad elmləri doktoru. 1992-ci ildə Azərbaycan Respublikası İdarə Heyəti sədrinin birinci müavini vəzifəsinə təyin edilmişdir. 1995-ci ildən Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin sədridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 15.

**13. Şahin Mustafayev,** Ş a h i n  A b d u l l a  o ğ- l u (d.1965) – 2008–2013-cü illərdə Azərbaycan Respublikasının İqtisadi İnkişaf naziri, 2013–2016-cı illərdə İqtisadiyyat və Sənaye naziri, 2016–2019-cu illərdə isə İqtisadiyyat naziri olmuşdur. 22 oktyabr 2019-cu ildən Azərbaycan Respublikası Baş Nazirinin müavinidir. – 15, 18, 19, 20, 60–62.

**14. Koreya,** K o r e y a  R e s p u b l i k a s ı – Şərqi Asiyada dövlət. Sahəsi 100,2 min km$^2$, əhalisi 51,8 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə, mərkəzə tabeli 6 və 1 xüsusi statuslu şəhərə bölünür.

Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Seul şəhəridir. – 27–30.

**15. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti neft və qaz ehtiyatlarına dair sazişlərin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikasının əldə etdiyi gəlirlərin toplanılmasını, səmərəli idarə edilməsini, gələcək nəsillər üçün saxlanılmasını təmin edən xüsusi məqsədli dövlət qurumudur. – 28.

**16. Türkiyə,** Türkiyə Cümhuriyyəti – Qərbi Asiyada və Avropanın cənub-şərqində dövlət. Sahəsi 783,5 min $km^2$, əhalisi 80,8 milyon nəfərdir. İnzibati cəhətdən 81 ilə (vilayətə) bölünür. Dövlət başçısı Prezident, ali qanunverici orqanı Türkiyə Böyük Millət Məclisidir. Paytaxtı Ankara şəhəridir. – 29, 139–140, 262, 308–309.

**17. Macarıstan** – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min $km^2$, əhalisi 9,6 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeşt şəhəridir. – 29, 58.

**18. İspaniya,** İspaniya Krallığı – Cənub-Qərbi Avropada dövlət. Sahəsi 506 min $km^2$, əhalisi 47,3 milyon nəfərdir. İnzibati ərazisi 17 muxtar

vilayətə daxil olan 50 əyalətə bölünür. İspaniya konstitusiyalı monarxiyadır. Dövlət başçısı Kral, qanunverici orqanı Korteslərdir (ikipalatalı parlament – Konqres və Senat). Mərakeş sahilindəki Seuta və Melilya anklav şəhərləri İspaniyanın mülküdür. Paytaxtı Madrid şəhəridir. – 31, 295.

**19. VI Felipe** (d.1968) – 2014-cü ildən İspaniya Kralıdır. – 31.

**20. Aydın Süleymanlı,** Aydın Elşən oğlu (d.2005) – Azərbaycan şahmatçısı. FİDE ustası (2017). Yeniyetmələr arasında dünya və ikiqat Avropa çempionu. – 32.

**21. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 378 min $km^2$, əhalisi 127 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 33.

**22. Şinzo Abe** (d.1954) – Yaponiyanın dövlət və siyasi xadimi. 2006–2007-ci illərdə və 2012-ci ildən Yaponiyanın Baş Naziridir. – 33.

**23. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna 2 sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından Rusiya, ABŞ və Fransa həmsədr ölkələrdir. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 34.

**24. Rusiya,** Rusiya Federasiyası – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Sahəsi 17,125 milyon km$^2$, əhalisi 146,5 milyon nəfərdir. Rusiya Federasiyasına 22 respublika, 9 diyar, 46 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 4 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 34, 38, 59, 120, 212–213, 262, 272–275, 300–308, 317–319.

**25. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla

əhatə olunur. Sahəsi 9,5 milyon $km^2$, əhalisi 327,6 milyon nəfərdir. İnzibati cəhətdən 50 ştat və Kolumbiya federal paytaxt dairəsinə bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı Prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 34, 120, 201, 281–282.

**26. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Sahəsi 4,4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988-ci ildən muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq, Dağlıq Qarabağın işğalına başladılar. Dağlıq Qarabağın və ətraf rayonların işğaldan azad edilməsi üçün BMT-nin 822, 853, 874, 884 saylı qətnamələri olmasına baxmayaraq, Ermənistan silahlı qüvvələri hələ də Azərbaycan torpaqlarını işğal altında saxlayır. – 34, 118, 126, 135, 147, 190, 214, 290.

**27. Saleh Məmmədov,** Saleh Ərşad oğlu (d.1958) – Əməkdar mühəndis. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi İdarə Heyətinin sədridir.

Azərbaycan Respublikası «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 35–40, 224–228.

**28. Xınalıq** – Azərbaycan Respublikasının Quba rayonunda kənd. Baş Qafqaz və Yan silsilələri arasında, çökəklikdədir. Əhalisi 2070 nəfərdir. Xınalıq kəndinin erkən orta əsrlərdə salındığı ehtimal edilir.

Kəndin əhalisi Xınalıq dilində danışır. Qafqazın ən yüksək dağ kəndlərindəndir. – 37.

**29. Rövşən Rzayev,** R ö v ş ə n Ş ü k ü r o ğ l u (d.1962) – hüquqşünas. 4-cü çağırış Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. 2018-ci ildən Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. – 41–46.

**30. Latviya,** L a t v i y a R e s p u b l i k a s ı – Şərqi Avropada, Pribaltikada dövlət. Sahəsi 64,5 min $km^2$, əhalisi 1,9 milyon nəfərdir. İnzibati ərazisi 26 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı Seymdir. Paytaxtı Riqa şəhəridir. – 47–48.

**31. Raymonds Veyonis** (d.1966) – Latviyanın siyasi xadimi. 2015–2019-cu illərdə Latviya Respublikasının Prezidenti olmuşdur. – 47–48.

**32. Azərbaycan Diplomatik Akademiyası** (ADA U n i v e r s i t e t i) – beynəlxalq münasibətlər və diplomatiya, biznes administrasiyası, energetikanın idarə edilməsi və ətraf mühit və s. sahələr üzrə mütəxəssis hazırlayır. 2006-cı ildə təsis edilmişdir. ADA-nın fəaliyyəti bakalavr, magistr, xarici siyasət proqramı, doktorantlara dəstək proqramı – doktoranturada təhsil alan gənc alimlərə elmi işləri üçün qrantlar ayırır. Dərslər ingilis dilində aparılır. ADA-da dünyanın 16 aparıcı institutundan cəlb edilmiş professor-müəllim heyəti çalışır. – 47.

**33. Qərbi Kaspi Universiteti** – Azərbaycan Respublikasının Bakı şəhərində fəaliyyət göstərən ali təhsil müəssisəsi. 1991-ci ildə təsis edilmişdir. – 47.

**34. Çin Xalq Respublikası** (ÇXR) – Mərkəzi və Şərqi Asiyada dövlət. Sahəsi 9,6 milyon km$^2$, əhalisi 1,4 milyard nəfərdir. İnzibati cəhətdən 22 əyalətə (Tayvansız), 5 muxtar rayona və mərkəz tabeliyində olan 3 şəhərə (Pekin, Şanxay, Tyantszin) bölünür. Ali dövlət hakimiyyəti orqanı Ümumçin Xalq Nümayəndələri Məclisidir. Dövlət başçısı Çin Xalq Respublikasının Sədridir. Paytaxtı Pekin şəhəridir. – 48.

**35. Polşa,** P o l ş a R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7

milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 48.

**36. Birləşmiş Ərəb Əmirlikləri** – Yaxın Şərqdə dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 5,5 milyon nəfərdir. Birləşmiş Ərəb Əmirliklərinin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı Federal Milli Şuradır ki, Prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 48, 79–80, 156–158, 258–260.

**37. Heydər Əliyev,** H e y d ə r Ə l i r z a o ğ l u (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının Prezidenti (1993–2003), 2 dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın Büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni

istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda, SSRİ Nazirlər Soveti Sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır.

O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Azərbaycan Respublikası Ali Sovetinin Sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın ozamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti,

eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H.Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon Sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanı Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən Prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin Fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 49, 50, 51, 53, 54, 56, 82, 84, 85, 86, 87, 109, 120, 169, 182, 209, 239, 287, 288, 295, 296.

**38. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5000-ə yaxın ilk partiya təşkilatı vardır. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Üzvlərinin sayına görə parlamentdə çoxluq təşkil edir. Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında, iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP-ın təsis konfransında (1992) mərhum Prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdir. 2005-ci ilin mart ayından isə YAP-ın sədri Prezident İlham Əliyevdir. – 50, 55.

**39**. **Əjdər Xanbabayev,** Ə j d ə r R z a o ğ l u (d.1931–1990) – Azərbaycanın görkəmli naşiri, «Azərnəşr»in sabiq direktoru. 1990-cı il mayın 30-da naməlum şəraitdə qətlə yetirilmişdir. – 54.

**40. Yanoş Ader** (d.1953) – Macarıstanın siyasi və dövlət xadimi. 2012-ci ildən Macarıstanın Prezidentidir. – 58.

**41. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının Prezidenti olmuşdur. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası Prezidenti Administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999–2000 və 2008–2012-ci illərdə Rusiya hökumətinin başçısı, 2012 və 2018-ci ildə yenidən Rusiya Federasiyasının Prezidenti seçilmişdir. – 59, 273, 306.

**42. Bakı–Tbilisi–Qars** – Azərbaycan, Gürcüstan və Türkiyəni dəmir yolu ilə birləşdirən nəqliyyat dəhlizi. 30 oktyabr 2017-ci ildə istifadəyə verilmişdir. Yolun uzunluğu 826 km-dir. – 66, 261, 262, 263.

**43. Çex,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. Paytaxtı Praqa şəhəridir. – 67.

**44. Miloş Zeman** (d.1944) – Çexiyanın dövlət və siyasi xadimi. 2013-cü ildən Çex Respublikasının Prezidentidir. – 67.

**45. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Enerji naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara Bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 71, 251.

**46. «Cənub Qaz Dəhlizi»** – Azərbaycanda hasil olunan enerjidaşıyıcılarını Gürcüstan və Türkiyə vasitəsilə Qərb bazarlarına nəql edir. – 71, 251.

**47. İran,** İ r a n  İ s l a m  R e s p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 81 milyon nəfərdir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş Nazir təşkil, Prezident isə təsdiq edir. Paytaxtı Tehran şəhəridir. – 77–78, 95–97, 124, 262, 276–277.

**48. Məhəmməd Cavad Zərif** (d.1960) – İran diplomatı və dövlət xadimi. 2013-cü ildən İran İslam Respublikasının Xarici İşlər naziridir. – 77–78.

**49. Həsən Ruhani** (d.1948) – hüquqşünas. 2013-cü ildən İran İslam Respublikasının Prezidentidir. – 77, 78, 95–97, 124, 276.

**50. Şeyx Xəlifə bin Zaid əl-Nəhəyyan** (d.1948) – 2004-cü ildən Birləşmiş Ərəb Əmirliklərinin Prezidentidir. – 79–80, 259, 260.

**51. Ramiz Mehdiyev,** R a m i z Ə n v ə r o ğ l u (d.1938) – Azərbaycanın görkəmli siyasi və dövlət xadimi, fəlsəfə elmləri doktoru, professor, Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti. 1978–80-ci illərdə Rayon Partiya Komitəsinin birinci katibi, 1980–81-ci illərdə Azərbaycan KP MK-da elm və təhsil şöbəsinin müdiri, 1981–83-cü illərdə Azərbaycan KP MK-da partiya-təşkilat işi şöbəsinin müdiri, 1983–88-ci illərdə Azərbaycan KP MK-da katib, 1988–94-cü illərdə Azərbaycan EA-nın İctimai-Siyasi Tədqiqatlar və İnformasiya İnstitutunda şöbə müdiri, 1994-cü ildə Azərbaycan Respublikası Prezidenti İcra Aparatının şöbə müdiri, 1995–2019-cu ilin oktyabrına qədər Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, 1995–2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin üzvü olmuşdur. Müasir siyasi problemlərə, dövlət quruculuğuna aid bir çox kitab və monoqrafiyaların müəllifidir. Beynəlxalq Nyu York Aka-

demiyasının və Türk Dünyası Araşdırmalar Uluslararası Elmlər Akademiyasının üzvüdür. «Heydər Əliyev», «Şöhrət», «Şərəf», «İstiqlal» və Rusiya Federasiyasının «Dostluq» və «Şərəf» ordenləri ilə təltif edilmişdir. – 81–88.

**52. Akif Əlizadə,** A k i f A ğ a m e h d i o ğ l u (d.1934) – görkəmli geoloq-alim, əməkdar elm xadimi, Azərbaycan Dövlət mükafatı laureatı. 2013– 2019-cu illərdə Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Himayəçilik Şurasının sədri, Yeni Azərbaycan Partiyasının sədr müavinidir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf» və «İstiqlal» ordenləri ilə təltif edilmişdir. – 89–94.

**53. «Azəri–Çıraq–Günəşli» –** Xəzərin Azərbaycan sektorunda ən iri neft yataqları bloku. Bakıdan təxminən 120 km şərqdə yerləşən bu yataqlar Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) adından *bp* şirkəti tərəfindən işlənilir. – 92.

**54. Vyetnam,** V y e t n a m S o s i a l i s t R e s p u b- l i k a s ı (VSR) – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 331,2 min km$^2$, əhalisi 92,5 milyon nəfərdir. İnzibati ərazisi 50 əyalətə bölünür. Dövlət başçısı Prezident,

ali orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Hanoy şəhəridir. – 98–101.

**55. Nquyen Fu Çonq** (d.1944) – Vyetnamın siyasi və dövlət xadimi. 2018-ci ildən Vyetnam Sosialist Respublikasının Prezidentidir. – 100.

**56. Koreya Xalq Demokratik Respublikası** – Şərqi Asiyada, Koreya yarımadasında dövlət. 1948-ci ildə yaradılmışdır. Sahəsi 120,5 min km$^2$, əhalisi 25,5 milyon nəfərdir. İnzibati ərazisi 9 əyalətə bölünür. Dövlət başçısı Dövlət Şurasının Sədri, ali qanunverici orqanı Ali Xalq Məclisidir. Paytaxtı Pxenyan şəhəridir. – 105–106.

**57. Kim Çen In** (d.1982) – Şimali Koreyanın siyasi xadimi. 2011-ci ildən Koreya Əmək Partiyasının Birinci katibi, Koreya Xalq Demokratik Respublikası Dövlət Müdafiə Komitəsinin Birinci Sədri, Koreya Xalq Ordusunun Ali Baş Komandanı, 2016-cı ildən Koreya Xalq Demokratik Respublikası Dövlət Şurasının Sədridir. – 105, 106.

**58. Kuba,** K u b a  R e s p u b l i k a s ı – Amerikada, Vest-Hinddə dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 11 milyon nəfərdir. Ali orqanı birpalatalı Milli Assambleya, dövlətin və hökumətin başçısı

Dövlət Şurasının Sədridir. Paytaxtı Havana şəhəridir. – 107–112.

**59. Migel Diaz-Kanel** (d.1960) – Kubanın dövlət və siyasi xadimi. 2019-cu il oktyabrın 10-dan Kuba Respublikasının Prezidentidir. – 107–112.

**60. Raul Kastro Rus** (d.1931) – Kuba inqilabçısı və dövlət xadimi. 2008–2018-ci illərdə Kuba Respublikası Dövlət Şurasının və Nazirlər Şurasının Sədri və Kuba Silahlı Qüvvələrinin Baş Komandanı olmuşdur. – 109.

**61. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü 1 səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 111, 118, 119, 120, 292.

**62. Oman,** O m a n S u l t a n l ı ğ ı – Şərqi Ərəbistan yarımadasında dövlət. Sahəsi 309,5 min km$^2$, əhalisi 4,3 milyon nəfərdir. İnzibati ərazisi 7 vilayətə bölünür.

Dövlət başçısı Sultandır. Paytaxtı Məskət şəheridir. – 113.

**63. İslam Əməkdaşlıq Təşkilatı** (İƏT) – 1969–2011-ci illərdə İslam Konfransı Təşkilatı adlanırdı. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Əməkdaşlıq Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəlmişdir. İqamətgahı Ciddədə yerləşir. Azərbaycan 1991-ci ildən İƏT-in üzvüdür. – 118, 123, 292.

**64. Əfqanıstan,** Ə f q a n ı s t a n İ s l a m R e s -p u b l i k a s ı – Cənub-Qərbi Asiyada dövlət. Sahəsi 652,8 min km$^2$, əhalisi 31,6 milyon nəfərdir. İnzibati ərazisi 34 vilayətə bölünür. Dövlət başçısı Prezidentdir. Paytaxtı Kabil şəhəridir. – 114, 124, 146–148, 296, 300.

**65. Məhəmməd Qani,** Ə ş r ə f Q a n i (d.1949) – Əfqanıstanın siyasi xadimi. 2014-cü ildən Əfqanıstan İslam Respublikasının Prezidentidir. – 114, 146–148.

**66. Banqladeş,** Banqladeş Xalq Respublikası – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 169 milyon nəfərdir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkə şəhəridir. – 113, 144.

**67. Malayziya** – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 329,7 min km$^2$, əhalisi 31 milyon nəfərdir. Malayziya federasiyadır. Tərkibinə 13 ştat və federal ərazi – Kuala-Lumpur və Lavyan daxildir. Malayziya konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultanlığın ştat başçıları tərəfindən 5 il müddətinə seçilən Kraldır. Qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Kuala-Lumpur şəhəridir. – 113, 149–152.

**68. Əlcəzair,** Əlcəzair Xalq Demokratik Respublikası – Şimali Afrikada dövlət. Sahəsi 2,38 milyon km$^2$, əhalisi 40,4 milyon nəfərdir. İnzibati ərazisi 48 vilayətə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı birpalatalı Milli Xalq Məclisidir. Paytaxtı Əlcəzair şəhəridir. – 114, 124, 153–155.

**69. Liviya,** Liviya Dövləti – Şimali Afrikada dövlət. Sahəsi 1,76 milyon km$^2$, əhalisi 7,2 milyon nəfərdir. Qanunverici orqanı Ümumi Xalq Konqre-

sidir. Dövlət başçısı Prezident Şurasının Sədridir. Paytaxtı Tripoli şəhəridir. – 113, 159–160.

**70. Faiz Sarac** (d.1960) – Liviyanın siyasi və dövlət xadimi. 2016-cı ildən Liviyanın Baş Nazir və Prezident Şurasının Sədridir. – 113, 159–160.

**71. Belarus,** B e l a r u s R e s p u b l i k a s ı – Avropada dövlət. Sahəsi 207,6 min km$^2$, əhalisi 9,5 milyon nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 117 rayona bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Minsk şəhəridir. – 113.

**72. Pakistan,** P a k i s t a n İ s l a m R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 804 min km$^2$, əhalisi 207,8 milyon nəfərdir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı Prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı İslamabad şəhəridir. – 114, 124, 161–163.

**73. Arif Alvi** (d.1949) – Pakistanın siyasi və dövlət xadimi. 2018-ci ildən Pakistan İslam Respublikasının Prezidentidir. – 114, 124, 161–163.

**74. Türkmənistan** – Orta Asiyanın cənub-qərbində dövlət. Sahəsi 491,2 min km$^2$, əhalisi 5,8 milyon nəfərdir. İnzibati ərazisi 5 vilayətə bölünür. Dövlət baş-

çısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Aşqabad şəhəridir. – 114, 124, 129–131.

**75. Qurbanqulu Berdıməhəmmədov** (d.1957) – 2007-ci ildən Türkmənistanın Prezidentidir. – 114, 124, 129–131.

**76. NATO** (Şimali Atlantika Müqaviləsi Təşkilatı) – hərbi-siyasi ittifaq. 1949-cu il aprelin 4-də Vaşinqtonda ABŞ, Böyük Britaniya, Fransa, Belçika, Niderland, Lüksemburq, Kanada, İtaliya, Portuqaliya, Norveç, Danimarka, İslandiyanın imzaladıqları Şimali Atlantika müqaviləsi əsasında yaradılmışdır. 1952-ci ildə Yunanıstan və Türkiyə, 1955-ci ildə Almaniya Federativ Respublikası, 1982-ci ildə İspaniya NATO-ya qoşulmuşlar. Varşava Müqaviləsi Təşkilatı dağıldıqdan (1991) sonra əvvəllər sosialist ölkələri düşərgəsinə daxil olmuş ölkələrin bir qismi NATO-ya üzvlüyə qəbul edilmiş, digər qismi isə ilkin mərhələ kimi, NATO-nun «Sülh naminə tərəfdaşlıq» Proqramına qoşulmuşlar. Ali orqanı NATO Şurasının sessiyasıdır. Mənzil-qərargahı Brüsseldə yerləşir. – 120.

**77. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Avropa Şurasının əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi

qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın bütün üzv dövlətləri Avropa İnsan hüquqları, demokratiya və qanunun aliliyini qorumağı nəzərdə tutan müqaviləni – insan hüquqlarının müdafiəsi haqqında Konvensiyanı imzalamışdır. Üzv dövlətlərdə yerli və regional demokratiyanın gücləndirilməsindən məsul olan Yerli və Regional Hakimiyyətlər Konqresi AŞ-ın bir təsisatıdır. İki palata və 3 komitədən ibarətdir. AŞ-ın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 25 yanvar 2001-ci ildən Avropa Şurasının tamhüquqlu üzvüdür. Mənzil-qərargahı Strasburqda yerləşir. – 118, 123, 292.

**78. Antonio Quterreş** (d.1949) – Portuqaliyanın dövlət xadimi. 1995–2002-ci illərdə Portuqaliyanın Baş Naziri, 1999–2005-ci illərdə Sosialist İnternasionalının sədri, 2005–2015-ci illərdə BMT-də Qaçqınların İşi üzrə baş komissar olmuşdur. 2017-ci ildən BMT-nin Baş katibidir. – 123.

**79. Şamaxı Cümə məscidi** – 743–744-cü illərdə inşa edilmiş dini mərkəz. Cənubi Qafqazda Dərbənd Cümə məscidindən sonra ən qədim məsciddir. Orta əsrlərdə bərpa edilmiş məscid 1856-cı və 1902-ci illərdə Şamaxı zəlzələləri zamanı dağılmış, birinci dəfə Qasım bəy Hacıbababəyov, ikinci dəfə isə İosif Ploşko tərəfindən bərpa edilmişdir. 1918-ci ildə ermənilər tərəfindən tamamilə yandırılmışdır. 2010–2013-cü illərdə Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən, əsaslı surətdə təmir edilmişdir. Məscid Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tarixi mədəniyyət abidəsi kimi qeydiyyata alınmışdır. – 135, 284.

**80. Atəşgah** – Suraxanı qəsəbəsində atəşpərəstlərin məbədi. Beşguşəli daxili həyəti əhatə edən hücrələrdən və həyətin ortasında tikilmiş üstü günbəzlə örtülmüş dördbucaqlı «od məbədindən» ibarətdir. Atəşgahın əsası şübhəsiz ki, qədim zamanlarda qoyulmuşdur. Lakin indiki binanı XVIII əsrdə Hindistanın Multan vilayətindən gələn atəşpərəst tacir və zəvvarlar tikdirmişlər. Hücrələrin üzərindəki hind dilində yazılmış kitabələrdə 1713-cü ildə tikildiyi göstərilir. – 135, 283.

**81. UNESKO –** BMT-nin maarif, elm və mədəniyyət üzrə hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı 2 ildən bir çağırılan konfransdır. Katibliyi Parisdə yerləşir. Azərbaycan 1992-ci ildən UNESKO-nun üzvüdür. – 136, 237, 273.

**82. Kiş** – Azərbaycan Respublikasının Şəki rayonunda kənd. Kiş çayının sahilində dağ ətəyindədir. Əhalisi 7100 nəfərdir. Azərbaycanın qədim yaşayış məntəqələrindəndir. Erkən orta əsrlərdə Qafqaz Albaniyasında xristianlığın mərkəzlərindən biri olmuşdur. IV əsrdə burada xristian məbədi tikilmişdir. – 136.

**83. Qobustan qayaüstü rəsmləri** – Azərbaycanın şərqində alçaq dağlıq sahə, uzunluğu 100 km, eni 80 km-ə yaxındır. Qobustan yaxınlığında, Qobustan qoruğu ərazisində zəngin qayaüstü rəsmlərlə yanaşı, Daş dövründən başlamış orta əsrlərədək çoxlu ibtidai insan düşərgəsi, qədim yaşayış məskəni, kurqanlar və s. arxeoloji abidələr vardır. Onların 5-ində Mezolit, 4-ündə Neolit, 7-ində Tunc, 1-ində Antik və 5-ində orta əsrlər dövründə yaşayış olduğunu göstərən mədəni təbəqə və maddi qalıqlar aşkar edilmişdir. – 136.

**84. Qız qalası** – Bakı şəhərində tarixi-memarlıq abidəsi. Tədqiqatçıların çoxu tərəfindən müdafiə məqsədilə XII əsrdə tikildiyi qəbul olunmuşdur. Qalanın daş kitabəsində kufi xətti ilə Məsud Davud oğlunun («Qübbə Məsud bin Davud») adı həkk edilmişdir. Qız qalası memarlıq formasına görə Şərqdə yeganə abidədir. Abidənin hündürlüyü 32 m, diametri 16–16,5 m-dir. Divarlarının qalınlığı aşağıda 5 m, yuxarıda 4 m olan Qız qalası silindrik əsas hissədən və ona bitişik bütöv çıxıntıdan ibarət orijinal quruluşa malikdir. Silindrik hissə daxildə səkkizmərtəbəlidir. Bu mərtəbələrdə 250-dək adam yerləşə bilər. Abidənin Qız qalası adlanması haqqında xalq arasında müxtəlif əfsanələr mövcuddur. – 136.

**85. Şirvanşahlar sarayı –** Azərbaycan memarlıq kompleksi, Şirvan – Abşeron memarlıq məktəbinin görkəmli abidəsi. Bakının İçərişəhər hissəsindədir. Bakının XV əsrdə Şirvanşahlar dövlətinin paytaxtına çevrilməsilə əlaqədar tikilmişdir. 1420–60-cı illər arasında salınmış Şirvanşahlar sarayı ansamblının binaları yerin relyefinə uyğun olaraq inşa edilmişdir. Ərazisinin ən hündür yerində olan Yuxarı həyətdə saray binası və ona bitişik Divanxana, aşağı həyətdə türbə və minarəli Şah məscidi, yuxarı həyətin yaxınlığında Seyid Yəhya Cəlaləddin Bakuvinin

türbəsi və ona bitişik kiçik məscid yerləşir. Türbə olan həyətin giriş baştağı Şimal darvazası tikilmişdir. Şirvanşahlar sarayı ansamblının yaxınlığında hamam, «Şah kəhrizi»nin qurtaracağında 500 min litr su tutan ovdan qalmışdır. – 136.

**86. Şəki Xan sarayı**– XVII əsrin 60-cı illərinə aid Azərbaycan memarlıq abidəsi. XVII əsrdə Azərbaycanda tikilmiş saray tipli binaların ən qiymətlisi hesab olunur. Müxtəlif dövrlərdə yaşamış rəssamların işlədiyi təsvirlər «nəbati» ornament kompozisiyalarından, insan və quş rəsmlərindən, müharibə və ov səhnələrindən ibarətdir. –136.

**87. Qədim Alban məbədi** – Şəki rayonunun Kiş kəndi ərazisində yerləşir. Müxtəlif dövrlərdə Alban, gürcü kilsəsi kimi fəaliyyət göstərməsi haqqında bəzi fikirlər vardır. Kiş məbədinin tikilməsi haqqında da tədqiqatçıların bir-birinə zidd fikirləri mövcuddur. 2000–2001-ci illərdə aparılmış arxeoloji qazıntılarda iştirak etmiş norveçli arxeoloq, professor Bemar məbədin XI–XII əsrlərdə tikildiyini iddia edir. Kişdə arxeoloji tədqiqatlardan sonra belə qərara gəlinmişdir ki, Şəki bölgəsinin Kiş kəndi ərazisində yerləşən məbəd həqiqətən də Müqəddəs Yelisey tərəfindən tikilmiş, Şərq kilsələrinin anası və metropoliya olmuş, Kişdə hələ

xristianlıqdan öncə Qafqaz Albaniyasında Gis-Kürmük arxiyepiskopluğu, sonra isə Yelisey, Çiketi və Şəki yepiskoplarının mərkəzi yerləşmişdir. – 136.

**88. İmadəddin Nəsimi,** S e y i d Ə l i (1369–1417) – Azərbaycan şairi və mütəfəkkiri. İmadəddin Nəsimi adı ilə də məşhurdur. Əsərlərini Azərbaycan, ərəb və fars dillərində yazmışdır. Şairin əsərləri dəfələrlə çap edilmiş, haqqında tətqiqat əsərləri yazılmışdır. UNESKO-nun qərarı ilə Nəsiminin anadan olmasının 600 illiyi dünya miqyasında geniş qeyd edilmişdir. Azərbaycan Respublikasının Prezidentinin sərəncamına əsasən 2019-cu il «Nəsimi ili» elan edilib. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarı ilə İmadəddin Nəsimi Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən müəlliflərin siyahısına daxil edilmişdir. – 136.

**89. Nizami Gəncəvi,** İ l y a s Y u s i f o ğ l u (1141–1209) – dahi Azərbaycan şairi və mütəfəkkiri. Dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 epik poemadan ibarət «Xəmsə» müəllifi kimi daxil olmuşdur. Onun ilkin Şərq Renessansının zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi idealları parlaq

bədii əksini tapmış, Yaxın Şərq ədəbiyyatında mənzum roman janrının əsasını qoymuş, yeni ədəbi məktəb yaratmışdır. Nizami Gəncəvi həm də dövrünün görkəmli mütəfəkkiri olmuşdur. Onun bütün əsərlərində şəxsiyyət azadlığı, insanın mənəvi azadlığı tərənnüm olunur. – 137.

**90. Füzuli,** M ə h ə m m ə d S ü l e y m a n o ğ l u (1494–1556) – Azərbaycanın dahi şairi və mütəfəkkiri. Azərbaycan, fars və ərəb dillərində qəzəl, poema, qəsidə, müsəddəs, rübai, qitə və s. yazmışdır. Aşiqanə qəzəlləri ilə lirik şair kimi şöhrətlənmişdir. Yaradıcılığının zirvəsi olan «Leyli və Məcnun» poeması Azərbaycan, eləcə də Şərq və dünya poeziyasının nadir incilərindəndir. Kərbəlada dəfn edilmişdir. – 137.

**91. Şah İsmayıl Xətai** (1487–1524) – Azərbaycan Səfəvilər dövlətinin banisi, dövlət xadimi, sərkərdə və şair. 1501-ci ilin payızında Təbrizə daxil olan I Şah İsmayıl özünü şah elan etdi. Bununla da paytaxtı Təbriz olmaqla, Azərbaycan Səfəvilər dövlətinin əsası qoyuldu. I Şah İsmayılın dövründə Səfəvilər dövləti Yaxın Şərqin ən qüdrətli dövlətlərindən birinə çevrilmişdi.

I Şah İsmayıl «Xətai» təxəllüsü ilə Azərbaycan, fars və ərəb dillərində şeirlər yazmışdır. – 137.

**92. Ərdoğan Rəcəb Tayyib** (d.1954) – Türkiyənin siyasi və dövlət xadimi. 1980-ci ildən siyasi fəaliyyətə başlayıb. 1994-cü ilin martında İstanbul Böyük Şəhər Bələdiyyəsinin sədri olmuşdur, Ədalət və İnkişaf Partiyasının lideridir.

2002-ci ildə keçirilmiş növbədənkənar seçkilər nəticəsində Ədalət və İnkişaf Partiyası təkbaşına hakimiyyətə gəlmək imkanı əldə etdi və Rəcəb Tayyib Ərdoğan TBMM-də Türkiyənin Baş Naziri, 2014-cü ilin sentyabrında və 2018-ci ilin aprelində yenidən Türkiyə Cümhuriyyətinin Prezidenti seçilmişdir. Azərbaycan Respublikasının «Heydər Əliyev» ordeni ilə təltif edilmişdir. – 139–140, 308–309.

**93. Böyük Britaniya,** Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı – Qərbi Avropada dövlət. Böyük Britaniya adası, İrlandiya adasının şimal-şərq hissəsi, Anqlsi, Uayt, Normand, Orkney, Hebrid, Şetlend adaları və bir sıra kiçik adalardan ibarətdir. Sahəsi 244,1 min km$^2$, əhalisi 65,6 milyon nəfərdir. İnzibati cəhətdən qraflıqlara və qraflıq hüququnda olan şəhərlərə bölünür. Böyük Britaniya parlamentli monarxiyadır. Paytaxtı London şəhəridir. – 199–200.

**94. Baronessa Emma Nikolson** (d.1941) – Birləşmiş Krallığın ASPA-da nümayəndə heyətinin üzvü və Azərbaycan üzrə ticarət elçisidir. – 199–200.

**95. Rəşad Nəbiyev,** R ə ş a d N ə b i o ğ l u (d.1977) – iqtisadçı. 2004–2011-ci illərdə Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində şöbə müdiri işləmişdir. 2011-ci ildən «Azərkosmos» ASC-nin sədridir. – 201–207.

**96. İkinci dünya müharibəsi** (1939–1945) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanılmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibəyə başladı. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini tutdu. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla da İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 62 ölkə iştirak etmişdi. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 209–210.

**97. Almaniya,** Almaniya Federativ Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 83 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı Prezident, hökumət başçısı Federal Kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundesratdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 209, 233, 234, 295.

**98. Sergey Şoyqu** (d.1955) – Rusiyanın dövlət xadimi, ordu generalı. 1994–2012-ci illərdə Rusiya Federasiyası Mülki Müdafiə və Fövqəladə Hallar naziri olmuşdur. 2012-ci ildən Rusiya Federasiyasının Müdafiə naziridir. – 212–213.

**99. Avropa İttifaqı** (Aİ) – Avropa dövlətlərinin ən iri inteqrasiya birliyi. Avropa İttifaqına 28 dövlət daxildir.

Avropa İttifaqının yaradılması haqqında müqavilə 1993-cü ildə Maastrixtdə imzalanmışdır. Aİ azadlıq, demokratiya, insan hüquqları və azadlıqlarına hörmət, həmçinin hüququn aliliyi prinsiplərinə – üzv dövlətlər üçün ümumi olan prinsiplərə əsaslanır.

Aİ Avropada iqtisadi inteqrasiyanın daha da inkişaf etmiş formasıdır. İqtisadi və valyuta ittifaqı 1999-cu ildən fəaliyyətə başlamış və vahid valyuta – avro dövriyyəyə buraxılmışdır. Aİ üzvləri yalnız Avropa dövlətləri ola bilər. Avropa İttifaqı ilə əməkdaşlıq Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindəndir. Təşkilatın mənzil-qərargahı Brüsseldə yerləşir. – 214.

**100. Eldar Əzizov,** E l d a r Ə z i z o ğ l u (d.1957) – tarixçi. 2000–2003-cü illərdə Bakı şəhər Nizami Rayon İcra Hakimiyyətinin, 2003–2011-ci illərdə Gəncə Şəhər İcra Hakimiyyətinin, 2011–2015-ci illərdə Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı, 2015–2018-ci illərdə Bakı şəhər Səbail Rayon İcra Hakimiyyətinin başçısı olmuşdur. 2018-ci il noyabrın 15-dən isə Bakı Şəhər İcra Hakimiyyətinin başçısıdır. – 229–238.

**101. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti UNESKO və İSESKO-nun Xoşməramlı səfiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni nümayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası və digər qurumlar fəaliyyət göstərir. – 231, 232, 243–247.

**102. Leyla Əliyeva,** L e y l a İ l h a m q ı z ı (d.1986) – «Baku» jurnalının baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük qızı. 2006–2008-ci illərdə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistra-

turasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Moskvada Heydər Əliyev Fondunun filialına başçılıq edir. Azərbaycan Respublikasının «Tərəqqi» medalı ilə təltif edilmişdir. – 232, 246, 283.

**103. İçərişəhər –** Bakının qala divarları ilə əhatə olunmuş qədim hissəsi. Sahəsi 22 hektardır. Arxeoloji qazıntılar nəticəsində İçərişəhər ərazisində 2 mədəni təbəqə müəyyənləşdirilmişdir. XIV–XVII əsrləri əhatə edən üst təbəqədən düzbucaqlı və dördkünc yaşayış evlərinin qalıqları, VIII–XIII əsrlərə aid alt təbəqədən düzbucaqlı formalı kiçik otaqların qalıqları, quyular və s. maddi mədəniyyət nümunələri aşkar edilmişdir.

İçərişəhər orta əsrlərdə Bakının əsas mərkəzinə çevrilmiş, XII əsrdə burada ilk qala divarları tikilmişdir. Bu divarlar 25–30 m dənizin içərisinə uzanaraq, İçərişəhərin qarşısında qapalı liman əmələ gətirmişdir. İçərişəhərin 3 əsas – Şamaxı, Salyan və dəniz sahilinə açılan darvazası olmuşdur. İçərişəhərdəki Sınıqqala (1078), Qız qalası və s. abidələr İçərişəhərin əvvəllər dənizə yaxın sahədə inkişaf etdiyini göstərir. XV əsrdə Şirvanşahlar sarayı tikilmişdir. XVII əsrdə İçərişəhərdə çoxlu karvansara və ticarət binası inşa edilmiş, XVIII əsrdə isə Xan sarayı tikilmiş, yeni su kəmərləri çəkilmişdir. XIX əsrdə və XX əsrin əvvəllərində İçərişəhərin plan quruluşu

dəyişdirilmədən köhnə binaların yerində əsaslı daş binalar tikilmişdir. Bu zaman qala divarlarının ikinci sırası sökülmüş və yalnız Şamaxı darvazasının yanında 2-ci darvaza tikilmişdir. Beləliklə, qoşa darvaza əmələ gəlmişdir. 1977-ci ildə İçərişəhər Azərbaycan memarlığı tarixi qoruğuna çevrilmişdir. – 237.

**104. Kamboca,** K a m b o c a K r a l l ı ğ ı – Cənub-Şərqi Asiyada dövlət. Sahəsi 181 min km$^2$, əhalisi 16,5 milyon nəfərdir. Ərazisi 19 əyalətə (kxetə) bölünür. Dövlət başçısı Kral, qanunverici orqanı birpalatalı Milli Məclisdir. Paytaxtı Pnompen şəhəridir. – 242.

**105. Norodom Sihamoni** (d.1953) – 2004-cü ildən Kamboca Kralıdır. – 242.

**106. Bakı–Tbilisi–Ərzurum** – «Cənubi Qafqaz» qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Türkiyə ərazisindən keçir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 251.

**107. TANAP –** Trans – Anadolu qaz boru kəməri. Kəmər 2018-ci ildə istifadəyə verilmişdir. Kəmərin uzunluğu 2000 km-dir. Borudan ildə təxminən 16 milyard m$^3$ qaz ötürüləcək. Qaz Türkiyə – Bolqarıstan və

Türkiyə –Yunanıstan sərhədindən Avropa ölkələrinə nəql ediləcəkdir. – 251.

**108. Cavid Qurbanov,** C a v i d Q ə n b ə r o ğ l u (d.1958) – mühəndis, texniki elmlər üzrə fəlsəfə doktoru. 2007-ci ildən «Azəryolservis» Açıq Səhmdar Cəmiyyətinin, 2015-ci ildən «Azərbaycan Dəmir Yolları» Qapalı Səhmdar Cəmiyyətinin sədri, 2005-ci ildən isə Azərbaycan Respublikası Milli Məclisinin üzvüdür. Azərbaycan Voleybol Federasiyasının prezidentidir.

Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 261–271.

**109. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər, Naxçıvan Muxtar Respublikasının paytaxtı. Sahəsi 26 km$^2$, əhalisi 92,1 min nəfərdir. Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan Antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir. E.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal etmişlər. Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər müxtəlif dövlətlərin nüfuz dairəsində olmuş, məhz bu ildən Rusiya imperiyasına birləşdirilmiş və qəza mərkəzinə çevrilmişdir.

1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtıdır. – 266.

**110. Şeyxülislam Hacı Allahşükür Paşazadə,** Allahşükür Hümmət oğlu (d.1949) – 1980-ci ildən Qafqaz Müsəlmanları Ruhani İdarəsinin, 1990-cı ildən Qafqaz Xalqları Ali Dini Şurasının sədridir. Azərbaycan Respublikasının «Şöhrət», «Şərəf», «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 283–325.

**111. Patriarx Kirill** (d.1946) – Rusiyanın din xadimi. 2009-cu ildən Moskva və bütün Rusiyanın patriarxıdır. – 283, 285, 294, 300–305.

**112. Fransisk** (d.1936) – 266-cı Roma Papası, indiki Vatikan hökmdarı. Cənubi amerikalı və Yezuit ordenindən ilk Papa. 2013-cü ildə Roma Papası seçildikdən sonra Fransisk adını qəbul etmişdir. – 285.

**113. Avropa Parlamenti** – Avropa İttifaqının (Aİ) fövqəlmilli institutlarından biri. 1957-ci ildə Avropa iqtisadi inteqrasiya təşkilatları çərçivəsində yaradılmışdır. Seçmək və seçilmək hüququndan Aİ vətəndaşları istifadə edir. Deputat mandatlarının ümumi sayı (2007) 785-dir. Plenar iclasları Strasburqda, komissiyaların işi Brüsseldə keçirilir. Avropa Parlamentinin

bütün çağırışlarında başlıca mövqe Avropa Xalq Partiyasına və Avropa Sosialist Partiyasına məxsusdur. Avropa Parlamenti məcburi xarakter daşımayan qərar verir. Avropa Parlamenti beynəlxalq problemlərin müzakirəsi zamanı öz səlahiyyətlərindən geniş istifadə edir, qəbul olunan qətnamələr məcburi qüvvəyə malik deyildir. Avroparlament Azərbaycan Respublikasının Milli Məclisi ilə əməkdaşlıq edir. – 292.

**114. Özbəkistan,** Özbəkistan Respublikası – Orta Asiyanın mərkəzində dövlət. Sahəsi 447,4 min km$^2$, əhalisi 33 milyon nəfərdir. Özbəkistanın tərkibinə Qarakalpak Muxtar Respublikası və 12 vilayət daxildir. Dövlətin başçısı Prezident, qanunverici orqanı Məclisdir. Paytaxtı Daşkənd şəhəridir. – 263, 310–315.

**115. Valentina Matviyenko** (d.1949) – Rusiyanın dövlət xadimi. 2003–2011-ci illərdə Sankt-Peterburq şəhərinin meri, 2011-ci ildən Rusiya Federasiyası Federal Şurasının, 2013-cü ildən isə MDB Parlamentlərarası Assambleya Şurasının Sədridir. – 274.

**116. Gürcüstan** – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 3,7 milyon nəfərdir. Dövlət başçısı Prezident, qanunverici

orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 214, 262, 316–317.

**117. Şavkat Mirziyoyev** (d.1957) – Özbəkistanın siyasi və dövlət xadimi. 2016-cı ildən Özbəkistan Respublikasının Prezidentidir. – 315.

**118. Salome Zurabişvili** (d.1952) – Fransa və Gürcüstanın siyasi xadimi. 2004–2005-ci illərdə Gürcüstanın Xarici İşlər naziri olmuşdur. 2018-ci ildən Gürcüstanın Prezidentidir. – 316–317.

## Şəxsi adlar göstəricisi

**Abbasov İlqar** – 248–257
**Abdullayev Səbuhi** – 169
**Abe Şinzo** – 33
**Abutalıbov Hacıbala** – 53–57
**Ader Yanoş** – 58
**Alvi Arif** – 114, 124, 161–163
**Amar Şlomo** – 321–322
**Babayev Sahil** – 13, 15, 22–24
**Bensalah Abdelkader** – 153–155
**Berdıməhəmmədov Qurbanqulu**– 114, 124, 129–131
**Cabbarov Mikayıl** – 15, 68–76
**Camalov Mərdan** – 248–257
**Çoe Ryonq Hae** – 105–106
**Dodik Milorod** – 156–158
**Diaz-Kanel Mige** – 107–112
**Dikarlo Rozmarin** – 141–143
**Danq Thi Nqok** – 98–101
**Erbaş Ali** – 308–309
**Əl-Burhan Abdul Fəttah**– 164–165
**Əl-Mansur Sultan bin Səid**– 258–260
**Əl-Nəhəyyan bin Zaid** – 79, 80, 259, 260

**Əl-Şərif Mahmud** – 278–280
**Ələkbərov Anar** – 243
**Əliyev Heydər** – 49, 50, 51, 53, 54, 56, 82, 84, 85, 86, 87, 109, 120, 169, 182, 209, 239, 287, 288, 295, 296
**Əliyeva Leyla** – 232, 246, 283
**Əliyeva Mehriban** – 15, 52, 134, 243–247, 275, 283, 294, 295, 300
**Əlizadə Akif** – 89–94
**Əmirov Natiq** – 15
**Ərdoğan Rəcəb Tayyib** – 139–140, 308–309
**Əsədov Əli** – 12, 15
**Əzizov Eldar** – 229–238
**Əzizov Əziz** – 248–257
**VI Felipe** – 31
**Fernandes Alberto** – 241
**Fransisk** *(Roma Papası*) – 285
**Füzuli Məhəmməd** – 137
**Gəncəvi Nizami** – 137
**Həsənov Əli** – 49–52
**Həsənov Elşad** – 248–257
**Xanbabayev Əjdər** – 54
**Xanbabayev Şəmsəddin** – 215
**Xətai Şah İsmayıl** – 137
**İbrahimov Tofiq** – 182

**İsmayılova Gülcənnət** – 188
**Kadırov Ramzan** – 317–319
**Kasimov Rüstəm** – 310–315
**Kastro Raul** – 110
**Kastro Fidel** – 109
**Kim Çen In** – 105, 106
**Klaar Tovia** – 214
**Kirill** *(Moskvanın və bütün Rusiyanın patriarxı)*– 283, 285, 294, 300–305
**Qani Məhəmməd** – 114, 146–148
**Qelle İsmail** – 133
**Qarqaş Ənvər** – 79–80
**Qurbanov Cavid** – 261–271
**Qurbanov Məhəmməd** – 272, 275
**Quliyev Rafiq** – 248–257
**Quterreş Antonio** – 123
**Maduro Nikolas** – 132
**Matviyenko Valentina** – 274
**Mehdiyev Ramiz** – 81–88
**Melikov Sergey** – 272–275
**Məmmədov Saleh** – 35–40, 224–228
**Məmmədyarov Elmar** – 124
**Məhəməd Mahathir** – 149–152
**Mirzizoyev Şavkat** – 315
**Mövsümov Şahmar** – 15

**III Msvati** – 145
**Mun hi-Sanq** – 27–30
**Mustafayev Şahin** – 15, 18, 19, 20, 60–66
**Nəbiyev Rəşad** – 201–207
**Nəsimi İmadəddin** – 136
**Nikolson Emma** – 199–200
**Nqguyen Fu Çonq** – 100
**Paşazadə Allahşükür** – 283–325
**Pataridze Zurab** – 316–317
**Popov İqor** – 34
**Putin Vladimir** – 59, 273, 306
**Ruhani Həsən** – 67, 68, 95–97, 124, 276
**Rüstəmov Elman** – 15
**Rzayev Elnur** – 215–223
**Rzayev Rövşən** – 41–46
**Sarac Faiz** – 113, 159–160
**Shamoni Norodom** – 242
**Süleymanlı Aydın** – 32
**Şərifov Samir** – 15, 16–17
**Şıxsəidov Xızrı** – 272–275
**Şofer Endrü** – 34
**Soyqu Sergey** – 212–213
**Tağıyev Anar** – 215–223
**Ter-Arutunyan** – 211
**Temrezov Rəşid** – 322–323
**Türkman Abuzər** – 276–277, 309–310

**Umaxanov İlyas** – 272–275, 305–310
**Vazed Hasina** – 113, 144
**Veyonis Raymonds** – 47–48
**Viskonki Stefan** – 34
**Zeman Miloş** – 67
**Zərif Məhəmməd** – 77–78
**Zurabişvili Salome** – 316–317

## Coğrafi adlar göstəricisi


**Afrika** – 304
**Ağdaş** – 176, 182–198
**Ağsu** – 176
**Almaniya** – 209, 233, 234, 295
**Amerika Birləşmiş Ştatları** – 34, 120, 201, 281–282
**Argentina** – 241
**Asiya** – 122, 262
**Astara** – 265, 269
**Aşqabad** – 129–209
**Avropa** – 8, 122, 262
**Avstriya** – 295
**Balaxanı** – 229
**Banqladeş** – 113, 144
**Belarus** – 113
**Biləcəri** – 266
**Binə** – 228
**Birləşmiş Ərəb Əmirlikləri** – 48, 79–80, 156–158, 258–260
**Bosniya və Herseqovina** – 114, 156–158
**Böyük Britaniya** – 199–200
**Braziliya** – 200

**Böyükşor gölü** – 230
**Cənubi Qafqaz** – 62, 214
**Cənubi Saxara** – 304
**Cibuti** – 114, 133
**Çeçenistan** – 317–319
**Çex Respublikası** – 67
**Çin** – 48
**Dağıstan** – 272
**Dağlıq Qarabağ** – 34, 118, 126, 135, 147, 190, 214, 290
**Dehli** – 202
**Dərbənd** – 285
**Əfqanıstan** – 114, 124, 146–148, 296, 300
**Əlcəzair** – 114, 124, 153–155
**Ələt** – 265
**Esvatin** – 145
**Fələstin** – 296
**Fransa** – 34, 301
**Gəncə** – 268
**Göyçay** – 276
**Gürcüstan** – 214, 262, 316–317
**Hindistan** – 114, 201
**Xaçmaz** – 215–223
**Xəzər dənizi** – 131, 239
**Xınalıq** – 37

**Xırdalan** – 266
**Xocalı** – 118
**İraq** – 296, 300
**İran** – 77–78, 95–97, 124, 262, 276–277
**İspaniya** – 31, 295
**Kiş** – 136
**Kamboca** – 242
**Koreya Xalq Demokratik Respublikası** – 105–106
**Koreya Respublikası** – 27–30
**Kuba** – 107–112
**Kürdəxanı** – 40
**Qafqaz** – 136, 285
**Qax** – 176
**Qəbələ** – 169–181, 264
**Qonaq kənd** – 37
**Qvineya** – 114
**Quba** – 216
**Qusar** – 216
**Latviya** – 47–48
**Ləki** – 265
**Lənkəran** – 270
**Liviya** – 113, 159–160
**Macarıstan** – 29, 58
**Malayziya** – 113, 149–152

**Məhəmmədi** – 266
**Mərdəkan** – 228
**Misir** – 278–280, 309–310
**Moskva** – 54, 275
**Nabran** – 216
**Naxçıvan** – 216
**Nepal** – 113
**Nigeriya** – 304
**Novxanı** – 266
**Oman** – 113
**Orta Asiya** – 263
**Özbəkistan** – 263, 310–315
**Pakistan** – 114, 124, 161–163
**Polşa** – 48

**Rusiya** – 34, 38, 59, 120, 212–213, 262, 272–275, 300–308, 317–319
**Rio de Janeyzo** – 202
**Sankt-Peterburq** – 274
**Sinqapur** – 205
**Sumqayıt** – 266
**Sudan** – 114, 164–165
**Suriya** – 213, 296, 300
**Suraxanı** – 55
**Şamaxı** – 136

**Şəki** – 136
**Şüvəlan** – 228
**Tacikistan** – 263
**Türkiyə** – 29, 139–140, 262, 308–309
**Türkmənistan** – 114, 124, 129–131
**Ukrayna** – 48
**Venesuela** – 114, 132
**Vəndam** – 169
**Vaşinqton** – 201
**Vyetnam** – 98–101
**Yaxın Şərq** – 136, 304
**Yaponiya** – 33
**Yeni Zelandiya** – 300
**Yevlax** – 215–223
**Zabrat** – 228

# MÜNDƏRİCAT

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİ YANINDA İQTİSADİ MÜŞAVİRƏDƏ İŞTİRAK

*15 oktyabr 2019-cu il* .......................................................................*5*

KOREYA RESPUBLİKASI MİLLİ ASSAMBLEYASININ SƏDRİ MUN Hİ-SANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*16 oktyabr 2019-cu il* .......................................................................*27*

İSPANİYA KRALI ƏLAHƏZRƏT VI FELİPEYƏ

*16 oktyabr 2019-cu il*.......................................................................*31*

ŞAHMATÇI AYDIN SÜLEYMANLIYA

*16 oktyabr 2019-cu il*.......................................................................*32*

YAPONİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ CƏNAB ŞİNZO ABEYƏ

*16 oktyabr 2019-cu il*.......................................................................*33*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*17 oktyabr 2019-cu il*.......................................................................*34*

AZƏRBAYCAN AVTOMOBİL YOLLARI DÖVLƏT AGENTLİYİ İDARƏ HEYƏTİNİN SƏDRİ SALEH MƏMMƏDOV İLƏ GÖRÜŞ

*17 oktyabr 2019-cu il*.......................................................................*35*

QAÇQINLARIN VƏ MƏCBURİ KÖÇKÜNLƏRİN İŞLƏRİ ÜZRƏ DÖVLƏT KOMİTƏSİNİN SƏDRİ RÖVŞƏN RZAYEV İLƏ GÖRÜŞ

*18 oktyabr 2019-cu il ........................................................................41*

LATVİYA RESPUBLİKASININ SABİQ PREZİDENTİ RAYMONDS VEYONİS İLƏ GÖRÜŞ

*18 oktyabr 2019-cu il ........................................................................47*

VƏZİFƏSİNDƏN AZAD OLUNMASI ÜÇÜN VERDİYİ ƏRİZƏ İLƏ BAĞLI BAŞ NAZİRİN MÜAVİNİ ƏLİ HƏSƏNOV İLƏ GÖRÜŞ

*21 oktyabr 2019-cu il ........................................................................49*

VƏZİFƏSİNDƏN AZAD OLUNMASI ÜÇÜN VERDİYİ ƏRİZƏ İLƏ BAĞLI BAŞ NAZİRİN MÜAVİNİ HACIBALA ABUTALIBOV İLƏ GÖRÜŞ

*21 oktyabr 2019-cu il ........................................................................53*

MACARISTAN PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB YANOŞ ADERƏ

*21 oktyabr 2019-cu il.........................................................................58*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

22 *oktyabr 2019-cu il.........................................................................59*

BAŞ NAZİRİN MÜAVİNİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ ŞAHİN MUSTAFAYEV İLƏ GÖRÜŞ

*22 oktyabr 2019-cu il ........................................................................60*

ÇEX RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MİLOŞ ZEMANA

*23 oktyabr 2019-cu il..........................................................................67*

İQTİSADİYYAT NAZİRİ VƏZİFƏSİNƏ YENİ TƏYİN OLUNMUŞ MİKAYIL CABBAROV İLƏ GÖRÜŞ

*23 oktyabr 2019-cu il .........................................................................68*

İRAN İSLAM RESPUBLİKASININ XARİCİ İŞLƏR NAZİRİ CAVAD ZƏRİFİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 oktyabr 2019-cu il .........................................................................77*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN XARİCİ İŞLƏR ÜZRƏ DÖVLƏT NAZİRİ ƏNVƏR QARQAŞIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 oktyabr 2019-cu il .........................................................................79*

AKADEMİK RAMİZ MEHDİYEV İLƏ GÖRÜŞ

*23 oktyabr 2019-cu il .........................................................................81*

AKADEMİK AKİF ƏLİZADƏ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il .........................................................................89*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ HƏSƏN RUHANİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il .........................................................................95*

VYETNAM SOSİALİST RESPUBLİKASININ VİTSE-PREZİDENTİ DANQ THİ NQOK THİNHİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il* ..........................................................................*98*

OMAN SULTANLIĞI DÖVLƏT ŞURASININ SƏDRİ YAHYA BİN MƏHFUZ ƏL-MUNZİRİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il* ..........................................................................*102*

KOREYA XALQ DEMOKRATİK RESPUBLİKASI ALİ XALQ MƏCLİSİNİN RƏYASƏT HEYƏTİ SƏDRİ ÇOE RYONQ HAENİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il* ..........................................................................*105*

KUBA RESPUBLİKASININ PREZİDENTİ MİGEL DİAZ-KANEL İLƏ GÖRÜŞ

*24 oktyabr 2019-cu il* ..........................................................................*107*

«QOŞULMAMA HƏRƏKATI»NA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ XVIII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK

*25 oktyabr 2019-cu il* ..........................................................................*113*

«QOŞULMAMA HƏRƏKATI»NA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ XVIII ZİRVƏ GÖRÜŞÜNÜN DEBATLARLA DAVAMINDA İŞTİRAK

*25 oktyabr 2019-cu il* ..........................................................................*127*

TÜRKMƏNİSTAN PREZİDENTİ QURBANQULU BERDIMƏHƏMMƏDOV İLƏ GÖRÜŞ

*25 oktyabr 2019-cu il* ..........................................................................*129*

VENESUELA BOLİVAR RESPUBLİKASININ PREZİDENTİ NİKOLAS MADURO İLƏ GÖRÜŞ

*25 oktyabr 2019-cu il ......................................................................132*

CİBUTİ RESPUBLİKASININ PREZİDENTİ İSMAİL ÖMƏR QELLE İLƏ GÖRÜŞ

*25 oktyabr 2019-cu il ......................................................................133*

«QOŞULMAMA HƏRƏKATI»NA ÜZV ÖLKƏLƏRİN DÖVLƏT VƏ HÖKUMƏT BAŞÇILARININ XVIII ZİRVƏ GÖRÜŞÜNDƏ İŞTİRAK EDƏN NÜMAYƏNDƏLƏRİN ŞƏRƏFİNƏ VERİLMİŞ RƏSMİ ZİYAFƏTDƏ İŞTİRAK

*25 oktyabr 2019-cu il ......................................................................134*

TÜRKİYƏ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB RƏCƏB TAYYİB ƏRDOĞANA

*25 oktyabr 2019-cu il......................................................................139*

BMT BAŞ KATİBİNİN SİYASİ VƏ SÜLH QURUCULUĞU MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ XANIM ROZMARİN DİKARLO İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ......................................................................141*

BANQLADEŞ XALQ RESPUBLİKASININ BAŞ NAZİRİ ŞEYX HASİNA VAZED İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ......................................................................144*

ESVATİNİ KRALI ƏLAHƏZRƏT III MSVATİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ......................................................................145*

ƏFQANISTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ MƏHƏMMƏD ƏŞRƏF QANİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ........................................................................146*

MALAYZİYANIN BAŞ NAZİRİ MAHATHİR BİN MƏHƏMMƏD İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il..........................................................................149*

ƏLCƏZAİR XALQ DEMOKRATİK RESPUBLİKASININ PREZİDENTİ ABDELKADER BENSALAH İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ........................................................................153*

BOSNİYA VƏ HERSEQOVİNARƏYASƏT HEYƏTİNİN SƏDRİ MİLORAD DODİK İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ........................................................................156*

LİVİYA DÖVLƏTİNİN BAŞ NAZİRİ FAİZ SARAC İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ........................................................................159*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ARİF ALVİ İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ........................................................................161*

SUDAN RESPUBLİKASI SUVEREN ŞURASININ SƏDRİ ABDEL FATTAH ƏL-BURHAN İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ........................................................................164*

BMT BAŞ ASSAMBLEYASININ PREZİDENTİ TİCANİ MƏHƏMMƏD-BANDE İLƏ GÖRÜŞ

*26 oktyabr 2019-cu il ........................................................................166*

QƏBƏLƏ RAYONUNA SƏFƏR

*28 oktyabr 2019-cu il ..........................................................................169*

AĞDAŞ RAYONUNA SƏFƏR

*28 oktyabr 2019-cu il ..........................................................................182*

İÇMƏLİ SU TƏCHİZATI VƏ KANALİZASİYA
SİSTEMLƏRİNİN İSTİSMARA VERİLMƏSİ
MƏRASİMİNDƏ AĞDAŞ ŞƏHƏR İCTİMAİYYƏTİNİN
NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*28 oktyabr 2019-cu il...........................................................................185*

BÖYÜK BRİTANİYA BAŞ NAZİRİNİN AZƏRBAY-
CAN ÜZRƏ TİCARƏT ELÇİSİ BARONESSA EMMA
NİKOLSON İLƏ GÖRÜŞ

*29 oktyabr 2019-cu il...........................................................................199*

«AZƏRKOSMOS» AÇIQ SƏHMDAR CƏMİYYƏTİNİN
SƏDRİ RƏŞAD NƏBİYEV İLƏ GÖRÜŞ

*29 oktyabr 2019-cu il...........................................................................201*

MDB MÜDAFİƏ NAZİRLƏRİ ŞURASININ İCLASININ
İŞTİRAÇILARI İLƏ GÖRÜŞ

*30 oktyabr 2019-cu il ..........................................................................208*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ
VƏ GÜRCÜSTAN BÖHRANI ÜZRƏ XÜSUSİ
NÜMAYƏNDƏSİ TOİVO KLAARIN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*31 oktyabr 2019-cu il ..........................................................................214*

YEVLAX ŞƏHƏRİNİN VƏ XAÇMAZ RAYONUNUN YENİ TƏYİN OLUNMUŞ İCRA HAKİMİYYƏTİNİN BAŞÇILARI ANAR TAĞIYEV VƏ ELNUR RZAYEV İLƏ GÖRÜŞ

*31 oktyabr 2019-cu il ......................................................................215*

YASAMAL RAYONUNDA ŞƏFAYƏT MEHDİYEV KÜÇƏSİNİN TBİLİSİ PROSPEKTİNDƏN LANDAU KÜÇƏSİNƏDƏK OLAN HİSSƏSİNDƏ YENİDƏN QURULMADAN SONRA YARADILMIŞ ŞƏRAİTLƏ TANIŞLIQ

*31 oktyabr 2019-cu il .............................................................................. 224*

BAKI ŞƏHƏR İCRA HAKİMİYYƏTİNİN BAŞÇISI ELDAR ƏZİZOV İLƏ GÖRÜŞ

*4 noyabr 2019-cu il ................................................................................. 229*

«NEFT DAŞLARI»NIN 70 İLLİYİ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN NEFTÇİLƏRİNƏ TƏBRİK

*6 noyabr 2019-cu il.................................................................................. 239*

ARGENTİNA RESPUBLİKASININ YENİ SEÇİLMİŞ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ALBERTO FERNANDESƏ

*7 noyabr 2019-cu il.........................................................................241*

KAMBOCA KRALI ƏLAHƏZRƏT NORODOM SİHAMONİYƏ

*8 noyabr 2019-cu il.........................................................................242*

HEYDƏR ƏLİYEV FONDU TƏRƏFİNDƏN BAKININ XƏTAİ RAYONUNDA SALINAN YENİ «GƏNCLİK» PARKINDA «TƏBİƏT NAMİNƏ BİRLƏŞ, HƏYAT

NAMİNƏ BİRLƏŞ!» LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ AĞAC ƏKMƏ AKSİYASINDA İŞTİRAK

*11 noyabr 2019-cu il ........................................................................243*

BİR NEÇƏ RAYONUN YENİ TƏYİN OLUNMUŞ İCRA HAİMİYYƏTİ BAŞÇILARI İLƏ GÖRÜŞ

*12 noyabr 2019-cu il ........................................................................248*

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN İQTİSADİYYAT NAZİRİ SULTAN BİN SƏİD ƏL-MANSURİNİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*12 noyabr 2019-cu il ........................................................................258*

«AZƏRBAYCAN DƏMİR YOLLARI» QAPALI SƏHMDAR CƏMİYYƏTİNİN SƏDRİ CAVİD QURBANOV İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il ........................................................................ 261*

RUSİYA FEDERASİYASI FEDERASİYA ŞURASININ SƏDR MÜAVİNİ İLYAS UMAXANOV, FEDERASİYA ŞURASININ KOMİTƏ SƏDRİ SERGEY MELİKOV, DAĞISTAN XALQ MƏCLİSİNİN SƏDRİ XIZRI ŞIXSƏİDOV VƏ SƏDR MÜAVİNİ MƏHƏMMƏD QURBANOV İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il ........................................................................272*

İRAN İSLAM RESPUBLİKASI MƏDƏNİYYƏT VƏ İSLAMİ ƏLAQƏLƏR TƏŞKİLATININ SƏDRİ ABUZƏR İBRAHİMİ TÜRKMANIN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il ........................................................................276*

MİSİR ƏRƏB RESPUBLİKASININ NÜMAYƏNDƏLƏR PALATASI SƏDRİNİN BİRİNCİ MÜAVİNİ ƏL-SEYYİD MAHMUD ƏL-ŞƏRİFİN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il ........................................................................278*

AMERİKA YƏHUDİ TƏŞKİLATLARININ PREZİDENTLƏRİ KONFRANSININ İCRAÇI SƏDR MÜAVİNİ MALKOLM HONLAYN İLƏ GÖRÜŞ

*13 noyabr 2019-cu il ........................................................................281*

DÜNYA DİNİ LİDERLƏRİNİN II SAMMİTİNDƏ İŞTİRAK

*13 noyabr 2019-cu il ........................................................................283*

QEYDLƏR ........................................................................................326

*Şəxsi adlar göstəricisi........................................................................ 367*

*Coğrafi adlar göstəricisi ...................................................................... 371*

**Texniki redaktor** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AZƏRTAC-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84×108 1/32. Ofset kağızı № 1
Şərti çap vərəqi 24,5. Uçot nəşr vərəqi 25,0. Tirajı 5000
Müqavilə qiymətі ilə.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı
Bakı – Mehdi Hüseyn küç. 55, dalan 2, ev 3.

«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.